**SAYALI SADIQOVA**

# İZAHLI YENİ TERMİNLƏR LÜĞƏTİ

*III cild*

**Bakı – "Elm" – 2022**

*Lüğət Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Terminologiya Komissiyasının və AMEA Nəsimi adına Dilçilik İnstitutunun Elmi Şurasının qərarı ilə nəşr olunur.*

Redaktor: *akademik* **Möhsün Nağısoylu**

Elmi redaktor: *professor* **Mahirə Nağıyeva**

Rəyçilər: *professor* **Qəzənfər Kazımov**
*professor* **Mirvari İsmayılova**

**Sadıqova Sayalı. İzahlı yeni terminlər lüğəti.**
Bakı: "Elm" nəşriyyatı, 2022, – 224 səh.

ISBN

Lüğətdə elm və texnikanın müxtəlif sahələrində işlənən 2000 yeni termin toplanmış və onların izahı verilmişdir. Lüğətdən müxtəlif sahə mütəxəssisləri, doktorantlar və elmi işçilər istifadə edə bilər.

© "Elm" nəşriyyatı, 2022

# ÖN SÖZ

Müasir dövrdə elm sahələrinin inkişafı ilə bağlı tədqiqatların müxtəlif aspektlərdən aparılması, ayrı-ayrı elmlər arasında qarşılıqlı əlaqələrin və qarşılıqlı təsirlərin güclənməsi terminologiyanın müəyyən mənbələr hesabına zənginləşməsi tendensiyasını gücləndirir. Maşın tərcüməsi, avtomatik axtarış sistemləri, ekspert sistemlərinin hazırlanması ilə bağlı tədqiq edilən məsələlər terminlər sisteminə yanaşmada yeni istiqamətlərin formalaşdırılması zərurətini yaradır. Belə ki, əgər əvvəllər elmlərin diferensiasiyası nəticəsində yeni sahələr yaranırdısa, hazırda elmlərin inteqrasiyası müasir elmi istiqamətlərin açılmasına və həmin istiqamətlərin sonradan müstəqil elm kimi inkişafına səbəb olur. Cəmiyyət üzvləri arasında ünsiyyətin həyata keçirilməsində əsas vasitə kimi çıxış edən dil, bu cəmiyyətin müxtəlif sosial sferalarına məxsus anlayışları əhatə edir. Sosial quruluşun dillə əlaqəsi sosial təbəqələr və onları birləşdirən bütün elementlərlə vəhdət yaradır və dövrün tələbi kimi meydana çıxan ayrı-ayrı sahələr üzrə bilikləri mənimsəmək zərurəti yeni terminlərin yaranmasını şərtləndirir. Termin elmi biliklər çərçivəsində bütün informasiya məkanını təşkil edən və formalaşdıran predmet-anlayış, eləcə də assosiativ-mədəni əlaqələrin budaqlanmış sistemini yaradır. Terminə funksional yanaşma, onun xüsusi adlandırma və definitiv təbiətini üzə çıxarır. Terminləri digər söz qruplarından fərqləndirən əsas xüsusiyyətlərdən biri də onların elmi konsepsiyası ilə bağlı olmasıdır. Bu daha çox müxtəlif ekstralinqvistik amillərlə bağlı olur. Həmin ekstralinqvistik faktorların əsas və aparıcı xüsusiyyətləri terminin dildəki statusuna da təsir göstərir. Elm sahələrində tədqiqatçıların müşahidə

etdikləri əsas cəhətlər, elmi-texniki faktların nəzəri dərki termində öz əksini tapır. Bunun nəticəsində terminoloji adlandırma ilə bu və ya digər biliklər sistemində yaranan anlayışlar arasında sıx əlaqə yaranır. Hazırda elmlərin terminoloji sistemlərində zənginləşmə və inkişaf daha intensiv şəkil almışdır. Terminləşmə prosesi dilin terminoloji qatında özünü göstərən mühüm semantik hadisə hesab edilir. Məsələn, *Bağlanma* – 1. Fond birjalarında əməliyyat gününün sonunda cari buraxılışa dair son əməliyyatın qiyməti; 2. Qiymətli kağızların ən yeni buraxılışının təqdim edildiyi günü, maraqlı tərəflərin hamısının son görüşü; 3. Mühasibat uçotunda balansın və mühasibat hesablarının hazırlanıb yekunlaşdırılması; *Bağlayıcı* – 1.İnformatikada obyekt modullardan və verilənlər fayllarından icra modulu quraşdıran proqram. *Bağlayıcı* başqa funksiyalara da malik ola bilər, məsələn, kitabxana yarada bilər. 2.Dilçilikdə cümlənin üzvləri və mətnin komponentləri arasında əlaqə yaradan köməkçi nitq hissəsi kimi mənalarda işlənir.

Yəni, dildə yeni yaranan anlayışları ifadə etmək üçün çox zaman fəal leksik qatda işlədilən söz və ifadələrə yeni məna çalarları verilir. Bu zaman motivləşmə yolu ilə sözlərin ifadə etdiyi mənalardan biri əsasında terminlər yaradılır. Milli dillərin lüğət tərkibini nəzərdən keçirdikdə, aydın olur ki, ümumişlək sözlər lüğət tərkibinin əsas nüvəsini təşkil edirsə, terminoloji leksika bu nüvənin ayrı-ayrı hissələridir, bu hissələrin hər biri – kimya, riyaziyyat, fizika, tibb və s. spesifik cəhətlər əsasında inkişaf edir. Təbii ki, bu zaman dilin daxili qanunauyğunluqları və normaları qorunur. Müasir dövrdə terminologiya ilə bağlı tədqiqatların müxtəlif aspektlərdən aparılması, terminologiya ilə ayrı-ayrı elmlər arasında qarşılıqlı əlaqələri və qarşılıqlı təsirləri güclən-

dirir. Bu tendensiya terminologiyanın nizama salınması, müvafiq sahə anlayışlarının müəyyənləşdirilməsi və müəyyən sistemə gətirilməsi zərurəti yaradır. Hər bir sahənin inkişafı onunla bağlı anlayışların sistemə salınması və dildə yeni yaranan anlayış və məfhumların sistemləşdirilməsi və qaydaya salınması ilə birbaşa əlaqədardır. Bu nəzərə alınaraq lüğətdə Azərbaycan dilində işlənən 2000 yeni yaranmış termin toplanmış və onların izahı verilmişdir. Ayrı-ayrı elmi-texniki sahələrlə bağlı anlayış və məfhumları sistemləşdirmədən onların dil işarələrinin müəyyənləşdirilməsi mümkün deyildir. Termində bu xüsusiyyətlər nəzərə alınmadıqda eyni sahə terminologiyasına daxil olan müəyyən bir anlayış əksər hallarda müxtəlif sahələrdə bəzən eyni terminlərlə, bəzən də müxtəlif terminlərlə adlandırılır. Tərtib edilən lüğətdə də müxtəlif sahələrə – iqtisadiyyat, tibb, informatika, dilçilik, geologiya, jurnalistika, texnika, diplomatiya və s. aid yeni yaranan terminlər, yəni indiyə qədər dilin lüğət tərkibində öz əksini tapmayan terminlər toplanmış və onların izahı verilmişdir.

Pandemiyanın təsiri ilə dünyada baş verən dəyişikliklər dilin lüğət tərkibinə də təsir etmiş və dildə intensiv şəkildə yeni söz, termin, terminoloji birləşmələrin kəmiyyətcə artmasına səbəb olmuşdur. 2020-ci ildə dildə yeni yaranan terminlərin böyük əksəriyyəti koronavirusla bağlıdır. Bu nəzərə alınaraq lüğətdə *koronavirus* –insan və ya heyvanlar arasında yayıldığı sübut edilmiş patogen xüsusiyyətləri olan geniş viruslar ailəsi, *koronafobiya*- koronavirusa yoluxmaq qorxusu və maddi rifahın aşağı səviyyəyə düşməsindən narahatlıqdır; *sanitayzer* – əllərin dezinfeksiyası üçün istifadə edilən dəri antiseptik vasitə; *sosial məsafə* – koronavirus infeksiyasının yayılmasının qarşısını almaq

üçün rəsmən ÜST tərəfindən insanlar arasında məsafənin (adətən 1,5-2 metr) artırılmasını tövsiyə edən epidemiya əleyhinə tədbir; *immun sertifikatı* – insanda koronavirus infeksiyasına qarşı antitelin yaranması haqqında sənəd; *vaksin pasportu*– insanda peyvənd olunma nəticəsində koronavirus infeksiyasına qarşı immunitet və ya antitelin olmasını təsdiqləyən rəsmi sənəd və s. terminlərin izahı verilmişdir. Eləcə də *virtual məktəb, modul tipli xəstəxana, e-təbib, özünütəcrid, mutasiya, antigen koronafobiya, sanitayzer, immun sertifikatı, vaksin pasportu,* yeni peyvənd adları da *Sinovak* (Çin), *Fayzer* (ABŞ), *Sputnik* (Rusiya), *Astarzeneca* (İngiltərə), *Bionteks* (Almaniya) daxil edilmişdir.

Müxtəlif sahələrdə yeni terminlərin yaranmasında dilin daxili imkanları hesabına yaranan terminlər də üstünlük təşkil edir. Məsələn*, "ağıllı" ümumişlək sözdür, lakin son dövrlərdə bu söz terminləşərək* – informatikada proqramlara, yaxud aparat vasitələrinə aid işlədildikdə verilən anda gözlənilməyən informasiyanı emal edə bilmək bacarığı mənasında işlənir. Eləcə də bu sözlə bağlı *ağıllı bağlanma* – proqramlaşdırma dilinin, həmin dildə yazılmış proqramların həmişə düzgün parametrlərlə çağırılacağına zəmanət verən özəlliyi, *ağıllı kart* – daxili mikroprosessoru olan plastik kart, *ağıllı kənd* – çağdaş texnologiyalardan istifadə etməklə şəhər və ya kəndin idarəçiliyində ən yüksək səmərəyə nail olmaq, *ağıllı telefon* – cib kompüterinin imkanları əlavə olunmuş mobil telefon. Bu telefonlarda VAP protokolunu dəstəkləyən sadələşdirilmiş brauzer və elektron poçtla işləmək üçün vasitələr mənasını daşıyır.

Lüğətdə eyni anlayışları bildirən müxtəlif terminlərə rast gəlindiyi kimi, bir terminin müxtəlif sahədə bir neçə anlayışı ifadə etməsi halları da qeydə alınır. Məsələn, *Açar*

*söz* – 1. Mətnin əsas məğzini özündə əks etdirən söz. 2. - İnternetdə axtarış üçün əsas vasitədir. Verilənlər bazasının idarə olunması sistemlərində: hər hansı yazıların, yaxud sənədlərin axtarışını aparmaq üçün istifadə olunan söz. 3.Proqramlaşdırma dillərində qabaqcadan müəyyən olunmuş hərəkəti, yerdəyişmə funksiyanı, yaxud əməli tanıdan söz. Bu sözlər dilin öz ehtiyacları üçün ayrılır və proqramçılar onlardan dəyişənlərin, funksiyaların, proseduraların və metodların adları kimi istifadə edə bilməzlər. Buna görə də, bu sözləri çox zaman *"ehtiyat sözlər"* adlandırırlar. 4. Sənədin başlığında, yaxud mətnində olan və onun məzmunu haqqında daha çox informasiya daşıyan söz. Əsasən, sənədlərin indeksləşməsi üçün istifadə olunur.

Lüğətə daxil edilən elə terminlər var ki, dildə əvvəllər işlənmişdir, lakin hazırda yeni anlayışı ifadə edir. Məsələn, *"kvadrat"* "bütün tərəfləri bərabər olan düzbucaqlıya kvadrat deyilir" mənasında termin kimi riyaziyyatda işlənir. Hazırda isə əvvəlki məna ilə yanaşı "mətbəə yığımında səhifənin boş yerlərini doldurmaq, eləcə də səhifənin enini və hündürlüyünü, ara məsafələri müəyyənləşdirmək üçün istifadə olunan ölçü vahidi" kimi jurnalistikada yeni mənada işlənir.

Bəzi sözlər də dildə ümumişlək söz kimi işlənsə də mənaca genişlənərək yeni terminoloji məna kəsb edir. Məsələn, "iynə" sözü ümumişlək sözdür, mənaca genişlənərək *informatikada* "matrisli printerdə lenti kağıza sıxaraq nöqtələr salan hərəkət edən sərt məftil", həm də "elektron bağlayıcının sərt kontaktı" mənasında yeni anlayışları ifadə etmişdir. Yaxud *"düymə"* sözü *kompüterdə* qrafik istifadəçi interfeysində konkret əməli seçmək üçün kiçik dairə, yaxud düzbucaqlı şəklində element, *etnoqrafiyada* paltarı ilmək-

ləmək üçün sümükdən, metaldan və ya başqa materialdan düzəldilən, adətən yuvarlaq şəkildə olan geyim aksesuarı, *riyaziyyatda* ölçü vahidi, *texnikada* qapının rəzəsi, cəftəsinə keçirilən başı, deşik mıx, həm də barmaqla basmaqla elektrik xəttindəki cərəyanı qapamaq, bağlamaq və müxtəlif mexanizmləri işə salmaq üçün mütəhərrik düyməcik mənalarını ifadə edir. Belə terminlər də yeni məna ifadə etdiyi üçün lüğətə daxil edilmişdir.

Yeni terminlərin yaranmasında dilin daxili imkanları hesabına yaranan terminlərə üstünlük verilməlidir. Terminologiyanın inkişaf mənbələrindən birini təşkil edən alınmaların izafiliyi alınma terminlərin seçilməsinə, işlənməsinə xüsusi diqqət yetirməyi tələb edir. Hazırda mətbuatda, radio və televiziyada onlarla, yüzlərlə yeni terminlər işlənir. Bunları toplamaq, orfoqrafiyasını müəyyənləşdirmək dildə həmişə davam edən prosesdir. Bu nəzərə alınaraq yeni terminlər lüğəti vaxtaşırı nəşr edilməlidir. Dilimizdə son dövrlərdə işlənən yeni terminlərin izahında bəzi mübahisə doğuracaq məqamların mövcudluğunu da istisna etmirik. Buna görə də lüğətlə bağlı irad və təkliflərinizi Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Terminologiya Komissiyasına və AMEA Nəsimi adına Dilçilik İnstitutunun Terminologiya şöbəsinə bildirəcək mütəxəssislərə əvvəlcədən təşəkkür edirik.

*Filologiya elmləri doktoru,*
*professor* ***Sayalı Sadıqova***

# LÜĞƏTİN QURULUŞU

Lüğətin sözlüyünün hazırlanması zamanı aşağıdakı prinsiplər gözlənilmişdir:

- Lüğətdə baş sözlər əlifba sırası ilə iri və qara şriftlə verilir.
- Əvvəlcə alınma yeni terminlərin mənşəyi, mənbə və ya orijinal dildə yazılışı (ingilis, alman, yunan, fransız, türk, rus və başqa dillər nəzərdə tutulur), etimoloji mənası göstərilir, sonra isə işləndiyi mənalar izah edilir.
- Bir neçə məna bildirən terminlərin mənalarının izahları bir lüğət məqaləsində sıralanmaqla verilir (1,2,3 və s.).
- Ayrı-ayrı leksik vahidlərin mənaları, məna çalarları ifadə etdikləri məzmuna görə ilkin mənadan məcazi mənaya doğru sıralanmışdır.
- Sözlükdə əsas lüğət məqaləsindən sonra söz birləşməsi öz əksini tapmışdır.
- Lüğətdəki terminlərin orfoqrafiyası müasir ədəbi dilimizin orfoqrafiya normalarına uyğun verilmişdir.

# LÜĞƏTDƏ VERİLMİŞ İXTİSARLAR

alm. - alman
astr. - astronomiya
arx.- arxeologiya
avia.- aviasiya
bio. - biologiya.
coğ. - coğrafiya
dən.- dənizçilik
dilç. - dilçilik
din.- dini
dip.- diplomatiya
eko. - ekologiya
energ. - energetika
etno.-etnolinqvistika
ədəb. - ədəbiyyat
ər. - ərəb
fars. - fars
fiz.-fizika
fiziol. - fiziologiya
fəls. - fəlsəfə
fr. - fransız
geo. - geologiya
heyv.-heyvandarlıq
hərb. - hərbi
hüq.-hüquq
idm. - idman
iqt. - iqtisadiyyat
ilh.-ilahiyyat
inc. - incəsənət
ing. – ingilis
inş.-inşaat
ital.- italyan
jur.- jurnalistika
kar. - kargüzarlıq
kim. - kimya
kul.-kulinariya
lat.-latın
mənt. - məntiq
mus.-musiqi
ped. - pedaqogika
pol.- politologiya
psixo. - psixologiya
riy. - riyaziyyat
sos. - sosiologiya
tex. - texnika
tib. - tibbi
tur.-turizm
yap.-yapon
yun.-yunan
zool. - zoologiya

## -A-

**ABİOTROFİYA** (*yunan dilində a – inkar hissəcik, bios – həyat və trophe – qidalanma*) – *Tib.* Patoloji vəziyyətə və normal funksional qabiliyyətin itirilməsi nəticəsində ayrı-ayrı orqan və toxumaların həyat qabiliyyətinin proqressiv itirilməsi.

**ABLASTİKA** – *Tib.* Residiv və metastazların qarşısını almaq üçün şişin sağlam toxuma hüdudundan çıxarılması. Bədxassəli şişlərin cərrahi müalicəsi zamanı bu əməliyyat aparılır.

**ABLEFARİYA** *(ablepharia; a- + yun. blepharon göz qapağı) – Tib.* Orqanizmdə baş verən inkişaf anomaliyası. Məsələn, burunun, əl, yaxud da göz qapağının olmaması.

**ABLEPSİYA** (*yun. ablepsia, blepein baxmaq*) – *Tib.* "Korluq" mənasını bildirən termindir.

**ABLUTOFOBİYA** (*ablutophobia; lat. ablutio yuyunma*) – Sudan, yuyunmaqdan qorxmaq

**ABLÜTOMANİYA** *(ablutomania; lat. abluo, ablutum yumaq + maniya) – Tib.* Patoloji dərəcəyə meyillilikdən irəli gələn, əlləri tez-tez yumaqla bağlı olan sayrışan hal.

**ABLYASİYA** – *Tib.* Cərrahiyyə yolu ilə hər hansı bir orqanın və ya bədənin hər hansı bir hissəsinin çıxarılması əməliyyatı.

**ABORAL** – *Tib.* Ağız boşluğundan həzm traktı orqanlarının hansı məsafədə yerləşməsini bildirən termin.

**ABORDAJ** *(fran. abordage, bord gəmi) – Hərb.* Avarlı və yelkənli gəmilərlə döyüş üsulu.

**ABSANS** *(absense) – Tib.* Epilepsiyanın simptomu ilə əlaqədar olaraq şüurun qısa müddətli itməsi və ardınca amneziyanın olması.

**ACUNU –** *İnf.* Yüksək sürətli verilənlərə nəzarət etmək və monitorinq üçün kiçik gecikməli analitik platforma. İstehsal prosesində istifadə olunur.
**AÇAR** – 1.*İdm.* Güləşdə parterdə tətbiq edilən tutma. 2.*İnf.* Bazaların idarə olunmasında verilənlər.
**AÇAR DİSK** – *İnf.* Üzü çıxarıla bilməyən və əsas məlumatlar toplanan disk. Məlumatları saxlayan qoruyucu disket.
**AÇAR KADR** – *İnf.* Verilişin təbliğ olunması üçün rəqəmsal videofilm faylında tam görüntüdən verilən hissə.
**AÇAR SÖZ** – 1. *İnf.* Verilən məqalənin, yaxud da mətnin əsas məğzini özündə əks etdirən söz. 2. *İnf.* Verilənlər bazasının idarəolunması sistemlərində yazı, yaxud sənədlərin - internetdə axtarış üçün istifadə olunan söz. 3. *İnf.* Proqramlaşdırma dillərində dilin öz ehtiyacları üçün qabaqcadan müəyyən olunmuş hərəkəti, funksiyanı, yaxud əməli tanıdan söz. 4. *İnf.* Sənədlərin indeksləşməsi üçün sənədin başlığında onun məzmunu haqqında daha çox informasiya daşıyan söz.
**AÇIQLAMA –** *İnf.* Proqrama əlavə edilmiş izahedici mətn. Açıqlamada əsasən proqramın alqoritmi, yaxud da onun müəllifi haqqında məlumat verilir.
**AÇIQLAYICI –** *İnf.* İlkin açıqlayıcı məlumatın verilməsi. İnformasiya-axtarış sistemlərində məlumatın ilkin verilməsi.
**AÇIQ VƏRƏQƏ –** *Dip.* Xarici vətəndaşa və ya qonağa diplomatik immunitet və imtiyazlardan istifadə üçün diplomatik nümayəndəlik tərəfindən verilən sənəd.
**AÇILIŞ EKRANI –** *İnf.* Kompüterdə hər hansı yüklənmə zamanı sistemdə görüntülənən ekran açılışı.
**ADEPT** *(lat.d.adeptus nail olan) – Dip.* Hər hansı dini təlimin, ideologiyanın qızğın tərəfdarı.
**ADDİKSİYA** (*ingilis dilində addiction- nəyəsə meyillik, zərərli adət, latın dilində addictio qərar çıxartma*) – *Psixo.*

Dərman maddələrinə, alkoqol və ya narkotiklərin təsirinə meyillik. Özünə nəzarət qabiliyyəti olmadan bunlara qarşı olan fiziki və psixoloji asılılıqdır, yaxud da qidalanma, kompüter, internet və ehtiraslı oyunlara patoloji meyillik.

**ADVARE** – *İnf* .İstifadəçinin kompüterində reklamlar göstərmək üçün yerləşdirilən proqram təminatı.

**ADYUDİKASİYA** – *İqt.* Beynəlxalq arbitraj və ya məhkəmə qərarları vasitəsilə ərazi mübahisələrini həll etmək, yəni həmin ərazini əldə etmək üsulu.

**AEROFAGİYA** – *Tib.* Həzm orqanlarına qeyri-düzgün qidalanma, yaxud da tələsik qidalanma nəticəsində havanın daxil olması.

**AEROFİLTR** – *Tex.* Axarı olmayan durğun suların təmizlənməsi üçün xüsusi bioloji filtr.

**AEROFOBİYA** – *Tib.* Quduzluğun simptomu olaraq, dəri səthinə az miqdarda havanın təsirindən yaranan qıcolma .

**AEROFOTARİUM** (*aero-* + *yun. phos, photos- işıq*) – *Tib.* Atmosfer havasının süni ultrabənövşəyi şüalarla birgə təsirinə əsaslanan müalicəni aparmaq üçün müəyyənləşdirilmiş xüsusi yer.

**AEROFOTOTOPOQRAFİYA** – *Coğ.* Aeroşəkillər əsasında topoqrafik xəritələrin tərtib üsullarını öyrənən elm sahəsi. A.-da xəritənin konturları aeroşəkillər əsasında tərtib olunur və bu metod daha çox irimiqyaslı və kiçikmiqyaslı xəritələrin hazırlanması üçün istifadə edilir.

**AEROHELİO SAHƏ** – *Tib.* Hava və günəş vannası qəbul etmək üçün nəzərdə tutulan sahə.

**AEROHELİOTERAPİYA** (*aero-* + *yun. helios günəş* + *terapiya)* – *Tib.* Müəyyən xəstəliklərin hava və günəş vannasının təsiri ilə müalicəsi.

**AEROXOLİYA** – *Tib.* Rentgenoloji müayinə zamanı anaerob mikroorqanizmlərin əmələ gətirdiyi xolesistit nəticəsində öd kisəsində qazın aşkar edilməsi.

**AEROİONİZASİYA** – *Tib.* Qazların ionlaşdırılmasına əsaslanan müalicə üsulu. Aeroionoterapiyada istifadə olunur.

**AEROİONİZATOR** – *Tib.* Sağlamlığın təmin olunması, yaxud da profilaktik məqsədlə havanı müsbət və mənfi ionlarla zənginləşdirmək üsulu.

**AEROİONOİNHALYASİYA** – *Tib.* Mənfi ionlarla zənginləşdirilmiş hava ilə nəfəs almaya əsaslanan müalicə üsulu. Süni olaraq həyata keçirilir.

**AEROİONOTERAPİYA** – *Tib.* Təsiredici faktoru əsasında həyata keçirilən unikolyar yüklənmiş təbii və süni aeroionlar olan fizioterapiya üsulu.

**AEROLOGİYA** (*yun. aero – hava + logos – elm*) – 1. *Ast.* Atmosferdə baş verən fiziki hadisə və prosesləri müşahidə etməklə meteorologiyada atmosferin yuxarı qatlarını öyrənən elm sahəsi. 2. *Geo.* Mədənlərin atmosferini, yeraltı boşluqlarda və yollarda havanın tərkibini və onun hərəkət xüsusiyyətlərini öyrənən elm sahəsi.

**AEROLOJİ CİHAZLAR** – *Astr.* Atmosferin yuxarı qatlarının öyrənilməsi üçün istifadə olunan cihazlar.

**AERONEVROZ** – *Avia.* Təyyarəçilərdə yüksəklikdən qorxu, gərginlik nəticəsində yaranan nevroz.

**AERONOMİYA** (*yun. aero – hava + yun. nomos – qanun*) – *Fiz.* Atmosferin yuxarı qatlarını (mezosfer, ionosfer) tədqiq edən elm sahəsi, fizikanın bölməsi.

**AEROTERMİK QRADİYENT** (*yun. aero – hava + yun. therme – isti + lat. gradientis – addımlayan*) – *Fiziol.* Atmosferin ən aşağı qatı olan troposferdə temperaturun dərəcələrlə dəyişməsi.

**AFELİ** (*yun. apo – uzaqlıq + yun. Helios – Günəş*) – *Astr.* Günəş ətrafında fırlanan planetlərin, asteroid və kometlərin orbitinin Günəşdən ən uzaq nöqtəsi.
**AFOTİK ZONA** (*yun. a – inkar şəkilçisi + yun. photos – işıq*) – *Coğ.* Dünya okeanında bitki orqanizmlərinin *fotosintezi* üçün işığın kifayət etmədiyi dərinliklər nəzərdə tutulur.
**AFTALAR** (*aphthae; yun. aphthai səpmə, ağız boşluğunda yaralar*) – *Tib.* Selikli qişanın səthinin nekrotik dəyişikliyi ilə əlaqədar olaraq sarımtıl-bozumtul eroziya, iltihab əlamətli qırmızı yaralar.
**AGENT BANK** – *İqt.* Beynəlxalq kredit sindikatının səlahiyyətli üzvlərinin banka istiqrazların buraxılışı etibar edilən, kredit vaxtında bu sindikatın maraqlarının zamin olması şəklində çıxış edən bank.
**AĞILLI –** *İnf.* Proqramlara, yaxud aparat vasitələrinə aid məlumatların verilən anda gözlənilməyən informasiyanı emal edə bilmək bacarığı.
**AĞILLI BAĞLANMA –** *İnf.* Proqramlaşdırma dilinin, həmin dildə yazılmış proqramların həmişə düzgün parametrlərlə çağırılacağına zəmanət verən özəlliyi.
**AĞILLI KART –** *İnf.* Daxili mikroprosessoru olan plastik kart. Orada kart sahibinin şəxsi məlumatları, fotoqrafiyası, biometrik verilənləri, parolları, erişim açarları və başqa məlumatları saxlanıla bilər.
**AĞILLI KƏND –** *Tex.* Bu ifadələr ingilis dilindən “smart city” və “smart village” sözlərinin kalkasıdır. Kontekstdə “smart” ağıldan çevik istifadə anlamını verir. Çağdaş texnologiyalardan istifadə etməklə şəhər və ya kəndin idarəçiliyində ən yüksək səmərəyə nail olmaq, yəni kəndlə bağlı bütün informasiyalar müəyyən mərkəzdə cəmləşir və həmin

informasiyalar üzərindən situasiyanın tələbinə uyğun olaraq effektiv addımlar atılır.

**AĞILLI TELEFON –** *Tex.* VAP protokolunu dəstəkləyən sadələşdirilmiş brauzer və elektron poçtla işləmək üçün vasitələr əsasında cib kompüterinin imkanları əlavə olunmuş mobil telefon.

**ALKAPTONURİYA** (*alcaptomiria; alkapton (homogentizin turşusu) + yun. uron sidik*) – *Tib.* Tirozin və fenil alaninin, yəni aromatik aminturşuların mübadilə pozğunluğu ilə xarakterizə olunan xəstəlik.

**ANNEKSİYA** *(lat.annexio-birləşdirmə) – Dip.* Hər hansı bir dövlətin, yaxud dövlətin ərazisinin bir hissəsini, habelə beynəlxalq birliyin ümumi istifadəsində olan məkanın zorla və qanuna zidd yolla birləşdirilməsi.

**ANKLAV** *(fr.d.enclave-açarla bağlamaq) – Dip.* Bir dövlətin, yaxud bir neçə dövlətin quru əraziləri ilə tam əhatə olunmuş ərazisinin bir hissəsi.

**AXONDROPLAZİYA** (*axondroplastik - cırtdanlıq*) – *Tib.* Borulu sümüklərin epizifar qığırdağında baş verən pozulmalar, bədənin normal inkişaf etməsinə baxmayaraq ətrafların qeyri-bərabər nisbətdə qısalığı yaradan xəstəlik. Autosom dominant əlamət olub, sümük sistemində baş verən ümumi xəstəlikdir.

**AKADEMİK MOBİLLİK** – *Ped.* Bolonya bəyannaməsinin müddəaları əsasında kredit sistemi ilə tədrisin təşkilində tələbələrin akademik mobilliyinin təmin edilməsi.

**AKKREDİTİVİN BAĞLANMASI** – *İqt.* Akkreditivə görə pul vəsaitinin təqdim edilməsi ilə bağlı əməliyyatların dayandırılması barədə qeyd.

**AKKLAMATSİYA** *(lat.acclamatio - nida) – Pol.* Səsvermə keçirilmədən qərarın qəbul edilməsi metodu.

**AKKUMULYASİYA** (lat. *accumulatio – toplanma*) *–Coğ.* Külək və vulkanların fəaliyyəti nəticəsində çöküntülərin, üzvi qalıqların quruda, yaxud su hövzəsinin dibində toplanması.
**AKRODİNİYA** – *Tib.* Ətrafların dərisinin polimorf dəyişikliyi, güclü qaşınması, əzələ hipotoniyası, psixi dəyişiklik, ürək-damar sistemi tərəfindən dəyişikliklər, bəzən isə qıcolma tutmaları ilə xarakterizə olunan naməlum etiologiyalı xəstəlik.
**AKROERİTROZ –** *Tib.* Gənclik yaşlarında qulaq seyvanında, üz və ovuclarda baş verən davamlı eritema.
**AKROESTEZİYA –** *Tib.* Psixoloji proseslərlə bağlı bədənin distal nahiyələrində hissiyyatın artması.
**AKROFOBİYA –** *Tib.* Baş gicəllənməsi ilə müşahidə olunan yüksəklikdən patoloji qorxma.
**AKROGERİYA** – *Tib.* Ətrafların hipoplaziyası, dəridə atrofiya ilə təzahür edən irsi xəstəlik
**AKTOR –** 1. *Pol.* Konkret siyasi prosesin subyekti mənasını ifadə edir. Siyasi hadisələr və proseslərin rola uyğun konsepsiyaları daxilində müxtəlif rollara malik göstərişlərin həyata keçirilməsi. 2.*İnf.* Kompüterdə Vindos əməliyyat sistemində işləyən proqramçılara yardım üçün nəzərdə tutulmuş obyektyönlü proqramlaşdırma dili.
**AKTUALİZATOR –** *Psixo.* Manipulyatorun əksi olaraq nailiyyətlərindən asılı olmayaraq özünün yüksək qiymətləndirməsini, başqalarından da ona hörmət və diqqətlə yanaşmağı istəməsi.
**AKSEPT BANK** – *İqt.* Ödəniş öhdəliyini öz üzərinə götürən, yaxud vekselin Trattanın təminatı altında xarici ticarətin kreditləşməsini həyata keçirən banklar.
**AKSESSİYA** – 1.*İqt.* Daşınamaz əmlakın həcminin və ya dəyərinin artması; 2. *İqt.* Mövcud müqaviləyə qoşulma.

**AKSİDENT** – *İqt.* İkinci dərəcəli müqavilələrdə və sazişlərdə təsadüfi, əhəmiyyətsiz şərtlərin qəbul edilməsi aksident adlanır.

**AQLOMERAT** (*lat. agglomero – birləşmə, toplanma*) – *Geo.* Müxtəlifölçülü süxur qırıntılarının toplanması.

**AQREMAN** *(fr.d.agrement- təqdiretmə) – Dip.* Müəyyən bir dövlətin hər hansı başqa bir dövlətin diplomatik nümayəndəsinin onun ərazisində təyin olunmasına rəsmi razılıq verməsi.

**ALAS** (*yakut. alaas – biçənək*) – *Coğ.* Çoxillik donuşluqlarda yeraltı buzların əriməsi və torpaq səthinin çökməsi nəticəsində yaranan biçənək.

**ALBEDO** (*lat. albedo – ağlıq*) – *Coğ.* Yer səthinin buludların günəş radiasiyasını əksetdirmə qabiliyyəti.

**ALFA ŞTAMMI** – *Tib.* Alfa Britaniya ştammıdır. Britaniyanın cənub-şərqində aşkarlanan Alfa variantı dominant növə çevrilən yeni ştammıdır.

**ALOGİZM** (*yun. alogizm-inkar və /ogo.v-zəka, təlim, söz) – Pol.* Yürüdülən siyasətin bəşəriyyət tərəfindən qəbul edilmiş ümumi normalara zidd getməsi. Siyasi cərəyanın heç bir məntiqə uyğun olmaması.

**ALLOPLAST** – *Tib.* Sümük əvəzedicisi kimi istifadə olunan sintetik, qeyri-üzvi material.

**ALTERNAT** (*lat. alternus) – Dip.* Razılığa gəlmiş tərəflərin müqaviləsinin imzalanması üçün tərəflərin adları, səlahiyyətli şəxslərin imzaları, möhürləri, həmçinin razılığa gəlmiş tərəflərin dilindən yazılmış müqavilənin mətni.

**ALTIBUCAQ** – *Tib.* İmplant və ya onun komponentinin altıbucaqlı birləşmə səthi.

**ALTRUİZM** (*fransız altruisms-başqa, digər sözündən*) – *Dip.* Öz maraqlarını başqalarının maraqlarından üstün tutan mənəvi prinsiplər sistemi.

**ALT-STANDART** – *Fəl.* Əsas standartlarda öz əksini tapan fikrin müəyyən hissəsi. Bir prosesin, hadisənin hərəkətverici qüvvəsi, səbəbi.
**ALVEOLAR QÜSURU** – *Tib.* Alveollar vertikal (tac-zirvə) və horizontal (dil-yanaq, mezio-distal) istiqamətdə darağın forma çatışmazlığı.
**ALVEOLEKTOMİYA** – *Tib.* Cərrahiyyə yolu ilə sümük konturlarını müəyyən formaya salmaq üçün alveollar çıxıntısının müəyyən bir hissəsinin kəsilib götürülməsi.
**ALVEOLUS** – *Tib.* İmplant zamanı dişlərin yerləşdiyi və peridontal bağlar vasitəsi ilə bağlandığı sümükdə olan yuva.
**ALYANS** *(fran. alliance)* – *İqt.* Vahid siyasi məqsədlərə nail olmaq üçün iki və ya daha çox siyasi subyektin şifahi və ya yazılı formada bağlanılan ittifaqı, birliyi.
**AMFETAMİN** – *İnf.* Enerjiyə qənaət parametrlərini asanlıqla yenidən təyin edən, amfetamin menyu sətrində yerləşən və Mac-ı aktiv saxlaya bilən kiçik tətbiqi proqram.
**AMFOGLÜKAMİN** – *Tib.* Əksər göbələklərə, o cümlədən dərin və sistem mikozlara təsir edən antibiotik.
**AMFOROFONİYA** – *Tib.* Ağciyərlərin auskultasiyası zamanı qalındivarlı boşluqların üzərində eşidilən xüsusi səs.
**AMFOTER** – *Kim.* Eyni zamanda həm turşu, həm də qələvi xüsusiyyətlərinə malik olan maddə.
**AMFOTONİYA** – *Tib.* Psixoloji proseslərlə bağlı vegetativ sinir sisteminin oyanıqlığının yüksəlməsi.
**AMİASTENİYA** – *Tib.* Sinir pozğunluqları ilə bağlı əzələ qüvvəsinin çatışmazlığı.
**AMİDOPİRİN SINAĞI** – *Tib.* Uzun sürən subfebrilitin diferensial diaqnostikası üçün amidopirinin hissəvi dozalarla verilməsi zamanı yalnız yoluxucu xəstəliklər nəticəsində qalxmış temperaturun stabilləşməsi.

**AMİELİYA** – *Tib.* İnkişaf anomaliyası ilə bağlı onurğa beyninin olmaması.
**AMİXOFOBİYA** – *Tib.* Psixoloji problemlərlə bağlı dərinin zədələnməsindən qorxu.
**ANALİTİK QİYMƏTLƏNDİRMƏ** – *Ped.* Şagirdlər üçün nəzərdə tutulan konkret bacarıqların müəyyən olunmuş uzun müddət ərzində ardıcıl izlənilməsi və qiymətləndirilməsi.
**ANAPLAZİYA** – *Tib.* Quruluş və bioloji xassələrin bədxassəli şiş hüceyrələrinin davamlı diferensiasiyası ilə bərabər dəyişilməsi.
**ANDERRAYTER** *(ing. under-writer - abunəçi)* –1.*İqt.* Bank fəaliyyətində, qiymətli kağızlar bazarında səhmlərin emitentinə, onların bazarda razılaşdırılmış şərtlər daxilində və xüsusi haqq müqabilində yerləşdirilməsinə təminat verən fiziki və ya hüquqi şəxs. 2. *İqt.* Sığorta kontraktlarının bağlanmasına və sığorta öhdəlikləri portfelinin formalaşmasına görə cavabdeh olan hüquqi şəxs.
**ANDERRAYTİNQ ŞƏRTİ** *(ing. under-writing - imzalama)* – *İqt.* Qiymətli kağızların yerləşdirilməsi üçün qarant ilə emitent arasında bağlanmış müqaviləni ifadə edən termin.
**ANDERRAYTER SİYASƏTİ** – *İqt.* Sığorta təşkilatının sığorta müqavilələrinin bağlanması ilə əlaqədar fəaliyyəti.
**ANGİOGENESİS** – *Tib.* Cərrahiyyə yolu ilə yeni qan damarlarının yaranması.
**ANKOR –** *İnf.* İnformatikada HTML sənədində istifadəçinin başqa bir yerdən keçə bilməsi üçün qeyd olunmuş yer.
**ANKLAV** (*fran. enclave,* lat. en – içəri + lat. clavis -*açar)* – *Dip.* Dövlət ərazisinin bütövlükdə və ya onun hər hansı bir hissəsinin digər dövlətin (dövlətlərin) əraziləri ilə əhatə olunması.

**ANNEKSİYA** (*lat. ım/ıe.vro-birləşdirmək*) – *Dip.* Bir dövlət tərəfindən beynəlxalq hüquq normaları və prinsiplərinə məhəl qoymadan başqa dövlətin ərazilərini və ya əhalisini zor tətbiq etməklə öz ərazilərinə birləşdirmək və buna hüquqi don geyindirmək cəhdi.

**ANTİGEN** – *Tib.* Qanın formalı elementləri çıxarıldıqdan sonra immun cavab reaksiyasına tələb olan maddə.

**ANTİTEL** – *Tib.* İnsan və heyvanın qan zərdabının qlobulinidir.

**ANTİNUKLEAR ANTİTELLƏR** – *Tib.* Antinuklear antitellərin induksiya mexanizmi keratositlərin, limfositlərin apoptozu və orqanizmin nüvə antigenlərinə sensibilizasiyası ilə əlaqəli autoimmun xəstəliklərin diaqnostikasında ən çox istifadə olunan analiz.

**ANTİTROMBOSİTAR ANTİTELLƏR** – *Tib.* Qanda olan, bədəni yad xəstəliklərdən qoruyan antitellər.

**APARTAMENT** – *İnş.* Yataq otaqları, xüsusi yataq yerləri, istirahət üçün nəzərdə tutulmuş yerlər və mətbəx sahəsi olan yerləşgə.

**APATRİD** (*yun. a – inkar şəkilçisi + lat. patris – vətən*) – *Dip.* Digər ölkənin vətəndaşlığını qəbul etmədən öz ölkəsində vətəndaşlıqdan çıxmış və ya məhrum olunmuş, yəni heç bir ölkədə vətəndaşlığı olmayan şəxs apatrid adlanır. Bununla yanaşı, dövlət dağıldığı zaman müxtəlif ölkələrin vətəndaşı olması haqqında qanunvericiliyə uyğun gəlməyən hallar.

**APATRİOLƏR** *(yun. a - inkar və pair is- vətən)* – *Dip.* Beynəlxalq hüququn himayəsi altında olsa da heç bir dövlət tərəfindən, xüsusən keçmiş vətəni tərəfindən də diplomatik müdafiə edilməyən hər hansı bir dövlətin vətəndaşlığından məhrum edilmiş şəxslər.

**APOGEY** (*yun. apo – uzaq + yun. geo – Yer*) – *Astr*. Ayın, yaxud Yerin süni peykinin orbitinin Yer planetindən ən uzaq nöqtəsi.
**APOKALİPSİS** *(yun.apokalypsis- hərf, kəşf) – Pol.* Dünyanın sonu ilə nəticələnəcək epidemiyaların, nəhəng planetar fəlakətlərin labüdlüyünü aşılayan mistik futuroloji ideya.
**APOLİTİKLİK** – *Pol.* İctimai-siyasi fəaliyyətdə iştirak etməyən, ondan tamamilə uzaqlaşan, siyasətə etinasız münasibət.
**APOLOQET** – *Pol.* İdeologiyasına uyğun olaraq çıxış edən şəxs, hər hansı təlimin müdafiəçisi.
**APLET –** 1.*İnf.* Baha olmayan və kiçik xüsusi işləri görmək üçün nəzərdə tutulmuş kiçik tətbiqi proqram. 2.*İnf.* Veb-brauzer vasitəsilə avtomatik endirilən və qəbul edənin kompüterində icra olunan kiçik tətbiqi proqram.
**APPLİKASİYA –** *Tib.* Fizioterapiyada bədən səthinə hər hansı bir növ enerji daşıyıcısının qoyulması ilə aparılan müalicə üsulu.
**APRAKSİYA –** *Tib.* Psixoloji vəziyyətlə bağlı olaraq məqsədyönlü iradi hərəkətlərin pozulması.
**APVELLİNQ** (*ing. up – yuxarı + ing. well – cummaq*) – *Coğ.* Okean və dənizlərdə küləklərin səth sularını qovaraq hərəkətə gətirməsi nəticəsində dərinlik süxurunun səthə qalxması.
**ARAUND –** *İqt.* Mükafat, yaxud güzəşt cari valyuta kursunun nominala nisbətən ödənilməsi əməliyyatları kassa sazişi ilə valyuta bazarında həyata keçirilir.
**ARDICIL PORT –** *İnf.* Modem, siçan, yaxud printer tipli periferiya qurğularını kompüterə qoşmaq üçün istifadə olunan ardıcıl interfeys portu.

**ARRİARS –** *İqt.* Kontrakt əsasında yazılmış hesab, yaxud vaxtı keçmiş məbləğlərin vaxtında ödənilməməsi hesabı üzrə borc müqaviləsi.
**ARTİMLİ KOMPİLYATOR –** *İnf.* Proqramın yalnız dəyişdirilmiş bölümünü kompilyasiya edə bilən kompilyator.
**ASSEMBLER –** *İnf.* Proqramın mətnini insanın oxuya biləcəyi *assembler* dilindən maşın dilinin icra komandalarına çevirən proqram.
**ASSEMBLERLƏMƏ –** *İnf.* Proqramlaşdırma zamanı assembler dilində yazılmış müəyyən proqramın maşın dilinin komandalarından ibarət olan ekvivalent proqrama, obyekt koduna çevirmə.
**ASSEMLER DİLİ –** *İnf.* Proqramlaşdırma zamanı hər bir operatoruna yalnız bir maşın komandası uyğun olan aşağı səviyyəli proqramlaşdırma dilləri .
**ASTARZENECA –** *Tib.* Astarzeneca İngiltərədə hazırlanmış dərman. Yeni koronovirusun qarşısını almaq üçün epidemiyaya qarşı yeni hazırlanmış dərman preparatlarının biri.
**ASTENOSFER** (*yun. asthenes – zəif + yun. sphaira – kürə*) – *Coğ.* Litosferin altında Yerin mantiyasının üst hissəsində yerləşən yumşaq, elastik təbəqə.
**ATQI –** 1. *Tex.* Elektron sxemin müxtəlif kontaktlarını birləşdirmək yolu ilə aparat vasitələrinin köklənməsi üçün kiçik tellər. 2. *Tex.* Neftin, yaxud qazın nəzarətsiz sızmasının qarşısını almaq üçün istifadə olunan hidravlik mexanizmli qurğu.
**ATOL** (*maldav. atolu – halqa*) – *Coğ.* Açıq dənizdə, okeanda dayaz *laqunu* əhatə edən dairəvi və ya yarımdairə şəklində mərcan adası, yaxud adalar qrupu.
**ATRİBUSİYA** (*lat.d. əlamətin təyini*) – 1.*İnf.* Hər hansı bir materialda informasiya mənbəyinin verilməsi, yaxud

onun mühüm əlamətlərinin qeyd olunması; 2.*Kar*. Əsərin yazılma tarixinin və yerinin müəyyənləşdirilməsi ilə bağlı müəllif haqqında məlumatın verilmə qeydi.

**ATROFİK** – *Tib.* Balacalaşma, kiçilmə, azalma kimi xarakterizə oluna bilən atrofiya.

**ATROFİYA** – *Tib.* Orqanizmdə hüceyrə, orqan, toxuma və hər hansı hissənin ölçülərinin azalması.

**AUDİOVİZUAL** (*lat. Audire-eşitmək; visio-görmək*) – *Jur.* Eyni anda həm görmə, həm eşitmə üsulu ilə, yəni səs və görüntü ilə verilən məlumat. İnformasiyanın qavranılmasına müsbət təsir edir.

**AUDİT SEÇMƏSİ** *(ing. audit sampling) – İqt.* Bütün seçmə maddələrinin seçilmə imkanı yaratmaq üçün hesab qalıqlarında və ya əməliyyat bölmələrində olan maddələrin mühüm hissəsinin audit prosedurlarında istifadə edilməsi.

**AUQMENTASİYA** – *Tib.* Sərt və yumşaq toxuma çatışmazlığında qraft istifadəsi və ya başqa prosedura ilə qüsurun aradan qaldırılması.

**AUTEKOLOGİYA** (*yun. autos – özü + yun. oikos – məkan, ev + yun. logos – elm, təlim*) – *Eko. Ekologiyanın* əsas bölmələrindən biri kimi heyvan və bitki növlərinin mühit amillərinin təsirinə reaksiyasını və növlərin həyat tərzini öyrənən elm sahəsi.

**AUTOFOBİYA** – *Tib.* Psixoloji vəziyyətlə bağlı tək qalmaqdan, ailə qurmamaqdan patoloji qorxu.

**AUTOFONİYA** – *Tib.* Eşitmə borusunun patologiyalarında müşahidə olunan hal. Öz səsinin bir qulaqla eşidilməsinin güclənməsi.

**AUTVELLİNQ** (*ing. out – kənar + ing. well – sel kimi axmaq) – Coğ.* Çay estuarilərindən biogen kimyəvi elementlərlə zəngin suların açıq dənizə axması.

**AVERAJ** – *İqt.* Orta hesabla malların miqdarının əsas götürülməsi.
**AVİDLİK** – *Tib.* İmmun kompleksin və ya onun aqreqatlarının əmələ gəlmə sürəti ilə, kompleksin dissosiasiya dərəcəsi və antigenlərin neytrallaşmasında özünü büruzə verən və antitel və antigenlərin valentlik reaksiyasına girən miqdarı və sağlığı ilə təyin olunan, yəni antigen və antitellərin molekulları arasında spesifik qarşılıqlığın effektivliyini xarakterizə edən xassədir. Antigen polivalentliyi tarazlığın sabitliyinin dəyişməsinə, affinlik baş tutmayanda əksinə birbirinə zərbə vurulmasına, çox zaman isə gücləndirici effektə gətirib çıxarır. Determinantın heterogenliyi kimi mürəkkəb faktorlarla təyin olunur.
**AVİROLAŞDIRMA** – *İqt.* Kontragenti onun hesabı üzrə aparılan əməliyyatlar haqqında xəbərdar etməkdir.
**AVİSTA** – 1. *İqt.* Veksel ödəniş üçün bütün hallarda təqdim edilə bilən, ödəniş müddəti göstərilməyən veksel;
**AVİZO** – *İqt.* Pulun köçürülməsi, malların göndərilməsi, qarşılıqlı hesablaşmaların vəziyyətində dəyişikliklər haqqında veksel ödəniş üçün bütün hallarda təqdim edilə bilər rəsmi bildirişdir. Avizonun köməyi ilə banklar akkreditin açılması, köçürmənin ödənilməsi, hesabda debet və kredit yazılışları haqqında özünün müştərilərinə xəbərdarlıq edir.
**AVTOKRAT** – *Dip.* Qeyri-məhdud hakimiyyətə malik müstəqiliyyətçi.
**AVTOKRATİYA** *(yun. autos – özü, cratos – hakimiyyət)* – *Dip.* Qeyri-məhdud nəzarət olaraq şəxsin idarəetmə forması, mütləq idarəetmə üsulu, mütləqiyyət.
**AVTORİZASİYA** (*ing.authorization-səlahiyyat hüququ)* – 1. *Hüq.* Hər hansı şəxsə və şəxslər qrupuna müəyyən fəaliyyətin həyata keçirilməsi üçün verilən səlahiyyət hüququ.

2. *İqt.* Alınan malın dəyərinin ödənilməsi üçün xəzinədar və ya elektron kart sahibinin bankomat vasitəsilə kartdan istifadə edərək, müəyyən məbləğ pulun əməliyyatlar aparılan bank hesabından silinməsinə icazə verilməsi prosesi.

**AVUAR** – 1. *İqt.* Vekselləр, pul vəsaitləri, çeklər, akkreditivlər və s. aktivlərin, öhdəliklərin xarici avuarlar xarici valyutada bank vəsaitləri xarici müxbir banklarında onun hesablarında ödənilməsi. 2. *İqt.* Bank avuarları bankın xarici banklardakı hesablarda olan və xarici valyutada nominallaşan pul vəsaitləri və qiymətli kağızlardır.

**AYAMA** – *İnf.* İnformatikada informasiyaların dəqiq verilməsi üçün onun idarə edilməsi sistemlərində və verilənlərin ötürülməsi şəbəkələrində kimisə nəyisə göstərmək üçün istifadə olunan alternativ ad, yaxud nişan.

**AYDENTİFİKASİYA –** *Dip.* Məlumatların mənbələrinin, doğruluğunun təsdiqi üçün məlumat vermənin doğruluğunun müəyyən edilməsi.

**AYIRMALAR –** *İqt.* Müəyyən məqsədlərlə məsrəflərin örtülməsi üçün mərkəzləşmiş və qeyri mərkəzləşmiş mənbələrdən, maliyyə resurslarından ayrılan pul vəsaitlərinin məbləği.

**AZKABAN** – *İnf.* Azkaban texnoloji prosesləri dəstəkləmək və idarə etmək üçün istifadəçinin veb-interfeydən istifadəsini asanlaşdırmaq üçün Linkedində yaradılan tapşırıq paketlərinin planlayıcısıdır.

## -B-

**BACARIQ TESTİ** – *Ped.* Test tapşırıqlarının konkret məntiqi mülahizə formasında işlənilməsi, texnoloji cəhətdən müəyyən məzmunlu, anlaşıqlı səviyyədə hazırlanan

tapşırıqlar. Qısa zaman kəsiyində düzgün, yanlış, yaxud da həllini tapmadan cavablandırılma forması.

**BAĞDAXİLİ ŞİŞ** (*lat.d.tumor inralifamentosus*) **–** *Tib.* Bədxassəli şişlərin ümumi adı olub, parametriumun xoşxassəli və təsadüfü hallarda rast gəlinən, uşaqlığın enli bağından və ya ona doğru inkişaf edən şiş.

**BAĞLANMA –** 1. *İqt.* Əməliyyat gününün sonunda fond birjalarında cari buraxılışla bağlı son əməliyyatın qiyməti; 2.*İqt.* Maraqlı tərəflərin qiymətli kağızların ən yeni buraxılışının təqdim edildiyi son görüşü; 3.*İqt.* Mühasibat uçotunda balansın və mühasibat hesablarının hazırlanıb yekunlaşdırılması.

**BAĞLAYICI** – 1.*İnf.* Obyekt modullardan və verilənlər fayllarından icra modulu quraşdıran proqram. *Bağlayıcı* başqa funksiyalara da saytlar, fayllar arasında kitabxana yarada bilər. 2.*Dil.* Cümlənin üzvləri və mətnin komponentləri arasında əlaqə yaradan köməkçi nitq hissəsi.

**BAKTERİD** – *Tib.* İnfeksion-allergik mənşəli dəri səpgilərinin ümumi adı.

**BAKTERİOFAQ** *(bakteriya + yun. phagos yeyən) – Tib.* Bakterial hüceyrəni yoluxduran, onun daxilində çoxalan və həmin hüceyrəni lizisə uğradan virus.

**BALIQ LENTİ –** *Tex.* Kabelləri borunun içərisindən, yaxud başqa əlaqəsi olmayan yerdən keçirtmək üçün məftil.

**BALLİSTOFOBİYA** – *Tıb.* Psixi pozğunluqlarla bağlı bomba partlamasından, güllə yaralanmasından patoloji qorxu.

**BALLİSTOKARDİOQRAF –** *Tib.* Ürək yığılmalarının və qanın iri damarlarla hərəkətinin nəticəsində insan bədənində baş verən dəyişikliklərə uyğun qrafik qeydə alınmasına əsaslanan ürək funksiyalarını hemodinamik müayinə etmək üçün cihaz.

**BALLİSTOKARDİOQRAFİK İNDEKS –** *Tib.* Ballistokardioqrafın sistolik kompleksinin minimal amplitudasının maksimal amplitudasına olan nisbətinə əsaslanan indeks.

**BALLİSTOKARDİOQRAFİK STOL –** *Tib.* Müayinə üçün ballistokardioqraf cihazının qəbuledici hissəsinin bərkidildiyi stol.

**BALLİSTOKARDİOQRAFİYA –***Tib.* Ürək yığılmalarının və qanın iri damarlarla hərəkətinin nəticəsində insan bədəninin yerdəyişməsinin qrafik qeydə alınmasına əsaslanan ürək funksiyalarının hemodinamik müayinə üsulu.

**BALLİSTOKARDİOQRAMMA –***Tib.* Ürək yığılmalarının və qanın iri damarlarla hərəkətinin nəticəsində insan bədənində baş verən dəyişmələrin qrafik qeydə alınmasına əsaslanan ürək funksiyasını qrafik qeydi.

**BALNEOTERAPİYA –** *Tib.* Profilaktika və reabilitasiya məqsədilə mineral sulardan və palçıqdan müalicə üçün istifadə olunması.

**BALNEOTEXNİK –** *Tib.* Balneoterapiya sahəsi ilə bağlı, yəni istifadə olunan cihazları idarə edən mütəxəssis.

**BALNEOTEXNİKA –** *Tib.* Mineral su və müalicəvi palçıqdan tibbidə istifadə etmək üçün nəzərdə tutulan texnika.

**BANKIN AVİZOSU** – *İqt.* Bank tərifindən hesabda vəsaitin qalığı, ödənişin daxil olması, akkreditin açılması, əməliyyatlar haqqında verilən bildiriş, xəbərdarlıq.

**BANNER** *(ing.banner-bayraq, transparant)* – 1. *İnf.* Printerdə çap olunan məhsulun tanıdılması məqsədilə identifikasiya adının iri hərflərlə çap olunduğu əlavə səhifə; *İnc.* Ayaq üstə dayaqları olan reklam və ya böyük həcmdə nümayiş xarakterli qrafik təsvir.

**BAR** (*yun.bapos-ağırlıq*) – 1. *Tib.* İki və ya daha çox implantı və ya dişləri birləşdirən əlaqə. Protezlərin retensiya

stabilliyini artırmaq və ya onlara dayaq məqsədi ilə edilir. 2.*İqt.* Diller sövdələşmələrində 1 milyon funt-sterlinq bar adlandırılır.3. *Fiz.* Atmosfer təzyiqi vahidi.

**BARABAN –** 1. *İnf.* Kompüterdə bəzi printerlərdə və plotterlərdə istifadə olunan, eləcə də ilk meynfreymlərdə verilənlərin maqnit daşıyıcısı kimi tətbiq olunan fırlanan silindr. 2. *Mus.* İki üzünə dəri çəkilmiş, içiboş, enli, silindrşəkilli, ağacla vurularaq çalınan musiqi aləti.

**BARABANLI PLOTTER –** *İnf.* Fırlanan barabana kağızın quraşdırıldığı plotter; Belə qurğunun qabarit ölçüləri planşet plotterlə müqayisədə daha kiçik olur.

**BARBİTURATİZM** – *Tib.* Barbituratların böyük dozada qəbul olunması zamanı yaranan xroniki intoksikasiya. Toksikomaniyanın növü.

**BARBİTURATLAR** – *Tib.* Sakitləşdirici, yuxugətirici, narkotik və ya qıcolma əleyhinə təsir göstərə bilən barbitur turşusunun törəmələri olan, kimyəvi quruluşandan, dozasından və yeridilmə yolundan asılı olaraq, məhdud şəkildə istifadə edilən preparatlar.

**BAŞLANĞIC SƏHİFƏ –** *İnf.* Saytın ilk giriş səhifəsinin adı. Brauzerdə sayta baxış bu səhifədən başlayır.

**BAŞLATMA –** *İnf.* Kompüterin işə salınması və ya təkrar başladılması ilə bağlı əməliyyat.

**BAŞLIQ –** 1. *Jur.* Kadrlarda görüntünün altında verilən subtitr, yazı. 2. *Kar.* Kargüzarlıqda sənədin başlığı. 3.*Tex.* Pəncərənin başlığı.

**BAŞLIQALTI** – *Jur.* Əsərin əsas məğzini əks etdirən hissəsinin müəyyən başlıq altında verilməsi. Xüsusi nəzərə çarpdırılan materialın başlığa nisbətən kiçik, lakin əsas mətnlə müqayisədə böyük şriftlərlə yığılaraq, diqqətəlayiq detalların yerləşdirilməsi.

**BATİQRAFİK ƏYRİ** (*yun. bathys – dərin + yun. grapho – yazıram, təsvir edirəm*) – *Coğ.* Düzbucaqlı koordinatlar sistemində su hövzələrinin dərinliklərini dəqiq şəkildə əks etdirən əyri xətt.
**BATİSKAF** (*yun. bathys – dərin + yun. skapos – gəmi*) – *Coğ.* İçərisində 1-3 tədqiqatçı və cihazlar yerləşən, yüksək təzyiqə davamlı metaldan hazırlanmış, sualtı tədqiqatlarda istifadə olunan, özü hərəkət edən aparat.
**BATİTERMOQRAF** (*yun. bathys – dərin + yun. therme + yun. grapho – yazıram, təsvir edirəm*) – *Coğ.* Suyun yuxarı qatlarında temperaturun şaquli xətt üzrə dəyişməsini fasiləsiz qeydə alan cihaz.
**BAYES ANALİZİ** – *İnf.* Model parametrləri və model parametrlərinin funksiyaları üçün posterior ortalama təxminləri və etibarlı intervalları hesablamaq, həm aralıq və model əsaslı hipotez testlərini həyata keçirərək Bayes faktorlarının modellərini qurmaqla Markov zənciri Monte Carlo üsullarından birini istifadə edərək görmə qabiliyyətini yoxlamaq üçün geniş qrafik alətlərlə aparılan analiz.
**BAZARLARIN KONVERGENSİYASI** – *Jur.* Mediaholdinqlərin kütləvi informasiya vasitələrindən əlavə reklam agentlikləri, sənaye şirkətləri, kinoteatr şəbəkələri və efirdən kənar layihələr hazırlamaqla iri kommunikasiya və istehsal şirkətlərinin fəaliyyət sahəsinin genişlənməsi.
**BAZİS TƏDRİS PLANI** – *Ped.* Təhsil müəssisəsinin növündən asılı olaraq tədris yükünün yaş, fizioloji-gigiyenik normativləri əsasında işlənib hazırlanması. Təlim pillələrini, siniflər üzrə respublika və məktəb komponentlərinin öyrənilməsinə ayrılmış tədris vaxtının bölünməsini və təlimin müddətini müəyyən edən plan.

**BEKRONİM** (*ing. back-arxa, yun.d. onuma-ad*) – *Dilç.* Mövcud söz əsasında yaradılan, yaxud ona yeni məna verən abreviaturalar. Məsələn, təhsildə onlayn dərslərin keçirilməsi üçün kompüterdə proqram dillərinin qısaldılması.
**BENTAL** (*yun. bentho – dərinlik*) – *Tex.* Dənizlərdə və şirinsulu hövzələrdə *bentosun* yaşadığı dib hissəyə yaxın sahə, su qatı. B. zona su mühitinin bölündüyü iki böyük sahədən biridir.
**BENTOS** (*yun. benthos – dərinlik*) – *Tex.* Dənizlərin və şirinsulu hövzələrin dibində *qruntun* üstündə, yaxud içində yaşayan canlı orqanizmlərin məcmusu.
**BERQŞTRİX** (*alm. berg – dağ + alm. strich – xətt*) – *Tex.* Topoqrafik xəritələrdə horizontalların üzərində qoyulan və yamacın meylini göstərən kiçik cizgi.
**BETA ŞTAMMI** – *Tib.* Koronavirusun çoxsaylı mutagen formaları var. Bunların içində xüsusi seçilən, beta – Cənubi Afrika ştammı hesab edilir.
**BETAKAM** – *Jur.* Studiya və studiyadankənar televiziya məhsullarının hazırlanmasında istifadə olunan standart videoyazı formatı.
**"BEYİN AXINI"** – *Ped.* Yüksək ixtisaslı kadrların yüksək məvacib, rahat iş və yaşayış əldə etmək məqsədi ilə iqtisadi, sosial-siyasi baxımdan zəif inkişaf etmiş ölkələrdən inkişaf etmiş ölkələrə miqrasiya prosesinin şərti adı.
**BEYİN HƏMLƏSİ** – *Ped.* Şagirdlərdə öz fikirlərini sərbəst ifadə etmək, ortaya çıxan problemi həll etmək üçün düşünməyi bacarmaq, onlarda özünəinam hissi yaratmaq, təhsil alanın təfəkkürünü inkişaf etdirmək məqsədi ilə tətbiq olunan interaktiv təlim üsulu.
**BEYİN ORAĞI** – *Tib.* Xoruz pipiyindən başlayaraq daxili ənsə protuberansına qədər davam edərək yarımkürələrin

arasına girərək onları bir-birindən ayıran, sərt qişanın digər törəmələri ilə birlikdə beynin təsbitində iştirak edən, yarımkürələrin yerdəyişməsinin qarşısını alaraq yuxarı və aşağı sagittal cibləri əhatə edən sərt qişadan əmələ gəlmiş orağabənzər formalı, sagittal istiqamətdə yerləşmiş möhkəm törəmə.
**BEYNƏLXALQ QİYMƏTLƏNDİRMƏ** – Ped. Monitorinqlər vasitəsilə ölkədə təhsilin vəziyyəti haqqında məlumat əldə etmək, həlli tələb olunan daha əhəmiyyətli problemləri üzə çıxarmaq, onları araşdırmaq, nəticələri xarici ölkələrlə müqayisə etmək imkanı yaradan qiymətləndirmə.
**BƏLİRTİM** – *İqt.* Hesablama sisteminin aparat vasitələri ilə aparılmasında verilən xüsusi xarakteristikalar haqqında informasiya.
**BƏRK ŞİŞ** *(lat.d. tumor solidus) – Tib.* Orqanizmin müəyyən yerində tərkibində kistoz boşluqlar olmayan bərk şişin yaranması.
**BİFURKASİYA –** *Pol.* Müəyyən prosesin həllində iki mümkün varianta şaxələnmə.
**BİLL** *(ingilis hili, latın hulla - möhür, möhürlənmiş sənəd) – Hüq.* Deklarativ xarakteri daşıyan, qəbulu könüllü olan, anqlosakson hüquq sisteminin bəzi beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş formaların onların parlamenti, yığıncağı tərəfindən qəbul edilməsinə göndərilən qanun layihəsinə və ya bəyannaməyə Bill deyilir.
**BİLD-REDAKTOR** – *Jur.* Foto agentliyinin, dövri mətbuatın və ya internet nəşrlərinin fotoillüstrasiyaların axtarışı və seçiminə görə məsul olan şəxsdir. Baş redaktor tərəfindən icazə verildikdən sonra nömrə çapa gedir.
**BİNATRİD** (*yun. hi-iki və natrid- təbii) – Dip.* Eyni zamanda hər iki dövlətin vətəndaşı olan ikili vətəndaş binatrid adlanır.

**BİOFİLOTA** (yun. *bios* – həyat + yun. *philos* – doğma) – *Bio.* Müəyyən bir regionun tarixən formalaşmış canlı aləmi, xüsusilə qapalı ərazilərdə, coğrafi arealda öz fərdiliyini daha aydın nümayiş etdirən arealın florası və faunası. B. *biota* termininə nisbətən daha konkret məna kəsb edir.
**BİOGEN** (yun. *bios* – həyat + lat. *genes* – mənşə) – *Tex.* Canlı orqanizmlərin həyat fəaliyyəti ilə əlaqədar olan, onlardan törəyən. Eləcə də, süxurların biogen elementləri, torpağın münbitləşdirilməsinin biogen üsulları, biogen çöküntülər, biogen relyef.
**BİOGEN AMİL** – *Bio.* Ətraf mühitdə canlı orqanizmlərin həyat və fəaliyyəti ilə əlaqədar olan bütün faktorların cəmi.
**BİOGEN ELEMENTLƏR** (*yun. bios – həyat + lat. genes – mənşə + lat. elementum – başlanğıc, ilkin maddə*) – 1) *Bio.* Orqanizmlərin əsas kütləsini təşkil edən, onların tərkibində həyat üçün zəruri bioloji funksiyalar yerinə yetirən kimyəvi elementlər.
**BİOGEN RELYEF** – *Bio.* Canlı orqanizmlərin həyat fəaliyyəti nəticəsində əmələ gələn Yer səthi formalarının cəmi.
**BİOİNERT** – *Bio.* Materialın xüsusiyyətindən asılı olaraq canlı orqanizmin ona qarşı passiv münasibəti.
**BİOMEXANİKİ TEST** – *Tib.* Sümük-implant mexanizm və canlı toxuma səthləri arasındakı və ya toxumalar arasındakı fiziki xüsusiyyətləri təyin edilməsi üçün aparılan test.
**BİOMETR** – *Tib.* Toxuma tənəffüsünü tədqiq etmək üçün cihaz.
**BİOMETRİYA** – 1.*Tex.* Statistikanın bioloji hallara tətbiqi. 2.*Tex.* İnsanların fərdi və unikal xüsusiyyətlərinə görə fizioloji-subyektiv parametrlərindən istifadə etməklə şəxsiyyətin identifikasiya olunması texnologiyasıdır. Biometrik xassələrə əsaslanan, insanın müəyyən məhdud çərçivədə

unikal əlamətləri üçün avtomatlaşdırılmış sistemlərin təşkil edilməsində istifadə olunur. İstifadəçinin verifikasiyası və identifikasiyası üçün metodlar işləyib hazırlayan elmlərin tətbiqi sahəsi.

**BİOMONİTORİNQ** – *Tib.* Toxumalarda və bioloji mayelərdə toksik maddələrin və onların metobolitlərin miqdarının tədqiq edilməsi.

**BİOMOTOR** – *Tib.* Ağciyərlərin süni ventilyasiyası üçün aparat.

**BİONİKA –** *Bio.* Bioloji sistemlərin fəaliyyətini sistem kimi modelləşdirən və ya təkrarlayan aparat konstruksiyalarının yaradılması baxımından canlı orqanizmləri, onların xüsusiyyətlərini və həyat funksiyalarını yerinə yetirmə imkanlarını öyrənən elm.

**BİONTEKS** – *Tib.* Koronavirus pandemiyası ilə bağlı Almaniyada hazırlanmış peyvənd. Yeni koronavirusun qarşısını almaq üçün, yəni epidemiyaya qarşı yeni dərman preparatlarının biri.

**BİOPREPARATLAR –** *Tib.* Xəstəliklərin müalicə və profilaktikası üçün istifadə olunan bioloji mənşəli preparatların ümumi adı .

**BİOPSİYA –** *Tib.* Diaqnostik məqsədlə canlı orqanizmdən mikroskopik müayinə üçün götürülmüş toxuma tikəsi.

**BİOPOTRİT** *(lat.d.bi-iki, yun.d.patris-vətən)* – *Pol.* Bir şəxsin eyni zamanda bir çox dövlətin vətəndaşlığını qəbul etməsi.

**BİOPTAT –** *Tib.* Biopsiya yolu ilə alınmış material.

**BİOSED** – *Tib.* Biogen stimulyator və regenerasiya proseslərini sürətləndirən maddə.

**BİOTA** (*yun. biote – həyat*) – *Bio.* Tarixən müəyyən ərazidə məskunlaşmış bitkilərin, heyvanların, mikroorqanizmlərin məcmusu.

**BİOTOP** (*yun. bios – həyat + yun. topos – yer*) – *Bio.* Tərkibindəki minerallar və üzvi maddələrlə, temperaturu, rütubətliliyi, işıqlanma dərəcəsi, təzyiqi ilə, həmçinin mühitin turşuluğu, mexaniki və fiziki xassələri ilə xarakterizə edilən müəyyən *biosenozun* məskən saldığı sahə.

**BİOUYĞUNLAŞMA** – *Tib.* Bədən quruluşunu və funksiyasını imitasiya etmək qabiliyyətinə malik olma.

**BİOUYĞUNLUQ** – *Tib.* Biouyğunluq materialın allergen, kanserogen, lokal sitotoksik və sistemik təsirləri ilə təyin olunaraq, materialın tətbiq olunduğu nahiyə tərəfindən heç bir neqativ reaksiya (immun, iltihabı) doğurmadan funksional fəaliyyət göstərməsi.

**BİPATRİDLƏR** (*yunan hi - iki və patris - vətən*) – *Pol.* Hər iki dövlətdə formal qeydiyyata alınaraq, hər iki dövlətin qanunlarına tabe olan və himayəçiliyindən istifadə edə bilən iki vətəndaşlığı olan şəxslər.

**BİRBAŞA OPERAND** – *İnf.* Verilənlərin ünvanda olan qiyməti, yaxud komandanın yönləndirildiyi verilənlərdən deyil, komandalarda olan verilənlərdən istifadə edən operand.

**BİRENLİ ŞRİFT** – *İnf.* Yazı makinasında olduğu kimi simvolun öz enindən asılı olmayaraq hər bir simvolunun üfüqi istiqamətdə ölçüsü eyni olan şrift. Belə şriftlərdən matrisli və ləçəkli printerlərdə tez-tez istifadə olunur.

**BİRGƏ KATALOQ** – *İnf.* Kompüter şəbəkəsindən başqa istifadəçilərin sərbəst istifadə edə bilməsi üçün istifadəçinin öz kompüterində açdığı hər hansı qovluq.

**BİRGƏ ÖYRƏNMƏ** – *Ped.* İkitərəfli əməkdaşlıq planına əsasən həyata keçirilən mənimsəmə prosesi.

**BİRGƏ TƏLİM** – *Ped.* İkitərəfli əməkdaşlıq planına əsasən, nəzərdə tutulmuş treninq.

**BİRİNCİ DALĞA** – *Tib.* Əvvəlki mərhələdə koronavirus infeksiyasına yoluxanların sayının artması.

**BİTKOİN** – *İqt.* Bitkoin elektron pulun bir forması olub birranqlı bitkoin şəbəkəsində heç bir vasitəçi, mərkəzi bank və ya administrator olmadan bir istifadəçidən digər istifadəçiyə göndərilə bilən mərkəzləşdirilmiş rəqəmsal pul vahididir.

**BİZNES ANALİTİKASI** – *İqt.* Biznes analitikası rəhbər işçilər, menecer və digər korporativ son istifadəçilərə əsaslandırılmış biznes qərarları qəbul etməkdə kömək edən faydalı məlumatların təqdim edilməsi və verilənlərin analizi üçün nəzərdə tutulan texnoloji prosesdir.

**BİZNES SAYTI** – *İnf.* Korporativ, yaxud biznes saytı müəyyən bir şirkətin təklif etdiyi məhsulları və ya xidmətləri- internetdə təmsil edən saytdır. Biznes saytın görünüşü brendin stilinə uyğun olaraq dizaynında korporativ rənglər və şriftlərdən istifadə olunur.

**BLENDER** – 1.*İnf.* 3D kompüter qrafikasının yaradılması üçün professional sərbəst və açıq proqram təminatıdır. Bura modelləşdirmə vasitələri, animasiyalar, vizualizasiya videonun səsli montajı və sonradan emalı "qovşaqlar" vasitəsilə tərtib edilməsi həmçinin interaktiv oyunların yaradılması daxildir. Peşəkar komanda tərəfindən təkmilləşdirilməsi səbəbindən sürətli və sabit inkişaf etdiyi üçün hazırda pulsuz 3D redaktorlar arasında ən populyardır. 2. *Kul.* Yumşaq qidaları, məsələn, qaynadılmış tərəvəzləri, ətləri, balıqları və s. püre halında doğramaq və çırpmaq üçün nəzərdə tutulmuş cihaz.

**BLOKÇEYN** – *İnf.* Blokçeyn kriptoqrafiya vasitəsilə əlaqələndirmiş bloklar adlanan, daima artan yazıların, fərdi mesajların üçüncü şəxslər tərəfindən oxunmasının qarşısını

almaq üçün məlumatların ötürülməsini şifrləyən və qoruyan bir prosesdir

**BLOKLAMA ƏMSALI –** *İnf.* Blok qurğu, yəni verilənləri ayrı-ayrı baytlarla deyil, bloklarla emal edən qurğu ilə aparılan mübadilədə verilənlər porsiyasının ölçüsü.

**BLOKLU ŞİFR –** *İnf.* İlkin məlumatın müəyyən uzunluqlu bloklara bölündüyü və blok-blok şifrli mətnə çevrildiyi şifr.

**BLOKŞƏKİLLİ KURSOR –** *İnf.* Ekranda piksellə ölçülən eni və hündürlüyü mətn rejimində olan simvol oyuğunun ölçülərinə uyğun gələn kursor.

**BLOQ –** *İnf.* Əsas məzmunu müntəzəm əlavə olunan yazılar, görüntülər, yaxud multimedia olan veb-sayt.

**BLUEL** – *Ped.* Obyekt yönümlü proqramlaşdırmanın tədrisini dəstəkləmək üçün nəzərdə tutulmuş tədrisdə istifadə edilən, həm də kiçik həcmli proqramların işləyib hazırlanması üçün əlverişli olan Java dilində yaradılan interaktiv təlim.

**BLUM TAKSONOMİYASI** – *Ped.* Sagirdlərdə təfəkkürü inkişaf etdirmək üçün dərketmənin altı səviyyəsini müəyyən edən nəzəriyyə.

**BLUTUS –** *İnf.* Verilənlərin simsiz ötürülməsi texnologiyası.

**BOD –** *İnf.* Verilənlərin ötürülmə sürətinin ölçü vahidi.

**BODMEREYA –** *Dən.* Gəminin girov qoyulması müqabilində alınan vəsaitdir. Kapitalın bu vəsaitindən yalnız gəminin reysinin təşkil olunması üçün istifadə edə bilər.

**BON** *(lat. bonus - yaxşı, rahat)* – 1.*İqt.* Xəzinədarlıq, müəssisə, birliklər və ya xüsusi firmalar tərəfindən buraxılaraq tədiyyə vasitəsi kimi istifadə edilən qısamüddətli borc öhdəlikləri. 2. *İqt.* Pulun dəyişməsi şəklində dövriyyəyə müvəqqəti buraxılan kağız-pul nişanəsi. “Bonlar” termini ən

müxtəlif kredit sənədlərinə, qısamüddətli xəzinədarlıq öhdəliklərinə, bank çeklərinə poçt və digər sənədlərə tətbiq olunur.

**BONİFİKASİYA** *(fr. və lat. bonification, bonus - yaxşı, xeyirxah, iltifat) – İqt.* Əmtəənin keyfiyyəti müqavilədə göstəriləndən yüksək olduqda şərtləşdirilmiş qiymətinə əlavə və ya əks bonifikasiya-əmtəənin keyfiyyəti müqavilədə göstəriləndən aşağı olduqda bu əmtəənin qiymətində güzəşti ifadə edir.

**BONİTET** – *İqt.* Tədiyyə qabiliyyəti, borcalanın borcu ödəmək imkanının qiymətləndirilməsi. Kredit reytinqi tədiyyə qabiliyyətinin göstəricisi.

**BONİTİROVKA** – *Heyv.* Məhsuldar və cins heyvanların keyfiyyətini onların aqronomik keyfiyyətlərinə görə müqayisəli müəyyən etmək üçün qiymətləndirmə.

**BONİTİROVKA TORPAQLAR** – *Tor.* Torpaqların tədqiqatı əsasında torpaq yerlərinin keyfiyyətinin (bal ilə) müqayisəli xarakteristikası. Torpaqların, torpaq kadastrının aparılması, meliorasiya və i.a. iqtisadi qiymətləndirilməsi üçün lazımdır.

**BONUS** – 1.*İqt.* Əlavə mükafat; 2. Faydalı razılaşma, yaxud saziş şərtlərinə müvafiq satıcının alıcıya etdiyi əlavə güzəştlərdir.

**BONUS-MALUS** *(lat. bonus-malus - yaxşı-pis) – İqt.* Müəyyən dövr ərzində sığorta riskinin reallaşmasından və ya reallaşmamasından asılı olaraq sığortaçı tərəfindən ən azı bir il müddətinə sığorta tariflərinin uyğun olaraq artırılması, yaxud azaldılması. Sığorta tarifinin dəyişdirilməsi sığortalanmaya marağı artırmaq məqsədi ilə tətbiq olunur.

**BORDERO** – 1. *İqt.* Mühasibat sənədlərindən, hesablardan çıxarış. Bank tərəfindən reallaşdırılan müxtəlif qiymətli kağızların siyahısı;

**BORGES** – *Jur*. Qəzetlər istifadə olunan hündürlüyü 9 punkta (3,38 mm) bərabər mətbəə şrifti.
**BRADİFAGİYA** – *Tib*. Azan sinirin və ya dil-udlaq sinirinin birtərəfli zədələnməsi, isteriyalar zamanı udmanın ləngiməsi, çətinləşməsi.
**BRADİFAZİYA** – *Tib*. Nitqin ləngiməsinin müxtəlif formalarının ümumi adı.
**BRADİFRENİYA** – *Tib*. Bütün psixi funksiyaların ləngiməsi.
**BRAKER –** *İqt*. Müqavilənin şərtlərinə və müəyyən olunmuş standartlara uyğunluğunu və istehlaka dair onun yararlığını, malın keyfiyyətini müəyyən edən rəsmi əmtəəşünas.
**BRAKERAJ –** *İqt*. Xüsusi dövlət təşkilatları tərəfindən həyata keçirilərək malın keyfiyyətinin, onun rəsmiləşdirilməsini və müəyyən olunmuş standartlar yaxud saziş şərti ilə yığılmasının uyğunluğunun yoxlanılması.
**BREYK –** *İqt*. Balanslaşdırılmayan (breyk) pul, debetin kreditə bərabər olmaması.
**BUFER** – *İnf*. Verilənləri saxlamaq üçün verilənləri yaddasaxlama qurğusunda yerləşdirənə qədər və ya oradan oxuduqdan sonra müvəqqəti saxlamaq üçün yaddaşda ayrılmış yer.
**BUİLDBOX** – *İnf*. İnkişaf etməkdə olan texniki bacarıq və biliklərindən asılı olmayaraq istənilən istifadəçiyə gözəl və rəngarəng oyunlar yaratmağa imkan verən proqram təminatıdır.
**BULUD HESABLAMALAR** – *İnf*. Hesablama resurslarını yerləşdirmək və bununla bağlı xidmətləri sonuncu istifadəçilərə təqdim etmək üçün internetdən istifadəyə imkan verən texnologiya.
**BUSTER DOZA** – *Tib*. Buster peyvəndin gücləndirici dozasıdır. O, müxtəlif infeksiyalara qarşı vaksinasiyada tətbiq

olunur. Dünyanı cənginə alan yeni növ koronavirusdan (COVID-19) xilas olmağın əsas yolu vaksinasiyadır. Yoluxanların sayında "omikron" ştammının dominantlıq etdiyini nəzərə alaraq, onda hazırkı dövrdə peyvəndləmənin, xüsusilə də "buster" dozanın sürətlənməsi nəzərə alınır.

**BUTİK-OTEL –** *Tur.* Xüsusi interyer dizaynına malik, nömrələri ən yüksək səviyyəli otaq kateqoriyasına aid olan mehmanxana.

**BÜKÜLƏN MENYU** – Dialoq boksu şəklində ekranın istənilən yerində qoyula bilən menyu. Belə dialoq boksu elə "bükülür" ki, onun yalnız başlığı görünür.

## -C-

**CARRİER –** 1. *İnf.* Verici qurğunun generasiya etdiyi və amplitudanı, yaxud tezliyi dəyişməklə informasiya daşıyan siqnal vasitəsilə modullaşdırılması mümkün olan müəyyən tezlikli siqnal. 2. *İnf.* Müştərilərə telefon və başqa rabitə xidmətləri göstərən şirkət; Rabitə xəttinin tipini konkretləşdirmək üçün istifadə olunur.

**CASSANDRA** – *İnf.* Cassandra adı serverlərdə böyük həcmli strukturlaşdırılmış məlumatları emal etmək üçün nəzərdə tutulmuş paylaşmış verilən bazasını idarəetmə sistemidir.

**CƏNGOLMA** – *Tib.* Tibbi nailiyyətlər əsasında əzələlərin qeyri-iradi yığılmasını, gərginləşməsini əks etdirən nəzəriyyə.

**CIĞIR** – *İnf.* Əyilgən və ya sərt diskdə verilənləri saxlamaq üçün çoxlu sayda dairəvi zonalardan biri.

**COKER** – *İnf.* Bir, yaxud bir neçə simvolu əvəz edən qrup simvolu. Sual işarəsi istənilən bir simvolu təmsil edə bilər; ulduz simvolundan istənilən simvolu və ya simvollar qrupunu təmsil etmək üçün istifadə olunur.

**COYSTİK** – *İnf.* Kompüter oyunlarında istifadə olunan populyar qurğu.
**CÜTLƏRLƏ İŞ** – *Ped.* Təlim prosesində hər hansı bir tapşırığın, qərarın, problemin yerinə yetirilməsində şagirdlərin bir-birinə kömək etmələri, görülən işlərin (sinif, ev tapşırıqlarının) nəticələri barədə fikir mübadiləsi aparmaları.
**CÜTLƏRLƏ OXU** – *Ped.* Şagirdlərin materialla tanış olmalarına, xüsusilə də bunu fəal bir şəkildə həyata keçirmələrinə kömək etmək üçün istifadə olunan metod.

## -Ç-

**ÇAP MEDİASI** – *Tex.* Avtomatlaşdırılmış qurğularla rəqəmsal üsullarla çoxsaylı nüsxə çıxarıla bilən, mexaniki və ya elektron şəkildə istehsal olunan hər hansı bir dövri nəşrlərin, məcmuələrin çap üsulu ilə çoxaldılması.
**ÇAP SPULERİ** – *Tex.* Çap üçün tapşırıqları emal edən, onları nizamlayan və ardıcıllıqla printerə göndərən növbədə olan tapşırıqları idarə edən proqram.
**ÇƏNBƏR İMPLANT –** *Tib.* Çənənin aşağı nahiyəsində iki ədəd bərkidici vint aşağı sərhəddə transkotikal yerləşdirilərək ağızda köpək dişi nahiyəsindən abatment kimi istifadə olunaraq fiksasiya olunmuş lövhəyə malik transossal implant forması.
**ÇƏTİNLİK DƏRƏCƏSİ** – *Ped.* Təhsildə nəzəri və ya empirik formada ölçülə bilən çətinlik xarakteristikalarının cəmi başa düşülür.
**ÇİFİRİZM** – *Tib.* Hər hansı bir otu və ya olduqca qatı dəmlənmiş çayı içib keflənmək; çifirin qəbulu psixomotor oyanmaya səbəb olur

**ÇİNQL –** *Jur.* Radio verilişlərində anonsları, həmçinin rubrikaları bir-birindən ayıran, yaxud da reklam çağırışını, reklam anonsunu müşayiət edən musiqi parçası.
**ÇİPSET –** *İnf.* Konkret funksiyanı yerinə yetirmək üçün işlənib hazırlanmış iki və ya daha artıq mikrosxem.
**ÇOXHƏCMLİ İNTELLEKT** – *Ped.* Geniş əhatə dairəsi olan ağıl, zehin, fikir.
**ÇOXMƏDƏNİYYƏTLİ TƏHSİL** – *Ped.* Müxtəlif xalqların mədəniyyətini özündə əks etdirən, onların dünyagörüşünün, yaradıcılığının tələblərinə cavab verən təhsil.
**ÇOXMƏNTİQLİ DƏRKETMƏ** – *Ped.* Müəyyən məsələnin təhlilində anlama, başa düşmə, öz düşüncəsi ilə qavramaqla bir nəticəyə gəlmə.
**ÇOXSƏVİYYƏLİ MODELLƏŞDİRMƏ** – *Ped.* Bir qrup obyektləri başqa qrup obyektlərlə əvəz olunmasının nəzəriyyəsi və obyektlərin xüsusiyyətlərinin onların modelləri üzərində tətbiq olunması.

## - D-

**DAXİLİ İRRİQASİYA** – *Tib.* Kök formalı implantı orqanizmə yerləşdirmək üçün yuva yaradarkən soyuducu məhlulun burğac cisminin daxilindən keçərək əməliyyat nahiyəsinə yerləşdirmə metodu. Bu metodla kök formalı cisim implant yuvasının daxilinə ötürülür.
**DAXİLİ MODEM** – *İnf.* Kompüterlərin sistem blokunda genişləndirmə lövhələri üçün nəzərdə tutulmuş yuvaların birinin daxilində yerləşdirilən modem.
**DAKRİOSİSTOETMOİDOSTOMİYA** (*dakriosisto- + anat. os ethmoidale xəlbir sümüyü + yun. stoma dəlik)* –

*Tib.* Göz yaşı axarının qarşısında maneə yarada biləcək xəlbir sümüyü labirintinin müəyyən hissəsini xaric etməklə yerinə yetirilən dakriosistorinostomiya.

**DAKRİOSİSTOQRAFİYA** (*dakriosisto- + yun. grapho yazmaq, təsvir etmək) – Tib.* Göz yaşı kisəsinin müayinə metodu.

**DAKRİOSİSTORİNOSTOMİYA** (*dacryocystorhinostomia; dakriosisto- + yun. rhis, rhinos burun + stoma dəlik*) – *Tib.* Göz yaşını burun boşluğuna axıdan yolu açmaq üçün göz yaşı kisəsi ilə burun boşluğu arasında icra olunan cərrahi əməliyyat

**DAKRİOSİST** (*dakrio- + yun. kystis kisə) – Tib.* Göz yaşı kisəsinin iltihab prosesi.

**DAKTİLALGİYA** (*dactylalgia; daktil- + yun. algos ağrı*) – *Tib.* Sinirlə bağlı barmaqlarda keyidici ağrı .

**DAKTİLOMEQALİYA** (*dactylomegalia; daktilo- + yun. megas, megalu böyük) – Tib.* Əl və ayaq barmaqlarının həddindən artıq böyük olması. Bu inkişaf anomaliyası ilə bağlıdır.

**DAKTİLOSKOPİYA** (*daktilo+ yun. skopeo baxmaq, gözdən keçirmək) – Tib.* İstintaq prosesində barmaq izlərinin tədqiqi.

**DAKTİLOLOGİYA** (*daktilo + yun. logos söz) – Tib.* Əl (barmaq, daktil) əlifbasının köməyi ilə lal-karların ünsiyyətlərini bərpa etmə vasitəsi.

**DAMBO** –1. *İqt.* Məhsulun nominal dəyərindən aşağı satışı zamanı qiymətli kağızlar kursunda itki; 2. *İqt.* Uçota qəbul olunmaq üçün müştərinin bankın xüsusi ödəmə vekseli (komissiyasından əlavə, faiz və poçt xərcləri).

**DAMNİFİKASİYA** – *İqt.* İstehsal prosesində zərər çəkmə.

**DAMNO –** *İqt.* Vekselin komissiyaya inkassa edilməsi üzrə kredit idarələrinin etdiyi xərclər əsasında pulun nominal və kurs dəyəri arasında olan fərq.

**DAMP** – *İnf.* Mətn məlumatının axtarışı məqsədilə, eləcə də proqramın hazırlanması zamanı ekranda, yaddaş sahəsində və ya faylda olanların ekrana, fayla, yaxud çapa çıxarılması. *Dampın* bir neçə əsas növü vardır: onaltılıq damp, simvollu damp və qarışıq damp.

**DAOSİZM** – *Fəl.* Cəmiyyətdə itəatkarlıq və möminlik təlqin edən dini, fəlsəfi, etik təlim.

**DARAQ ATROFİYASI** – *Tib.* Sümüyün inkişaf prosesinin tezorbsiyası nəticəsində alveollar şəklində çıxıntının həcminin azalması.

**DARAQ FİKSASİYASI** – *Tib.* Xəstələrdə hərəkətin itməsini nəzarətdə saxlayan, müşahidə olunan kliniki termin.

**DARAQ XƏRİTƏLƏNMƏSİ –** *Tib.* Zond və ya xüsusi ölçmə alətləri vasitəsilə lazım olan nayihələrdə anesteziya yolu ilə yumşaq toxumaların deşilərək ölçülməsi.

**DARAQ QORUNMASI** – *Tib.* Diş əkilməsi prosesində çıxarılan dişdən dərhal sonra qraft materialının diş yuvasına yerləşdirilməsi. Bu proses sümük sorulmasının qarşısını alaraq alveolar çıxıntının qüsuruna yol vermir və yumşaq toxumaların konturlarını qoruyub saxlayır.

**DATAQRAM** – *İqt.* İnformasiya paketinın şəbəkə ilə ötürülməsi. *Bu prosesdə* eyni bir alıcıya ünvanlanmış əvvəlki paketlərə istinad olur.

**DATAMER** – *İnf.* Datamer, heç bir kod olmadan komandalar tez bir zamanda layihələrin verilən toplusunu birləşdirərək müəssisələrə bütün ilkin verilənləri bloklamadan çıxmağa kömək edən analitik həyat dövrü platformasıdır.

**DAVRANIŞ ANALİTİKASI** – *İqt.* Konkret biznes nəticələrini uğurla reallaşdırmaq üçün optimallaşdırma imkanlarını müəyyən etmək üçün elektron ticarət, oyun, sosial media və digər tədqiqatlarda istifadə olunmaqla, insanların hərəkətləri haqqında verilənlərin təqdim edilməsinə yönəlmiş verilənlər analitikasının bir sahəsidir.

**DEAERASİYA XƏTTİ** – *Tex.* Fəzanın sərbəst atmosferi ilə maye motor yanacağının saxlanma rezervuar ilə rabitəni təmin edən kompleks avadanlıqlar.

**DEBETLƏŞMƏ –** *İqt.* Uçot verilməsində hesabın debetində, yəni onun sol tərəfində qeyd aparılan yer.

**DEBİRS –** *İqt.* Əsas xidmətlərin həyata keçirilməsi zamanı müştərinin əlavə, yəni qaytarılmayan xərclər çəkməsi. Daha çox qeydiyyat rüsumunun ödənişi, yaxud imzaların notarius tərindən təsdiqinə görə ödəniş.

**DEBİTANT –** *İqt.* Xırda məhsulların satışı ilə məşğul olan ticarətçi.

**DEBİTOR –** *İqt.* Müəyyən müəssisəyə, təşkilata, banka pul, əmlak borcu olan hüquqi, yaxud fiziki şəxs.

**DEDAKTEBL –** *İqt.* Sığorta şirkətinin sığortaçının iddia ərizəsinin son qeydə alınmasına qədər verdiyi avans, ödəniş hissəsi.

**DEDRİNQ –** *İqt.* Dedrinq adi səhmlərin yüksək dəyəri tələbi hüquqi ilə qiymətli kağızlar, yaxud öhdəliklər üzrə ödənişini göstərən nominal, yaxud bazarda kapitallaşmış kəmiyyətlərdə ifadə olunan, şirkətin bütün imtiyazlı səhmlərinin və adi səhmlərinin dəyəri və bütün borc kapitalının dəyəri arasında olan münasibətdir.

**DEFEKTOLOGİYA** (*lat. defektus – çatışmazlıq, nöqsan və logos – elm, anlayış) – Tib.* Müəyyən qüsurları öyrənən elm sahəsi.

**DEFLYASİYA** *(lat. deflatio - üfürmə, sovurma, köpdürmə)* – 1. *İqt.* Əmtəə və xidmət qiymətlərinin ilin qiymətlərinə görə yenidən hesablanması prosedurası. 2. *İqt.* Əmək haqqının dondurulması yolu ilə tətbiq edilən inflyasiyasının azaldılması. Pul kütləsinin müəyyən hissəsinin tədavüldən çıxarılmasında ifadə olunan dövlət tədbirləri kompleksi.

**DEFLYATOR** – *İqt.* Qiymət indeksinə bərabər olaraq iqtisadi göstəriciləri pul ifadəsində baza dövrü ilə müqayisə etmək üçün istifadə olunan əmsal.

**DEFOLT** – *İqt.* Öz borcunu ödəyə bilməməsi haqqında borc alanın əvvəlcədən müəyyənləşdirilmiş vaxtda xəbərdarlıq etməsi.

**DEHİDRASİYA** –1. *Tex.* Qaz axınından suyun xaric edilməsi. 2. *Tex.* Avadanlığın gəmi vasitəsilə sahildən yola salınması və dənizdəki yerinə gətirilməsi prosesi.

**DEKLARATİV** (*lat. declarativu.s-təntənə ilə bildirilmiş*) – *Hüq.* Təntənəli surətdə başqaları üçün icrası məcbur olmayan deklarasiya xarakteri daşıyan, elanetmə, bəyanetmə.

**DEKLARATİV BİLİK** – *Ped.* Hər hansı bir sahə ilə bağlı məlumat xarakterli biliklər.

**DEKLARATİV DİL** – *İnf.* Müəyyən sahəyə aid faktların proqramçı tərəfindən təsvir edildiyi, həmin faktlardan uyğun nəticələrin çıxarılmasının isə dilin interpretatoruna həvalə olunduğu proqramlaşdırma dili.

**DEKOMPRESİYA** (*de- + lat. compressio sıxma, sıxılma*) – *Tex.* Barometrik təzyiqin insanı əhatə edən mühitdə kəskin azalması.

**DEKORT** – *Tex.* İstehsal olunan məhsulun, əmtəənin güzəştli qiymətlə satılması.

**DEKORTİKASİYA** *(decorticatio; de- + lat. cortex, corticis qabıq)* – 1) *Tib.* Neyrocərrahiyyədə bəzi xəstəliklərin

müalicəsində baş beyin yarımkürələri qabığının xaric edilməsi; 2)*Tib.* Müalicə prosesində hər hansı bir orqanın qabıq qatının xaric edilməsi.
**DEKUVERT** – *İqt.* Sığortalanan əmlakın dəyəri ilə sığorta ödənişləri arasındakı fərq.
**DEQAZASİYA –** *Tex.* Müəyyən ərazidən, obyektdən təhlükəli kimyəvi maddələrin kənar edilməsi və ya zərərsizləşdirilməsi tədbirləri.
**DEQAZATOR –** *Tex.* Neft axınından müxtəlif növ qazları xaric edən hər hansı proses.
**DELEGİTİMASİYA** (*lat. nte-ayrılma, uzaq-laşdırma və legitimuz-qammı, qanunilәşdirilmiş*) – *Hüq.* Aktın səlahiyyətlərinin heçə endirilməsi, legitimasiyanın, yaxud da siyasi hüquqi prosesin əksinə olan proses.
**DELİKT** (*lat. delictum - xəta, hüquq pozğunluğu*) – 1. *Hüq.* Cəmiyyət üçün zərərli olan, ona ziyan vuran və qanunla cəzalandırılan təqsirli əməl; 2. *Hüq.* Beynəlxalq hüquq normalarının və ya beynəlxalq öhdəliklərin pozulması.
**DELİMİTASİYA** (*sərhədlərin delimıtasiyası-sərhədlərin müəyyənləşdirilməsi*) – *Hüq.* Həmsərhəd qonşu dövlətlər arasında sərhəd xəttinin müəyyənləşdirilməsi zamanı qarşılıqlı razılıq əsasında coğrafi xəritəyə köçürülməsi ilə dövlət sərhədlərinin dəqiqləşdirilməsi.
**DELİRİY** – *Tib.* Hərəki oyanıqlıqla və sayıqlama ilə müşahidə olunan, görmə və eşitmə hallüsinasiyaları ilə gedən huşun hallüsinator tutqunlaşması.
**DELİSTİNQ** – *İqt.* Aşağı təminatlı qiymətli kağızların listinqdən, kotirovka siyahısından fond birjasında təminatsız çıxarılması.
**DELİVERİ** – *İqt.* Qarşılıqlı ticarətdə malın verilməsi haqqında yazılı sərəncam.

**DELKREDERE** – *İqt.* Sövdələşmənin icrasına görə komitentin maraqları naminə komissiyasının öz adından bağladığı zəmanətdir.

**DELTAKRON** – *Tib.* Koronavirusun yeni variantı. Kiprdə tapılan yeni ştam bundan əvvəl məlum olan iki variantın – "delta" və "omikron" variantlarının kombinasiyasıdır. Yeni ştam törədicilərinə müvafiq olaraq "deltakron" adlandırılıb.

**DELTA ŞTAMMI** – *Tib.* Delta variantı ilk dəfə 2020-ci ilin payızında Hindistanda aşkar olunub. Bu variant Rusiya və Britaniya da daxil olmaqla bir sıra ölkələrdə artıq dominant varianta çevrilib. Hindistan ştammı ikiqat mutasiyaya uğrayıb, hətta üçüncü mutasiya forması – delta-plyus yaranmışdır. Delta Plyus ştammı, virusun insan hüceyrələrinə nüfuz etmək üçün istifadə etdiyi bizvari zülalda yeni bir mutasiyadan ibarətdir. Delta ştammı ilə yaxından əlaqəli olduğundan, ona yunan əlifbasının digər hərf əvəzinə Delta Plyus deyilmişdir.

**DEMAR** *(fran. demarche-bərəkət, çıxış) – Pol.* Müəyyən ictimai-siyasi təşkilatın, aksiya qrupunun dövlətin və beynəlxalq təşkilatın yürütdüyü siyasi kursa, yaxud atdığı siyasi addıma etiraz əlaməti, yaxud da dəstək əlaməti olaraq digər siyasi subyektin siyasi aktı.

**DEMEKOLOGİYA** (*yun. demos – xalq + yun. oikos – məkan, ev + yun. logos – elm, təlim*) – *Eko.* Populyasiyanın formalaşma şəraitini, strukturunu, funksional xarakteristikasını, dinamikasını, daxili əlaqələrini öyrənən elm sahəsi, ekologiyanın bir bölməsi.

**DEMEREC** (*ing. demmurage*) – *İqt.* Malların hava, su, quru yol nəqliyyat vasitələrində qeyri-qanuni tutulub saxlanılmasına görə kompensasiyaların ödənilməsi.

**DEMİLİTARİZASİYA** (lat. *de* – qeyri, olmayan + lat. *militaris* – hərbi) –1) *Pol.* Müəyyən ərazidə hərbi qüvvələrin

yerləşdirməsinin qadağan olunması, hərbi obyektlərin, qurğuların ləğv edilməsi. 2) *Pol.* Beynəlxalq qanunlar, yaxud sazişlər əsasında bir dövlətə hərbi qüvvələr, hərbi sənaye yaratmağın qadağan olunması.

**DEMON –**1. *İnf.* Fon rejimində işləyən şəbəkə proqramı. 2. *İnf.* Müəyyən ödənişdən sonra avtomatik başladılan prosedur. 3. *İnf.* Hər hansı funksiya yerinə yetirilən zaman çağırılan istifadəçidən gizli xidməti proqram.

**DEMONETİZASİYA** – *İqt.* Əlvan metalların (qızıl və gümüş) pul funksiyalarının itirilməsi.

**DENOMİNASİYA** – *İqt.* Qəbul edilmiş qaydalara uyğun olaraq köhnə pul nişanlarının yenisi ilə əvəz edilməsi, buna əsasən pul tədavülünün qaydaya salınması. Haqq-hesabın asanlaşdırılması məqsədilə milli pul vahidinin iriləşdirilməsi.

**DENTAL GİPS** – *Tex.* Kalsium sulfat yarımhidratın alfa forması. Qraft materialı kimi istifadə olunmur.

**DENTAL İMPLANT** – 1. *Tib.* Protez konstruksiyaları üçün dayaq rolunu oynayan, əng və çənə sümüyünün üzərində və ya daxilində yerləşdirilən biouyğun vasitə. 2. Diş protezlərinin funksiyasını təmin etmək üçün çənə və əngin daxilində və ya üzərində cərrahi yolla yerləşdirilmək üçün dizayn olunmuş qurğu.

**DENUDASİYA** (*lat. denudatio – çılpaqlaşma*) – *Tex.* Yer səthini hamarlayan başlıca fiziki-kimyəvi proseslərdən biri kimi külək və axar suların ağırlıq qüvvəsinin təsiri altında *aşınma materiallarının* hündürlükdə yerləşən ərazilərdən aşağı sahələrə daşınması ilə çökəkliklərin dolması nəticəsində dağlıq relyefin səthi zəif dalğalı düzənliyə çevrilməsinə denudasiya düzənliyi deyilir.

**DENUDASİYA PLATOSU** (*lat. denudatio – çılpaqlaşma + fr. plat – hamar*) – *Tex.* Denudasiya proseslərinin tekto-

nik qalxma proseslərini üstələdiyi sahə nəticəsində ətraf ərazilərə nisbətən xeyli hündürdə yerləşən relyef forması,
**DENUDASİYA SƏTHLƏRİ** – *Tex.* Denudasiya prosesi nəticəsində tektonik proseslərin uzun müddət zəiflədiyi dövrdə yaranan və müxtəlif hündürlüklərdə yerləşən səthlər.
**DEONTOLOGİYA** – *Etika.* Əxlaq və mənəviyyat problemləri haqqında təlimi tədqiq edən etika bölməsi.
**DEPASSİVASİYA** – *Tex.* Hər hansı metalın üzərindəki oksid qatının müəyyən təsirlərlə itməsi, pozulması, zədələnməsi və ya aşındırılması.
**DEPONENT** – *İqt.* Əmək haqqını vaxtında almayan işçilər və ayrı-ayrı təşkilatların xeyrinə əmək haqqından tutulma həyata keçirilən, bank idarəsinə depozitə daxil edən (aliment və s.) vətəndaşlar yaxud hüquqi şəxslər .
**DEPONİR** (*lat. depouere - qorunub-saxlanılması üçün vermək*) – *İqt.* Vətəndaşların mülkiyyətinin qorunması üçün, yəni qiymətli kağızların və digər qiymətli əşyaların qorunub-saxlanılması üçün dövlət müəssisələrinə təqdim edilməsi.
**DEPOZİT** – 1. *İqt.* Banklara və əmanət kassalarına qoyulan əmanətlər. 2. *İqt.* Müştərilərin əmanətlərinin yerləşdirdiyi banka müəyyən tələblərinin mövcudluğunu təsdiq edən bank kitablarında qeydlər. 3. *İqt.* Kredit idarələrinə saxlanmaq üçün verilən qiymətli kağızlar (səhmlər və istiqrazlar). 4. *İqt.* Vergilərin, yaxud da gömrük rüsumlarının ödənilməsi üçün gömrük idarələrinə verilən maddi dəyərlər (adətən, pul və ya qiymətli kağızlar). 5. *İqt.* Hesablama Palatasına müqavilə ilə qeydiyyatdan keçən zaman müştərilər tərəfindən birjanın üzvü tərəfindən brokerə ödənilməli olan sabit məbləğin və ya fyuçers müqaviləsinin ümumi dəyərinin şərtlənmiş bir hissəsi olan pul məbləği.

**DEPOZİT BANK** – *İqt.* Cəlb edilmiş depozitlər hesabına hesablaşma krediti və etibara (vəkaləti) əsaslanan əməliyyatları həyata keçirən, əhalidən əmtəələri qəbul edən bank.
**DEPOZİTARİ** (*lat. tepoxı-saxlanmağa verilmiş şey; kənara qoyulmuş)* – 1. *Hüq.* Müəyyənləşdirilmiş konkret müqavilənin mətnini, onun təsdiq olunması haqqında sənədlərini, eləcə də valyuta və qiymətli kağızları saxlamaq, eləcə də lazım gəldiyi təqdirdə qaytarmaq barədə üzərinə öhdəlik götürən etibar edilmiş beynəlxalq təşkilat. 2.*İqt.* Depozit əmanətçinin deponentləşmiş qiymətli kağızlar sertifikatının qorunub saxlanması üçün mülki hüquqi məsuliyyət daşıması, eləcə də depozitar fəaliyyəti həyata keçirən qiymətli kağızlar bazarının peşəkar iştirakçısı, mülkiyyət hüququ olmadan saxlamaq üçün maddi sərvətlərin verdiyi hüquqi şəxs.
**DEPOZİTƏ QOYMAQ –** 1.*İqt.* Kredit idarələrinə qiymətli kağızların və digər qiymətlilərin saxlanılmaya verilməsi; 2. Əmanət, üzvlük haqqı vermək.
**DERMATOKONİOZ** (*dermatoconiosis; dermato- + yun. konia toz + oz)* – *Tib.* Tozun törətdiyi dəri xəstəliyi, dermatit.
**DERMATOQLİFİKA** (*dermato- + yun. glypho kəsmək, oymaq*) – *Tib.* Ovuc və ayaqaltı dəri relyefinə görə diaqnostika üsulu.
**DERMATOMİKOZLAR** – *Tib* Patogen göbələklərlə zədələnməsi nəticəsində dəridə yaranan xəstəliklər qrupu.
**DERMATOMİOZİT** – *Tib.* Kallogen lifləri və əzələ toxumasının birgə zədələnməsi ilə dəridə gedən sistem xəstəliyi.
**DERMATOZOONOZ** (*dermatozoonosis; dermato- + yun. zoon heyvan + nosos xəstəlik)* – *Tib.* Qansoran parazit-

lərin infeksiyası nəticəsində yaranan dəri xəstəliklərinin ümumi adı.

**DERMOİD** (*sin.dermoid kista, kistoz teratoma, dəri tipli teratoma*) – *Tib.* Embriogenezin pozulması zamanı buynuz, qat kütləsi, tük və s. ilə əmələ gələn ekdoderma elementlərindən ibarət olan kista.

**DESATURASİYA** (*de- + lat. saturatio doyma*) –*Tib.* Dekompressiv pozğunluqların profilaktikası məqsədilə oksigenlə aparılması nəzərdə tutulan proses.

**DESİBEL** – *Tex.* Elektronika və başqa sahələrlə bağlı olan müəyyən kəmiyyətlərin nisbi ölçü vahidi.

**DESİMASİYA** – *Tex.* Diskret siqnalın diskretləşdirmə tezliyinin aşağı salınması üçün desimasiyadan əvvəl siqnalı aşağı tezlik filtrindən keçirməklə aparılan təkrar diskretləşdirmə.

**DESKRİPTİV QİYMƏTLƏNDİRMƏ** – *Ped.* Qiymətləndirmənin hər bir aspekti üzrə bütün nailiyyət səviyyələrinin səviyyə deskriptorlarına müvafiq qiymətləndirmə sahəsinin və səviyyəsinin mahiyyətinin sözlə təsviri.

**DESKRİPTORLAR** – *Ped.* Avtomatlaşdırılmış deskriptor sistemlərində, axtarış dilinin sözü deskriptorlardır. Burada müəyyən sahənin sözləri və söz birləşmələri, terminləri əsas götürülür.

**DESKVAMASİYA** (*desquamatio; lat. desquamo, desquamatum pulcuqları çıxarmaq*) – *Tib.* Epitel hüceyrələrinin fizioloji və ya patoloji soyulması prosesi.

**DESMOİD** – *Tib.* İnfiltrativ böyüməyə meyilli olması ilə səciyyələnən vətərlər və fassial-aponevrotik strukturlardan inkişaf edən birləşdirici toxuma şişi.

**DESMODONTOZ** – *Tib.* Paradont toxumasının distrofik xəstəliyi.

**DESMURGİYA** (*desmurgia; desm- + yun. ergon iş, hərəkət*) – *Tib.* Ümumi cərrahiyyədə sarğılardan, onların növlərindən, formasından bəhs edən bölməsi.
**DESTABLİZASİYA** (*latın tfo-ayıma, uzaqlaşdırma və stabilius - sabit, dayanıqlı*) – *Pol.* Cəmiyyətdə qeyri-sabitliyə, ixtişaşa nail olmaq məqsədi ilə formalaşmış qayda-qanunun pozulmasına xidmət edən hərəkət .
**DESTRUKSİYA** (*destructio; lat. dağılma*) – *Tib.* Patomorfologiyada toxuma və hüceyrə strukturlarının dağılmasını əks etdirən forma.
**DESTRUKTİV** (*lat. destnictivus*) – *Tex.* Normal strukturu pozan dağıdıcı vasitə.
**DETERGENTLƏR** (*lat. detergens, detergentis təmizləyici*) – *Tib.* Yuyucu və dezinfeksiyaedici vasitələr kimi istifadə olunan səthi aktiv maddələr.
**DETERMİNASİYA** (*lat. determinatio məhdudiyyət, təyinetmə)* – 1. *Tib.* Xəstəliyin gedişində böhran, krizis dövrü. 2. *Pol.* Siyasətdə hadisələrə həlledici təsir göstərən situasiyasını izah etmək üçün istifadə edilən xüsusiyyətlər.
**DETORSİYA** (*detorsio; de- + lat. torsio firlanma, bükülmə*) – *Tib.* Bağırsaqlarda burulmanın aradan qaldırılması, sidik axarında patoloji əyilmənin düzəldilməsi.
**DETOTSENTRİZM** (*detotsio; de- + lat. sentrizm-üsul)* – *Ped.* Uşağın əhatə dairəsinin maraqları və istəklərinin əsasında formalaşan tərbiyə üsulu.
**DETRİT** (*detritus; lat. "sürtülüb əzilmiş", detero, detritum sürtmək, pozmaq)* – *Tib.* Patologiyada toxumanın dağılmasından əmələ gələn immunoloji maddə.
**DEVASTASİYA** (*lat. devastatio məhv edilmə, dağıdılma*) – *Tib.* Parazitlərin tamamilə məhv edilməsinə yönəlmiş tədbirlər kompleksi.

**DEVİANT DAVRANIŞ** – *Ped.* Müəyyən proseslərlə bağlı uşaqlarda davranış qüsurlarının meydana gəlməsi.
**DEVİANTLIQ –** *Ped.* Sosial qrupda qəbul olunmayan, lakin normadan kənara çıxmayan davranış hərəkətləri, xasiyyət pozuntusu.
**DEVİRLƏR** – *İqt:* Beynəlxalq hesablaşmalar üçün dəyəri xarici valyutaya çevrilməklə göstərilən, nəzərdə tutulan, xarici valyutada vəsaitlərin ödənişi.
**DE-YURE** (*lat. de jure - hərfəm hüquqa görə*) – 1.*Pol.* De-fakto ilə birlikdə hərtərəfli münasibətlərin olduğunu bildirən və ya buna zəmanət yaradan vəziyyət; 2.*Pol.* De-fakto ilə birlikdə mövcud olmadıqda da hüquqi səlahiyyətlərə malik olmasını bildirən, lakin faktiki olaraq reallıqda müəyyən səbəblərdən münasibətlərin olmadığını bildirən vəziyyət.
**DEZADAPTASİYA** *–Tib.* Müəyyən proseslərlə bağlı orqanizmin quruluş və funksiyasının şəraitə uyğunlaşmaması.
**DEZAVUİRASİYA** (*fran. desavouer-wkar etmək, danmaq) – Pol.* Diplomatiyada dövlətin səlahiyyətli orqanı tərəfindən öz (dövlət) ərazisində başqa bir dövlətin diplomatının və ya digər səlahiyyətli rəsmisinin öz səlahiyyətlərini aşdığını, öz mandatına uyğun olmadığını bildirən rəsmi irad.
**DEZİNTEQRASİYA** (*fran. des - inkar və latın integer - bütöv*) – *Pol.* Ümumi varlığın məqsədyönlü və ya kortəbii hadisələrə təsiri nəticəsində onun tərkib hissələrinə bölünüb- parçalanması prosesi.
**DEZORQANİZASİYA** (ing. *disorqanization) – Pol.* Ümumi varlığın məqsədyönlü və ya təbii hadisələr nəticəsində tərkib hissələrinə bölünməsi və ya ümumiyyətlə ləğv edilməsi.

**DƏRƏCƏ PROFİLİ** – *Ped.* Təhsil proqramı və ya ixtisaslaşma xüsusiyyətlərini, təhsil proqramının məqsədlərə uyğun proqramın əsas xüsusiyyətlərini, tədris olunan fənlərin akademik xəritəsinə və ya tematik təlimlərə necə uyğunlaşmanı və peşəkar ictimaiyyətə nə dərəcədə aid olmasının təsviri. Cəmiyyətin və konkret fənn sahəsinin birgə ehtiyaclarının, o cümlədən bu təhsil proqramının təsis edilməsi üçün tələb olunan maliyyə və kadr resurslarının təhlili prosesinin nəticəsində yeni dərəcə profili.

**DƏRƏCƏ ŞKALASI** – *Ped.* Təhsildə inkişafyönümlü proseslərin nəticələrinin ölçülməsində istifadə olunan alət.

**DİAQNOSTİK QİYMƏTLƏNDİRMƏ** – *Ped.* Müəllimlərin bilik və bacarıqların diaqnostik qiymətləndirilməsi üçün bilik və bacarıq səviyyəsinin test üsulu ilə müəyyənləşdirilməsi. Həftəlik dərs yükü normasının optimallaşdırılmasının, aylıq vəzifə maaşlarının artırılmasının və maddi rifahının yaxşılaşdırılmasının təmin edilməsi və nəticələrdən asılı olaraq müəllimlərin inkişafyönümlü təlimlərə cəlb edilməsi.

**DİAQNOSTİK TEST** – *Ped.* İlkin bilik və bacarıq səviyyəsinin test üsulu ilə müəyyənləşdirilib üzə çıxarılması.

**DİAMANT (***fr.diamant-almaz***)** – *Jur.* Müəyyən materialların verilməsində istifadə olunan kiçik ölçülü mətbəə şrifti.

**DİFFOMASİYA** *(lat.d.diffamare-ləkələmək) – Pol.* Müəyyən bir şəxsi ləkələmək üçün məlumatların açıq yayılması.

**DİGİTALLAŞMA** (*ing.diğitalisation-rəqəmləşdirmə*) – *Jur.* İstənilən materialın məzmununu eyni formatda bütün elektron kommunikasiya vasitələri ilə paralel ötürməyə imkan verən qrafik, audio, vizual və audiovizual media məhsullarının kompüterdə istifadə oluna biləcək rəqəmsal formata keçirilməsi.

**DİQRAFİZM** – *Tib.* İkili qeyd üsulu.

**DİLİN TANINMASI** – *İnf.* Kompüterin nitq siqnalında hansı dildə danışılmasını müəyyən etmə prosesi.

**DİNAMİK SƏNƏDLƏR** – *İnf.* Kompüterdə təhlil nəticələrini əhatə edən, müqayisələr aparmaq imkanı yaradan sənədlər.

**DİPOL YERDƏYİŞMƏSİ** – *Tex.* Qat səthinin mikrodalğalarla qızması hesabına və sonradan istiliyin istilikkeçirmə səbəbindən qidanın dərinliklərinə nüfuz etməsi hesabına baş verən elektromaqnit şüalanmasının istiliyə çevrilməsi hadisəsi dipol yerdəyişməsi adlanır.

**DİPLAKUZİYA** *(diplacusia; dipl- + yun. akusis eşitmə qabiliyyəti) – Tib.* Fizioloji proseslərlə bağlı eşitmə qabiliyyətinin pozulması.

**DİPLEGİYA** (*diplegia; di- + yun. plege zərbə, zədələmə*) – *Tib.* Eyni bədən hissələrinin ikitərəfli iflici .

**DİPLOE** (*diploe) – Tib.* Kəllə əsaslı sümüklərin süngəri maddəsi.

**DİPLOEQRAFİYA** (*diploe + yun. grapho yazmaq, təsvir etmək) – Tib.* Diploik venalara kontrast maddə yeritdikdən sonra onların rentgenoloji müayinəsi.

**DİPLOESİNUSOQRAFİYA** (*diploe + anat. sinus sinus + yun. grapho yazmaq, təsvir etmək) – Tib.* Baş beynin sərt qişa sinuslarına kontrast maddə yeritdikdən sonra diploik venaların rentgenoloji müayinəsi.

**DİPLOFONİYA** (*diplophonia; diplo- + yun. phone səs, səda) – Dilç.* Bir səsin tələffüz zamanı müxtəlif yüksəklikli tonlarının yaranması (ön və arxa səs büküşlərinin müxtəlif tezlikli rəqsləri zamanı müşahidə olunur).

**DİPLOXEYRİYA** (*diplocheiria; diplo- + yun. cheir əl) – Tib.* İnkişaf anomaliyası pozularaq əldə barmaqların sayının ikiqat olması.

**DİPLOMİELİYA** (*diplomyelia; diplo- + yun. myelos beyin*) – *Tib.* İnkişaf anomaliyası zamanı onurğa beyninin ikiləşməsi.
**DİPLOPİYA** (*diplopia; dipl- + yun. ops, opos göz, görmə qabiliyyəti)* – *Tib.* Görmənin ikiləşməsi.
**DİRƏK MEYDANÇA** – *Tex.* Doldurma üçün növbə gözləyən nəqliyyat vasitələrinin dayanması üçün nəzərdə tutulmuş gediş hissəsinin məntəqəsi.
**DİSSONANS** *(lat.d.dissonus-qarışıq səsli) – Pol.* Qarışıqlıq, nifaqlıq salmaq, sakit həyat ahəngdarlığının pozulması.
**DİSKONTER** – 1.*İqt.* Veksel uçotu üzrə əməliyyatları yerinə yetirən bank işçisi; 2. *İqt.* Veksel üzrə birja makleri, o cümlədən xəzinədar; 3. *İqt.* Pulun dəyişməsi ilə məşğul olan şəxs.
**DİSKONTLAMA** – *İqt.* Müəyyən vaxt dövründə firmaya pul daxil olmaları və müxtəlif vaxtlı investisiyaların gətirilməsi əmlakının təyin edilməsi üçün investisiya proqramının seçilməsi və qiymətləndirmə zamanı tətbiq edilən metod.
**DİSLEKSİYA –** *Ped.* Oxu və yazı qaydalarına riayət etmədə yaranan problemlərlə bağlı təlim.
**DİSPERSANT –** *Kim.* Az toksikliyə malik həlledicilərdə həll edilmiş təmizləyici vasitələrə bənzər səthi aktiv maddələrdən ibarət xüsusi neft dağılması əleyhinə məhsullar.
**DİSPERSİYA** – *Tex.* Təsadüfi dəyişənin sıçrama ölçüsü, yəni onun riyazi gözləmədən meyillənməsi.
**DİSTOFİYA –** *Tib.* Patoloji prosesdir və maddələr mübadiləsinin pozulması ilə əlaqədar olaraq toxumalarda, hüceyrədə keyfiyyətcə, kəmiyyətcə dəyişmiş mübadilə məhsullarının toplanması ilə xarakterizə olunur.
**DİSTRAKTOR** – *Tib.* Sümük hissələrini tədricən bir-birindən ayıran qurğu.

**DİVERSİYA** (*lat. dvetstvo-ayırma, kənaraçıxma, pozma*) – 1.*Hərb.* Xüsusi hazırlanmış şəxslər tərəfindən və müvafiq üsul və vasitələrlə düşmən tərəfin iqtisadi, hərbi imkanlarına, onun mənəvi durumuna zərbələr endirmək məqsədilə zəbt olunmuş ərazilərdə həyata keçirilən ictimai-təhlükəli fəaliyyət 2. *Hərb.* Eyni məqsədlərlə yalnız fərqli üsulla (təbliğat, məlumat, çağırış və s.) və vasitələrlə həyata keçirilən fəaliyyət. 3. *Hərb*. Zərbə vurulacaq yerdən düşmənin fikrini yayındırmaq üçün aparılan hərbi əməliyyat.

**DİVERGENT DÜŞÜNCƏ** – *Pol.* Standartdan, normadan kənara çıxan düşüncə.

**DİZAJİO** – *İqt.* Qiymətli kağızların (pul, faizli, kağız, veksel) birja sövdələşməsi zamanı onların məzənnəsinin nominaldan aşağı kənarlaşması.

**DİZERGİYA** (*dysergia; diz- + yun. ergon iş, hərəkət*) – *Tib.* Psixoloji və fizioloji proseslərlə bağlı orqanizmin reaktivliyinin pozulması.

**DİZERQAZİYA** – *Tib.* Baş beynin üzvi zədələnməsi nəticəsində davranışın pozulması.

**DİZESTEZİYA** (*dysaesthesia; diz- + yun. aisthesis hiss, duyğu) – Tib.* Hissiyyatın təhrif olunması.

**DİZONTOGENEZ** (*dysontogenesis) – Tib.* Orqanizmin fərdi inkişafının pozulması (əsasən bətndaxili və erkən uşaq yaşlarına aid edilən termin).

**DİZONTOGENİYA** – *Tib.* Orqanizmin ontogenez mərhələsində inkişafının pozulması.

**DİZOPSİYA** (*diz- + yun. opsis görmə qabiliyyəti*) – *Tib.* Görmənin pozulması, yəni parlaq işıqlandırma səbəbindən narahatlıq hissi.

**DİZOSMİYA** (*dysosmia; diz- + yun. osme iybilmə*) – *Tib.* İylərin qəbul olunmasının təhrif olunması.

**DİZOSTOZ** (*dysostosis; diz- + yun. osteon sümük*) – *Tib.* Sümüyün inkişaf anomaliyası ilə bağlı olan irsi sümük sistemli xəstəliklərin ümumi adı.
**DJİRİNQ** – *İqt.* Şirkətin maliyyə sabitliyinin qiymətləndirilməsi, mənfəətin artması üçün borc kapitalın tətbiqi. Bu borc kapitala əsasən "rıçaq prinsipləri" həyata keçirməyə imkan verir və borc kapital özünün mənfəətinin qaldırılmasında rıçaq olur.
**DOLDURMA ADACIĞI** – *Tex.* Doldurma altında nəqliyyat vasitəsinin quraşdırılması üçün nəzərdə tutulan texnoloji meydança.
**DOLMA XƏTTİ** – *Tex.* Rezervuarın yanacaqla dolmasını təmin edən kompleks avadanlıqlar.
**DOMİSİLİANT** – *İqt.* Yaşayış və ya digər yer üzrə vekseli ödəməli olan adi vekselin üzərində göstərilmiş üçüncü şəxs.
**DONUQ** – *İnf.* Kompüterdə seçmək üçün gözlənilməz olan. Əgər menyu bəndi qara deyil, açıq-boz rəngdə görünürsə, o, seçilə bilməz.
**DOPAMİN** – *Tib.* İnsan bədənində təbii yaranan kimyəvi maddədir. Normal insanın beynində onun axıcı və əlaqəli hərəkətini təmin edən dopamini ifraz edən hüceyrələr var. Dopamin bədən tarazlığı təmin edilməsi üçün beyinə gələn məlumatları bir sinir hüceyrəsindən digərinə ötürür. Lakin bu hüceyrələrin bir qismi ziyan görəndə və ya azalanda dopamin ifraz edilə bilmir.
**DÖNÜŞ KLAVİŞİ –** *İnf.* Apple klaviaturalarında IBM klaviaturalarında və IBM-uyumlu klaviaturaların əksəriyyətindəki Enter klavişinə tam uyğun olan klaviş. Orada bu klaviş çap mexanizminin karetini sətrin başlanğıcına döndərir.

**DÖNÜŞ KODU –** *İnf.* Proqramlaşdırmada altproqram və ya proses bitdikdə, yaxud sistemin idarəetməsini başqa altproqrama verdikdə prosedurun nəticələrini bildirmək, yaxud sonrakı hadisələrə təsir etmək üçün istifadə olunan kod.

**DRAQOMAN** – *Dip.* Şərq ölkələrindəki diplomatik və konsulluq nümayəndəliklərində təmsil olunan rəsmi tərcüməçi.

**DRAFT** – *İqt.* Veksel məbləğinin üçüncü tərəfə ödənilməsi barəsində trassant tərəfindən trassata təqdim olunan yazılı tapşırıq.

**DRAYVER –** *Tex.* Başqa bir qurğunun işini yoxlayan və ya tənzimləyən qurğu və ya proqram.

**DREN** (*ing. drain-qurutmaq*) – *Tex.* Qrunt sularını toplayıb axıtmaq və aerasiyasını yaxşılaşdırmaq üçün yeraltı süni su yolu.

**DRENAJ** – 1. *Tex.* Kənd təsərrüfatında su basmış torpaqların, həmçinin qrunt sularının səthə çıxdığı sahələrin təbii və ya süni yollarla qurudulması üsulları. 2.*Tib.* Yaralanma və ya xəstəlik nəticəsində içəridən təbii çıxışı çətin olan bir yara və ya içi boş orqandan mayenin daim boşaldılmasını təmin etmək; selenitin müalicəsi üçün dəri sahələrini düzəltmək üçün də istifadə olunur. 3.*İnşa.* Tikintidə hər hansı bir binanın tikintisini planlaşdırarkən drenajın qurulması.

**DREYF** (*holl. drijven – qovmaq, üzmək*) – 1) *Tex.* Küləyin, su cərəyanının təsiri ilə gəminin öz hərəkət istiqamətindən müəyyən dərəcədə yayınması. *D. bucağı;* 2) *Tex.* Gəminin, buz parçasının və s.-nin hava, su axını istiqamətində yavaş hərəkəti. 3) *Coğ.* Materiklərin uzun geoloji dövr ərzində bir-birinə, yaxud qütblərə nisbətən üfüqi yerdəyişməsi. 4) *Tex.* Yelkənlərin xüsusi bucaq altında qaldırılması nəticəsində qayığın suda tərpənməz tarazlıq vəziyyəti.

**DREYF CƏRƏYANI** – *Tex.* Okean və dənizlərdə daimi küləklərin su səthinə təsiri nəticəsində yaranan cərəyan. Belə cərəyanlar ildən-ilə öz istiqamətini və orta sürətini saxlayır.
**DRUMLİN** (*irl. droumlin – yüksəklik*) – *Tex.* Qədim buzlaşma sahələrində *moren* çöküntüləri ilə örtülmüş uzunsov, yaxud ellips formasında təpə. D.-lər, adətən, buzlaşma sahəsinin kənar (yan) hissəsində əmələ gəlir və buzlağın hərəkət istiqamətində uzanır.
**DUBLİN TƏSNİFATLARI** – *Ped.* Bolonya dövrünün sonunu təmsil edən təltiflərlə əlaqəli olan nailiyyət və qabiliyyətlərin səciyyəvi gözləntiləri üçün son dərəcə ümumi açıqlamaları özündə əks etdirən mexanizm.
**DURĞUN DALĞA** – *Tex.* Düyün adlanan iki nöqtə arasında irəli getmədən yalnız şaquli istiqamətdə rəqs edən dalğa.
**DUZ REJİMİ** – *Tex.* Duzların tərkibinin süxurlarda, torpaqda, su hövzələrində kimyəvi çevrilmələrə uğramasının dinamikası.
**DÜYMƏ –** 1.*İnf.*Kompüterdə qrafik istifadəçi interfeysində konkret əməli seçmək üçün kiçik dairə, yaxud düzbucaqlı şəklində element. 2. *Etno.* Paltarı ilməkləmək üçün sümükdən, metaldan və ya başqa materialdan düzəldilən, adətən yuvarlaq şəkildə olan şey. 3. *Tex.* Qapının rəzəsi, cəftəsinə keçirilən başı, deşik mıx. 4.*Riy.*Ölçü vahididir. Bir düymə 25,4 mm-ə və ya 2,54 sm-ə bərabər götürülmüşdür. 5.*Tex.* Barmaqla basmaqla elektrik xəttindəki cərəyanı qapamaq, bağlamaq və müxtəlif mexanizmləri işə salmaq üçün mütəhərrik düyməcik.
**DÜYMƏLİ TELEFON** – *Tex.* Telefon alətlərində bir nömrəyə sahib olmaqdan fərqli olaraq düymələri olan telefon.

**DÜYMƏCİK** – *Tib.* İstiqamətləndirilmiş sümük regenerasiyasında baryer membranın pozisiyasını etibarlı təmin etmək üçün istifadə olunan, metal və ya biosorulan yastı başlığa malik şrift.
**DYURASİYA** – *İqt.* Orta ödəniş müddəti (istiqrazlar üzrə pul axını). Pul axınlarının cari dəyəri çəki şəkilində çıxış edir. Dyurasiya istiqrazlar üzrə faiz riskinin ölçülməsi üçündür.

**-E-**

**EDAFİK** (*yun. edaphos – torpaq*) – *Tex.* Torpağa aid olan, onun təsiri ilə formalaşan, yaxud baş verən proses.
**EDAFİK AMİLLƏR** – *Tex.* Canlı orqanizmlərin həyatına, inkişafına və yayılmasına təsir göstərən torpaq şəraiti. Torpağın su, hava və temperatur rejimi, onun kimyəvi tərkibi və strukturu edafik amillərə daxildir.
**EDASFER** (*yun. edaphos – torpaq + yun. spharia – kürə*) – *Tex.*1). Biosferin tərkib hissəsi kimi Yer səthinin torpaq örtüyü. 2) Hər hansı orqanizmi əhatə edən, onun təsiri ilə formalaşan mühit, sahə.
**EDATOP** (*yun. edaphos – torpaq + yun. topos – yer*) – *Tex.* Torpağın yaratdığı mühit şəraiti, bu şəraitin bütün xüsusiyyətlərinin cəmi.
**EFEMERLƏR** – *Bio.* Qısa müddət yaşayan, yaxud davam edən, yəni səhralara, *yarımsəhralara* və quru çöllərə xas olan müxtəlif fəsilələrdən olan birillik bitkilər. Onlar kiçik boyu, kiçik yarpaqları, zəif inkişaf etmiş kök sistemi ilə fərqlənir və həyat dövrü çox qısadır.
**EXOLOT** (*yun. echo – əks-səda + alm. lot – ağırlıq, qurğuşun yük*) – *Tex.* Suyun dərinliyini ölçən hidroakustik cihaz.

**EXOPATİYA** (*exo + yun. pathos əzab, xəstəlik*) – *Tib.* Ruhi xəstənin onunla söhbət edən şəxsin mimikası, pozası, söz və ifadələrini qeyri-iradi təkrar etməsi, katatoniya simptomu.

**EXOPRAKSİYA** (*echopraxia; exo- + yun. praxis hərəkət*) – *Tib.* Ruhi xəstənin onu əhatə edən şəxslərin hərəkətlərini qeyri-iradi təkrar etməsi.

**EXOSİMPTOMLAR** – *Tib.* Psixopozğunluqla bağlı xəstə tərəfindən qeyri-iradi hərəkətlərin edilməsi.

**EXOOSTEOSKOP** (*exo- + yun. osteon sümük + skopeo baxmaq, müşahidə etmək*) – *Tib.* Ultrasəs exoqrafiya üsulu ilə sümüklərdə sınıq və çatları aşkar etmək üçün cihaz.

**EKXİMOZ** – *Tib.* Dəri və ya selikli qişaya geniş qansızma.

**EKXONDROMA** – *Tib.* Dəri sümüyün hüdudlarından kənara inkişaf edən sümük xondroması.

**EKXONDROZ (***ecchondrosis; ek- + yun. chondros qığırdaq) – Tib.* Qığırdaq toxumasının öz adi lokalizasiyasından kənarda inkişaf etməsi.

**EKOSİSTEM** – *Eko.* Müəyyən bir ərazidə yerləşən, ora məxsus olan bütün canlı orqanizmlərin bir-biri ilə qarşılıqlı əlaqəsi və onların qeyri-canlı materiallar ilə əlaqəsi.

**E-KİTAB** – *Jur.* Kağızda deyil, elektron formada yayılan kitab.

**EKLAMPSİYA** (*eclampsia; yun. ekiampsis alışma, tutuşma, ani başvermə) – Tib.* Hamiləlikdə huşun itməsi ilə müşayiət olunan qıcolma.

**EKLEKTİZM** – *Fəl.* Bir-birinə zidd olan fikir və nəzəriyyələrin prinsipsiz və mexaniki surətdə birləşdirilməsi.

**EKLİPTİKA** (*yun. ekleiptike – tutulma*) – *Tex.* Günəşin il ərzində gözlə görünən hərəkətinin göy qübbəsində cızdığı xəyali xətt, böyük dairə.

**EKMNEZİYA** (*ekmnesia; ek- + yun. mnesis xatirə, yaddaş) – Tib.* Ruhi xəstələrdə keçmişdə baş verən hadisələrin indiki zamana keçməsi ilə xarakterizə olunan yaddaş pozuntusu.
**EKOFİL NORMA** (*yun. oikos – məkan, ev + yun. philos – dost + lat. norma – qayda*) – *Coğ.* Təbiətin mühafizəsinə, təbii mühitin qorunub saxlanmasına xidmət edən qaydaların toplusu. Mahiyyət etibarilə ekofil norma insanların təbiətdən səmərəli istifadə qaydalarıdır.
**EKOFOBİYA** (*eko + yun. phobos qorxu*) – 1)*Tib.* Öz evindən patoloji qorxu; 2) *Eko*. Ekoloji fəlakət qorxusu.
**EKOGENEZ** (*yun. oikos – məkan + yun. genesis – mənşə*) – *Eko*. Orqanizmlər arasında, həmçinin orqanizmlərlə onların yaşadıqları mühit arasında ekoloji münasibətlərin müxtəlif geoloji dövrlərdə təkamülü prosesi.
**E-KONSALTİNQ –** *İqt.* Elektron biznesin bir növü. Müştərilərə elektron poçtla peşəkar məsləhətlərin verilməsi, informasiya xidmətlərindən arayışların təqdim olunması, internet üzərindən müxtəlif sorğuların keçirilməsi.
**EKOLOJİ TƏRBİYƏ** – *Eko.* Yeni yetişən nəsildə özündə təbiət haqqında bilikləri və ona qarşı məsuliyyətli, humanist yanaşmanı ehtiva edən məqsədyönlü yüksək ekoloji mədəniyyətin formalaşdırılması, təbiətə qarşı ümummilli və ümumbəşəri dəyər kimi məsuliyyətli münasibətin yaranması.
**EKRAN DAMPI –** *İnf.* Ekranda əks olunmuş görüntünün "üzünün" çıxarılması; görüntünün printerə yönəldilən, yaxud diskdə fayl kimi saxlanılan "ani kadrı".
**EKRAN QORUYUCUSU** – *İnf.* İstifadəçi kompüterdə işləmədiyi zaman ekranı söndürən, yaxud ekrana hərəkət edən görüntü çıxaran, monitorların ekranlarını lüminofor

yanmasından qoruyan proqram. Hər hansı klaviş basıldıqda, yaxud siçana toxunduqda *ekran qoruyucusu* tərəfindən çıxarılmış görüntü ani yoxa çıxır.

**EKRAN ŞRİFTİ** – *İnf.* Macintosh kompüterlərində xüsusi olaraq seçilən, ekranında əks olunmaq üçün hazırlanmış şrift ölçüsü hazır olan *ekran şriftləri*. Onlar həm ekranda əks olunmaq, həm də printerdə çap edilmək üçün istifadə olunan şriftlərdir.

**EKRAN TEZLİYİ** – *İnf.* Yarımton görüntünün elementlərinin ekranda yerləşmə sıxlığı.

**EKSİKATOR** (*lat. exsicco, exsiccatum qurutmaq*) – *Tex.* Qalındivarlı ağır şüşə qab olub, şüşə qapaqla örtülür, dibinə nəmçəkən maddə yerləşdirilir. Əczaçılıq və laborator praktikada müxtəlif preparatları nəmləşmədən qorumaq üçün istifadə edilir.

**EKSKALASİYA** (*ing.d.escalation-qalxma) – Dip.* Hər hansı bir hadisənin böyüməsi, davamlı olaraq genişlənməsi.

**EKSKOXLEASİYA** (*excochleatio; eks- + lat. cochlear qaşıq*) – *Tib*. Hər hansı bir patoloji boşluğun möhtəviyyatının, onun divarlarına toxunmadan, küt qaşıqla cərrahi xaric edilməsi.

**EKSKORİASİYA** (*excoriatio; lat. excorio dərini soymaq*) – *Tib*. Dəri və selikli qişaların tamlığının mexaniki, adətən xətti səthi pozulması.

**EKSKRESİYA** *(lat. excerno, excretum ayırmaq, seçmək) – Tib*. Orqanizmin maddələr mübadiləsinin son məhsullarından, yad maddələrdən, həmçinin artıq sudan, mineral maddələrdən azad olunmasına yönəlmiş fizioloji proseslərin məcmusu.

**EKSKRET** (*lat. excemo, excretum ayırmaq, seçmək) – Tib*. Orqanizm tərəfindən ifraz olunan maddələr mübadiləsinin son məhsulu.

**EKSKRETOR** – *Tib*. İfrazat funksiyasını yerinə yetirən.
**EKSSENTRİK BƏRKİTMƏ** – *İnşa*. Hərəkətsiz furnitur olub, söküləndir. Ekssentrik bərkitmə ən çox işlədilən bərkitmə növüdür. Bütün keyfiyyətli modellər ekssentrik bərkitmə vasitəsilə yığılır.
**EKSSUDAT** – *Tib*. İltihab nəticəsində qan damarlarından çıxaraq toxuma daxilində və ya səthində toplanan maye, hüceyrə və digər hüceyrəvi qalıqlar.
**EKSPANSİYA** *(lat.d.expansio-genişlənmə)* – *Tib*. Müəyyən bir sahəyə edilən fəal müdaxilə.
**EKSTRADURAL ŞİŞ** *(lat.d.tumor extraduralis)* – *Tib*. Beyinin sərt qişası üstündə yerləşən beyin və ya onurğa beyin şişi.
**EKSTRAMEDULLYAR** (*onurğa beyindən xaric) şiş (lat.d. tumor exracerebralis)* – *Tib*. Baş beyin maddəsinə sirayət etməyən kəllədaxili şiş.
**EKSTERNAT** – *Ped*. Məktəb proqramı kursunu ekstern yolu ilə keçərək imtahan vermə üsulu.
**EKSTRAVAZAT** (*extravasatum; ekstra- + lat. vas damar*) – *Tib*. Qan damarı ətrafında seroz-hemorragik ekssudatın və ya az miqdarda qanın yığılması.
**EKSTRAVERTLİK** (*ekstra- + lat. verto çevirmək, döndərmək*) – *Ped*. Bəzi insanların xarakter xüsusiyyətidir. Yüksək ünsiyyətlilikdə, ürəyiaçıqlıqda, başqa insanlara maraqda və dərin özünütəhlilə meylli olmamaqda təzahür edir.
**EKSTİRPASİYA** (*exstirpatio; lat. exstirpo, exstirpatum aradan qaldırmaq, kökünü üzmək)* – *Tib*. Cərrahi əməliyyat yolu ilə hər hansı bir orqanın tam çıxarılması.
**EKSTUBASİYA** (*eks- + lat. tuba boru, borucuq*) – *Tib*. Qırtlaqdan və traxeyadan intubasion borunun xaric edilməsi.

**EKSTUBATOR** (*eks- + lat. tuba boru, borucuq*) – *Tib*. İntubasion borunu xaric etmək üçün alət.

**EKTAZİYA** (*ectasia; yun. ektasis dartma, genişlənmə*) – *Tib*. Toxuma və ya orqanın gərilməsi, genişlənməsi.

**EKZARASİYA** (*lat. exaratio – qazımaq*) – *Coğ.* Hərəkət edən buzlağın öz yatağında süxurları dağıdaraq yeni relyef formaları yaratması. Bu zaman *troq* dərələri, *moren* təpələri və s. əmələ gəlir.

**EQOSENTRİZM** (*lat. ego – mən, centrum – mərkəz*) – *Tib*. Fərdin öz nəzər nöqtəsindən başqa hər hansı digər fikri qəbul etməməsi. Eqosentriklər özlərini, şəxsi fikirlərini və ya maraqlarını daha əhəmiyyətli və etibarlı hesab edirlər. Eqosentrik insanlar başqalarının fikirlərini, reallığın onların qəbul edə biləcəyindən fərqli olduğunu tam başa düşə və ya qəbul edə bilmirlər.

**ELEKTİVKURS** – *Ped.* Müxtəlif kurslar üzrə tələbələr üçün yaradılmış fasiləsiz təhsil sistemi.

**ELEKTRON DƏRS RESURSLARI** – *Ped.* Elektron cihazların köməyi ilə istifadə olunan dərs materialları.

**ELEKTRON KİLİD** – *İnf.* Kompüterin giriş-çıxış yuvasına taxılan və proqram təminatını, verilənləri icazəsiz erişmədən qoruyan elektron qurğu.

**ELİTAR MEDİA** – *Jur.* Cəmiyyətdə siyasi gündəmin formalaşmasına, müəyyən qərarların qəbul edilməsi prosesinə, habelə digər media orqanlarının fəaliyyət prinsiplərinə təsir gücünə malik kütləvi informasiya qrupu.

**ELİTAR TƏHSİL** – *Ped.* Xüsusi istedadlı şəxslər üçün təşkil olunan təhsil.

**EMİTTER** – *Tex.* Tranzistorda yük daşıyıcılarının mənbəyi olan hissə.

**EMİSSAR** (*lat. emissar-nümayəndə*) – *Dip.* Bir sıra təşkilat və ya dövlət təşkilatı tərəfindən müəyyən qeyri-rəsmi tapşırıqla başqa bir təşkilata və ya ölkəyə göndərilən şəxs.
**EMOSİONAL HƏLL** – *Ped.* Şəxsdə məsələnin həlli prinsipinin tapılmasına olan inam hissinin əmələ gəlməsi. Bundan sonrakı əməliyyatla əlaqədar olaraq emosional fəallıq artır və məsələnin emosional planda həlli, onun intellektual planda həllini sürətləndirir. Emosiyalar idrak proseslərini fəallaşdırır, həm də problemlə bağlı qavrayışın, hafizənin, təfəkkürün məzmununa seçici təsir göstərir.
**EMOSİONAL ZƏKA** – *Ped.* Özünü tanıma, duyğuları idarə edə bilmə, özünü hərəkətə keçirmə, başqalarının duyğularını anlamaq (empatiya), əlaqələri idarə edə bilmək.
**EMOTİKON** – *İnf.* Elektron yazışmalarda emosiyaları bildirmək üçün çox zaman sözlərin yerinə istifadə olunan simvollar ardıcıllığı. Emotikonlarda istifadə olunan hər simvolun öz anlamı var: iki nöqtə gözü, defis burnu, mötərizə ağzı bildirir.
**ENSİKLİKA** *(lat. encyclical- hamı üçün ümumi)* – Din. Etiqad və ictimai-siyasi məsələlərlə bağlı Roma Papasının bütün katoliklərə və ya ayrıca ölkənin katoliklərinə proqram xarakterli göndərdiyi məktub.
**ENTEROTOM** (*entero-* + yun. *tome kəsik, yarılma*) – *Tib.* “Yan-yana” bağırsaq anastomozu qoyan zaman bağırsaq mənfəzini tikişlər qoyulduqdan sonra açmaq üçün istifadə olunan cərrahi alət.
**ENTEROTOMİYA** *(enterotomia; entero- + yun. tome kəsik, yarılma) – Tib.* Nazik bağırsağın kəsilərək tam və ya hissəvi xaric edilməsi.
**ENTEROTRİB** (*entero- + yun. tribo sürtmək, basmaq, əzmək*) – *Tib.* Həzm traktının boşluqlu orqanlarını sıxmaq üçün cərrahi alət.

**ENTROPİON** (*entropium; yun. entrepo çevirmək; en- + tropos dönmə, çevrilmə, istiqamət)* – *Tib.* Göz qapağının yerləşmə anomaliyası, yaxud da göz qapağının çevrilməsi.
**ENUKLEASİYA** (*enucleatio; lat. enucleo, enucleatum nüvəni çıxartmaq, qabıqdan çıxartmaq*) – 1) *Tib.* Cərrahi əməliyyatda kapsulu olan anatomik və ya patoloji törəmənin tam xaric edilməsi; 2) *Tib.* Hüceyrə nüvəsinin hüceyrədən xaric edilməsi.
**ENZİMOLOGİYA** (*enzim + yun. logos elm*) – *Bio.* Fermentlərin quruluşu, təsnifatı və xassələrindən bəhs edən elm sahəsi.
**ENZİMOPATİYA** (*enzymopathia; enzim + yun. pathos əzab, xəstəlik)* – *Tib.* Hər hansı bir fermentin olmaması və ya aktivliyinin dəyişməsi nəticəsində meydana çıxan xəstəlik və ya patoloji vəziyyətlərin ümumi adı.
**EONOTEMA** (*yun. aion – zaman + yun. thema – müzakirə mövzusu, məğz)* – *Geol.* Hər hansı *geoloji eona* aid süxur qatları, qalıqlar və çöküntülər. E. litosferin, hidrosferin və biosferin (üzvi aləmin) inkişafında ən böyük, bir-birindən prinsipial fərqlənən mərhələləri səciyyələndirir.
**EPİSENTRAL ZONA** (*yun. epi – üstdə + yun. centrum – çevrənin mərkəzi + yun. zone – qurşaq*) – *Tex.* Zəlzələ zamanı yer səthində ən çox dağıntılar baş verən, zəlzələ *episentrinin* ətrafında yerləşən sahə.
**EPİTELİZASİYA** – *Tib.* Birləşdirici toxuma üzərində epitelin inkişafı yolu ilə sağalma.
**EROTİK NƏŞR** – *Jur.* Pornoqrafiya elementləri daşımadan müəyyən hissi münasibətlərə maraq və meyli doğuran, erotik məzmunlu materiallardan ibarət çap məhsulu.
**EROTİK PROQRAM** – *Jur.* Pornoqrafiya elementləri daşımadan müəyyən hisslərə, seksual münasibətlərə maraq və meyil doğuran proqram.

**ESKALASİYA** (*ing. Escalation) – Hərb.* Münaqişənin durmadan gücləndirilməsi, ağırlaşdırılması.
**ETEZİ** – *Coğ.* Aralıq dənizinin şərq hissəsində əsən şimal-qərb küləyi. E. daha çox Suriya, Türkiyə, Misir və İordaniyanın iqliminə təsir göstərir.
**E-TƏBİB** (elektron təbib) – *Tib.* Blutuz texnologiyası əsasında işləyən, yaxınlıqdakı digər tətbiq istifadəçiləri ilə əlaqə quran elektron təbib. Bu tətbiq vasitəsilə ictimai yerlərdə olarkən ətrafdakı insanların potensial virus daşıyıcısı olub-olmaması barədə xəbərdar olmaq mümkündür.
**EVRİSTİK METOD** – *Ped.* Müəllim tərəfindən biliyin bir qisminin şagirdlərə hazır verilməsi, bir qisminin isə şagirdlərin özləri tərəfindən tapılması metodu. Təhsildə yeni biliklərin axtarışı bu metod ilə müəyyən edilir.

## -Ə-

**ƏKS-ASSEMBLER** – *İnf.* Maşın kodunu assembler dilindəki ilkin koda çevirən proqram.
**ƏQLİ HÜCUM** – *Ped.* Təhsildə fəal təlim metodlarından biri.
**ƏQLİ MODEL** – *Ped.* Əvvəlki təcrübi ideyalar, strategiyaya əsaslanan və insan beynində mövcud olan istiqamətləndirici anlaşma üsulları.
**ƏLÇATANLIQ** – *Ped.* Təhsildə kütləviləşməyə nail olmaqla hər bir vətəndaşın bu hüquqdan tam olaraq istifadə etməsini təmin etmə.
**ƏLDƏYAYIM** – *Jur.* Çap edilən qəzet, jurnal və s. kütləvi informasiya vasitələri məhsullarının əldən-ələ oxuculara, istehlakçıya çatdırılması üsulu. Bu müəyyən mətbu nəşrlər,

yaxud da redaksiyanın özü tərəfindən birbaşa əlaqə yaratmaqla həyata keçirilir.

**ƏRSİN** – 1. *Kul.* Təknədən xəmiri ərsinlə qazımaq üçün istifadə olan dəmir kürəkcik şəklində alət. 2. *Geo.* Boru kəmərinə salınan və boru kəmərində maye ilə hərəkət etdirilən silindrik, kürəşəkilli və ya güllə formasında kapsul.

**ƏRSİNLƏMƏ** – *Geo.* Boru kəmərinin daxilinin təmizlənməsi və ya ölçülməsi, ərsinləmə zamanı boru kəmərinin içərisinin təmizlənməsi prosesi. Boru kəmərini pasdan, parafindən və ya digər çöküntülərdən təmizləmək üçün əlavə edilir.

**ƏYLƏNCƏLİ MEDİA** – *Jur*. Krossvordlar, komikslər, lətifələr, musiqili verilişlər, bədii  filmlər vasitəsi ilə müəyyən auditoriyanı əyləndirmək. Əyləncəli medianın başlıca funksiyası əhalini əhvalına təsir etməkdir.

**ƏYLƏNCƏ JURNALİSTİKASI** – *Jur.* Əyləncə jurnalistikası populyar mədəniyyətə və əyləncə biznesinə və məhsullarına yönəlmiş  bir jurnalistikadır. Əyləncə jurnalistikasının əsas məqsədi başqalarının arasında filmlər, televiziya şouları, hadisələr, musiqi, moda və video oyunlar kimi əyləncə sənayesinin məlumatlarını təbliğ etməkdir.

## - F-

**FAKSİMİL NƏŞRLƏR** *(lat.d. fac simile-oxşarını yaratmaq)* – *Jur*. Orijinalın bütün elementləri saxlanılmaqla  təkrar çap edilən  əlyazmalar və nəşrlər.

**FAQ** – *İnf.* Səlahiyyəti olmadan başqa bir proqramı və ya verilənlər bazasını dəyişdirən proqram.

**FASETLİK–** *Ped.* Testin məzmununun tam biliklər çərçivəsində müxtəlif variantlarla təkrarlanması.

**FASİLİTATOR –** *Ped.* Təlim prosesində bilikləri ötürən rolundan imtina edərək bələdçi funksiyasında olan müəllim.
**FAYZER –** *Tib.* Fayzer ABŞ-da hazırlanmış dərman. Yeni koronavirusun qarşısını almaq üçün, epidemiyaya qarşı yeni dərman preparatı.
**FEKAL SULAR –** *Geo.* Tərkibində insanların formalaşdırdığı fekal maddələr və sidik olan çirkab suyu.
**FENESTRASİYA –** *Tib.* Krestal nahiyədən başqa hər hansı bir sümük sahəsində implantın səthinin açıq qalması.
**FƏAL DİNLƏMƏ** – *Ped.* Dialoq şəklində səmərə, fayda verəcək dinləmə.
**FƏAL TƏLİM** – *Ped.* Şagirdlərin fəal idrak fəaliyyətinə əsaslanan və təhsil prosesinin digər iştirakçıları ilə əməkdaşlıq şəraitində həyata keçirilən təlim.
**FƏALİYYƏT XƏTLƏRİ** – *Ped.* Məzmunun mənimsənilməsinin, ondan istifadə olunmasının, fənnin öz daxilindəki və digər fənlərin mövzuları ilə əlaqə yaratmağın ən yaxşı yolları. Fəaliyyət xətləri fənni bir-birindən təcrid olunmuş bilik və bacarıqlar toplusu kimi yox, bütöv bir tam kimi başa düşməyə kömək göstərir.
**FƏALİYYƏTİN STİMULLAŞDIRILMASI** – *Ped.* Elmi fəaliyyət sahəsində dövlət siyasətinin məqsəd və prinsiplərinin müəyyənləşdirilməsi.
**FƏNDAXİLİ İNTEQRASİYA** – *Ped.* Sinifdaxili və siniflərarası əlaqələr məzmun xətləri əsasında fəndaxili inteqrasiya vasitəsilə həyata keçirilən, fəndaxili inteqrasiyanın təlim prosesində nəzərə alınması və tətbiqi öyrənənlərin nitq fəaliyyətinin bütün növlərinin tam vəhdət halında inkişafını gerçəkləşdirilməsi.
**FƏRDİ TƏHSİL** – *Ped.* Müxtəlif səbəblərdən uzun müddət təhsildən kənarda qalmış şəxslər, habelə müəyyən bir

sahə üzrə xüsusi istedadı ilə fərqlənən şagirdlər üçün tətbiq edilən təhsil forması.

**FİBROBLAST –** *Tib.* Birləşdirici toxuma elementlərindən olan və kollagen lifləri sintez edən hüceyrə.

**FİBROZ –** *Tib.* Tərkibi lifli strukturlarla zəngin olan birləşdirici toxuma növü.

**FİDER** – *İqt.* Pulların çıxarılması üçün nəzərdə tutulmuş qurğudur. Hər kasetin öz fideri vardır. Əgər banknot ən aşağıdakı kasetdən gəlirsə, o bütün mövcud olan fiderlərdən keçir. Əgər bir banknota təsadüfən ikincisi ilişərsə, belə halda fider onu yerinə qaytarır.

**FİKSAJ** *(lat.d.fixus- möhkəm, bərkidilmiş) – Tex.* Fotoşəklin lent, kağız, digər maddi daşıyıcılar üzərində qalması, bərkidilməsi üçün istifadə olunan kimyəvi məhlul.

**FİQURANT** *(lat.d.fiqurantis-özünü göstərən, təmsil edən) – Jur.* Kütləvi səhnələrdə iştirakçısı kimi görünən, epizodik rolda oynayan, amma sözü olmayan aktyor, televiziya verilişlərində isə şoularda auditoriya qismində studiyada əyləşdirilən, lakin danışmayan şəxslər.

**FİLMOQRAFİYA** (*lent+yun.grapho-yazıram*) – *İnc.* Filmlərin hər hansı meyar əsasında tərtib olunma siyahısı. Bu meyarlar əsasında filmlərin yaradılma prinsipləri, onların tematik izahlı və heç bir annotasiyası verilməyən müxtəlif növləri olur.

**FİLMOTEKA** – *İnc.* Filmlərin toplanması, saxlanması, texniki cəhətdən qorunması və yayılması ilə məşğul olan müəssisə, yaxud müəssisə nəzdində şöbə. Bu şöbədə filmlərin fonoqramlarının bərpası, eləcə də onların plastik lentlərdə kompüterlərin yaddaşına köçürülməsi həyata keçirilərək elektron kataloqları yaradılır.

**FİLTRASİYA** – *İnf.* Rəqəmsal çevirməyə məruz qalacaq tezliklərin kəsilməz diapazonunun ayrılması prosesi.
**FİLTRLƏR BANKI** – *Tex.* Tədqiq edilən bütün tezlik diapazonunu örtən eyni tipli zolaq filtrlərinin toplusu.
**FİSKAL** – *İqt.* Dövlət gəlirlərinin səfərbər edilməsi və dövlət xərclərinin reallaşdırılması, yəni dövlət xəzinədarlığı, eləcə də dövlət büdcəsi ilə bağlı bütün münasibətlər.
**FİSTULA** – *Tib.* İki daxili orqan arasında və ya hər hansı daxili orqanlardan bədən səthinə açılan qeyri-normal keçid və ya yoldur.
**FİŞİNQ** *(ing.fishing-balıq tutmaq)* – *Tex.* İstifadəçi haqqında konfidensial məlumat əldə etməklə onun "informasiya qarmağı"na keçirilərək aldadılması.
**FİTOPLANKTON** – *Geo.* Dəniz və ya göl suları səthində üzən və ya dreyf edən mikroskopik fotosintetik orqanizmlər.
**FLİKTENA** (*phlyctaena; yun. phlyk-atina qabar, suluq)* – *Tib.* Ətrafında genişlənmiş damarları olan qırmızı-bozumtul, düyünlü, spesifik-allergik təbiətli infiltrat. Limb nahiyəsində, nadir halda konyunktivada, bəzən isə buynuz qişada əmələ gəlir.
**FLİKTENA MİLİAR** (*phlyctaena miliaris)* – *Tib.* Çoxsaylı xırda fliktenaların əmələ gəlməsi ilə xarakterizə olunan vərəm-allergik keratokonyunktivitin bir növü
**FLERON** – *Jur.* Fleronlardan sırf bəzək məqsədilə, yaxud abzasların başlanğıcını göstərmək üçün istifadə oluna bilən çiçəyi təsvir edən mətbəə simvolu.
**FLEYM** – *Jur.* Şəbəkə ünsiyyətində çox zaman mübahisənin ilkin səbəbinə heç bir aidiyyəti olmayan söz savaşı. Fleymdə şəxsi təhqirlər ola bilir və onlar mübahisəni daha da qızışdırır. Çox zaman bu hal müzakirə olunan mövzudan uzaqlaşaraq iştirakçıların şəxsiyyətinə keçməyə səbəb olur.

**FLİP-FLOP –** *Tex.* Texnikada girişinə impuls verdikdə iki mümkün hal arasında dəyişilə bilən elektron sxem.
**FLÜGER** (*holl. vleugel – qanad*) – *Tex.* Küləyin istiqamətini müəyyənləşdirmək üçün istifadə olunan meteoroloji cihaz.
**FLÜİD** – *Tex.* Həm qazma məhlulu, həm tamamlama məhlulu, həm də sadəcə kollektorda, laylarda olan kimyəvi qarışıq.
**FLÜS** – *Tex.* Elektrik naqilində lehimi bərkitmək üçün istifadə olunan kimyəvi maddə.
**FOKUS QRUPU** (*focus group) – Dip.* Bir qrup şəxsin müəyyən məhsula, hadisəyə, ideyaya münasibətinin müəyyənləşdirilməsi metodu. Bu münasibəti aydınlaşdırmaq üçün bir yerə cəmlənmiş qrupa obyekt haqqında suallar verilir. Bu zaman qrup üzvləri müzakirə edilən obyekt barədə sərbəst danışa bilərlər. Bu üsul müxtəlif mədəniyyətə malik qrupların fikirlərini öyrənməyə, müzakirə zamanı gözlənilmədən ortaya çıxan məsələlərin tədqiqinə imkan verir. Bu metod asanlıqla başa düşüldüyü və inandırıcı olduğu üçün yüksək validliyə malik hesab olunur.
**FOLKETİNQ** – *Dip.* Danimarkanın tək palatalı parlamenti.
**FONDVERİMİ –** *İqt.* Müəssisədə il ərzində istehsal edilmiş məhsulun miqdarının əsas vəsaitlərin dəyərinə olan nisbətinə bərabərdir.
**FORMAL TƏHSİL** – *Ped.* Dövlət təhsil sənədinin verilməsi ilə başa çatan təhsil forması.
**FORMATİV QİYMƏTLƏNDİRMƏ** – *Ped.* Şagirdin məzmun standartlarından irəli gələn bilik və bacarıqların mənimsənilməsinə yönəlmiş fəaliyyətini izləmək, bu zaman qarşıya çıxan problemləri aradan qaldırmaq və təhsilalanı istiqamətləndirmək məqsədilə aparılır.

**FORM-FAKTOR** – *Tex.* Qurğunun həndəsi formasını və qabarit ölçülərini müəyyənləşdirən konstruktiv xarakteristikası.
**FORMİKASİYA** *(frans. formication; lat. formica qarışqa) – Tib.* Üzərində qarışqaların və ya digər həşəratların gəzməsi, sancması kimi hallüsinasiyaların olması.
**FORNİKOTOMİYA** (*fornicotomia; anat. fornix cerebri beyin tağı + yun. tome kəsik) – Tib.* Epilepsiya zamanı beyin tağında aparılan stereotaksik cərrahi əməliyyat.
**FORUM** – *İnf.* İnsanların bir-biri ilə ünsiyyətinə və informasiya mübadiləsinə şərait yaradan sayt. Xüsusi proqramlar sayəsində internet istifadəçiləri axtardıqları və maraqlandıqları məlumatları əldə etmək.
**FORVARD ÖRTÜYÜ –** *İqt.* Müddətli sövdələşmələrdir. Onun köməyi ilə valyuta alan, yaxud satan özlərini valyuta məzənnəsinin gözlənilməyən dəyişməsindən sığortalayırlar.
**FOSFEN** *(yun. phos işıq + phaino göstərmək) – Tib.* Görmə analizatorunun hər hansı bir nahiyəsinin elektrik və ya mexaniki qıcıqlanması zamanı görmə hissiyyatının meydana çıxması.
**FOSFESTROL** – *Tib.* Şiş əleyhinə təsir göstərən hormonal preparat.
**FOSSİL** (*lat. fossilis – qazılıb tapılmış*) – *Arx.* Qazıntılar nəticəsində üzə çıxarılmış canlı orqanizmlərin süxurlarda aşkar edilən daşlaşmış qalıqlarına və onların həyat fəaliyyətinin izlərinə aid edilməsi.
**FOTİZM** *(photisma; yun. photisma işıqlandırma) – Tib.* Hər hansı bir analizatorun (görmə analizatoru istisna olmaqla) qıcıqlandırılması nəticəsində meydana gələn işıq hissiyyatı.
**FOTOQASTROQRAF** –1) *Tib.* Mədənin mexaniki hərəkətlərinin fotoqeydə alınması üçün cihaz; 2) *Tib.* Mədənin

selikli qişasının fotoşəklini çəkmək üçün işıq mənbəyi ilə təchiz olunmuş kiçik fotokamera.

**FOTOXƏBƏR** (*yun.d.photos-işıq*) – *Jur.* Fotojurnalistikanın ən tez formalaşmış janrlarından biri kimi ictimai əhəmiyyətli fakt, hadisə barədə məlumatı oxucu (tamaşaçı) auditoriyasına fotoşəkil vasitəsilə çatdıran jurnalist materialı.

**FOTOXRONİKA** *(yun.d.photos-işıq;yun.d.choronikos vaxt) – Jur.* Fotoşəkillər vasitəsi ilə hər hansı ictimai, siyasi, mədəni, tarixi hadisələrin, eləcə də bir şəxsin həyat yolunun, ailə tarixçəsinin ardıcıllıqla əks olunması.

**FOTOJURNALİSTİKA** *(yun.d.photos-işıq, lat.d.diurnalis-gündəlik xəbər) – Jur.* Jurnalistikanın bir sahəsi olub, faktı, hadisəni oxucu, tamaşaçı auditoriyasına görüntülər, fotoşəkillər vasitəsilə çatdıran xəbər forması.

**FOTOMONTAJ** (*yun.d.photos-işıq; fr.d.montage-yığmaq) – Jur.* Fotojurnalistikanın publisistik janrlarından biri kimi ayrı-ayrı fotoşəkillərin hissələrindən bir fotoşəkil yaratma prosesi. Ayrı-ayrı fotoşəkillərin hissələrindən yığılmış təsvir.

**FOTOPORTRET** (*yun.d.photos-işıq; fr.d.portraire-cizgilərinə qədər təkrarlamaq)* **–** *Jur.* Fotojurnalistikanın publisistik jurnallarından biridir. Fotoşəkildə hər hansı şəxsin xarakterini, yaxud xarakterinin bir cizgisini qabarıq nümayiş etdirilməsi.

**FOTOREPORTAJ** (*yun.d.photos-işıq; lat.d.reporto-xəbər vermək)* **–** *Jur.* Fotojurnalistikanın janrlarından biri. Hər hansı bir hadisənin, faktın müxtəlif aspektlərini, görüntülərini oxucu (tamaşaçı) auditoriyasına fotoşəkillər vasitəsilə nümayiş etdirən jurnalist materialı.

**FOTOREPORTYOR** (*yun.d.photos-işıq;fr.d.reporteur-danışan)* **–** *Jur.* Müəyyən bir məlumatın, informasiyanın ötürülməsində fotoqrafiyanı əsas vasitə seçmiş jurnalist.

**FOTOSERİYA** *(yun.d.phatos-işıq; lat.d.series-cərgə)* – *Jur*. Fotojurnalistika janrlarından biri. Verilən məlumatın müəyyən ardıcıllıqla düzülmüş, vahid əsər kimi qavranılan fotoşəkillər silsiləsində əksi.
**FRAM –** *İnf.* Yaddasaxlama qurğuları texnologiyasının bir növü kimi verilənlər yarım daimi əsasda kiçik kartlara və ya dəmir oksidinin nazik maqnit qatı ilə örtülmüş materialdan ibarət zolağa yazılır.
**FRANÇAYZİNQ –** *İqt.* Texnologiyaya və əmtəə nişanına lisenziyanın verilməsi, yaxud satılması sistemi.
**FREEBASE** – *İnf.* İnternetdə böyük kollaborativ biliklər bazasıdır, əsasən onlayın cəmiyyət üzvləri tərəfindən toplanmış verilənlərdən ibarətdir. Bu fərdi, istifadəçi tərəfindən təmin olunan viki materiallar da daxil olmaqla bir çox mənbədən toplanmış strukturlaşdırılmış verilənlərin onlayn kolleksiyasıdır.
**FRİKİNQ** – *Tex.* Telefon sisteminin necə işləndiyini bilmək hesabına qanunsuz yolla pulsuz şəhərlərarası və beynəlxalq telefon danışıqları aparmaq.
**FRONTAL İŞ** – *Ped.* Siniflə aparılan ümumi iş, fəaliyyət. Histoqram elektron təhsil sistemində məlumatın paylanmasının vizual (əyani) təəssüratını göstərmək üçün qrafik təqdimat. Histoqram məlumatın müəyyən intervalla paylanmasını göstərir. Histoqramın sütunları, adətən, bir-birinə toxunan şəkildə olur.
**FUMAROL** (*it. fumarola < lat. fumo – tüstü)* – *Geo.* Vulkanın kraterində və yamaclarında yerin altından qaz sızan çatlar, deşiklər. F. daha çox vulkanların püskürmə mərhələsindən sönmə mərhələsinə keçid dövrü üçün səciyyəvidir.
**FUTŞTOK** (*holl. voet – addım + holl. stok – mərtəbə*) –1) *Tex.* Dayazlıqların ölçülməsi üçün istifadə edilən və üzə-

rində bölgü olan şüvül; 2) *Tex.* Okeanda, dənizdə, çayda suyun səviyyəsinə nəzarət etmək üçün hər hansı məntəqədə daimi bərkidilmiş şüvül. Bu şüvülün üzərində dərinliyi dəqiq müəyyənləşdirməyə imkan verən bölgü olur.

## -G-

**GERTNER** – *İnf.* Qlobal və tədqiqat və konsultasiya şirkəti olaraq bütün dünyaya İKT maliyyə, insan resursları, müştəri xidmətləri, hüquq, marketinq, satış və təchizat zənciri şirkətlərinə və onların liderlərinə ideyalar, tövsiyələr və alətlər təqdim edir.

**GENETİK PASPORT –** *Tib.* Genetik test kompleksidir və minlərlə gen analiz etməyə imkan verir. Bu genlə sağlamlığa, uzun ömürlüyə, pəhriz xüsusiyyətlərinə, istedadlara, nəsil və qəbul olunan preparatlara reaksiya təyin olunur. Alınan DNT profil alimlərə individual proqram tərtib etməyə, xəstəliyin profilaktikası üçün individual pəhriz və həyat tərzini müəyyənləşdirməyə imkan verir.

**GEOXRONOLOGİYA** *(yun. geo – Yer + yun. chronos – vaxt, zaman + yun. logos – elm, təlim) – Tex.* Yerin geoloji yaşının bilavasitə hesablanması və geoloji vaxtlara bölgüsü ilə məşğul olan xüsusi bölmə.

**GEYMER –** *İnf.* Müntəzəm olaraq kompüter oyunları oynayan şəxs. Geymerlər və onların sevdikləri oyun proqramları kompüterlərin aparat təminatının imkanlarının genişlənməsində başqa istifadəçilərin tələbələrindən daha çox təsirli olur.

**GİRİŞ BUFERİ** – *İnf.* Emal edilmək üçün daxil olan informasiyanı müvəqqəti saxlamaq məqsədilə ayrılmış kompüter yaddaşının bir hissəsi.

**GİRİŞ DRAYVERİ** – *İnf.* İnformatika texnologiyalarında qurğu taksilerine və ya proqram soferlərində texniki vasitələr qurğusuna qarşılıqlı təsir göstərmək üçün yüksəksəviyyəli kompüter proqramlarına imkan verən kompüter proqramına giriş.

**GİRİŞ PORTU** – *İnf.* Giriş və ya çıxış qurğuları ilə mikroprosessor arasında verilənlərin ötürülməsi kanalı. Praktiki olaraq, mərkəzi prosessor üçün port, onun verilənlərin qəbulu və verilişi üçün istifadə etdiyi bir və ya daha artıq yaddaş ünvanıdır. Bu ünvanlara xüsusi aparat vasitələri, genişləndirmə lövhələri xidmət göstərir, yəni onlar qurğudan gələn verilənləri yaddaş ünvanlarında yerləşdirir və verilənləri yaddaş ünvanlarından qurğuya göndərir.

**GİRİŞ KONTROLLERI** – *İnf.* Giriş qurğusu, çıxış qurğusu və ya giriş-çıxış qurğuları ilə mikroprosessor arasında aparat interfeysi olan portla bağlı olan idarəetmə mikrosxemi. Çıxış kontrolleri giriş və çıxış verilənlərini idarə və emal edir ki, bu da mikroprosessoru ardıcıl rabitə vasitələri ilə təmin edir, eləcə də onu başqa işlər üçün azad edir.

**GİZLİ AUDİOYAZI –** *Jur.* Müəyyən bir şəxs haqqında əlavə sübut toplamaq ehtiyacı yarandıqda, qabaqcadan xəbəri və razılığı olmadan onun səsinin lentə, yaxud da digər maddi daşıyıcısı olan aparatla səsin yazılması.

**GİZLİ KAMERA –** *Jur.* Kamera çəkilişi obyektin görmədiyi yerdə qoyulmaqla şəxsin, hadisənin görüntülərini çəkmək. Yaxud da şəxsin və ya hadisə iştirakçılarının xəbəri olmadan istifadə edilən kamera.

**GİZLİ NÖMRƏ** – *Tex.* Məlum olmayan nömrədən gələn zəng.

**GÖRÜNTÜLƏMƏ** – *Tex.* Bəzi sahələrdə, xüsusən də CD-ROM texnologiyası kimi sahədə görüntüləmə fotoqra-

fiyanın daranması və rəqəmsallaşdırılması, görüntünün optimal ölçülərinin müəyyənləşdirilməsi və yaddaşa qənaət məqsədilə görüntünün rəqəmsal təsvirinin sıxlaşdırılması kimi mürəkkəb və dərin detallaşdırılmış prosedurları əhatə edə bilən qrafik görüntülərin tutulması, saxlanması, əksetdirilməsi və çap edilməsi prosesi.

**GÖRÜNTÜLƏYİCİ –** *İnf.* Xüsusi formatda olan qrafik fayllara baxmaq üçün proqram. Çoxlu sayda qrafik fayl formatı olduğundan onlara baxmaq üçün də müxtəlif *"vyuver"*lər olur.

**GÜNDƏM –** *Jur.* Müəyyən zaman dövründə diqqəti daha çox cəlb edən, mediada ciddi müzakirə obyektinə çevrilən aktual məsələ.

## -H-

**HELVETİKA –** *Jur.* Müəyyən şriftlər qrupuna aid edilən və kərtiyi (qabarıqlığı) olmayan şrift növü.

**HEMATOMFALOS** (*yun. haima qan, omphalos göbək*) – *Tib.* Göbək hematoması, qanlı göbək yırtığı.

**HEMATOMİELİYA** (*haematomyelia; hemato- + yun. myelos onurğa beyni) – Tib.* Onurğa beyninə qansızma.

**HEMATOSARKOMA** (*haematosarcoma) – Tib.* Limfoid və retikulyar toxumadan inkişaf edən bədxassəli şiş.

**HEMATOSELE** (*haematocele; hemato- + yun. kele şişkinlik*) –1) *Tib.* Tunika vaginalisdə qan yığını; 2) *Tib.* Çanaqda lokallaşdırılmış bəzi hematom növlərinin adı.

**HEMATOTİMPANON** (*haematotympanon; hemato- + yun. tympanon təbil, orta qulağın içi) – Tib.* Hemorragik ekssudatın təbil boşluğuna yığılması.

**HEMATURİYA** (haematuria) – *Tib.* Sidikdə qanın və ya eritrositlərin olması.

**HEMERALOPİYA** (*hemeralopia; yun. hemera gün + alaos kor + ops, opos göz; sin. toyuq korluğu*) – *Tib.* Gündüz korluğu. İnsan pis işıqlandırılmış yerlərdə (alaqaranlıq otaqda, axşam vaxtı çöldə) yaxşı görmür.

**HEROKU –** *İnf.* Heroku bir çox proqramlaşdırma dillərini dəstəkləyən platforma xidmət kimi bulud modelidir.

**HERPES** – *Tib.* Eyniadlı qrupdan olan viruslar tərəfindən törədilən dəri və selikli qişada eritematoz-ödemli əsasda qruplar şəklində qovuqcuqlu səpkilərlə xarakterizə olunan xəstəliklərin ümumi adı.

**HƏMTƏSİSÇİ** – *Jur.* Qanunvericiliyə görə birgə təsisçi kimi fəaliyyət göstərən kütləvi informasiya vasitəsi. İki yaxud da daha artıq fiziki, hüquqi şəxs tərəfindən yaradıldıqda bu şəxslərdən hər biri.

**HƏRF-RƏQƏMSAL** – *İnf.* Hərf və rəqəmlərdən, bəzən isə idarəedici simvollardan, boşluq simvolundan və digər xüsusi simvollardan ibarət olan.

**HƏŞİŞİZM** – *Tib.* Həşiş (hind çətənəsinin yarpaq və zoğlarının qatranı;) və anaşaya qarşı hərisliklə ifadə olunan narkomaniya.

**HİDROKSİAPATİT** – *Tib.* Kalsium hidroksiapatiti ifadə edən ümumi termin. Sümüyün əsas qeyri-üzvü və təbii komponenti olub, alloplast material kimi də istifadə olunur. Hidroksiapatitdən həmçinin bəzi implant səthlərinin örtülməsində də istifadə olunur.

**HİPERAKTİVLİK** – *Tib.* Narahatçılıq, hiperkinez şəklində aqressivliklə təzahür edən hərəki oyanıqlıq (psixomotor oyanma)

**HİPERAKUZİYA** (*hyperacusia; hiper- + yun. akusis eşitmə qabiliyyəti*) – *Tib.* Üz sinirinin üzəngi sinirinin ayrıldığı

yerdən yuxarıda zədələnməsi nəticəsində səseşitmə qabiliyyətinin yüksəlməsi, qəbul edilən səslərə qarşı həssaslıq.

**HİPERALDOSTERONİZM** (*hyperaldosteronismus)* – *Tib.* Hiperenziya və hipokalemiya ilə gedən və əsasən böyrəküstü vəzin adenoması zamanı rast gəlinən sindrom.

**HİPERAMMONİEMİYA** *(hyperammoniaemia*) – *Tib.* Qanın plazmasında sərbəst ammonium ionlarının artıq miqdarda olması; sidik cövhəri mübadiləsinin pozulması ilə müşayiət olunan xəstəlik.

**HİPERATİVLİK** (*ing.d.hyper-üstün*) – *Jur.* Televiziyada reklam kliplərinin göstərilmə, radioda səsləndirmə tezliyinin artırılması.

**HİPERBULİYA** (*yun. hyper çox, bule iradə*) – *Tib.* İradənin pozuntu forması olub, iradənin güclənməsi, ümumi fəaliyyətin artması, qida meylinin güclənməsi, cinsi şövqün artması.

**HİPERDİAQNOSTİKA** – *Tib.* Xəstəliyin olmaması və ya diaqnozda göstərildiyindən zəif olmasına baxmayaraq şişirdilmiş tibbi diaqnoz.

**HİPEREMİYA** (*hyperaemia)* – *Tib.* Arterial qan axınının güclənməsi və ya venoz qan dövranının çatışmazlığı nəticəsində orqan və toxumaların yerli qızarması.

**HİPERERGİYA** (*hyperergia)* – *Tib.* Orqanizmin reaktivliyinin yüksəlməsi ilə allergik reaksiyanın normadan artıq olması.

**HİPERESTEZİYA** (*hyperaesthesia; hiper + yun. aisthesis hiss, duyğu)* – *Tib.* Dəri hissiyyatının yüksəlməsi formasında adi qıcıqların qavranılmasının patoloji yüksəlməsi.

**HİPERFUNKSİYA** (*hyperfunctio)* – *Tib.* Orqanizmin hər hansı bir orqan və ya sisteminin funksiyasının artması.

**HİPERGENEZİYA** (*hypergenesia)* – *Tib.* Bədənin hər hansı bir hissəsinin normadan artıq inkişaf etməsi ilə xarakterizə olunan inkişaf anomaliyalarının ümumi adı.

**HİPERGENİTALİZM** (*hypergenitalismus; sin. hiperqonadizm*) – *Tib.* Vaxtından əvvəl yetişkənlik.
**HİPERGEVZİYA** (*hypergeusia; hiper- + yun. geusis dad*) – *Tib.* Dad hissiyyatının artması ilə təzahür edən dad pozğunluqu.
**HİPERİSTİNAD** – *İnf.* Veb-də istinadların erişilən olub-olmadığına əmin olmaq.
**HİPERMEDİA** (*ing.d.hyper-artıq,üstün; lat.d.medium-vasitəçi) – İnf.* Müəyyən informasiyanın emalına xidmət edən, habelə onun strukturlaşdırılması üçün ayrı-ayrı hissələr arasında əlaqə yaratmaqla bir elementdən, digərinə keçid verən mürəkkəb texnologiya.
**HİPERNEFROMA** – *Tib.* Böyrəküstü vəznin qabıq maddəsi hüceyrələrində inkişaf edən şiş.
**HİPERPLAZİYA** – *Tib.* Hüceyrələrin sayının artması ilə bağlı olaraq toxumanın və ya strukturun ölçüsünün böyüməsi.
**HİPERVİZOR** – *Tex.* Hipervizor və virtual maşın monitoru virtual maşınları yaradan və idarə edən kompüter proqram təminatı, mikroproqram təminatı və ya aparat təminatıdır.
**HİSTEREZİS –** *Tex.* Sistemin, qurğunun və ya sxemin "özünü aparmasının" giriş parametrinin dəyişmə istiqamətindən asılı olması xassəsi.
**HİSTOQRAM –** *Tex.* Müxtəlif hündürlüklü şaquli və ya üfüqi zolaqlardan ibarət olan qrafik.
**HİSTOİD ŞİŞ** *(lat.d. tumor histoideus; yun.d. histos toxuma+ eldes oxşar, bənzər) – Tib.* Az diferensiasiya etmiş və inkişaf etdiyi başlanğıc orqanın quruluş əlamətlərini özündə saxlamayan hüceyrələrdən ibarət olan bədxassəli şiş. Histioid şiş toxuması orqanoid şiş toxumasından histoloji cəhətdən yekcins olması ilə fərqlənir.

**HOLİSTİK QİYMƏTLƏNDİRMƏ** – *Ped.* Sürətli qiymətləndirmədir, təlim prosesində məqsədlərə görə müəyyən olunmuş bacarıqların ayrı-ayrılıqda qiymətləndirilməsi yolu ilə şagirdin inkişaf səviyyəsinin qısa müddətdə ümumi şəkildə dəyərləndirilməsi.
**HOLOQRAFİK TELEVİZİYA –** *Jur.* Təsvirin holoqrafiya üsulu ilə alınıb efirə verilməsi prinsipinə əsaslanan televiziya.

## -X-

**XƏBƏR DƏYƏRLƏRİ –** *Jur.* Bir media qurumu tərəfindən bir xəbərin nə qədər önəmli olduğunu və tamaşaçıların diqqətini cəlb etməsini təyin edən xəbərlər.
**XƏBƏR XİDMƏTİ –** *Jur.* Cəmiyyətdə baş verən sosial hadisələr haqqında informasiyaların toplanması, hazırlanması və kütləvi informasiya vasitələrində yayılması ilə məşğul olan qurum.
**XƏBƏR JURNALİSTİKASI –** *Jur.* Bu tip jurnalistikanın əsas məqsədi cari hadisələrin məlumatlarını və ya əvvəllər baş vermiş hadisələrin hesabatları ilə məşğul olmaq və məlumat verməkdir.
**XƏBƏR SAYTLARI** – *Jur*. Hadisələr haqqında operativ məlumatları verən saytlar. Bu elə saytlardır ki, istifadəçilər həm oxuya və həm də münasibət bildirə bilirlər. İnformasiyanı bölüşmək və müzakirəyə çıxarmaq üçün də internet vasitələri mövcuddur.
**XƏBƏR STİLİ** – *Jur*. Qəzet, radio və televiziya kimi mediada xəbərlərin yayımlanması üçün istifadə olunan nəsr üslubudur. Jurnalistik üslub və xəbər yazma tərzi də deyilir.
**XƏBƏRDARLIQ BOKSU** – *İnf.* Əməliyyat sistemlərinin qrafik istifadəçi interfeyslərində sistemdə baş verən müəy-

yən hadisə haqqındakı bildiriş, yaxud xəbərdarlığı göstərmək üçün istifadə olunan dialoq boksu.

**XƏRÇƏNG PERİTONİTİ** *(lat.d.peritontis canserosa, peritonitis carcinomatosa) – Tib.* Peritonun səpələnmiş xərçəngi olub, bir qayda olaraq metastatik mənşəli olur və çoxsaylı xırda düyün və düyüncüklər əmələ gəlməsi ilə səciyyələnir.

**XƏRÇƏNGÖNÜ** *(lat.d. praecancer, sin.: şişönü vəziyyət) – Tib.* Onun əsasında şiş əmələ gəlməsi mümkün ola bilən anadangəlmə və ya qazanılmış displastik dəyişikliklərin ümumi adı.

**XƏSTƏ İMPLANT** – *Tib.* İmplant ətrafı selikli qişanın iltihabı nəticəsində zəifləmiş implant üçün ümumi termin. Bəzi müəlliflər üçün xəstə implant sümük itkisi ilə üzləşən implant hesab olunur.

**XƏZİNƏ BONLARI –** *İqt.* Orta və uzunmüddətli dövlət öhdəlik növüdür. Adətən dövlət qiymətli kağızlar bazarı ilə təqdim edənə 5 ildən 25 ilə qədər müddətə buraxılır.

**XİDMƏTLƏRİN KONVERGENSİYASI** – *İnf.* Rəqəmsal şəbəkələrin bazasında yaranan, öz təbiətinə görə fərqli olan, amma vahid elektron üsul ilə həyata keçirilən xidmətlər.

**XİONOSFER** (*yun. chion – qar + yun. sphaira – kürə*) – *Coğ.* Əlverişli relyef formalarında buzlaqların və qar yığınlarının yaranmasının mümkün olduğu troposfer qatı.

**XIRDALAMA –** *İnf.* Verilmiş iş rejiminin məna dəyəri daşıyan müəyyən standart elementin ölçüsü ilə ifadə olunan xarakteristikası. Kompüter proseslərinin xırdalanması şəkərin, duzun, daşın xırdalanması kimidir: parçalar nə qədər böyük olarsa, qranulyasiya da o qədər kobud alınır.

**XOVLU ŞİŞ** *(sin.: tüklü polip, xovlu polip) – Tib.* Yoğun bağırsağın adenoması olub, ekzofit inkişaf etməsi, məmə-

ciklər əmələ gəlməsi ilə səciyyələnir; bir şiş maliqnizasiyaya yüksək dərəcədə meyilli olması ilə fərqlənir.

**XROMATİK** (*yun.d.choromatikos-rəngli*) – **1.***Mus.* Musiqi səslərinin dəyişməsindən, musiqinin tonunun artıb-azalmasından yaranan xromatik tüner. 2. *Fiz.* İşığın, şüanın sınması və tərkib hissələrinə ayrılması nəticəsində əmələ gələn xromatik qamma və ardıcıl rəng çalarlarından ibarət olan xromatik yarımton. 3.*İnf.* Kompüterdə rəngli tonların verilməsi prosesi.

**XRONOMETRAJ** (*yun. chronos – vaxt və metreo – ölçürəm*) – *Tex.* Əmək prosesləri müddətinin saniyəölçən vasitəsilə dəqiq ölçülməsi (müəssisələrdə, istehsalatda əməyin normalaşdırılmasında tətbiq olunur).

## -İ-

**İCMA MEDİASI** – *Jur.* Ölkədə fəaliyyət göstərən icmaların təsis etdiyi media. Müəyyən icmaların kütləvi informasiya vasitələri.

**İCMA YAYIMI** – *Jur.* Müəyyən icmaların maraqlarına xidmət edərək, onların həyatını işıqlandıran teleradio təşkilatlarının fəaliyyət sahəsi.

**İCTİMAİ İNFORMASİYA** – *Jur.* İctimai əhəmiyyəti kəsb edən və əhaliyə çatdırılmalı olan istənilən məlumatın qanunlarla və ya digər normativ-hüquqi aktlarla müəyyənləşdirilmiş ictimai vəzifələrin yerinə yetirilməsi prosesində yaradılan və ya əldə edilən faktlar və informasiyalar.

**İCTİMAİ NƏZARƏT** – *Jur.* Dövlət siyasətinin hazırlanması və həyata keçirilməsində, ümumdövlət və yerli səviyyədə qərarların qəbulunda, hakimiyyət orqanlarının fəaliyyətinə ictimai nəzarətin təşkili.

**İCTİMAİ QINAQ** – *Jur.* Sosial münasibətlərin qanunların gücünə müraciət etmədən toplumda qəbul olunmuş davranış qaydalarını pozan şəxslərə qarşı ictimai etiraz forması, açıq şəkildə ifadə edilən tənqidi münasibət vasitəsi.

**İCTİMAİ YAYIM** – *Jur.* Cəmiyyətin, habelə onun ayrı-ayrı təbəqələrinin ümumi maraqlarını təmin etmək, söz və fikir azadlığına töhfə vermək, müxtəlif baxış və əqidələri əks etdirmək üçün teleradio yayımı növü.

**İDARƏETMƏ BOKSU –** *Tex.* Vindovs əməliyyat sistemlərində pəncərənin başlıq zolağının sol ucundakı kiçik boks.

**İDENTİFİKATOR –** *Tex.* Proqramda prosedurun və ya dəyişənin adı, sərt disk sürücüsünün adı kimi istifadə edilən istənilən simvollar sətri.

**İDEOKRATİYA** (*yun.d.ideya, kratos-hakimiyyət*) – *Pol.* Müəyyən hakim prinsip və ya dünyagörüşü əsasında həyata keçirilən avtoritar hakimiyyət sistemi.

**İDEOLOJİ FUNKSİYA –** *Jur.* Jurnalistikanın funksiyalarından biri kimi medianın ictimai şüurda müəyyən fikir, ideologiya və düşüncələr sistemi formalaşdıran fəaliyyəti.

**İDEOLOQ** – *Pol.* Müəyyən sosial təşkilatın, ictimai qurumun düşüncələr və dəyərlər sistemini formalaşdıran, yayan və qızğın müdafiə edən şəxs.

**İDEYA MÜƏLLİFİ –** *Pol.* Müəyyən bir əsərin, yaxud da elmi fikrin layihəsinin ideyasını verən, onun hazırlanması təşəbbüsü və planı ilə çıxış edən yaradıcı şəxs.

**İDİOMORF** (*yun. – idios – öz + yun. morphe – forma*) – *Tex.* Maqmatik süxurları əmələ gətirən mineralların bütün özünəməxsus kristal formalarının cəmini ehtiva edən termin. İdiomorf və avtomorf terminləri sinonimlərdir. Mineralların kristallaşaraq müəyyən, yalnız özlərinə məxsus görünüş almaq qabiliyyətinə isə idiomorfizm deyilir.

**İFADƏ AZADLIĞI** – *Hüq.* Şəxsin düşüncələrini öz seçiminə uyğun üsullarla, ideya və fikirlərini sərbəst ifadə edə bilmək hüququ.
**İXTİSAS TANIDICILARI** – *Ped.* Milli ixtisas sistemlərində açıqlanmış hər hansı ixtisasın əsas nəticələrini təsvir edən, səlis istinad istiqamətlərini təmin edən və səviyyələr arasındakı dəyişikliyin xüsusiyyətini izah edərək hər hansı ixtisas üçün təhsilin nəticələri barədə ümumi açıqlamalar.
**İXTİSASARTIRMA KREDİTLƏRİ** – *Ped.* Müəyyən ixtisasartırma proqramının həcmini, məzmununu, istiqamətlərini əks etdirən və ədədlə ifadə olunan şərti anlayış.
**İXTİSASARTIRMA MODULLARI** – *Ped.* Dinləyicilərin bacarıqlarının və peşəkarlıq səviyyələrinin, dünyagörüşlərinin müxtəlif istiqamətlərdə inkişaf etdirilməsi üzrə həyata keçirilir.
**İKİDİVARLI REZERVUAR** – *Tex.* Daxili divarı yanacağın saxlanılması üçün (maye motor yanacağı və ya sıxılmış karbohidrogenli qaz), lakin xarici divarı qəza rezervuarı rolunu oynayan iki divarlı qab (qab qabın içində) kimi təsvir olunan rezervuar;
**İKİNCİ DALĞA** – *Tib.* İnfeksiyaların sayı artır və sonra yenidən azalır və hər bir sikl koronovirusun bir dalğasını təmsil edir .
**İQTİSADİ İNFORMASİYA –** *Jur.* İqtisadi proseslə bağlı yeniliklər, proseslər və problemlər haqqında xəbərlər, şərhlər, rəylər verən informasiya.
**İQTİSADİ JURNALİSTİKA –** *Jur.* İqtisadi həyatı əks etdirən yenilikləri, baş verən prosesləri işıqlandıran, araşdıran və geniş şərhini verən jurnalistika sahəsi.
**İQTİSADİ SİRR** – *İqt.* Dövlət tərəfindən iqtisadi proseslə bağlı xüsusi mühafizə olunan və mətbuatda iqtisadi məzmunlu məlumatların açıqlanmasının qadağan edilməsi.

**İMİCMEYKER** – *Dip.* İctimai xadimin, siyasətçinin, iş, yaxud sənət adamının populyarlığını artırmaq üçün onun müsbət imicini formalaşdırmaqla məşğul olan mütəxəssis.
**İMİFOS** – *Tib.* Etilenim törəməsi olan, şiş əleyhinə təsir göstərən kimyəvi terapevtik dərman maddəsi.
**İMİZİN** – *Tib.* Müxtəlif etnologiyalı depressiv vəziyyətlərdə tətbiq olunan antidepressant.
**İMMOBİLİZASİYA** (*immobilisatio)* – *Tib.* Bədənin bir və bir neçə hissəsinin hərəkətsizliyinin təmin olunması.
**İMMOBLİZƏEDİCİ** – *Tib.* Vakuum xərəyi üzərində uzandırılmış şəxsin bədən konturlarını alan xərək.
**İMMUN** (*lat. immunis azad*) – *Tib.* İmmuniteti olan və ya immunitet yaradan.
**İMMUN CAVAB** – *Tib.* Orqanizmin antigen qıcıqlandırıcısına cavab reaksiyası; immunitetin yaranması ilə müşahidə olunur.
**İMMUN KLİRENS** – *Tib.* Antigen-antitel komplekslərinin böyrəklərdə filtrasiyası.
**İMMUN SERTİFİKATI** – *Tib.* İnsanda koronovirus infeksiyasına qarşı antitelin yaranması haqqında sənəd.
**İMMUN SİSTEMİ** – *Tib.* Orqanizmin vacib sistemlərdən biri olub, orqanizmin müxtəlif infeksion agentlərdən spesifik müdafiəsini təmin edir. İmmunitet sistemi düzgün işləməsi üçün, viruslardan parazitar qurdlara qədər patogenlər kimi tanınan çox sayda helmint aşkar etməli və orqanizmin özünün sağlam toxumasından ayırmalıdır. İmmunitet sisteminin iki əsas alt sistemi mövcuddur: anadangəlmə immun sistemi və adaptiv immun sistemi. Hər iki alt sistem funksiyalarını yerinə yetirmək üçün humoral toxunulmazlıq və hüceyrə toxunulmazlığından istifadə edir. İnsanlardakı qan-beyin maneəsi, qan-beyin boşluğu, maye maneəsi və bənzər

maye-beyin maneələri, periferik immunitet sistemini beyini qoruyan neyroimmun sistemdən ayırır.

**İMMUNİTET** *(lat. immunitas azad olmaq, bir şeydən xilas olmaq) – Tib.* Orqanizmi xəstəliklərdən, mikroblardan və digər arzuolunmaz bioloji hücumlardan qorumağa sahib olan bioloji müdafiədir.

**İMMUNİZASİYA** (*lat. immunisatio*) – *Tib.* İmmunitet yaratma, müəyyən infeksion törədiciyə qarşı spesifik immun cavabın yaranması.

**İMMUNODEPRESSİV HAL** (*immuno, lat. depressio yatırılma) – Tib.* Xarici mühitin təsiri altında orqanizmin immun sisteminin daimi və ya müvəqqəti zəifləməsi.

**İMMUNODEPRESSİV VASİTƏLƏR** – *Tib.* Autoimmun xəstəliklər, şişlər və transplantasiya zamanı orqanizmin immunoloji reaksiyasını ləngitmək üçün istifadə olunan dərman maddələri.

**İMMUNODİAQNOSTİKA** – *Tib.* İmmunoloji göstəricilər əsasında xəstəliyə diaqnozun qoyulması.

**İMMUNOGEN** (*immunogen*) – *Tib.* İmmun cavab nəticəsində immunitet yaratmaq qabiliyyətinə malik olan antigen. İmmunogenez (immunogenesis) – immunitetin formalaşma prosesi.

**İMMUNOQLOBULİN** – *Tib.* Canlının anticisim funksiyasını yerinə yetirən qlobulinlər.

**İMMUNOQLOBULİNLƏRİN ALLOTİPLƏRİ** (*allo-* + *yun. types nümunə, tip*) – *Tib.* Genetik determinəedilmiş antigen xüsusiyyətləri ilə fərqlənən immunoqlobulin qrupları.

**İMMUNOLOGİYA** (*immuno-* + *yun. logos elm*) – *Tib.* İmmunitet haqqında elm. Orqanizmin quruluş və funksional vahidliyinin, həmçinin bioloji fərdiliyinin saxlanmasında rol oynayan mühafizə reaksiyasından bəhs edir.

**İMMUNOLOJİ AREAKTİVLİK** – *Tib.* Antigen stimulyasiyasına cavab olaraq immunitetin olmaması.

**İMMUNOLOJİ ÇATIŞMAZLIQ** (*sin. immunoparez*) – *Tib.* İmmun sistemin bir və ya bir neçə komponentinin və ya onunla əlaqəli qeyri-spesifik faktorların olmaması nəticəsində immun cavabın olmaması və ya zəifləməsi.

**İMMUNOLOJİ İFLİC** – *Tib.* İmmun cavabın tam olmaması ilə xarakterizə olunan immunoloji çatışmazlığın forması.

**İMMUNOPROFİLAKTİKA** – *Tib.* İmmunitetin yaradılması ilə infeksion xəstəliklərin qarşısının alınması.

**İMMUNOSUPPRESSORLAR** (*immuno + lat. supprimo, suppressum yatırtmaq, sakitləşdirmək*) – *Tib.* İmmunodepressiv vasitələrin həyata keçirilməsi.

**İMMUNOTERAPİYA** – *Tib.* İmmun sistemə bərpaedici, tənzimləyici, müvəqqəti əvəzləyici və ya funksiyasını zəiflədən halları aradan qaldırmaq.

**İMPEDANS –** *Tex.* Dəyişən cərəyan axınına müqavimət. İmpedans iki hissədən ibarətdir: aktiv və reaktiv müqavimət. Aktiv müqavimət elektrik enerjisini istilik enerjisinə çevirməklə həm sabit, həm də dəyişən cərəyana qarşı durur və o, həmişə sıfırdan böyükdür. Reaktiv müqavimət yalnız dəyişən cərəyana müqavimət göstərir və həm mənfi, həm də müsbət qiymət ala bilər.

**İMPLANT –** *Tib.* Dayaq-fiksasiya, funksional, müalicə və estetik məqsədlə ağız boşluğu toxumalarının daxilinə cərrahi üsulla yerləşdirilən alloplastik material, vasitə və ya qurğu.

**İMPLANT HƏLQƏSİ –** *Tib.* Koronal hissədə implant platformasının kənarında və ya implant abatment birləşməsi nahiyəsində olan hamar hissə. Bəzi kök formalı implantlar həlqəyə malik olmurlar.

**İMPLEMENTASİYA** (*lat. implereasiya yetirmək, icra etmək*) – *Pol.* Siyasi subyekt və ya dövlət tərəfindən beynəlxlaq hüquq normalarının yerinə yetirilməsi, icra edilməsi.

**İNAQURASİYA** (latın. *inaquration* – vəzifəyə keçmək) – *Pol.* Seçilmiş dövlət başçısının həmin vəzifəni icra etməsinə həsr edilmiş təntənəli mərasim.

**İNDEKS YARIĞI** – *İnf.* Disketin mərkəzi oturma deşiyinin yaxınlığında kiçik dairəvi deşik.

**İNDEKSASİYA** – *İqt.* İstehlak qiymət indeksinə dair kreditin, əmək haqqı, pensiya müddətinin, əhalinin əmanətlərinin və sairin kontakt məbləğinin bağlanması, inflyasiyadan mühafizə vəsaitidir.

**İNDEKSLƏNMİŞ ARAMA** – *İnf.* Verilənlərin yaddaşda və ya informasiyanın saxlanması qurğusunda axtarış müddətini qısaltmaq üçün indekslərdən istifadə olunması.

**İNDEKSLƏNMİŞ FAYL** – *İnf.* Yazılarına erişmək üçün indeksi olan fayl. Belə faylda yazını tapmaq üçün öncə uyğun elementi *indeks faylında* tapmaq lazımdır.

**İNDİGENAT** – *Dip.*Konkret şəxsin, beynəlxalq hüququn subyekti olmamasına baxmayaraq, beynəlxalq konvensiyalardan və digər aktlardan irəli gələri hüquqlardan istifadə edlə bilməsini bildirən beynəlxalq hüquqi termin.

**İNDİKATOR** – *Tex.* Maddə və ya obyektin vəziyyətinin nəzarətdə saxlanılan prosesinin bilavasitə qavrayış üçün daha rahat bir formada, vizual əks etdirən hər hansı parametrləri.

**İNDOSSAMENT** *(lat. introdorso – arxa, bel; alm. indossament əks tərəfində, o biri üzündə)* – 1. *İqt.* Vekselin, çekin, konosamentin və digər qiymətli kağızın əks tərəfində ötürücü yazı. 2. *İqt.* Sığorta polisində hər hansı bir düzəliş

və ya sığorta şərtlərinin dəyişməsi ilə əlaqədar sığorta haqqında müvəqqəti şəhadətnamə.

**İNDOSSLAŞMA** – *İqt.* Maliyyə sənədinin arxa tərəfində ötürülməyə imza etmək.

**İNDOSSO** – *İqt.* Qiymətli kağızın dövriyyəsinə imza qoymaq.

**İNDUKTİV ƏSASLANDIRMA** – *İqt.* Ayrı-ayrı, xüsusi təsadüflərdən ümumi nəticələr çıxarma üsulu.

**İNDUSTRİAL CƏMİYYƏT** – *İqt.* Sosial-iqtisadi nəzəriyyə. Lideri amerikan iqtisadçısı və sosioloqlu P.Draker hesab olunur. Nəzəriyyəyə görə industrial cəmiyyətin yaranışı korporasiyanın yüksəlişi ilə bağlıdır.

**İNFOQRAFİKA** (*lat.informatio-məlumatlandırma; yun.d. grapho-yazıram)* **–** *İnf.* İnformasiyanın aydın olması və tez qavranılması məqsədi ilə məlumatların auditoriyaya qrafik şəkildə çatdırılması, vizuallaşdırılması.

**İNFORMAL TƏHSİL** – *Ped.* Özünütəhsil yolu ilə biliklərə yiyələnmənin forması.

**İNFORMASİYA ADEKVATLIĞI –** *Jur.* İnformasiyanın yaratdığı obrazın təsvir edilən obyektin, prosesin real vəziyyətinə uyğunluğu.

**İNFORMASİYA ACLIĞI** – *Jur.* Cəmiyyətdə müəyyən məsələ ilə bağlı informasiyaya daimi olan ehtiyacı ödəmək imkanı məhdudlaşdırılması, yaxud da kəskin informasiya çatışmazlığı.

**İNFORMASİYA AGENTLİYİ** – *Jur.* Operativ hadisələrlə bağlı xəbərləri toplamaq və məlumatları yaymaq sahəsində ixtisaslaşan kütləvi informasiya vasitəsi.

**İNFORMASİYA AXTARIŞI** – *Jur.* İstifadəçinin sorğusuna uyğun cavabları özündə əks etdirən sənədlərin və ya həmin sənədlərin göstəricilərinin tapılması proseduru.

**İNFORMASİYA BÖHRANI** – *Jur.* İnformasiyaya real tələbatın lazımi qaydada ödənilməməsi nəticəsində hər hansı sistemin fəaliyyətində, eləcə də inkişaf edən intellektual imkanlarla daha böyük sürətlə genişlənən informasiya axını arasında yaranan uyğunsuzluq.

**İNFORMASİYA CƏMİYYƏTİ** – *Jur.* İctimai həyatda informasiyanın verilməsi zamanı texnologiyaların rolundan istifadə etməklə əhalinin böyük hissəsinin informasiyanın və onun ali forması kimi biliyin istehsalı, saxlanılması, emalı, ötürülməsi ilə məşğul olduğu cəmiyyət.

**İNFORMASİYA DAŞIYICISI** – *İnf.* Məlumatı öz strukturunda uzun müddət saxlayan və daşıya bilən maddi obyekt, yəni kağız, metal, fotomaterial və fləş-kart nəzərdə tutulur.

**İNFORMASİYA EHTİYATLARI** – *Arx.* Kitabxanalarda, arxivlərdə, fondlarda, məlumat banklarında, ümumiyyətlə informasiya sistemlərində saxlanılan sənədlər.

**İNFORMASİYA ƏMƏLİYYATI** – *Jur.* Hərbi qarşıdurmalarda, cəmiyyətdə baş verən hadisələrə, onların fəaliyyətinə informasiya prosesləri və sistemləri vasitəsilə dəstək vermək üçün həyata keçirilən tədbirlərin məcmusu.

**İNFORMASİYA QAYNAĞI** – *Jur.* İnformasiyada verilən mənbə nəzərdə tutulur.

**İNFORMASİYA MƏDƏNİYYƏTİ** – *Jur.* İnformasiyanın toplanması, saxlanılması, qorunması, yayılması üçün ən səmərəli texnologiyalar, üsul və vasitələrdən istifadə etmək bacarığı.

**İNFORMASİYA MÜHİTİ** – *Jur.* Mövcud informasiya infrastrukturu, informasiya vasitələri və üsulları, məlumat banklarının, informasiya-kommunikasiya şəbəkələri və sistemlərinin, habelə onlardan istifadə texnologiyaları.

**İNFORMASİYA PROSESLƏRİ –** *Jur.* Müəyyən hadisə, və proseslərlə bağlı informasiyanın toplanması, saxlanması, təqdim edilməsi və yayılması.
**İNFORMASİYA RESURSLARI –** *Jur.* Məlumatların asan əldə edilə bilməsi üçün bəşəriyyətin yaratdığı və maddi daşıyıcılarda saxlanılan biliklərin məcmusunun sistemləşdirilməsi.
**İNFORMASİYA SORĞUSU –** *Jur.* Müəyyən informasiyanın əldə edilməsi üçün yazılı və ya şifahi müraciət.
**İNFORMASİYA TƏHLÜKƏSİZLİYİ –** *Jur.* İnformasiya sahibinin, infrastrukturunun, istifadəçilərin onlara ziyan vura biləcək təbii və ya süni xarakterli, təsadüfi və ya qəsdli təsirlərdən qorunması.
**İNFORMASİYA TUTUMU –** *İnf.* Kompüterin, digər elektron cihazlarının yaddaşının həcmi.
**İNFORMASİYALAŞDIRMA –** *Jur.* Dövlət hakimiyyəti və yerli özünüidarə orqanlarının, bütün müəssisə, idarə və təşkilatların, vətəndaşların informasiya tələbatlarının, habelə bu sahədəki hüquqlarının təmin edilməsi məqsədi ilə informasiya ehtiyatlarının formalaşdırılması.
**İNFORMASİYANIN AÇIQLIĞI –** *İnf.* İnformasiyanın əldə olunmasının əsas qanuni prinsiplərindən biri kimi açıq informasiya sistemi. Bu məlumatların müxtəlif əhali qrupları və media orqanları tərəfindən əldə edilməsi imkan verir.
**İNFORMASİYANIN AXTARILMASI –** *Jur.* İnformasiyanın toplanılması məqsədi ilə mövcud informasiya massivində əvvəlcədən müəyyənləşdirilmiş tələblərə uyğun gələn məlumatların təyin edilməsi.
**İNFORMASİYANIN EMALI –** *Jur.* Qarşıya qoyulan məqsəddən asılı olaraq informasiyanın yayılması, istifadəsi

və bu istiqamətdə çalışan kadrların idarə olunması, informasiya infrastrukturunun, texnologiyalarının inkişafı və maliyyələşdirilməsi, informasiya təhlükəsizliyinin təmin edilməsi kimi məsələlər daxildir.

**İNFORMASİYANIN MÜHAFİZƏSİ –** *Jur.* İnformasiyanın məhvinin, itməsinin, saxtalaşdırılmasının, qanunsuz istifadəsinin qarşısını almaq üçün həyata keçirilən kompleks tədbirlər.

**İNFORMASİYANIN ÖTÜRÜLMƏSİ** – *Jur.* Toplanmış informasiyanın yüksək sürətli texniki vasitələrdən istifadə etməklə xüsusi kanallarla müvafiq ünvana çatdırılması prosesi.

**İNFORMASİYANIN TAMLIĞI –** *Jur.* Müəyyən məlumatın və ya prosesin hərtərəfli təsvir edilməsi, yəni onun haqqında informasiyanın bitkinliyi.

**İNFORMASİYANIN TOPLANMASI** – *Jur.* Müxtəlif mənbələrdən olan məlumatların alınması və cəmləşdirilməsi.

**İNFORMATİVLİK –** *Dip.* Məlumatın faktlarla, daha da genişliyi ilə verilməsi, yaxud da biliklərin ümumi həcmi ilə ölçülən keyfiyyət göstəricisi.

**İNKASSASİYA–** *İqt.* Nağd pulun müəssisələrin kassalarında yığılması və onların bu müəssisələrə xidmət edən bankların kassasına çatdırılması, başqa sözlə inkasso əməliyyatlarının həyata keçirilməsi. İnkassasiya müştərilərlə müqavilələr vasitəsilə ixtisaslaşmış xidmətlər əsasında həyata keçirilir.

**İNKASSATOR** – *İqt.* Müəssisənin, təşkilatın kassasından pulu bank idarəsinə verən, yaxud bank idarəsindən müəssisənin, təşkilatın kassasına gətirən işçidir.

**İNKASSO –** *İqt.* Bank hesablaşma əməliyyatıdır ki, bu zaman bank müştərinin tapşırığı ilə tədiyyəni alır və bankda vəsaitləri onun hesabına keçirir.

**İNKİŞAFYÖNÜMLÜLÜK** – *Ped.* Şagirdin idrak fəallığının sadədən mürəkkəbə (siniflər üzrə) prinsipi ilə izlənməsi, nailiyyətlərinin təhlil edilməsi, bilik, bacarıq və vərdişlərinin inkişaf səviyyəsinin tənzimlənməsi prosesi.

**İNKLÜZİV TƏHSİL** (*fr. inclusif – özünə daxil edən, lat. include – daxil edirəm*) – *Ped.* Uşaqların müstəqil bir fərd olduğunu və təhsil zamanı onların hər birinin öz ehtiyacları olduğunu qəbul edən metodologiyaları inkişaf etdirməyə yönəlmiş ümumi təhsilin hamı üçün əlçatan olmasını nəzərdə tutan və bütün uşaqların müxtəlif ehtiyaclarına uyğunlaşdırılmasına əsaslanan inkişaf prosesi.

**İNKORPORASİYA** – *Hüq.* Beynəlxalq hüquq normalarının sistemləşdirmə növlərindən biri; onların mahiyyətini dəyişmədən, beynəlxalq - hüquq normalarının sistematik qaydada külliyyat şəklində xronoloji, əlifba, tematik və digər ardıcıllıq ilə birləşdirməsi və yerləşdirilməsidir.

**İNKOTERMS** – *İqt.* Malların yüklənməsi, nəql edilməsi, boşaldılması və sığortalanması ilə əlaqədar beynəlxalq ticarət şərtlərini ifadə edən ticarət termin. Beynəlxalq ticarət sövdələşmələrində malların yüklənməsinə, daşınmasına və çatdırılmasına görə tədiyyə qaydalarına salınmasına aid olan ixracatçıların və idxalatçıların hüquqlarnı, vəzifələrini və məsuliyyətini müəyyən edilməsi.

**İNKVİZİSİYA** (*lat. inquisition - təhqiqat, axtarış*) – *Hüq.* Cinayət işləri ilə məşğul, təhqiqat aparan hüquqşünas.

**İNQRESSİYA** (lat. *ingressio – daxilolma*) – *Coğ.* Dəniz səviyyəsinin qalxması və ya sahilboyu qurunun çökməsi nəticəsində dəniz sularının sahildə relyefin alçaq hissələrinə dolması. İ. nəticəsində *inqressiya tipli sahil* əmələ gəlir.

**İNSAYDER** – *İqt.* Vəzifəsinə və ya qohumluq əlaqələrinə görə firmanın məxfi məlumatlarına daxil olmaq imkanı

olan əməkdaş nəzərdə tutulur. Emitent şirkətin fəaliyyəti haqqında geniş ictimaiyyətə çatdırılmayan informasiyadan istifadə edilməklə qiymətli kağızlarla qanunsuz əməliyyatlar aparan, bu informasiyaya malik olan şəxs insayder adlanır.

**İNSAYT** – *Tib.* Xəstənin öz qeyri-düzgün hərəkətlərini başa düşə bilməməsi, özü ilə bacara bilməməsi.

**İNSİNUASİYA** (*lat.insunuatio-içəri gizli daxil olmaq, xəlvətcə girmək* ) – *Dip*. Kimisə nüfuzdan salmaq məqsədilə uydurma, yalan, böhtan. Diskriditasiyanın bır üsulu.

**İNSOMNİYA** ( *lat. sönmüş- yuxu*) – *Tib.* Yuxusuzluq zamanı instinktiv hərəkət – düşünülmədən müəyyən məqsədə çatmaq üçün edilən hərəkət.

**İNSPEKSİYA** – (*lat. inspection- baxış. müayinə, tamaşa*) 1.*Pol.* Bəzi inzibati qaydalarla birləşdirilmiş nəzarət funksiyaları və qaydaların yerinə yetirilməsinə nəzarətə səbəb olan xüsusi idarəetmə orqanı. Inspeksiyanın vəzifəsinə nəinki yoxlamanın icrası daxildir, eyni zamanda çatışmamazlığın aradan qaldırılmasına dair yerinə tədbir görülməsi məsələsi də daxil edilir. 2.*İqt.* Obyektdə çalışan personalın peşəkarlığından, bu təşkilatın texniki cəhətdən təchiz olunma səviyyəsindən və yerinə yetirilən işlərin keyfiyyət və vaxtına riayət olunmasından əmin olmaq imkanı verən nəzarət. Eləcə də məhsul layihələndirməsinin, məhsulun, xidmətin, prosesin ekspertizası və ya onların xüsusi tələblərə uyğunluğunun peşəkar rəy və ümumi tələblər əsasında müəyyən edilməsi prosesi.

**İNSPİRASİYA** (*lat. inspiratıo - təlqin, təsir etmə, inandırma*) – *Hüq.* Subyekti müəyyən hərəkətlərə təhrik etmək üçün digər subyekt tərəfindən xəlvəti həvəsləndirmə, meyl oyatma.

**İNSTANSİYA** (*lat.instantio - yaxınlıq*) – *Pol.* Dövlət və ya digər biri-birinə tabe olan orqanlar sistemindəki pillə, ranq.

**İNSULİNOMA** (*lat.d.insulinoma*) –1. *Tib.* Epizodik hipoqlikemiya zamanı baş ağrısı, ürəkbulanma, qusma, taxikardiya, həyəcan, ümumi zəiflik, huşun itməsi və epileptik tutmalarla xarakterizə olunan hal. 2. *Tib.* Mədəaltı vəznin Langerhans adacıqlarının d-hüceyrələrindən inkişaf edən hormontal – fəal şiş (insulomanın bir forması).

**İNSULOMA** (*lat.insuloma*) – *Tib.* Hormonal-fəal şiş olub, mədəaltı vəzi adacıqlarından inkişaf edir. Mədəaltı vəzin adacıq toxumasının adenoması.

**İNSULOSİT** (*insulocytus; hist. insulae pancreaticae pankreatik adacıqlar + cytus hüceyrə*) – *Tib.* Pankreatik adacıqların (Langerqans adacıqların) hüceyrələrinin ümumi adı.

**İNTEQRATİV KURİKULUM** – *Ped.* Şagird məktəbdə tədris olunan fənlər vasitəsilə müxtəlif sahələr üzrə seçilmiş məzmunu öyrənməsi və tətbiq etməyi bacarması üçün biliklərin fənlər vasitəsi ilə və təşkil olunmuş konsepsiyasına əsaslanan təlim.

**İNTELLEKT ƏMSALI** (*ing. intelligence quotient – IQ "hay-kyü"*) – *Ped.* Xüsusi testlər vasitəsi ilə insanın malik olduğu intellekt qabiliyyətinin kəmiyyət göstəricisidir. IQ testləri bilik səviyyəsini yox, intellekt əmsalı ümumi intellekt faktorunun (g) qiymətləndirilməsi üçün düşünmə qabiliyyətini aşkar etməyə xidmət edir.

**İNTERAKTİV BACARIQLAR** – *Ped.* Biliklər hazır şəkildə deyil, onların müstəqil surətdə məntiqi şəkildə mənimsənilməsi, yəni mənimsəmə prosesi passiv deyil, fəal xarakter daşıyır. Müasir dərsin əsas cəhətlərindən biri şagirdlərin fəallığıdır ki, buna da interaktiv (fəal) təlim metodlarından istifadə etməklə nail olmaq mümkündür.

**İNTERAKTİV BİLDİRİŞ –** *Ped.* Əsərlərin, fonoqramların, lent yazılarının hər bir şəxs tərəfindən istənilən yerdə və istənilən vaxtda əldə oluna biləcəyi tərzdə vətəndaşlara çatdırılması.

**İNTERAKTİV TELEVİZİYA** *–Jur.* Abonentin tələbi ilə mətnli, qrafik və digər informasiyaların yayımı.

**İNTERAKTİV TƏLİM** – *Ped.* Təlim prosesinin elə təşkili formasıdır ki, burada müəllim bilikləri ötürən rolundan imtina etməklə yeni bir vəzifəni – bələdçi (fasilitator) vəzifəsini öz üzərinə götürmüş olur.

**İNTERAKTİVLİK (***ing.d.intractive-qarşılıqlı əlaqə***) –** *Ped.* Qarşılıqlı informasiya mübadiləsinə əsaslanan ünsiyyət forması, kommunikasiya növü.

**İNTERFEYS –** *Tex.* İki elementin qarşılıqlı təsirini təmin edən qovuşma nöqtəsi.

**İNTERKÜY (**lat.d.inter-ara**)** – *Jur.* Ətraf mühit haqqında tamaşaçıya, dinləyiciyə əlavə məlumat vermək məqsədi ilə kadra və ya verilişə təbiilik gətirmək üçün istifadə olunan təbii səs, akustik element.

**İNTERLİVİNQ –** *Pol.* Diskdə ardıcıl oxunan sektorların yanaşı yerləşməsinin vacib olmamasına əsaslanan təşkilat forması.

**İNTERNET-NƏŞR –** *İnf.* Dövri məlumatları çatdırmaq üçün, yəni mətbu nəşrlərlə eyni funksiyaları yerinə yetirən veb-sayt. İnternet-qəzetlər, internet-jurnallar və s. bura daxildir.

**İNTERNET PROVAYDER –** *İnf.* Ayrılmış xətlə birləşmə, kommutasiya yolu ilə birləşmə, e-poçt və yeniliklər, internetdə veb-səhifənin yerləşdirilməsi, domen adları qeydiyyatı kimi xidmətlər təqdim edən provayder.

**İNTERNET-RADİO** – *Jur.* Proqramların yayımını yalnız internet şəbəkələrində həyata keçirən radio.

**INTERNİR** (*lat. intermix-daxili tərksilah etdirilib nəzarət altında saxlamaq*) – *Hərb.* Müharibə aparan dövlətin ərazilərindən onun vətəndaşlarının və nəqliyyat vasitələrinin azad kənara çıxmasının qadağan edilməsi, yaxud tərksilah edilib ölkə daxilində saxlamaq.

**İNTERPOLYASİYA** – **1.** *Riy.* Verilənlərin iki məlum nöqtəsi arasında aralıq qiymətlərin hesablanması. Daha çox xətti və eksponensial *interpolyasiyadan* istifadə olunur. **2.** *İnf.* Kompüter qrafikasında daha yüksək çözümlülük illüziyası yaratmaq məqsədilə görüntüdə əlavə piksellərin generasiyası; Bu zaman yeni yaradılan piksellərin rəngi onun ətrafındakı piksellərin rəngləri nəzərə alınmaqla xüsusi alqoritmin köməyi ilə müəyyən olunur.

**İNTERPRETASİYA** (*lat. interpreitatio – şərh, izah etmə*) – 1.*Riy.* Metariyaziyyatda və metaməntiqdə bütövlükdə elmdə mühüm rol oynayan semantik anlayış. Hər nəyinsə mənasını, ideyasını, əhəmiyyətini açıqlama, izahetmə, aydınlaşdırma. 2.*İnf.*Kompüterdə deyimin və ya komandanın dekodlaşdırılması və yerinə yetirilməsi əməli.

**İNTERVENSİYA** (*lat. interventio-müdaxilə, zorla girmə)* – *Pol.* Beynəlxalq hüquqa və onun prinsiplərinə məhəl qoymayaraq, dövlətin suveren hüquqları ilə barışmayaraq bir və ya bir qrup dövlətin başqa bir dövlətin daxili işlərinə qarışmaq və onun başqa dövlətlərlə qarşılıqlı münasibətlərinə kobudcasına və hətta zorakılıq vasitələri ilə müdaxilə etməsi.

**İNTRAZONALLIQ** (*lat. intro – daxili + yun. zone – qurşaq*) – *Coğ.* Müəyyən coğrafi zona daxilində yerli amillərin təsiri altında yaranan, adətən, səciyyəvi olmayan təbii xüsusiyyət, *azonallığın* xüsusi forması.

**İNTRUZİYA** –1) *Coğ.* Maqmanın Yer qabığını təşkil edən süxur qatlarına daxil olması prosesi. Süxur qatları arasın-

dakı çatlara və boşluqlara dolan maqma burada soyuyur və səthə çıxmadan yerin dərinliyində yeni süxurlar yaradır. 2) *Coğ.* Səthə çıxmadan yerin dərinliyindəki süxur qatlarına daxil olaraq burada soyuyan maqmatik kütlə.

**İNVERS VİDEO –** *Jur.* Verilişlərin hazırlanması zamanı məqsədə uyğun olaraq ekranda açıq rənglərin tünd rənglərə və tərsinə çevrilməsi. Mətn ekranda qara fonda ağ simvollar kimi, tərs videogörüntüdə isə mətn ağ fonda qara simvollar şəklində verilir.

**İNVESTOR** – *İqt.* İnvestisiya layihələrinə, maliyyələşmə yaxud real aktivlərə xüsusi, borc yaxud digər cəlb edilmiş vəsaitləri qoyan, investisiyaları həyata keçirən hüquqi yaxud fiziki şəxs.

**İNZİBATİ MƏLUMATLAR –** *Hüq.* Müvafiq icra hakimiyyəti orqanları və digər dövlət qurumları tərəfindən öz inzibati vəzifələrinin yerinə yetirilməsi ilə əlaqədar toplanan və rəsmi statistikada istifadə olunan məlumatlar.

**İONOSFER** (yun. *ion* – gedən + yun. *sphaira* – kürə) – *Coğ.* Yer kürəsini əhatə edən güclü ionlaşmış atmosfer təbəqəsi. Bu təbəqədə seyrək atom, molekul və elektronların ionlaşması qısadalğalı günəş şüalarının, korpuskulyar sellərin, kosmik şüaların və s.-nin təsiri nəticəsində baş verir.

**İPHONE –** *İnf.* Apple şirkətinin işləyib hazırladığı smartfonlar seriyası.

**İPOTEKA BANKI** – *İqt.* Müxtəlif texniki xidmətlər ipotekanın yenidən satışı, ipoteka krediti üzrə ixtisaslaşmış qeyri-depozit institutudur; İnvestor tərəfindən yenidən satış üçün ipoteka mənbəyidir.

**İRREDENTİZM** *(ital.d.irredentio-azad olunmamış)* – *Dip.* Dünyaya səpələnmiş xalq və milləti birləşdirməyə yönəlmiş milli siyasət.

**İSTEBLİŞMENT** *(ing.d.establisment-quruluş) – Pol.* Cəmiyyətin elitar qrupunun öz hakimiyyətini həyata keçirmək üçün istifadə etdiyi idarəetmə sistemi.

**İSTİ XƏBƏR –** *Jur.* Müəyyən hadisə haqqında ilk dəfə ən yeni, insanlara məhz həmin anda verilən yüksək aktuallıq və ictimai maraq kəsb edən məlumat.

**İSTİNAD MƏLUMATLARI –** *Jur.* Dövri mətbuatda nəşr olunan materialla bağlı məcburi olan məlumatlar. Bu məlumatlara nəşrin adı, yeri, indeksi, çapdan çıxdığı tarix, çapa imzalanma vaxtı, mətbəənin ünvanı və s. daxildir.

**İŞGÜZAR NƏŞR –** *Jur.* Müəyyən təşkilatın xüsusən də, biznes və maliyyə dairələrinin, sahibkarların informasiya maraqlarını və ehtiyaclarını ödəməyə xidmət edən media vasitələri. Bu media vasitələrində iqtisadi xəbərlər, analitik materiallar, reklam müraciətləri böyük üstünlük təşkil edir.

**İŞGÜZAR NÜFUZ –** *Dip.* Şəxsin qabiliyyətinə, işgüzar keyfiyyətlərinə görə cəmiyyətdə, kollektivdə, dostlarının əhatəsində, təşkilatlarda tutduğu mövqe.

**İŞIQ FİLTİRİ –** *Tex.* Müəyyən proqramlarda effekti artırmaq üçün işıq selinin, yaxud spektrin bir hissəsinin qarşısını kəsmək, onu ayıraraq intensivliyi dəyişmək üçün istifadə olunan optik qurğu.

**İŞTİRAK EFFEKTİ –** *Jur.* Radioda, televiziyada, internetdə tamaşaçının, yaxud dinləyicinin özünü həmin anda fərqli məkanda baş verən hadisənin iştirakçısı kimi hiss etməsi habelə, buna imkan yaradan media texnologiyaları.

**İTERATİV DEYİM** – *İnf.* Proqramlaşdırmada deyimlər qrupunu dəfələrlə başladan deyim.

**İTSENKO** – *Tib.* Kuşinq sindromunda kortikosteroma, yaxud böyrəküstü vəz xərçəngi olur, bu zaman kortizolun hi-

perifrazı baş verir. AKTH-ın sintezinin azalması nəticəsində hipofiz hüceyrələrinin hipertrofiyası mövcuddur-hipofiz adenoması, bu isə öz növbəsində hipofizin yüksək aktivliyi ilə xarakterizə olunur.

**İYNƏ** – **1.** *İnf.* Matrisli printerdə lenti kağıza sıxaraq nöqtələr salan hərəkət edən sərt məftil. **2.***Tex.* Elektron bağlayıcının sərt kontaktı.

**İZOANEMON** (*yun. isos – bərabər + yun. anemos – külək*) – *Coğ.* Xəritədə küləyin orta sürəti eyni olduğu nöqtələri birləşdirən izoxətt.

**İZOANOMAL** (*yun. isos – bərabər + yun. anemos – qaydaya zidd*) – *Coğ.* Hər hansı normativ göstəricidən eyni dərəcədə fərqli göstəriciyə malik nöqtələri xəritə üzərində birləşdirən izoxətlər.

**İZOATM** (*yun. isos – bərabər + yun. atmos – buxar*) – *Coğ.* Xəritədə buxarlanmanın eyni kəmiyyətə malik olduğu nöqtələri birləşdirən izoxətt.

**İZOBAT** (*yun. isos – bərabər + yun. bathos – dərinlik*) – *Coğ.* Su hövzələrinin (göl, dəniz, okean) eyni dərinlikdə olan nöqtələrini xəritədə birləşdirən izoxətt.

**İZOBAZ** (*yun. isos – bərabər + yun. basis – əsas, özül*) – *Coğ.* Müəyyən zaman kəsiyində eyni səviyyədə tektonik dəyişikliklərə (qalxma, çökmə) məruz qalmış sahələri xəritədə birləşdirən izoxətt.

**İZOGİPS** (*yun. isos – bərabər + yun. hypsos – yüksəklik*) – *Coğ.* Yer səthinin dəniz səviyyəsindən eyni hündürlükdə olan nöqtələrini xəritədə birləşdirən izoxətt.

**İZOGİYET** (*yun. isos – bərabər + yun. hyetos – yağış*) – *Coğ.* Müəyyən vaxt ərzində düşən yağıntının miqdarı bərabər olan əraziləri xəritədə birləşdirən izoxətt. Eyni buludlu-

luğa malik olan zonaları iqlim xəritəsində birləşdirən izoxətt.

**İZOQRAFT**– *Tib.* Monoziqot əkizlərdəki kimi genetik cəhətdən eyni olan  bir fərddən digərinə köçürülmüş toxuma qraftı.

**İZOLYASİYANOZMİ** *(fr.d.isolation-ayrılma)* – *Ped.* Subyektin öz əlaqə və münasibətlərinin məhdudlaşdırılmasına yönəlmiş davranış tipi.

**İZOPAQ** (yun. *isos* – bərabər + yun. *pagos* – buz) – *Coğ.* Su hövzələrində buz örtüyünün eyni davamiyyətə malik olduğu sahələri xəritə üzərində birləşdirən izoxətt.

**İZOPEKTİKLƏR** (*yun. Isos-"bərabər" və pektos -bərkimiş, donmuş*) – *Coğ.* Xəritə üzərində suyun donma tarixini göstərən izoxətlər.

**İZOSEYST** (*yun. isos – bərabər + yun. seistos – silkələnmə, tərpənmə*) – *Coğ.* Zəlzələnin eyni gücdə qeyd olunduğu nöqtələri seysmik xəritədə birləşdirən izoxətt.

**İZOTER** (*yun. isos – bərabər + yun. theros – yay*) – *Coğ.* Yayın orta temperaturu eyni olan sahələri xəritədə birləşdirən izoxətt.

**İZOTİP** – *Coğ.* Müxtəlif ərazilərdə yayılan heyvan və ya bitki növ müxtəliflikləri.

**İZOVELA** (*yun. ısos-"bərabər" və lat. velox- "tez hərəkət edən"*) – *Coğ.* Xəritədə küləyin eyni sürətli nöqtələrini birləşdirən izoxətt.

## -K-

**KABEL MODEMİ** – *İnf.* Adi telefon modemindən  verilənləri daha sürətlə ötürməsinə görə fərqlənən,  ancaq gerçək ötürülmə sürəti həmin kabeldə paralel işləyən istifadə-

çilərin sayından asılı olan, kompüteri onlayn xidmət göstərən kabel TV sistemi ilə birləşdirmək üçün istifadə olunan modem.

**KABEL YAYIMI –** *İnf.* Radiosiqnalların kabel sistemi vasitəsilə ötürülməsi və abunəçilər tərəfindən qəbul edilməsi prosesi.

**KADRARXASI MƏTN** – *İnf.* Məlumatı görüntü vasitəsi ilə təqdim etmək mümkün olmadıqda vizual informasiyanın inftamamlanması üçün diktorun, aparıcının, yaxud müəllifin kadrda görünməmək şərti ilə tamaşaçılara çatdırdıqları səsli informasiya.

**KALDERA** (*isp. caldera – böyük qazan*) – *Coğ.* K. *kraterdən* formalaşma xüsusiyyətlərinə və böyük ölçülərinə görə fərqlənən vulkanın zirvəsində dairə formasında çökəklik. K.-lar vulkan boğazında güclü qaz partlayışı, yaxud vulkan püskürməsi zəiflədikdən sonra kraterin kənarlarının uçması nəticəsində yaranır.

**KANAPE** – *Kul.* Qəlyanaltı üçün boyat çörək qalınlığı 0,5 – 1 sm olan müxtəlif fiqurlar şəklində (kvadrat, ulduz və s.) doğranır. Doğranmış çörək kərə yağında qızardılır. Qızardılmış çörək diliminin üstünə siyənək balığı, pendir, paştet və s. ərzaqlar qoyula bilər.

**KANONİK AD –** *İnf.* İnternetdə host kompüterin rəsmi adı.

**KANONİK FORMA –** *İnf.* Riyaziyyat və proqramlaşdırmada müəyyən edilmiş qaydalar və ya prinsiplərə uyğun olan yazı forması.

**KARİOKİNEZ** (*caryokinesis; kario-+ yun. kinesis hərəkət; sin. mitoz) – Tib.* Hüceyrə nüvəsinin bölünməsi zamanı törəmə hüceyrələr arasında xromosomların bərabər paylanması.

**KARİOQAMİYA** (*kario- + yun. gamos nigah*) – *Tib.* Ziqotun nüvəsinə cinsi hüceyrələrin nüvələrinin qovuşması.

**KARİOLEMMA** (*caryolemma; kario+ yun. lemma qişa*) – *Tib.* İki lipoproteiddən ibarət olan nüvə qişası.

**KARİOLİMFA** (*caryolympha; sin. karioplazma*) – *Tib.* Hüceyrə nüvəsinin duru əsas maddəsi, nüvə şirəsi; müxtəlif zülallardan, nuklein turşularından və zülalların sintezində iştirak edən fermentlərdən ibarətdir.

**KARİOLOGİYA** (*kario + yun. logos elm*) – *Tib.* Sitologiyanın hüceyrə nüvəsinin quruluşunu və həyat fəaliyyətini öyrənən bölməsi.

**KARİOREKSİS** (*caryorrhexis; kario+ yun. rhexis parçalanma*) – *Tib.* Hüceyrə nüvəsinin kiçik dənələrə parçalanması.

**KARİOTİP** (*kario + yun. typos forma, nümunə*) – *Tib.* Verilmiş növ üçün xarakterik olan xromosom yığımı.

**KARSİN** (*karsino-yunan – karkinos xərçəng; karkinos və karkinoma xora, yeyici xora, xərçəng*) – *Tib.* Mürəkkəb sözlərin tərkib hissəsi kimi "xərçəngə aid" mənasında işlədilir.

**KARSİNEMİYA** (*lat.d.carcinaemia*) – *Tib.* Şişin hematogen (qan vasitəsi ilə) metastaz verməsi nəticəsində qanda xərçəng hüceyrələrinin mövcud olması.

**KARSİNOİD** (*lat.tumor carcinoides*) – *Tib.* Morfoloji substratı bağırsaq argentaffinositləri və ya quruluşca bunlara oxşar hüceyrələrdən ibarət olan xoşxassəli və bədxassəli şişlərin ümumi adı. Karsinoid apendiksdə (soxulcanabənzər çıxıntıda) bəzən isə mədədə, nazik bağırsaqda və ya bronxlarda rast gəlinir.

**KARST LANDŞAFTI** – *Coğ.* Karst relyef formalarının inkişaf etdiyi ərazilərin landşaftı. Mülayim qurşaqda K.L.

səthin kələ-kötürlülüyü, çala və çökəkliklərin çoxluğu, səth suları şəbəkəsinin zəif inkişaf etməsi, qrunt sularının dərin yerləşməsi, yeraltı boşluqların və mağaraların olması ilə səciyyələnir.

**KARST MAĞARASI** – *Coğ.* Yerin müəyyən dərinliklərində suyun süxurları yuması nəticəsində yaranmış və yer səthi ilə əlaqəsi (bir və ya bir neçə çıxışı) olan boşluq. K.M. əksər hallarda üfüqi və maili dar keçidlərdən, qollardan, dəhliz və zallardan ibarət mürəkkəb quruluşa malik olur.

**KARTRİDER** – *İqt.* Bank kartlarının qəbul edilməsi üçün yarıqlar kartrider adlanır. Kartı qəbul edən və qaytaran, eləcə də informasiyanı çap və ya maqnit zolağından hesablayan mexaniki qurğu. Bankomatın yuxarı ön hissəsində bütün monitor, klaviatura, bank kartlarını qəbul etmək üçün kartrider adlanan yarıqlar, printer, pul vəsaitlərinin verilməsi və qəbul edilməsi üçün yarıqlar yerləşdirilməlidir.

**KASKAD MENYU** – *Kul.* Çoxlu sayda başqa menyulara yol açan menyu.

**KASKAD PƏNCƏRƏLƏR –** *İnf.* Qrafik istifadəçi interfeysində bir-birini qismən örtməklə əks olunan iki və ya daha artıq pəncərə.

**KAŞİRLƏNMƏ** – *İnş.* Bərk nazik təbəqənin oduncaq yonqarı lövhəyə preslənməsidir. Bu zaman lövhənin bütün səthinə yapışqan təbəqəsi çəkilir və bu təbəqəyə bərk dekorativ təbəqə preslənir.

**KEÇİD QUTUSU** – *İnf.* İki qurğunun arasına (kompüterlə modem və ya kompüterlərlə printer arasına) siqnalları yoxlamaq və lazım gələrsə, kabelin ayrı-ayrı naqilləri ilə verilən siqnalları dəyişdirmək məqsədilə qoşulan kiçik cihaz.

**KEQL** – *Jur.* Yazıların nəşr olunması prosesində mətbəə şriftinin hündürlük ölçüsü.

**KELOİD** (*lat.d. keloidum*) – *Tib.* Dərinin birləşdirici toxumasının şişə bənzər formada bərk konsistesiyalı böyüməsi.
**KEPSTR** – *İnf.* Siqnalın spektrinin loqarifmik miqyasda təsviridir. Burada loqarifmləmə əməli ilkin spektrdə fluktasiyaları müəyyən qədər hamarlamağa yönəlib ki, kepstrdə "parazit" komponentlərin sayı azalsın. Termin "spektr" sözündə hərflərin yerini dəyişməklə yaranıb.
**KERATOAKANTOMA** (*lat.d.keratoacanthoma*) – *Tib.* Tük folükullarının mərkəzi hissədən vulkanabənzər çökəkləşən və buynuzlaşan epiteti ilə dolan tək və ya çoxlu şarşəkilli düyünlər formasında təzahür olunan xoşxasəli epidermal şişi.
**KERATOMA** (*lat.d.keratoma*) – *Tib.* Dərinin xoşxassəli yeni törəməsi olub, normadan artıq buynuzlaşma hesabına epidermisin qalınlaşması ilə səciyyələnir. Xərçəngönü xəstəlik sayılır.
**KERNİNQ** – *Jur.* Çap mətninin estetik qavranılmasını yaxşılaşdırmaq üçün müəyyən simvol cütlükləri. Müxtəlif yazılış formalarına malik hərflər, işarələr arasında vizual məsafəni bərabərləşdirmək üçün mətndə qoşa simvollar arasında məsafənin dəyişdirilməsi.
**KESSON** – *Tex.* Qazma qurğusundan, yaxud platformadan uzanaraq tamamilə suya salınmış və dəniz suyunun götürülməsi, yaxud axıntı suların atqısı üçün istifadə oluna bilən silindrşəkilli polad kamera.
**KEŞ –** *İnf.* Yaddaşın xüsusi altsistemi. Keş yaddaşında tez-tez istifadə olunan verilənlərin qiymətləri saxlanılır ki, bunun da nəticəsində onlara erişmək çox sürətlə baş verir.
**KƏSİM XƏRİTƏSİ** – *İnf.* Diskdə istifadə olunmayan sektorları göstərən xəritə.
**KİBER** (*yun.d.kybernetike-idarəçilik bacarığı*) – *Dil.* Mürəkkəb sözlərin virtual gerçəkliyə, internet aləminə aidlik bildirən tərkib hissəsi.

**KİBERJURNALİSTİKA –** *Jur*. İnternet sistemində yeni kommunikasiya texnologiyalarından istifadə edilməsi, toplanması, ötürülməsi, idarə olunmasının qanunauyğunluqları haqqında jurnalistika fəaliyyəti.

**KİBERPANK** – *Ədəb*. Elmi-fantastik ədəbiyyatın növü.

**KİBERSPEYS** – *İnf.* Kompüter şəbəkələri vasitəsilə kommunikasiyanın həyata keçirildiyi mücərrəd ətraf mühit.

**KLAKA** *(fr.d.claque)* – Kütləvi siyasi tədbirin dəvət olunmuş iştirakçılar qrupu tərəfindən səs-küylə təqdir edilməsi.

**KLASSİFİKATOR** – *İnf.* Hər hansı bir obyektin sistemləşdirilmiş siyahısında, hər bir elementə müəyyən kod verilir.

**KLERİKALİZM** *(lat.d.clericalis-kilseye xas)* – *İlah.* Katolik kilsəsinin nüfuzunu möhkəmləndirilməsinə yönəlmiş cəhdlərin məcmusu.

**KLİFHENGER** (*ing.d.cliffhanger-kulminasiya, asılı vəziyyət*) – *Jur.* Tamaşada, seriallarda, kinoda iştirakçıları intizarda saxlamaq üsulu. Televiziya seriallarında bir hissənin yarımçıq qalmış, növbəti hissənin əvvəlinə baxmadan nə ilə bitəcəyi bilinməyən sonluğu.

**KLİKA** *(fr.clique-banda)* – *Dip.* Müəyyən məkrli məqsəd üçün birləşmiş insan qrupu.

**KLİPART** – *İnf.* Kitabda və ya diskdə toplanmış illüstrativ materialların-fotoşəkillərin, diaqramların, xəritələrin, şəkillərin və başqa oxşar informasiyaların yığını.

**KLİRİNQ BANKI** – *İqt.* Bank hesablama palatasının üzvüdür. Bank orada açılmış hesab üzrə xidmətlər göstərir: material qiymətlilərin vəziyyəti cədvəlinin, qiymətli kağızların alınması və satışı, hesabalaşmaların və ödəmələrin aparılması.

**KLİRİNQ SAZİŞİ** – *İqt.* Qarşılıqlı ticarətdə tarazlığa nail olmaq üçün ixrac gəlirlərində istifadə edilməsi nəzərdə tutulan beynəlxalq ticarət sazişi.

**KLİYENTEL** *(lat.d.cliens-sözə baxan) – Pol.* Hakimiyyət ehtiyatlarının qeyri-bərabər bölgüsü zamanı yaranan sosial asılılıq forması.
**KODEK** – *İnf.* Ötürücüdə ötürməni, saxlamanı və şifrləməni asanlaşdırmaq üçün verilənlər axınını kodlaşdıran, dekodlaşdıran proqram və ya aparat təminatını bildirir. Qəbuledicidə isə siqnal müvafiq istifadə üçün dekodlaşdırılır. Kodeklər video-konfrans və axın media həlləri üçün daha çox istifadə edilir. Analoq şəklində olan ilkin video və ya səs siqnalının aparat və ya proqram vasitəsilə sıxılmış rəqəmsal formaya və əksinə çevrilməsi mexanizmi.
**KODLAŞDIRMA BLANKI** – *İnf.* Bəzi proqramlaşdırma dillərinin simvolların mövqeyindən asılı olduğundan onların ilkin mətnlərinin yazılmasını asanlaşdırmaq üçün nişanlanmış kağız səhifəsi.
**KOFEİN** – *İnf.* Kofein xüsusi quraşdırma tələb etməyən minimum ölçüyə (yalnız 40 Kb) malik utilitdir (proqramdır). Bu proqramı sadəcə işə salmaq kifayətdir. Utilitin hansı müddətdə aktiv olması, əgər lazım olarsa, onu müstəqil ləğv edilməsi proqramın sazlanması müddətində göstərilə bilər.
**KOHERENTLİK** – *İnf.* Optikada fazaca üst-üstə düşən elektromaqnit dalğalarına aid edilən şüalanmanın xarakteristikası.
**KOLLAGEN** – *Tib.* Üçqat spiralşəkilli quruluşa malik olaraq qlisin, prolin və hidroksiprolindən ibarət molekul. O, birləşdirici toxuma liflərinin, sümüyün üzvi matriksinin, sementin və bazal səhifənin əsas hissəsini təşkil edir. Kollagen-fibrobastlar, xondroblastlar, osteoblastlar və odontoblastlar tərəfindən sintez olunur.
**KOLLAJ** – *Jur.* Qəzetlərdə, jurnallarda fotoların bir blokda montajı üçün müəyyən materialların faktura və rənginə

görə onlardan fərqlənən hər hansı müstəvi, yaxud özül üzərində yanaşı yapışdırılması üsulu, habelə bu üsulla yaradılmış əsər.

**KOLLASİYA** – *İnf.* İnformasiyaların adekvatlığının aşkar edilməsi, hesabların üzləşdirib yoxlanması, müqayisə edilməsi.

**KOLLEKTİV İMMUNİTET** – *Tib.* Populyasiya immuniteti kimi tanınan kollektiv immunitet, ya peyvənd nəticəsində, ya da əvvəllər keçirilmiş infeksiya nəticəsində əhali arasında immunitetin inkişafı nəticəsində yaranan infeksion xəstəliklərin qarşısını almaq üçün aparılır. Müəyyən bir xəstəliyə qarşı immunitet formalaşdığı zaman kollektiv immunitet yaranır. Bu baş verdikdə, insanların əksəriyyəti immunitetə malik olduğu üçün, xəstəliklər insandan insana asanlıqla ötürülə bilmir. Kollektiv immunitet xəstəliyin yayılmasını çətinləşdirərək epidemiyanın qarşısını alır. Xəstəliyə getdikcə daha da nadir hallarda rast gəlinir və hətta o, bəzən, tamamilə cəmiyyətdən yox olur.

**KOLLEGİALLIQ** – *Pol.* Ölkənin rəhbərliyinin səlahiyyətli şəxslər qrupu tərəfindən idarəetmə prinsipi.

**KOLLEKTOR –** *Tex.* Tranzistorda normal iş şəraitində yük daşıyıcılarının axıb töküldüyü komponent.

**KOLLOBORASİONİST** *(fr.d.colloboration-əməkdaşlıq)* – *Dip.* İşğalçılarla əməkdaşlıq edən vətən xaini.

**KOMANDA DİLİ** – *İnf.* Komandalar interpretatoru tərəfindən mümkün olan komandalar kimi qəbul edilən açar söz (keyvords) və ifadələrin toplusu.

**KOMENİUS PROQRAMI** – *Ped.* Məktəb təhsilində keyfiyyəti artırmağı və Avropa ölçüsünü gücləndirməyi hədəfləyən həyat boyu öyrənmə proqramı.

**KOMPRESSİYA** – *Fiz.* Maddənin daxilində təzyiqin artırılması.

**KOMMUNAL BONLAR** – *İqt.* Kommunal xidmətlərinə görə gələcək ödənişlərin vaxtından əvvəl toplanması məqsədi ilə buraxılan və kommunal xidmətlərində istifadə hüququ olan şəhadətnamədir.

**KOMMUNİKABELLİK** (*lat.d. communicabilis-birləşdirilmiş)* **–** *İqt.* İnformasiyanın müxtəliftipli ötürmə sistemlərinin bir-birinə uyğunlaşdırılma imkanları, yaxud da əlaqə yaratmaq, ünsiyyət qurmaq bacarığı.

**KOMMUNİKATİV YANAŞMA** – *Ped.* Hərtərəfli inkişaf etmiş şəxsiyyətin formalaşması üçün şərait yaradılmasına yönəlmiş, kollektivdəki sosial-psixoloji prosesləri idarə etməyə və səmərəli psixoloji iqlim yaratmağa imkan verir.

**KOMMUNİKATOR** (*lat.d.communicatio-məlumat, açıqlama*) **–** 1. *Pol.* Müəyyən nəticəni əldə etmək üçün ünsiyyətdə olduğu şəxsə təsir göstərməyə çalışan mütəxəssis. 2. *Pol.* Fərdlər, sosial qruplar, cəmiyyətlər arasında əlaqəni təmin edən istənilən kütləvi informasiya vasitəsi; 3.*İnf.* mobil rabitə funksiyasına malik kiçik fərdi kompüter.

**KOMMUTATOR** (*lat.d.commutare-dəyişmək)* **–** 1. *İnf.* Kompüter şəbəkəsində qovşaqların, yaxud müxtəlif seqmentlərin birləşdirilməsi üçün qurğu; 2.*Tex.* Telefon xətlərini birləşdirən qurğu.

**KOMPANDİNQ** (*ing. companding – compression + expanding – sıxma + genişləndirmə*) – *İnf.* Məhdud dinamik diapazonlu kanalların təsirlərinin azaldılması metodu. Kvantlama intervallarının sayını giriş siqnalının kiçik qiymətləri oblastında artırmağa və maksimal qiymətlər oblastında azaltmağa əsaslanır.

**KOMPARATOR** – *İnf.* İki elementin eyniliyini yoxlamaq məqsədilə onların qiymətlərini tutuşduran qurğu.

**KOMPİLYASİYA** *(lat.d.compilatio-qarət) – Pol.* Tədqi-

qatda müəllif tərəfindən araşdırma və təhlil aparılmadan başqa müəlliflərin əsərlərindən köçürmə, habelə bu üsulla yaradılmış əsər, yazılmış məqalə. Plagiatlıqdan fərqli olaraq kompilyativ əsərlərdə bir çox mənbədən köçürməklə yazılan əsər.

**KOMPİLYATOR** – *İnf.* Müəyyən sintaksis və semantik qaydalar kompleksinə əsaslanaraq bir simvollar yığınını başqasına çevirən proqram.

**KOMPRESSİYA** *(sıxma) – Tex.* Gurluğu düzləndirməklə səsin dinamikasının dəyişməsi, uca səsi yavaş səslə əvəz edən proses. Faktiki olaraq, kompressor qurğunun avtomatik tənzimləyicisidir.

**KOMMUNİTARİZM** *(ing.d.community-icma) – Pol.* Sosial hərəkatın yeni forması.

**KONOSAMENT –** *İqt.* Mal üzərində mülkiyyət hüququnu ifadə edən qiymətli sənəd.

**KONDENSAT –** *Tex.* Səthdəki hasilat avadanlığı ilə bağlı olan normal temperaturlarda və təzyiqlərdə mayeyə kondensasiya olan, təbii qazla birlikdə hasil olunmuş yüngül karbohidrogen fraksiyaları.

**KONDENSATOR –** *İnf.* Müəyyən tutumu olan elektrik sxemi elementi. Kondensator bir-birindən izolyasiya materialları ilə ayrılmış iki keçirici lövhədən ibarət olur.

**KONTİNENTAL ŞELF –** *Dən.* Yer kürəsindəki materiklərdən birinin bir hissəsini təşkil edən tektonik plitə. Kontinental yamac kontinental şelfi və okean qabığını əhatə edir və kontinental şelfin sərhədinin bir hissəsini təşkil edir.

**KONDİSİYALAŞMA –** *İqt.* Müəyyən olunmuş normativə, standarta uyğun malın gətirilməsi.

**KONDİSYA –** *İqt.* Müqavilə şərtinə əsasən hansı bir normanın, standart keyfiyyətin bu və ya digər mala uyğun olması.

**KONVERGENSİYA – 1.** *Jur.* Hər hansı rəqəmsal format üçün materialın hazırlanması təcrübəsidir. Konvergent xəbər otaqlarında çapla rəqəmsal istehsalat birlikdə gerçəkləşdirilir.2. *Jur.* Müxtəlif mənbələrdən və müxtəlif yollarla əmələ gələn, lakin xüsusiyyətlərinə görə bir-birinə uyğun və ya çox yaxın olan maddələrin, məhsulların, obyektlərin əmələ gəlməsi.

**KONVERGENSİYA JANRLARI** – *Jur.* Müxtəlif kütləvi informasiya vasitələrinin internet şəbəkəsində kəsişməsi janrların hibridləşməsinə gətirib çıxarır, yəni eyni bir materialda mətbuatın, radionun və televiziyanın janr elementlərindən istifadə olunur.

**KONFESSİONAL JURNALİSTİKA** *(lat.d. confessio-dini sitayiş)* **–** *Jur.*Dini jurnalistikanın bir qolu kimi konkret məzhəbin ideologiyasının fəal təbliğatçısı. Hər hansı dini ideologiyanın mənafeyinə uyğun olaraq onu müdafiə edən, faktları, hadisələri həmin təlimin qaydalar sisteminə əsas tutaraq araşdıran jurnalistika sahəsi.

**KONFETTİ** – *İnf.* Perfokartlarda, perfolentdə və ya printerə fasiləsiz verilən kağızın qırağında deşiklər açılarkən alınan kağız qırıntıları.

**KONFİDENSİAL MƏNBƏ –** *Jur.* Adının gizli saxlanılması şərti ilə jurnalistə, yaxud kütləvi informasiya vasitəsinə məlumat vermiş şəxs.

**KONFİDENSİALLIQ** – *İnf.* İnformasiya təhlükəsizliyinin əlyetənlik, tamlıq və konfidensiallığı əks etdirən üç aspekti. Əlyetənlik − yolverilən vaxt ərzində tələb olunan informasiya resursunu, informasiya xidmətini əldə etmək imkanıdır; Tamlıq − informasiyanın əvvəlcədən müəyyən edilmiş şəkil və keyfiyyəti saxlaması xassəsidir; Konfidensiallıq − informasiyanın icazəsiz girişlərdən məxfi saxlanılması xassəsidir.

**KONFİSKASİYA** *(lat.d.confisscatio-xəzinə üçün alınan)* **–** *Jur*. Kütləvi informasiya vasitələrində yol verilmiş qanun pozuntusuna görə tətbiq edilən cəza tədbirlərindən biri. Cəza tədbiri kimi redaksiyaya məxsus əmlakın məcburi şəkildə və əvəzi ödənilmədən mülkiyyətçidən dövlətin xeyrinə götürülməsi.

**KONFORMİZM** *(lat.d. conformis-uyğun, münasib)– Jur.* Mediada güc mərkəzlərinin yol verdiyi qanunsuzluqlara göz yumma. Reallığı qəbul etməmək, güc qüvvələrə, hakim təbəqəyə, mövcud qaydalara kor-koranə uyğunlaşma, prinsipsizlik.

**KONOSAMENT** *(fr. connaisement) – Dən.* Nəqliyyat qaiməsi, yük daşıyıcısının yük sahibinə verdiyi, yükün daşınmağa qəbul edilməsini təsdiqləyən, yükün təyinat yerinə çatdırılması və alan şəxsə təqdim edilməsi öhdəliyindən ibarət olan sənəd.

**KONSALTİNQ** *(ing. consultinq) – İqt.* Mütəxəssisin texniki və iqtisadi fəaliyyət sahəsində istehsalçılara, satıcılara, alıcılara məsləhət verməsi. Bu xidmət xüsusi şirkətlər tərəfindən yerinə yetirilir.

**KONSELİNQ** *– Dən.* Çarter tərəfindən nəzərdə tutulan son müddətdir ki, bu dövrdə gəmi göndərmə limanına gəlməli və hər bir münasibətdə yüklənməyə hazır olmalıdır.

**KONSENTRİK DAİRƏ –** *Hüq.* Ümumi mərkəzə tabe olan müəyyən qrup.

**KONSİQNATOR –** *İqt.* 1. Komisyonçu vasitəsilə bir qayda olaraq xaricə satılan malın sahibi; 2. Təmsil etdiyi şəxsə məxsus əmtəələri özünün sahibi olduğu anbarlardan satan ticarət agenti. Üçüncü şəxslə əqd bağlanıldığı an konsiqnant satılan əmtəənin sahibi kimi çıxış edir.

**KONSOL** – *İnf.* Ənənəvi olaraq istifadəçinin kompüterlə əlaqə saxladığı mikrokompüterlərdə sistemin əsas komponentlərinin və idarəetmə vasitələrinin yerləşdiyi blok idarəetmə qurğusu. Bəzən *konsol* dedikdə, yalnız displey və klaviatura başa düşülür.

**KONSOL REJİMİ** – *İnf.* Windows və OS/2 əməliyyat sistemlərində DOS proqramlarının çalışdırılması yolu.

**KONSOL PROQRAM** – *İnf.* Sistemin idarəsində əsas üstünlükləri ilə fərqlənən proqram. Proqram əmrləri birbaşa onlara, daha sürətli daha sabit çıxış qəbulu və daha az hesablama resursları tələb edir. Belə proqram kiçik ölçüsü ilə fərqlənir və yükləməni sürətli edir.

**KONSOLİDASİYA** – 1. *İqt.* Möhtəkir səhmlərlə ticarətdən alınan mənfəətin daha etibarlı səhmlərə qoyuluşu; 2. *İqt.* Ölkənin valyuta ehtiyatlarında milli valyutanın yeni beynəlxalq pul aktivləri ilə əvəz edilməsi; 3. *İqt.* Uçotun hazırlanması zamanı istifadə olunan, mühasibat uçotunun metodu ; 4. *İqt.* Iki və daha çox firmanın, şirkətin birləşməsi, qovuşması; 5. *Dip.* Birləşmə, həmrəy olma və müştərək hərəkət etmə; vahid ideya və maraqlar uğrunda mübarizə aparan qüvvələrin ümumi məqsəd naminə birləşməsi.

**KONSORSİUM** – *Tex.* Ümumi bir məqsədlə yaradılan müəssisələrin, işgüzar dairələrin və ya maliyyə təşkilatlarının assosiasiyası və ya qruplaşması.

**KONTEKSTUAL BİLİK** – *Ped.* Problemin həll edilməsi yolu ilə əldə olunan yeni biliklər.

**KONTENT** – *İqt.* Sənədin atributlarından fərqli olaraq, onun məzmunlu hissəsi.

**KONTİGENT** *(lat.contigens-paya düşən)* – *İqt.* Xarici ticarətdə bəzi malların ölkəyə gətirilməsi və ölkədən çıxarılması hədd normasının müəyyənləşdirilməsi.

**KONTİGENTLƏŞDİRMƏ** – *İqt.* Xarici ticarətin dövlət tərəfindən kontingent adlandırılan ixrac və idxal kvotalarının müəyyənləşdirilməsi vasitəsi ilə onun tənzimlənməsi formalarından biri.
**KONTRAKTASİYA** – *İqt.* Məhsulu istehsal edən müəssisələr və bu məhsulu tədarük edən satan təşkilatlar arasında bağlanan kontrakt (müqavilə).
**KONTRASTLIQ** – *Riy.* Görüntünün ən tünd və ən işıqlı sahələrinin parlaqlıq qiymətlərinin nisbəti.
**KONTROLLER** – *İnf.* Giriş qurğusu, çıxış qurğusu ilə mikroprosessor arasında aparat interfeysi olan portla bağlı olan idarəetmə mikrosxemi. *Giriş-çıxış kontrolleri* giriş və çıxış verilənlərini idarə və emal edir və bununla da mikroprosessoru ardıcıl rabitə vasitələri ilə təmin edilir, eləcə də onu başqa işlər üçün azad edir.
**KONTUR** *(fr.d. contour-bürümək, haşiyəyə almaq)* –1. *Tex.* Hər hansı əşyanın, fiqurun kənar cizgilərinin qrafik təsviri, onları haşiyələyən qapalı xətt. 2. *Tex.* Mobil telefonunu aplikasiyasını yükləyərək, həmin aplikasiya ilə balansı artırmaq. Ödəmə kartının etibarlılıq müddəti ərzində balansı pul ilə artırmaq.
**KONVEKSİYA** – *Tex.* İstilik mübadiləsinin elə bir növüdür ki, bu zaman daxili enerji şırnaqlar və axınlar şəklində ötürülür.
**KOPEPODLAR**– 1.*Bio.* Buğumayaqlılar ailəsinin hər hansı üzvü. 2. *Bio.* Şirin sularda və dəniz sularında yaşayan bir çox xərçəngkimilər.
**KOPİRAYT** *(ing.d. copyright-köçürmə hüququ) – Jur.* Nəşr olunan əsərlərdə, ümumiyyətlə çap əsərlərində müəllif hüququnun qorunmasını bildirən işarə.
**KORALİN** – *Tex.* Qraft kimi istifadə olunan koralinin kalsium karbonatdan alınan keramika forması.

**KORONAVİRUS** (*lat. corona* və *virions sözündəndir, koron* və ya *virus* mənasındadır) – *Tib.* Koronavirus koron partikullarının insan və ya heyvanlar arasında yayıldığı sübut edilmiş patogen xüsusiyyətləri olan geniş viruslar ailəsidir. İnsanlarda, quşlarda yüngüldən ölümcülə qədər nəticəsi ola bilən tənəffüs yolu infeksiyasına səbəb olur. İnsanlarda yüngül formasına zökəmin bəzi halları daxildir. Daha ölümcül növləri SARS, MERS və COVİD-19 -dur. Bu virus inək və donuzlarda diareyaya, siçanlarda isə hepatit və ensefalomiyelitə səbəb olur. Hazırda insanları koronavirus infeksiyasına qarşı qoruyan və ya müalicə edən dərman vaksin peyvəndlərdir.Koronavirus pandemiyası dönüş nöqtəsi olaraq dünyada insanların həyat tərzini gözlənilmədən dəyişdirən qlobal miqyaslı bir hadisədir. Bu böhran demək olar ki, insan fəaliyyətinin bütün sahələrindən iqtisadiyyat, təhsil, səhiyyə, ticarət, turizm, sosial həyatdan və s. yan keçmədi. Pandemiya yer kürəsində əhalinin böyük hissəsinə (panikanın yayılması, iqtisadiyyatın çökməsi, işsizlik, tibb sahəsində böhran, sərt karantinin tətbiqi, sərhədlərin bağlanması və s.) təsir etdi.

**KORONAVİRUS ŞTAMMLARI** – *Tib.* Virusun yeni variantları aşkar olunduğu, geniş yayıldığı ölkənin adı ilə adlandırılırdı. Yaranan yeni variantlar "Britaniya" ştammı, "Hindistan" ştammı, "Cənubi Afrika" ştammı dünya dillərində ilk dəfə olaraq işlənməyə başladı. Lakin sonradan Ümumdünya Səhiyyə Təşkilatı virusun yeni ştammlarının coğrafi adlarla ifadə olunmasının əleyhinə çıxaraq, onları yunan əlifbasının hərfləri ilə əvəzlədi. Beləliklə, 2020-ci ilin iyun ayından ÜST Hindistan ştammına "*Delta*", Böyük Britaniya ştammına "*Alfa*", Cənubi Afrika ştammına "*Beta*", Braziliya ştammına isə "*Qamma*" adı verildi.

**KORONAVİRUS TESTİ** – *Tib.* Xəstəliyi təyin etmək üçün götürülən test. Hazırda Azərbaycanda iki cür koronavirus testi aparılır. Bunlardan biri burundan və ağız boşluğundan yaxma götürülməklə, digəri isə seroloji test vasitəsilə, yəni qan analizi verməklə aparılır.

**KORONOFOBİYA** – *Tib.* Koronavirusa yoluxmaq qorxusu və maddi rifahın aşağı səviyyəyə düşməsindən narahatlıq. Bütün dünyanı öz mənfi təsiri altına salan yeni tip koronovirus xəstəlik törətməklə bərabər, insanlarda qorxu, həyəcanı da artırmaqdadır. Əslində, artan sürətlə qısa müddət ərzində bir neçə milyondan çox insanın yoluxması faktının həyəcan yaratması başa düşüləndir. Həyəcan özü-özlüyündə ağrı hissi kimi qoruyucu mexanizmə malikdir və insanı təhlükədən qorunmaq haqqında xəbərdar edir. Amma bu qoruyucu mexanizm bir mərhələdən sonra bəzi insanlarda o qədər artmağa başlayır ki, özü əlavə problemə çevrilir. Artmış həyəcan gün ərzində insanı gərgin saxlamaqla yanaşı, müxtəlif pis düşüncələrlə, bədəndə ağrı, qızdırma, ürək döyüntüsü, nəfəs darlığı kimi əlamətlərlə özünü göstərməyə başlayır.

**KORPORASİYA** (*ing. – corporation; lat. coporatio –birlik, birləşmə*) – *İqt.* Geniş əhatəli kollektiv təsərrüfatçılıq formalarından biridir.

**KORTEJ YAZI** – *İnf.* Verilənlər bazası cədvəlində hər biri müəyyən sütuna aid olan əlaqəli qiymətlərin yığını.

**KORTİKOTOMİYA** – *Tib.* Sümüyün yalnız kortikal qatının cərrahi yolla kəsilməsini təmin edən cərrahi üsul.

**KOSMOVİZİYA** – *Tex.* Kosmik fəzada baş verən prosesləri, eləcə də planetlər ətrafında dövr edən uçuş aparatlarından təsvirlərin yerə ötürülməsini, onların qəbulunu və retranslyasiyasını təmin edən televiziya sistemi.

**KOST PLAS** (*ing.-cost pluş-qiymət üstəgəl*) – *İqt.* Əlavə xidmətlərə görə əvvəlcədən razılaşdırılmış tarif üzrə müqavilədə göstərilən qiymətdən əlavə ödənişlər.
**KOVİD-19** (*C*orono*Vi*rus *D*eases 2019-cu ilin koronavirus infeksiyası) – *Tib.* Tac şəklində olan koronavirusun yeni ştammı olan bu virus ilk dəfə 2019-cu ildə aşkar edildiyi üçün COVİD-19 adlandırılır. COVİD-19 termini ilk dəfə ÜST tərəfindən 11 fevral 2020-ci ildə işlədilmişdir. Bu terminlə yanaşı KİV-də SARS-COV-2, Uhan virusu, Çin virusu sözləri də işlədilir. Yeni tipli pnevmoniya COVİD-19 Çinin mərkəzi Hubey əyalətinin Uhan şəhərində yerli əhalidə ət və dəniz məhsulları bazarı ilə əlaqəli yerli sakinlərdə naməlum mənşəli pnevmoniya xəstəliyinin ilk aşkar olunması ilə 2019-cu ilin dekabr ayının ortalarından başlamışdır. 31 dekabr 2019-cu ildə Çin hakimiyyəti naməlum pnevmoniyanın başlaması barədə Ümumdünya Səhiyyə Təşkilatına məlumat vermişdir. Sonradan, Çin alimləri yeni koronavirus **- 2019-CoV** ayırd edərək onun genomunun genetik ardıcıllığını təyin etdilər. Virus, şiddətli kəskin tənəffüs sindromuna səbəb olan SARS-CoV virusuna (*atipik pnevmoniya* kimi də tanınır) genetik ardıcıllıqla davam edir. Yeni koronavirusun inkubasiya dövrü 2 gündən 10 günə qədər davam edir və son məlumatlara görə, xəstəlik simptomları başlamazdan əvvəl yoluxucu olur. Uhanda karantin rejimi 22 yanvar tarixindən tətbiq edilməyə başlandı və 24 yanvar tarixindən etibarən Uhana bitişik olan Huanqan, Eçjou, Çibi və Çjitsyan şəhər rayonlarına da karantin tətbiq edildi. Yanvarın 30-da ÜST-ün Fövqəladə Komitəsinin iclasında, yeni koronavirusun yayılması beynəlxalq narahatlıq yaradan təcili vəziyyəti kimi qəbul edildi. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) fevralın 11-də infek-

siyanın adını COVİD-19 qoyub, martın 11-də isə koronavirusu pandemiya elan edib. *COVİD-19* termini ilk dəfə ÜST tərəfindən 11 fevral 2020-ci ildə işlədilmişdir.

**KOVİRGİN**– *Tib.* Heç vaxt koronavirusa tutulmayan şəxs.

**KRATER** (*yun. krater – fincan*) – 1) *Coğ.* Vulkan püskürməsi zamanı onun zirvəsində yaranan qıf və ya fincan formalı çökəklik. 2) *Coğ.* Yer səthinə meteoritin düşməsi və ya güclü süni partlayış nəticəsində əmələ gələn çökəklik.

**KRATER GÖLÜ** – *Coğ.* Sönmüş və ya yatmış vulkanın kraterinin, əsasən, atmosfer suları ilə dolması nəticəsində yaranan göl.

**KREDİT SAZİŞİ** – *İqt.* Kreditor ilə borcalan arasında kredit münasibətlərinin subyektlərinin vəzifələri və bu münasibətlərin həcmini müəyyən edən müqavilə.

**KREDİT VAHİDLƏRİ** – *Ped.* Tədris planında tədris işinin həcminin müəyyənləşdirilməsi.

**KREDİTLƏRİN TOPLANMASI** – *Ped.* Tələbənin ixtisas (ixtisaslaşma) üzrə təhsil proqramı ilə müəyyən olunmuş müddətdə tələb olunan kreditləri toplaması. Kurikulum tərtibatı – yeni məktəb kurikulumlarını nəzəri cəhətdən müəyyən etmək, tərtib etmək, işləyib hazırlamaq və tətbiq etmək üçün mövcud təşkilati imkanlar.

**KRİK** (*ing. creek* – döngə) – *Coğ.* Arid iqlim şəraitində müvəqqəti axara malik, ilin yağıntısız dövründə quruyan çaylar.

**KRİOLOGİYA** (*yun. krios – soyuq + yun. logos – elm, təlim*) – *Coğ.* Kriosferdə donma temperaturundan aşağı hәddə suyun fiziki, kimyəvi və mineraloji xassələrindəki dəyişiklikləri, mənfi temperaturlarda yaranan təbii cisimləri və s.-ni tədqiq edən, baş verən təbii proseslər və obyektlər haqqında elm.

**KRİOCƏRRAHİYYƏ** (*lat.cryotherapia-dondurma*) – *Tib.* Toxumaların yerli dondurulmasına əsaslanan cərrahi müalicə üsullarının məcmusu.
**KRİOSFER** (*yun. krios – soyuq + yun. sphaira – şar*) – *Coğ.* Yer örtüyünün hava, su və süxurların mənfi temperaturu ilə səciyyələnən hissəsi.
**KRİOTERAPİYA** (lat.d.cryotherapia) – *Tib.* Aşağı temperaturun təsiri ilə toxumaları, orqanları və ya bütün orqanizmi soyutmağa əsaslanan müalicə üsullarının ümumi adı.
**KRİPTODEPRESSİYA** (*yun. kryptos – gizlin + yun. depressio – enmə, basılma) – Coğ.* Su ilə dolmuş, dibi dəniz səviyyəsindən aşağıda, su səthi isə dəniz səviyyəsindən yuxarıda olan ərazi.
**KSEROFİLLƏR** (*yun. xeros – quru + yun. phileo – sevirəm*) – *Geo.* Arid (quru) iqlim sahələrində, rütubət çatışmazlığı şəraitində yaşayan heyvanlar.
**KSEROFİT** (*yun. xeros – quru + yun. phitos – bitki*) – *Coğ.* Quraqlıq sahələrin bitki örtüyü. K.-lər, əsasən, səhra və yarımsəhra ərazilərdə bitir. K.-lərin yayıldığı sahələrdə rütubət çatışmazlığı olduğu üçün onların kökü xeyli dərinə gedir.
**KTENOFOR (DARAQLILAR)** – *Bio.* Daraqlılar tipinə aid olan və üzmək üçün istifadə etdiyi səkkizcərgəli daraqşəkilli kipriyə malik şəffaf, həlməşik bədənli müxtəlif dəniz orqanizmlərinin hər hansı növü.
**KUMULYATİV TƏSİR** – *Bio.* Özü-özlüyündə əhəmiyyətli təsir göstərməyən, lakin gələcəkdə nəzərdə tutulan işlərin təsirləri ilə birlikdə daha böyük və daha əhəmiyyətli təsirlərə səbəb ola bilən ekoloji, yaxud sosial - iqtisadi aspektlər.
**KURİKULUMUN QİYMƏTLƏNDİRİLMƏSİ** – *Ped.* Ümumi təhsil sistemində şagird nailiyyətlərinin qiymətləndirilməsı.

**KURİKULUMUN TƏŞKİLİ** – *Ped.* Ümumi təhsil üzrə təhsil proqramında (kurikulumda) əhatəli şəkildə göstərilən ümumi təhsilin səviyyələri üzrə təlim nəticələri və məzmun standartlarının həyata keçirilməsi.

**KÜLƏK GÜLÜ** – *Coğ.* Müəyyən məntəqədə müxtəlif istiqamətli küləklərin çoxillik müşahidələr əsasında tərtib olunmuş diaqramı.

**KÜTLƏVİ AUDİTORİYA** – *Jur.* Qəzet, jurnal, radio dinləyicilərinin, televiziya və kino tamaşaçılarının, internet istifadəçilərinin cəmləşdiyi yer. Kütləvi informasiya vasitələri ilə yayılan məlumatları bütün istifadəçilərə çatdıran auditoriya.

**KÜTLƏVİ BİLDİRİŞ –** *Jur.* Müəllif hüquqları olan əsərlərin efir, kabel yayımı vasitəsilə yaxud da hər hansı bir üsulla əhaliyə çatdırılması.

**KÜTLƏVİ KOMMUNİKASİYA –** *Jur*. Kütləvi informasiya vasitələri və müxtəlif texniki üsullarla məlumatın geniş auditoriyaya çatdırılması.

**KÜTLƏVİ NƏŞR –** *Jur.* Cəmiyyətdə baş verən hadisələrin əhaliyə çatdırılması üçün nəzərdə tutulmuş yüksək tirajlı qəzet, jurnal və ya kitab.

**KÜVƏZ APARATI –** *Tib.* Tənəffüs və ya digər problemlə doğulan uşaqların qoyulduğu xüsusi aparatlardır. Hansı ki, uşaqlar burada müalicə alır, qidalanır və bu aparatlardakı xüsusi havalandırma-tənəffüs sistemi vasitəsi ilə normal inkişafa qaytarılır. Körpələr aparatda bəzən aylarla qalmalı olur.

**KVADRAT –** 1.*Riy.* Bütün tərəfləri bərabər olan düzbucaqlıya kvadrat deyilir. 2. *Jur.* Mətbəə yığımında səhifənin boş yerlərini doldurmaq, eləcə də səhifənin enini və hündürlüyünü, ara məsafələri müəyyənləşdirmək üçün istifadə olunan ölçü vahidi.

**KVADROFONİK SƏSYAZMA** – *Jur.* Monofonik səsyazma. Dörd kanallı stereofonik səsyazma üsulu.
**KVALİFIKASİYA** – Şəxsin müvafiq standartlara uyğun bacarıqlara malik olduğunun sertifikat və ya diplom vasitəsilə rəsmi şəkildə təsdiq edilməsi.
**KVANTİFİKASİYA** – *Tex.* Müəssisəni daha effektli idarəetmə məqsədi ilə təsərrüfat həyatı faktlarının, onların qeydinin miqdar ölçülməsi və yerinə yetirilməyə nəzarət.

## -Q-

**QABLAŞDIRMA PROSESİ –** *Jur.* İnformasiyanın emalından, onun janr və formatlar üzrə tərtibatından asılı olaraq müxbir məlumatları toplayaraq, onu sistemə salaraq redaktora ötürür, redaktor isə müxbirlərdən topladığı bütün informasiyanı birlikdə vahid formaya salır. Bu xəbərlərin buraxılışında, yaxud da verilişdə, qəzetin bölməsi və ya radio reportajları seriyasnda verilir.
**QACET –1.** *İnf.* Yığcam ölçüləri olan və əsasən əyləncə üçün nəzərdə tutulmuş qurğu. 2. *İnf.* İnformatikada proqram təminatında istifadəçiyə əlavə informasiya verən kiçik tətbiqi proqram.
**QAÇAN SƏTİR –** *Jur.* Televiziya ekranında, yaxud da elektron verilişlərində bir-birini əvəzləyən və eyni xətt üzrə hərəkət etməklə verilən məlumatlar, xəbərlər.
**QALXAN** – *Tex.* İnşaatda platformanın çökmə süxur örtüyündən məhrum olan, qədim kristallik özülü səthə çıxmış geniş sahəsi.
**QAMMA ŞTAMMI**– *Tib.* Qamma koronavirusun mutagen formalarında biri olan Braziliya ştammı.

**QANQLİONEVROMA** (sin.: qanqlionar nevroma, simpatikositoma) – *Tib.* Simpatik sinir qanqilonu elementlərindən inkişaf edən xoşxassəli şiş.

**QAPALI MƏLUMATLAR –** *Jur.* Qanunla ictimailəşdirilməsinə icazə verilməyən məhdudlaşdırılan siyasi xəbərlər, yaxud hadisələr.

**QAPALI TƏDBİR** – *Jur.* Müəyyən qurumlar, eləcə dövlət tərəfindən gizli keçirilən, hətta media nümayəndələrinin iştirakına da icazə verilməyən toplantı.

**QAPALI YAYIM** – *Jur.* Müəyyən proqramların, hazırlanmış xəbərlərin müqavilə ilə qapalı teleradio şəbəkələri, yaxud müəyyən texniki vasitələrdən istifadə etməklə abunəçilərə ötürülməsi prosesi.

**QARAYEL** – *Coğ.* İlin isti dövründə bitkisiz, yaxud çox kasıb floraya malik ərazilərdə əsən, bərk toz qaldıran güclü külək.

**QARIŞIQ ŞİŞ** *(lat.d. tumor mixtus)* – *Tib.* Müxtəlif toxuma elementlərindən, çoxqatlı yastı və vəzi epitelindən, qığırdaqdan, mukoiddən ibarət olan mürəkkəb quruluşlu xoşxassəli şiş; az hallarda dəridə, əksər hallarda isə ağız suyu vəzilərində rast gəlinir, residiv verməyə meyillidir.

**QASTROBİOPSİYA** – *Tib.* Biopsion zond və ya qastroskopun köməyi ilə mədənin daxili divarından mikroskopik müayinə üçün kiçik toxuma parçasının götürülməsi.

**QAYNAR XƏBƏR**– *Jur.* Hadisə haqqında həmin anda verilən məlumat.

**QAYNAR XƏTT** – *Jur.* Zəruri məsələlərə həmin anda cavabın verilməsi.

**QƏLƏMLİ PLOTTER** – *Tex.* Görüntünü nöqtə-nöqtə yaradan elektrostatik plotterlərdən fərqli olaraq, onu kağızda qələm vasitəsilə çəkən adi plotterin adı.

**QƏRARLAR AĞACI** – *Ped.* Çətin, ziddiyyət yaradan məsələlərdə problemlərin həlli yollarını tapmaq, şagirdlərin biliklərini ümumiləşdirmək və qiymətləndirmək üçün təklif olunmuş təlim üsulu.
**QƏTRANLAMA** – *İnc.* Oduncaq səthinin bəzədilməyə hazırlanması üçün mükəmməl cilalamadan sonra yerinə yetirilən proses. Bundan sonra detala ağac üçün olan qətran sürtülür.
**QƏZET ƏLAVƏSİ –** *Jur.* Xüsusi mövzuya həsr edilən xüsusi bülleten. Yaxud da qəzetin ənənəvi buraxılışlarına həcmcə artırılmış hissə.
**QƏZET JURNALİSTİKASI –** *Jur.* Məlumatı və daha müfəssəl şəkildə işıqlandıra bilən jurnalistika sahəsidir. Jurnalistikanın digər növlərindən fərqlənən yaradıcılıq sahəsidir. Çap kütləvi informasiya vasitələrinin hazırlanması və istehsalı, eləcə də istehsal prosesində istifadə edilən texnologiyaya görə fərqlənir.
**QIRIŞIQ DAĞLAR** – *Coğ.* Geosinklinal sahələrdə bir neçə *geoloji dövr* ərzində formalaşmış süxurların qırışıb qalxması nəticəsində əmələ gələn cavan, uca dağlar.
**QIRMIZI ZONA** – *Tib.* Koronavirus infeksiyalı pasientlərin müalicəsi üçün təyin olunmuş stasionar şöbə .
**QİYMƏT HƏDDİ** – *Ped.* Qiymət vermənin aşağı və yuxarı limitinin müəyyənləşdirilməsi.
**QİYMƏTVERƏN** – *Ped.* Qiymətləndirməni həyata keçirən şəxs. Qiymət verənin etibarlılığı – konkret meyarlara əsaslanmaqla qiymət vermənin həyata keçirilmə səviyyəsi. Qrup metodu – təlim prosesində iş formalarından biri. Qrup tapşırığı – qrup işi prosesində müəllim tərəfindən şagirdlərə verilən iş.
**QİYMƏTLƏNDİRİCİ SİTUASİYA** – *Ped.* Uşaqların bilmədiklərini və ya bacarmadıqlarını aşkar etməyə deyil, bi-

lik və bacarıqlarını göstərməyə xidmət edən, tərbiyəçilərin planlaşdırdıqları məşğələlərin və tətbiq etdikləri tədris strategiyalarının təcrübədə nə dərəcədə səmərəli olduğunu müəyyən etməyə, habelə məktəbəqədər yaşlı uşaqların nəzərdə tutulan təlim nəticələrinə nail olmalarını təmin etmək üçün lazım olan dəyişiklikləri həyata keçirməyə imkan yaradan, uşaqda mənfi hisslər oyatmadan, onun özünə inamını və irəli getmək səylərini möhkəmləndirən qiymətləndirilmənin aparılması üçün müvafiq hesab olunan məqamlar. Uşaqlarda təlim fəaliyyətinə dair toplanmış müxtəlif formalı dəlillərə əsasən vaxtaşırı aparılan hər bir uşağın xüsusi ehtiyaclarına, öyrənmə üsuluna və inkişaf mərhələsinə həssaslıqla yanaşmanı əks etdirir.

**QİYMƏTLƏNDİRMƏ KONSEPSİYASI** – *Ped.* Təhsildə qiymətləndirmə məsələləri ilə bağlı tədbirləri idarə etmək üçün nəzərdə tutulmuş sənədin əsas məzmunu qiymətləndirmə fəaliyyətinin qanuniliyini təmin edən prinsiplərin müəyyənləşdirilməsinə, bu fəaliyyətin aparıcı istiqamətlərinin təyin edilməsinə, qiymətləndirmə tədbirlərini həyata keçirən qurumların sosial statusunun gücləndirilməsinə, qiymətləndirmədən təlim və tədrisin ehtiyaclarını ödəmək üçün istifadə edilməsinə yönəldilmişdir. Qiymətləndirmə meyarı – şagirdlərin bilik və bacarıqlarının qiymətləndirilməsi üçün məzmun standartları əsasında hazırlanmış tələblər.

**QİYMƏTLƏNDİRMƏ SXEMİ** – *Ped.* Tədris prosesinin düzgün istiqamətləndirilməsinə, şagirdlərin təlim ehtiyaclarının öyrənilməsinə imkan yaradır və şagirdlərin təlim sahəsində irəliləyişlərinin izlənilməsini təmin edir.

**QİYMƏTLƏNDİRMƏ SİSTEMİ** – *Ped.* Qiymətləndirmə standartlarının vəzifələrini və onların yerinə yetirilmə

istiqamətlərini müəyyən edir. Peşə standartları üzrə qiymətləndirmənin məqsədi fərdin müvafiq peşə standartını fəaliyyətlər, vəzifələr və ya tapşırıqlar üzrə həyata keçirə bilməsini müəyyən etməkdir. Sözügedən tapşırıqlar peşə standartında müəyyən edilən texniki bacarıqları, planlaşdırma və problemləri həlletmə biliklərini, gözlənilməz vəziyyətlərdə hərəkət etmək, digər şəxslərlə işləmək və ünsiyyət bacarıqlarını əhatə etməlidir.

**QİYMƏTLƏNDİRMƏ STANDARTLARI** – *Ped.* Təhsilin keyfiyyətini qiymətləndirmək üçün əsas meyarları təyin edir, şagird nailiyyətlərinin və təhsil imkanlarının qarşılıqlı dəyərləndirilməsi üçün istifadə olunan qiymətləndirmə üsulları və vasitələrinin keyfiyyətini təsvir edir, qiymətvermə prosesinin qanuniliyinə zəmanət verir.

**QİYMƏTLƏNDİRMƏ ŞKALASI** – *Ped.* Şagirdlərin bilik, bacarıq və dəyərlərinin müəyyənləşdirilmiş səviyyələrinin müvafiq cədvəldə ifadə edilməsi.

**QİYMƏTLƏNDİRMƏ UYĞUNLAŞMASI** – *Ped.* İdarəetmə sisteminin və işçi heyətinin müvafiq standartda, texniki reqlamentdə və digər normativ hüquqi aktda müəyyən olunmuş tələblərə uyğunluğunun müəyyənləşdirilməsi.

**QLAMUR** – *Pol.* Mətbu nəşrlər sosial statusun müəyyən mal və xidmətlərdən istifadə etməklə müəyyən bir sosial qrupa mənsub olmaqdan asılılığını təbliğ edirlər. Başqa sözlə desək, istehlak davranışı cəmiyyətdəki vəziyyətin identifikatoru, özünü qiymətləndirmənin yüksəlişinin səbəbkarı olur və kütləvi informasiya vasitələri istehlak davranışı modellərinin nüfuzlu məsləhətçisi qismində çıxış edirlər.

**QLİAL ŞİŞ** *(lat.d. tumor glialis) – Tib.* Neyroqliya elementlərindən inkişaf edən şiş.

**QLİKOGENEZ** (*glycogenesis; qliko- + yun. genesis yaranma, əmələ gəlmə) – Tib.* Qlikogenin orqanizmdə biosintezi.
**QLİKOGENİYA** (*köh.; qliko- + yun. genea yaranma, əmələ gəlmə*) – *Tib.* Qlikogenez proseslərdən yaranan şiş.
**QLİKOGENOZ** (glycogenosis) – *Tib.* Orqan və toxumalarda qlikogenin artıq miqdarda toplanması ilə xarakterizə olunan karbohidrat mübadiləsinin irsi xəstəliklərinin ümumi adı.
**OLİQODENDROQLİMA** *(lat.d.oligodendroglioma)* - *Tib.* Oliqondendroqliya hüceyrələrindən törənən şiş olub, adətən böyük beyin yarımkürələrində yerləşir.
**QLİOMALAR** (*lat.d.gliosarcoma*) – *Tib.* Mərkəzi sinir sisteminin qlial və mezenxim şiş hüceyrələrindən ibarət olan bədxassəli bidermal (qarışıq) şişi.
**QLOBAL KƏND** – *Tex.* Elektron medianın və informasiya texnologiyalarının sürətli inkişafı nəticəsində dünyanın kiçilərək vahid birgə yaşayış məntəqəsinə çevrildiyini əks etdirən ifadə.
**QLOKALİZASİYA** (*fr. global – ümumi + lat. globus – kürə + lat. localis – yerli) – Pol.* İqtisadi, sosial, mədəni inkişaf fonunda xalqların öz milli xüsusiyyətlərini saxlamaq, bununla yanaşı qlobal inkişafın yerli xüsusiyyətlərə və mədəniyyətə uyğunlaşdırılması.
**QLYASİOLOGİYA** (*lat. glacies – buz + yun. logos – söz, elm, təlim*) – *Coğ.* Buzlaqların yaranma şəraiti və xüsusiyyətini, inkişafını, geoloji və geomorfoloji fəaliyyətini, quruluşunu və fiziki xassələrini, yer kürəsində coğrafi yayılmasını və s.-ni öyrənən elm sahəsi.
**QNEYS** (*alm. gneis – qığılcım, qığılcımlanmaq*) – *Coğ.* Yüksək temperatur və təzyiq altında formalaşan metamor-

fik dağ süxuru. Q. Yer kürəsində ən geniş yayılmış süxurlardan biridir, zolaqlı struktura malikdir.
**QORUYUCU KƏMƏR**– *Tex.* Quyu lüləsinin uçmasının və sızmaların baş verməsinin qarşısını almaq üçün quyu lüləsinin möhkəmləndirilməsindən ötrü istifadə olunan polad boru sistemi.
**QRADASİYA** – *Tex.* Bir şeyin ardıcıllıqla, tədricən yerləşməsi, birindən digərinə keçən zaman dərəcələrlə, mərhələlərlə, ardıcıllıqla yerləşməsi.
**QRADİYENT** (*lat. gradientis – addımlayan*) – *Tex.* Hər hansı fiziki kəmiyyətin azalma, yaxud artma istiqamətində necə dəyişdiyini xarakterizə edən göstərici.
**QRAF** – *İnf.* Proqramlaşdırmada öz aralarında ixtiyari qaydada birləşmiş müəyyən sayda təpədən ibarət olan verilənlər strukturu.
**QRAFT** – *Tib.* İmplantasiya və ya transplantasiya üçün istifadə olunan material və ya toxuma.
**QRANULOMA** (lat.d. granuloma) – *Tib.* Bərk düyüncük formasında olan produktiv iltihab ocağı.
**QRUP TƏLİMİ** – *Ped.* Qrup şəklində aparılan təlim prosesi.
**QUMLAMA** – *Tib.* Tibbi sahədə implant səthinin hava-qum axınından istifadə etməklə işlənməsi.

## -L-

**LAHAR** (*ind. lahar – palçıq axını*) – *Tex.* Vulkan mənşəli sel. L. vulkanların ətrafında qar örtüyünün əriməsi, lavanın vulkan göllərini daşdırması səbəbindən yaranır, özü ilə kül qarışıq irili-xırdalı çoxlu süxur qırıntıları gətirir, böyük dağıdıcı qüvvəyə malikdir.

**LAKKOLİT** (*yun. lakkos – quyu, dərinlik + yun. lithos – daş*) – *Tex.* Yer səthinə çatmadan dağ süxurlarının qatlarında donub-qalmış maqmanın yaratdığı müsbət relyef forması. Maqma səthə çıxmağa yol tapmır və süxurları sıxaraq günbəz şəklində yuxarı qaldırır.

**LAQUN** (*ital. laguna < lat. lacus – quyu, gölməçə*) – 1) *Tex.* Dənizdə, okeanda adaların, *mərcan riflərinin* əhatə etdiyi su hövzəsi; 2) dənizdən, okeandan, böyük göldən qum, yaxud qayalıqlardan ibarət nazik sahil xətti ilə ayrılmış kiçik su hövzəsi.

**LANDTAQ** *(alm.d.land-torpaq, taq-yığıncaq) – Hüq.* Torpaq üzrə seçkili qanunvericilik orqanları.

**LAMİNƏLƏNMƏ** – *Tex.* Lövhə səthlərinin qatran hopdurulmuş nazik pərdəli kağızla ötürülmə prosesi.

**LAPTOP (***ing.lap-düz***)** – *İnf.* Kiçikölçülü, daşına bilən kompüter.

**LATERAL EFFUZİYA** *(lat. lateralis – yan + lat. effusio – axıb daşma) – Coğ.* Lavanın vulkan yamacında, kraterdən aralı yerləşən budaq yollardan axması.

**LATERİT** (*lat. later – kərpic*) – *Coğ.* Kərpic formalı torpaqlar.

**LATERİT TORPAQLAR** – *Coğ.* Ekvatorial, tropik qurşaqlarda qırmızı rəngli torpaqlar. Onlara “qırmızı torpaqlar” da deyilir. L.T.-ın tərkibində alüminium, dəmir və az miqdarda silisium-oksid olur.

**LAY DƏSTI** – *Geo.* Qazıntı prosesində neft, yaxud da əlvan metalların paralel süxur layları.

**LAY SULARI** – 1.*Coğ.* Sukeçirməyən iki süxur qatı arasındakı layda olan və ya cərəyan edən sular. 2.*Geo.* Hasil olunmuş neftlə-kondensatla təbii şəkildə bir yerdə çıxan su.

**LAY TƏZYİQİ** – *Geo.* Bağlı quyunun lay dərinliyindəki təzyiq.

**LEGENDA** (*lat. legenda – oxunmalı olan*) – *Coğ.* Xəritənin məzmununu açan şərti işarələrin və onlara aid izahatların toplusu. L. xəritə çərçivəsinin kənarında, yaxud çərçivə daxilində boş sahələrdə yerləşdirilir.

**LEGİSLATURA** *(lat.d.legis-qanun, latus-qoyulmuş)* – *Dip.* Seçilmiş nümayəndəli orqanın fəaliyyət dövrü.

**LENTİK EKOSİSTEMLƏR** (*lat. lintea – kətandan düzəldilmiş + yun. oikos – məkan + yun. systema – tərkib hissələrdən ibarət bütöv*) – *Coğ.* Yer səthinə nisbətən ətalətli su dövranına malik su hövzələrində canlı orqanizmlərin, onları əhatə edən mühitin yaratdığı vahid təbii, yaxud təbii-antropogen kompleks.

**LENTİGİNOZ** (*lentiginosis*) – *Tib.* Dərinin lentiqo ləkələri ilə səpməsi şəklində gedən naməlum etiologiyalı dermatoz.

**LEPRİÇAUNİZM** (*leprechaunismus*) – *Tib.* Sifətin hipotrofiyası və kiçikölçülü olması, hirsutizm, süd vəzilərinin, klitorun, kiçik cinsiyyət dodaqlarının böyüməsi, yumurtalıqların və mədəaltı vəzin ada aparatının hiperplaziyası, qaraciyərdə qlikogen və dəmirin toplanması, böyrəklərin kalsinozu ilə təzahür edən, yalnız qadınlarda təsadüf olunan irsi xəstəlik.

**LEPRİDLƏR** (*leprida*) – *Tib.* Cüzam zamanı səpgilərin ümumi adı.

**LEPROFOBİYA** (*leprophobia*) – *Tib.* Cüzamla xəstələnməkdən patoloji qorxu.

**LEPROMA** (*leproma*) – *Tib.* Cüzam zamanı rast gəlinən spesifik qranulemaların ümumi adı.

**LEVERİC** –1. *İqt.* Təsbit olunmuş gəlirlə qiymətli kağızlara (istiqrazlara, imtiyazlı səhmlərə) kapital qoyuluşunun,

təsbit olunmamış gəlirlə qiymətli kağızlara (adi səhmlərə) kapital qoyuluşlarının nisbəti; 2. *İqt.* Əmtəə ehtiyatlarının, kapitalın və cəminin nisbəti; 3. *İqt.* Şirkətin kapitalının borc vasitələrinə nisbəti;

**LİBOR** – *İqt.* London bankları tərəfindən təqdim edilən qısamüddətli kreditlər üzrə stavka adətən 3- 6 ay müddətini əhatə edir. Beynəlxalq bazarda ssuda kapitalının uçot stavkasının kredit faizini təyin etmək üçün əsasən baza stavkası istiqamətindədir.

**LİFO** *(ing. last- in first-out - sonuncu daxil olur birinci istifadə olunur) – Tex.* Hazırlanan partiyanın yaxud sonuncu daxil olanın qiyməti üzrə müəssisədə material-istehsal ehtiyatlarının (MİE) mühasibat uçotu metodu.

**LİKERT ŞKALASI** – *Tex.* Şkalanın ümumi qiyməti, psixometrik tərəzi. Tez-tez bioqrafik və anket sorğularında istifadə olunur.

**LİKVİDANT** – *İqt.* Hər hansı borc alan subyektə qarşı özünün borc tələbini ləğv edən kreditor.

**LİKVİDAT** – *İqt.* Xeyrinə hər hansı borc tələbi ləğv olunan, qüvvədən düşmüş hesab olunan borc alan, yaxud borclu subyekt.

**LİKVİDATOR** – *İqt.* Şirkətin ləğv edilmə prosesinə rəhbərlik edən, rəsmi şəxs dikvidator şirkətin mülkiyyətinin aparılmasını qəbul edir, əgər məhkəmənin müvafiq qərarı yoxdursa, ona etibar edilməlidir. Şirkətlə və onun kreditorunun məcmusu ilə likvidatora münasibət etibarnamə üzrə əmlakın idarə edilməsinə olan münasibətdir; əgər o məcburi ləğv etməni həyata keçirmək üçün təyin edilmişdirsə, o məhkəmə vəzifəli şəxsdir, vəzifəsi qanunla müəyyən edilir.

**LİKVİDLİK** – 1. *İqt.* Firmanın aktivlərinin, qiymətlilərinin nağd pula çevrilməsi qabiliyyəti, aktivlərin sürətlə hərə-

kət etmə qabiliyyətidir; 2. *İqt.* Borcalanın öz borc öhdəliklərini vaxtlı-vaxtında yerinə yetirmək qabiliyyətidir, ödəmə qabiliyyətidir; 3. *İqt.* Bazarın qiyməti kağızları udmaq qabiliyyətidir, mövcud qiymətlər səviyyəsi şəraitində onların əsaslı dəyişdirilməsi baş vermədən, satış tədbirləridir; 4. Sözün geniş mənasında səmərəlilik, aktivlikdir.

**LİQA** *(lat.d.liqare-bağlamaq) – Pol.* Birlik, ittifaq, cəmiyyət.

**LİQA CƏDVƏLİ** – *Pol.* Ayrı-ayrı qrupları müəyyən edən cədvəl.

**LİQATURA** – *Jur.* İki, yaxud üç simvolun kombinasiyasından ibarət çap işarəsi.

**LİMFADENOZ** (*lat.lymphadenosis*) – *Tib.* Limfoid toxumanın sistem hiperplaziyası.

**LİMFANGİ** (*limfangio; limf + yun. angeion damar) – Tib.* Mürəkkəb sözlərin tərkib hissəsi olub, "limfatik damarlara aid" mənasını verir.

**LİMNOLOGİYA** (*yun. limne – göl, bataqlıq + yun. logos – elm, təlim*) – *Coğ.* Qurunun *hidrologiyası* elminin gölləri, su anbarlarını, bataqlıqları öyrənən bölməsi. L. həmin su hövzələrinin hıdroloji, fıziki-kimyəvi, meteoroloji xüsusiyyətlərini, bioloji şəraitini tədqiq edır və bu tədqiqatlarda *hidrologiya, geomorfologiya* və digər elmlərin metodlarından istifadə edir.

**LİNK** –1. *İnf.* Bağlantı – iki kompüter arasında əlaqənin hər hansı növü. 2. *İnf.* Bağlamaq – indeks dəyişənlərdən və ya dəyişən-göstəricilərdən istifadə olunmaqla verilənlər strukturunda iki elementin birləşdirilməsi əməli. 3. *İnf.* İstinad – başqa bir veb-səhifə, fayl, internet-resursu ilə aktiv bağlantı. 4. *İnf.* Bağlantı – bağlantılı siyahılarda və ya ağacda göstərici.

**LİPARİT** (*ital. lipari — ilk dəfə aşkar edildiyi Lipar adalarının adından) – Coğ.* Effuziv dağ süxuru. L.-ə bütün vulkanik sahələrdə rast gəlinir, o, maqmatik süxurların mühüm tərkib hissəsidir. Yer səthində lay, günbəz və s. mürəkkəb formalarda örtük yaradır. L.-dən çınqıl, bəzi növlərindən üzlük daşlar istehsalında istifadə edilir.
**LİPODERMOİD** (*lat.d.lipodermoidum*) – *Tib.* Hamartiya tipli inkişaf anomaliyası olub, dərinin, bəzi hallarda isə daxili orqanların çoxqatlı yastı epiteli ilə örtülü və içərisi piylə dolu kistası.
**LİSTİNQ –** *İnf.* Proqramın ilkin mətninin çap olunmuş surəti. Bəzi translyatorlar və assembler proqramın translyasiyası və ya bağlantı zamanı *listinq* verə bilər; belə *listinqlərdə* çox zaman əlavə informasiya olur: sətirlərin nömrəsi, blokların iç-içə yerləşmə dərinliyinin göstəricisi və çarpaz istinadlar cədvəlləri.
**LİTOBİOSFER** (*yun. lithos – daş + yun. bios – həyat + yun. sphaira – kürə, təbəqə*) – *Coğ.* Litosferin üst qatlarında yerləşən, canlı orqanizmlərin yayıldığı biosfer sahəsi.
**LİTOGENEZ** (*yun. lithos – daş + yun. genesis – mənşə*) – *Coğ.* Çöküntülərin və çökmə süxurların əmələ gəlməsi, dəyişikliyə uğraması proseslərinin məcmusu. Bir sıra faydalı qazıntıların, o cümlədən daş kömür, neft, təbii yanar qaz, filiz, boksit, fosforit yataqlarının yaranması məhz L. nəticəsində baş verir.
**LİTOLOGİYA** (*yun. lithos – daş + yun. logos – elm, təlim) – Coğ.* Müasir çöküntülər, çökmə süxurlar, onların mənşəyi, tərkibi, quruluşu və Yer kürəsində paylanması qanunauyğunluqlarını tədqiq edən elm sahəsi.
**LİTOMONİTORİNQ** (yun. *lithos* – daş + lat. *monitor* – yada salan, nəzarətçi) – *Coğ.* Litosferin öyrənilməsi və qo-

runması məqsədilə burada gedən proseslərin daim müşahidə edilməsi üçün həyata keçirilən kompleks tədbirlər.

**LİTORAL** (*lat. litoralis – sahil, sahilboyu*) – *Coğ.* Dünya okeanının dibinin çəkilmə zamanı ən aşağı, qabarma zamanı ən yuxarı su səviyyələri arasında qalan hissəsi.

**LİTORAL ÇÖKÜNTÜLƏR** – *Coğ.* Litoral zonada toplanmış, qabarma zamanı suyun altında qalan, çəkilmə zamanı üzə çıxan çöküntülər.

**LOBBİ MÜXBİRİ –** *Jur.* İngilisdilli ölkələrdə parlament müxbirlərinin ümumi adı. Bu müxbirlər təmsil etdiyi kütləvi informasiya vasitəsinin nüfuzundan istifadə edərək parlamentin yalnız deputatlar üçün açıq olan kabinetlərə daxil olub eksklüziv müsahibələr götürə bilir.

**LOBBİ ŞƏRTİ** – *Jur.* Avropa ölkələrində geniş yayılmış termindir. Parlament müxbirlərinə eksklüziv informasiyanı ötürmək üçün mənbəni göstərməmək barədə irəli sürdükləri şərt.

**LODİNQ** – *İqt.* Bank tərəfindən təqdim olunan borc öhdəlikli qiymətli kağızın risklik səviyyəsinə görə alınan, götürülən məbləğ.

**LOKAL ŞƏBƏKƏ (***lat.d.lokalis-yerli,məhəlli) – İnf.* İki və daha artıq kompüterlə əlaqə yaradılan rabitə sistemi. Növü və texniki göstəricilərindən asılı olmayaraq müəyyən qapalı dairədə fəaliyyət göstərən rabitə sistemi.

**LOKAUT** *(ing.d.lock-out-yollarını bağlamaq) – İqt.* Sahibkarlığın təşəbbüsü ilə işçilərin işdən çıxarılması, eləcə də müəssisənin bağlanması və yenidən qurulması.

**LOKOMOSİYA** (*locomotio*) – *Bio.* Canlının mühitdə aktiv hərəkət etməsi üçün etdiyi razılaşdırılmış hərəkətlərin məcmusu.

**LOQİN (***ing.d.login – qeydiyyatdan keçmək***)** – *İnf.* Kompüter sisteminə daxil olmaq üçün hərflər və rəqəmlərdən ibarət fərdi qeydiyyat yazısı.

**LOQASTENİYA** (*lat.logasthenia) – Dil.* Səhv tələffüz etmədən qorxu nəticəsində yaranan nitq qüsuru.
**LOQOFOBİYA** (*lat.logophobia*) – *Tib.* Lazım olan sözləri tələffüz edə bilməməkdən patoloji qorxu.
**LOQOKLONİYA** (*logoclonia*) – *Tib.* Ayrı-ayrı hecaların, sözlərin təkrarlanmasından ibarət kəkələmə (əzələlərin klonik yığılması nəticəsində).
**LOQONEVROZ** (*logoneurosis) – Tib.* Nevroz zamanı nitqin pəltəklik formasında pozulması.
**LOQOPATİYA** (*logopathia*) – *Tib.* Nitq pozğunluqlarının ümumi adı.
**LOQOREYA** (*logorrhoea*) – *Tib.* Nitqini saxlaya bilməmə.
**LOQORİTM** – Nitq qüsurlarının aradan qaldırılması üçün elektron aparat.
**LUA** – *İnf.* Lua güclü, səmərəli, asan, quraşdırıla bilən struktur dilidir. O, prosedur proqramlaşdırmanı, obyekt yönümlü proqramlaşdırmanı, funksional proqramlaşdırmanı, verilənlərə əsaslanan proqramlaşdırmanı və verilənlərin təsvirini dəstəkləyir. Lua sadə prosedur sintaksisini assosiativ massivlərə və genişlənən semantikaya əsaslanan verilənlərin təsvirinin güclü konstruksiyası birləşdirir. Lua, hazırda oyunlarda aparıcı skript dili hesab edilir.
**LÜMPEN** *(alm.d.lumpen-cır-cındır) – Pol.* İnsani münasibətləri əxlaq normalarını və dəyərlərini, simasını itirən şəxs.
**LYUMPSUM** – *İqt.* Daşınan yükün faktiki miqdarından asılı olmayaraq, bütün cəmi üçün alınan daşıma haqqıdır (yol kirayəsidir).

## -M-

**MAC-ÜNVAN** – *İnf.* Şəbəkə mühitinə birləşdirilmiş qurğunun aparat ünvanı. 48-bitlik ədəd olan *MAC-ünvan* yerli şəbəkədə qurğuları birqiymətli identifikasiya etməyə imkan verir.

**MAKİAVELLİZM** – *Dip.* Əxlaq normalarına uyğun gəlməyən siyasi fəaliyyət qaydası.

**MAKROİNTERLOK** – *Tib.* İmplant və sümük arasında mexaniki fiksasiya üçün yaradılan və ölçüləri 100 mn və daha artıq olan dəliklər, məsamələr, kanallar və s.

**MANİFOLD** – *Tex.* Birdən çox mənbədən gələn mayelərin bir yerə toplanılmasına imkan yaradan borular, siyirtmələr və birləşdiricilər dəsti.

**MANİPULYASİYA** –1. *Pol.* Siyasətdə idarə edən insanın mənafeyinə uyğun şəkildə digər bir insanın davranışının gizli idarə olunması prosesi. Manipulyasiya etmənin əsas səbəbini bilməklə və manipulyatorların davranışlarının strateji xətlərinə bələd olmaqla nəinki onları ətrafdakı insanlar arasında ayırd etmək, həmçinin onların bu rəftarının təsirindən yayınmaq da mümkündür. 2. *İqt.* Qiymət manipulyasiyası da mövcuddur ki, bu da qiymətli kağızlar bazarında qiymətli kağızlar bazarının stabilliyinin pozulmasına səbəb ola bilər. Qiymətli kağızlar bazarının iştirakçılarının qiymətli kağızlarla əqdlər üzrə bazar qiymətinin hər hansı bir üsulla əvvəlcədən razılaşdırılmış, qəsdən edilmiş əməllər ilə süni olaraq dəyişdirilməsidir.3.*Tib.* Əlin və ya hər iki əlin müəyyən bir işlə bağlı hərəkəti; əl işində dəqiqlik tələb olunan əməliyyat.4.*Tex.* Teleqraf siqnallarının verilməsində iş prosesinin radioverici vasitəsilə idarə edilməsi.

**MANSARDA MƏRTƏBƏSİ** – *İnşa.* Binanın çardaq hissəsində yerləşən, yaşayış və qeyri yaşayış məqsədləri üçün nəzərdə tutulmuş sahə.

**MANTİSSA** – *Riy.* Loqarifmli hesablamalarda 10 əsaslı loqarifmin müsbət onluq hissəsi.

**MARGİNALLIQ** – *Dip.* Şəxsin və ya sosial qrupun, cəmiyyətin qurulmasında aralıq vəziyyəti.

**MASSMEDİA** – *Jur.* Massmedia (qəzetlər, jurnallar, televiziya və radio verilişləri) istehlak cəmiyyəti ideologiyasının yayılmasının güclü kanalı kimi xidmət göstərməklə, özləri də bu cəmiyyətin bir hissəsinə çevrilirlər. Rəqabətli mübarizədə iştirak edir, öz məqsədli auditoriyasına təsir edir.

**MASTEKTOMİYA** – *Tib.* Süd vəzinin cərrahi əməliyyat yolu ilə çıxarılması.

**MASTOSİTOMA** – *Tib.* Dəri və (və ya) dərialtı toxumanın toplanmış labrositlərdən ibarət olan xoşxassəli şiş.

**MATRİKS** – *Tib.* Hüceyrələrin böyüməsi, miqrasiyası və bölünməsi üçün platforma yaratmaqla toxumaların güclənməsi və inkişafına kömək edən təbii və ya süni liflərin mürəkkəb şəbəkəsi.

**MAYKROSOFT TİMS** – *Ped.* İş sahəsindəki söhbətləri, görüşləri, qeydləri və əlavələri bir araya gətirən koorporativ platforma.

**MAYLAR** – *Tex.* "Plyonka"dan, sintetik parçadan, müxtəlif liflərdən ibarət olan çoxqatlı material.

**MEDİA EKSPERT** *(lat.d.medium-ara,vasitəçi)* – *Jur.* Mediaya nəzarət edən şəxs. Media sahəsində hərtərəfli bilik və xüsusi bacarıqlara malik olan mütəxəssis.

**MEDİAFORUM –** *Jur.* Müxtəlif problemlər ətrafında interaktiv müzakirələr keçirmək, mühüm hadisələrlə bağlı xəbərləri, ekspert rəylərini çatdırmaq, insanların hüquq və azadlıqlarının müdafiəsində duran beynəlxalq və yerli təşkilatların hesabatlarını işıqlandırmaqla jurnalistləri vətəndaş cəmiyyətinin təşəbbüslərindən xəbərdar etmək.

**MEDİA-HOLDİNQ** *(lat.d.medium-ara,vasitəçi)* – *Jur.* Kütləvi informasiya vasitələrinə rəhbərlik edərək səhmlərin nəzarət paketinə sahib olmaqla onları idarə edən iri şirkət.

**MEDİAKRATİYA** *(ing.d.mass media-KİV, kratos-hakimiyyət)* – *Jur.* Kütləvi informasiya vasitələrinin hakimiyyəti. Bu elə quruluşdur ki, orda çox həll edilməyən məsələni jurnalistlər həll edir, media orqanlarının siması siyasətçilərin simasından daha populyar və geniş olur.

**MEDİALANDŞAFT** *(lat.d.medium-ara,vasitəçi-alm.d. landschaft)* – *Jur.* Hər hansı bir ölkədə, yaxud da cəmiyyətdə media mühitinin formalaşması.

**MEDİALOGİYA** (*lat.d.medium-ara,vasitəçi; logos-elm*)– *Jur.* Medianın inkişafı, onunla bağlı müxtəlif sistemlərin yaradılması üçün hazırlanan proqram və onunla bağlı təlim.

**MEDİAMORFOZ***(lat.d.medium-ara,vasitəçi; yun.d.morphosis-formalaşma)* – *Jur.* İctimai-siyasi, sosial amillərin təsiri altında medianın formasının, kommunikasiya üsullarının dəyişdirilməsi.

**MEDİASİYA** – *Dip.* Siyasi və hüququ hadisələrin mediator vasitəsi ilə həll olunmasının praktiki üsulları və yolları.

**MEDİASTİNOSKOP** – *Tib.* Ön divar aralığına baxmaq və orada bəzi müalicəvi və diaqnostik proseduralar icra etmək üçün istifadə olunan tibbi endoskop.

**MEDİASTİNOSKOPİYA** – *Tib.* Endoskopik müayinə üsulu olub, mediastinoskop alətinin köməyi ilə ön divar aralığına baxılması (gözlə müayinəsi).

**MEDİATOR** *(lat.d.mediator-vasitəçi)* –1. *Dip.* Cəmiyyətdə sosial dialoqu təmin edən, münaqişədə olan, çəkişən tərəflərə öz aralarındakı mübahisəni həll etməyən kömək göstərən üçüncü tərəf, müstəqil vasitəçi. 2. *Dip.* Beynəl-

xalq hadisələrin idarə edilməsində vasitəçi kimi çıxış edən dövlət. 3.*Tib.* Sinir uclarını hərəkətə gətirmək üçün işlədilən bioloji maddə.

**MEDİOLOGİYA** *(lat.d. medium - ara,vasitəçi; yun. logos-elm) – Jur.* Cəmiyyətdə baş verən sosial-mədəni dəyişikliklərin, hər hansı məlumatın, informasiyanın, bütövlükdə KİV-in mass medianın avtomatlaşdırılmış media vasitəsi ilə təhlili.

**MEDİUM** *(lat.d.medium-orta, mərkəz, ara)* –1. *Jur.* Qəzet, televiziya və s. kommunikasiya vasitələrinin ayrılıqda götürülmüş forması ; 2. *Dip.* Ətraf mühiti həssaslıqla, baş verən hadisələrin təsvirində və izahında vasitəçilik missiyasını yerinə yetirən şəxs; 3. *Dip.* Maddi və mənəvi dünya, ruhlarla insanlar arasında vasitəçilik edən, əlaqə quran, fövqəladə bacarıqlara malik şəxs.

**MEDULLOBLASTOMA** (lat.d.medulloblastoma) – *Tib.* Baş beyinin bədxassəli neyroektodermal şişi, başlıca olaraq uşaqlarda və yeniyetmələrdə rast gəlinir.

**MEQALOPLAZİYA** (lat.d.megaloplasia) – *Tib.* Hər hansı bir orqan və ya toxumanın normadan artıq inkişaf etməsi.

**MELANEMİYA** – *Tib.* Qanda melaninin olması; məsələn, melanoma zamanı müşahidə olunur.

**MELANOAMELOBLASTOMA** – *Tib.* Məhdud xərçəngönü melanoz.

**MENTOR –** *Ped.* Mentorluq fəaliyyəti ilə məşğul olan şəxslərə mentor deyilir. Mentor fərdlərin özlərində olan nümunəvi bilik, davranış, mədəniyyət, vətənsevərlilik, mehribançılıq, ədalətlilik, bacarıq kimi örnəyinə əsaslanaraq daha yeni bir insanın formalaşmasına təkan verən bir şəxs deməkdir. Yaxşı müəllim daha çox faktları çatdıran şəxs yox, varlığı ilə bizi fərqli insanlara çevirən şəxsdir.

**MENTORLUQ** – *Ped.* Hər hansı ixtisas, peşə və ya sənətdə peşəkar insanın bu sahəyə marağı olan təcrübəsiz insanlarla şəxsi təcrübələrini paylaşması mentorluq adlanır. İki nəfərin və ya iki tərəfin razılaşaraq və güvənərək formalaşdırdığı, gizlilik prinsiplərinə əsaslanan iş birliyidir. Əsas məqsəd gənc-öyrənən tərəfin həyat tərzi və karyerasının inkişafına yönələn müstəqilliyini dəstəkləməkdir.

**MERKANTİLİZM** *(fr.d.mercartilisme-satıcı) – İqt.* Dövlət təsisatlarında öz nüfuzunu siyasi gücünə artırmaq məqsədi ilə cəmiyyətin iqtisadi həyatının tənzimlənməsində fəal iştirakını əsaslandıran nəzəriyyə.

**METAFERS** – *İnf.* Metavers texnologiyası internetin gələcəyi hesab edilir. Virtual gerçəklik (Virtual Reality VR) texnologiyasının təkmilləşdirilmiş versiyasıdır. Bütün rəqəmsal mühitlərin olduğu uydurma gerçəklikdə yalnız qulaqlıq və eynəkdən istifadə etməklə virtual aləmə daxil olunur. Daha çox kompüter oyunları üçün istifadə edilən hazırkı virtual aləmdən fərqli olaraq metavers vasitəsilə daxil olunan uydurma kainatda həm işləyə, həm də kinoteatra gediləcəkdir.

**METRANPAJ** *(fr.d.mettur en pages-səhifələyici) – Jur.* Mətbəədə yığıcıların işinə rəhbərlik edən, nəşri maketə uyğun olaraq çapa hazırlayan və mətni səhifələyən mətbəə işçisi.

**METROPOLİS** (*yun. metropolis – ana şəhər*) –1) *Coğ.* Ölkənin baş şəhəri; 2) *Coğ.* Böyüyərək nisbətən kiçik yaşayış məntəqələrini öz ərazisinə qatmış iri şəhər.

**MEYMUNÇİÇƏYİ** – *Tib.* Çiçək xəstəliyinə bənzər, virus mənşəli infeksiya.

**MEZOFİL** (*yun. mesos – orta + yun. fileo – sevmək*) – *Bio.* Orta rütubətliliyə malik sahələrdə (meşələrdə, çəmənliklərdə) yaşayan heyvan növləri.

**MEZOFİT** (*yun. mesos – orta + yun. phytón – bitki*) – *Bio.* Orta rütubətliliyə malik torpaqlarda bitən bitkilər. M.-lər kserofitlərlə hiqrofitlər arasında keçid təşkil edir.
**MEZONEFROMA –** *Tib.* Ara böyrək (mezonefros) qalıqlarından inkişaf edən bədxassəli yumurtalıq şişi.
**MEZONİN** – *İnşa.* Çardaq və ya mansard örtüyünün üstündə tikilən, dam konstruksiyasına daxil olan otaq və (və ya) yardımçı sahə .
**MEZOTELİOMA** – *Tib.* Morfoloji substratı mezotel hüceyrələri olan şiş.
**MƏKTƏBDƏNKƏNAR TEST** – *Ped.* Dərnək və yaradıcılıq mərkəzlərində həyata keçirilən test prosesi.
**MƏQSƏDLƏRİN TAKSONOMİYASI** – *Ped.* Öyrənmənin elmi-pedaqoji əsaslarını təşkil edib, geniş sahəni əhatə edərək ciddi tədqiqatların aparılmasını zəruri edir.
**MƏLUMAT BANKI –** *İnf.* Məlumatın mərkəzləşdirilmiş şəkildə saxlanması və kollektiv istifadəsini təmin edən avtomatlaşdırılmış informasiya sistemi.
**MƏLUMAT BAZASI** – *İnf.* Materialların seçilməsinə və ya düzümünə görə yaradıcı əməyi məhsulu olan və kompüterin köməyi ilə tapıla biləcək şəkildə sistemləşdirilmiş məlumatların məcmusu. Yəni, müxtəlif sənədlərin, iş və tapşırıqların yerinə yetirilməsi üçün istifadə olunan metodlar, informasiyanın sistemləşdirilmiş qaydada saxlanması.
**MƏNTİQİ ANALİZATOR** – *İnf.* Aşağı səviyyəli proqramlaşdırma dilində yazılmış proqramın çox çətin sazlanmasını asanlaşdıran qurğu. *Məntiqi analizatorun* səciyyəvi xüsusiyyətləri çalışma zamanı onun siqnallarına nəzarət, yaddaşın verilmiş sahəsini oxuma və yazma zamanı çalışmanın durdurulması, çalışmanın istənilən durdurulması zamanı bir neçə komandanın geriyə izlənməsi.

**MƏSKUNLAŞMA SİSTEMİ** – *İqt.* İnsanların sağlam və təhlükəsiz yaşayış, iş və istirahət şəraiti ilə təmin edilməsi, habelə ətraf mühitin mühafizəsi və bərpası məqsədilə şəhərlərin və digər yaşayış məntəqələrinin məkan baxımından təşkili.

**MƏTBUAT EVİ –** *Jur.* Kütləvi informasiya vasitələrinin redaksiyalarının, müxbir məntəqələrinin, həmçinin böyük mətbəənin yerləşdiyi kompleks. Mətbuatla bağlı tədbirlər planı hazırlamaq, konfranslar, kitab təqdimatları, müəlliflərlə görüşlər, media işçilərinin iştirakı ilə tədbirlər keçirilən mərkəz.

**MƏTBUAT KATİBİ** – *Jur.* Mətbuat xidmətinin rəhbəri. Müəyyən təşkilatın, qurumun gördüyü işlər və onun rəhbərinin cəmiyyətdə ictimai nüfuzunu və fəaliyyətini işıqlandıran, media ilə əlaqələrini həyata keçirən, buna görə də məsuliyyət daşıyan şəxs.

**MİASTENİYA** –*Tib.* Autoimmun xəstəlikdir. Əsas kliniki simptomı patoloji əzələ yorğunluğudur (idman hərəkətlərindən sonra çoxalır, istirahətdən sonra azalır). Miasteniya zamanı yüksək miqdarda asetilxolin reseptorlarına qarşı antitellərin (AxP) aşkar olunması əsas diaqnostik amildir.

**MİKROİNTERLOK** – *Tib.* İmplant səthinin nahamarlıqlarına sümüyün mexaniki birləşməsi yolu ilə fiksasiya. Bu nahamarlıqlara maşınla işlənmiş səth, qumlama səthi, örtüklü səth, ion bombardmanı və ya plazma şırnağı ilə yaradılan və ölçüsü mikronlarla ölçülən səthlər daxildir.

**MİKROMİOMALYASİYA** (*micromyomalacia*) – *Tib.* Əzələ toxumasında kiçik ocaqlı yumşalma zonalarının əmələ gəlməsi.

**MİKROMONOSPORROZ** (*micromonosporosis)* – *Tib.* Mikromonosporlar tərəfindən törədilən, klinik təzahürləri ilə aktinomikozlara yaxın olan xroniki yoluxucu xəstəlik.

**MİKRONEMA** – *Tib.* Elektron mikroskopiyası zamanı toksoplazm və sarkosporidlərdə aşkar olunan xətt şəkilli struktur.
**MİKRONİXİYA** (*micronychia*) – *Tib.* Dırnaq lövhəsinin kiçikölçülü olması.
**MİKROOSTOMİYA** – *Tib.* Ağız yarığının anadangəlmə və ya qazanılma daralması.
**MİKROPERFORASİYA** (*lat.microperforatio*) – *Tib.* Orqanın divarının tamlığının nöqtə formasında pozulması.
**MİKROPOLİADENİT** (*lat.micropolyadinitis*) – *Tib.*Çoxsaylı limfatik düyünlərin ölçülərinin az böyüməsi və bərkləşməsi ilə gedən patoloji vəziyyət.
**MİKROSEFALİYA** (*microsephalia*) – *Tib.* Kəllə sümüyünün və baş beynin kiçik olmasından ibarət inkişaf anomaliyası.
**MİKROPERİOST** – *Tib.* Sümüyü örtən periost, birləşdirici toxuma və epitel qatından ibarət lay.
**MİKROTƏDRIS** – *Ped.* Müxtəlif mövzular üzrə həyata keçirilən seminar və mühazirələr.
**MİLLİ KONTENT** – *İqt.* Dayanıqlı inkişafı təmin etmək məqsədilə daxili istehsal, xidmət və kadrlar bazasının inkişaf etdirilməsi ilə müvafiq resurslara olan ehtiyacın yerli təminat vasitəsilə ödənilməsidir.
**MİLLİ KURİKULUM** – *Ped.* Təhsilin məzmunu özündə şagird və tələblərin mənimsədiyi biliklər, formalaşan bacarıqlar və vərdişlər sistemini əhatə edir. Təhsilin məzmunu dedikdə, şagirdlərin müxtəlif dərslərdə yiyələnməli olduqları bilik, bacarıq və vərdişlərin həcmi və xarakteri nəzərdə tutulur ki, bunlar Ümumi Təhsil Konsepsiyasında - Milli Kurikulumda, dövlət təhsil standartlarında, tədris planında, tədris proqramlarında, dərslik və dərs vəsaitlərində öz ək-

sini tapır. Milli Kurikulum 2006-ci ildə qəbul olunmuşdur. Bu barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 oktyabr 2006-cı il tarixi qərarında deyilir ki, o, konseptual xarakterli çərçivə sənədi olub, ümumi təhsil üzrə təlim nəticələrini, məzmun standartlarını, ümumi təhsilin hər bir pilləsində nəzərdə tutulan fənləri, həftəlik dərs və dərsdən kənar məşğələ saatlarının miqdarını, pedaqoji prosesin təşkili, təlim nailiyyətlərinin qiymətləndirilməsi və monitorinqi üzrə əsas prinsipləri və ayrı-ayrı fənn kurikulumlarının strukturunu əhatə edir.

**MİLLİ QİYMƏTLƏNDİRMƏ** – *Ped.* Sistemli tədqiqat şəklində aparılan qiymətləndirmənin məqsədi etibarlı məlumatların toplanması, təkliflərin verilməsi, problemlərin həlli üçün konkret istiqamətlərin müəyyənləşdirilməsidir. Şagirdlərin təlim nəticələri haqqında toplanmış məlumat sistemli olmadıqda müəyyən prinsiplərə əsaslanmış monitorinqin aparılmasında da çətinlik yaranır.

**MİLLİ NORMALAR** – *Ped.* Fərdin, cəmiyyətin, dövlətin tələbatına uyğun olaraq, elmi-pedaqoji prinsiplər əsasında hazırlanan və müəyyən dövr üçün vahid dövlət tələblərini əks etdirən ümumi normalar məcmusu.

**MİNYON** *(fr.d.mignon-əziz)* –1. *Pol.* Poliqrafiyada xırdaölçülü mətbəə şrifti; 2. *Pol.* Poliqrafiyada kiçik formatlı kitab, yaxud musiqi albomu.

**MİSTİFİKASİYA** *(yun.d. mustes-sirri bilən, facere-etmək) – Hüq.* Kimisə qəsdən aldatmaq.

**MİTOZ** – *Tib.* Hüceyrə bölünməsinin əsas forması olub, bölünmənin əsil mahiyyəti xromosomların "qız" hüceyrələri arasında bərabər paylanmasından ibarətdir; bəzi patoloji proseslər zamanı mitoz bölünmənin gedişi pozulur.

**MODERASİYA** *(lat.d.moderor-azaldıram, saxlayıram)* – 1.*Pol.* Hər hansı mövzuya, problemə münasibətdə fərqli

mövqe tutan adamların diskussiya xarakterli tədbir və verilişlərdə əvvəlcədən müəyyənləşdirilmiş qaydalara əməl etməsinə nəzarətin həyata keçirilməsi; 2.*İnf.* İnternet müzakirələrində saytın sahibinin müəyyənləşdirdiyi standartlara əməl olunması üzərində nəzarətin həyata keçirilməsi.

**MODUL TİPLİ XƏSTƏXANA** – *Tib.* Azməsrəfli olmaqla yanaşı, qısa müddət ərzində istənilən relyefdə sadə beton üzərində quraşdırıla bilən tikili.

**MONOFONİYA** *(yun.d.monos-tək; yun.d.phone-səs)* – *Jur.* Verilişlərin təbiiliyini artırmaq üçün xüsusi yazılmış və elektroakustik yolla yenidən canlandıran tək səs.

**MONOLOJİ TƏLİM** – *Ped.* Hafizəyə əsaslanan, şagirdlərin bacarıqlarını ölçmək imkanları olmayan təlim.

**MOTEL** – *İnş.* Sürücülərin yerləşməsi üçün xidmətlər göstərən avtodayanacağı olan mehmanxana.

**MRJOB** – *İnf.* Hadoopun axın məsələlərini yazmağa və işə salmağa kömək edən Python (proqramlaşdırma dili) paketidir.

**MUAR** – 1. *İnf.* Qəzet və ya jurnaldan götürülmüş rəsmin kompüterin ekranına verilməsi zamanı yaranan dalğavarı xətlər və ya naxışlar. Bundan qurtulmaq üçün *muarı* neytrallaşdıran xüsusi süzgəcdən istifadə olunur. 2. *İnf.* İki periodik torşəkilli rəsmin üst-üstə qoyulması zamanı yaranan naxış. Torşəkilli və başqa periodik görüntülərin rəqəmli fotoqrafiyası və daranması zamanı görüntülərin periodu avadanlığın işığahəssas elementləri arasındakı məsafəyə yaxın olduqda *muar* naxışı yaranır.

**MUKOZA –** *Tib.* Xaricə açılan bədən boşluqlarının mukozal membrandan ibarət epitel örtüyü.

**MULTİMEDİA** – *Jur.* Mətni, qrafik təsvirləri, görüntünü və səsi birləşdirən və canlandıran qurğu, qurğular sistemi. Multimedia vasitələri.

**MULTİMEDİA PROQRAMLARI** *(lat.d.multum-çoxlu; lat.d.ara,vasitəçi;yun.d.proqramma-yazılı,qeyd,elan) – Jur.* Müxtəlif formaya malik informasiyaları (mətn, səs, görüntü və s.) hasil etməyə və birləşdirməyə imkan verən, bir çox hallarda eyni zamanda interaktivliyi təmin edən kompüter proqramları.

**MULTİMEDİA RESURSLARI** *(lat.multum-çoxlu; lat. medium-ara,vasitəçi;fr.d.ressource-köməkçi vasitə) – Jur.* Mətn, səs, görüntü və s. şəklində olan informasiyaları özündə əks etdirən resurslar.

**MULTİ-TAÇ** – *İnf.* Multi-taç hesablama kontekstində, qurğunun səthində, qurğunun səthindəki bir çox nöqtədə təzyiq və jestlər vasitəsilə verilənlərin daxil edilməsini təmin edən interfeys texnologiyasıdır. Multi-taç hər şeydən əvvəl smartfonlar və planşetlər kimi portativ qurğularda, sensor paneli, siçanlar, yazı taxtaları, masalar və divarlar daxil olmaqla digər səthlər üçün də uyğunlaşdırılmışdır.

**MUTASİYA** – *Tib.* Müxtəlif amillərin təsiri altında baş verən, irsən keçən genotipik dəyişiklik, transformasiya.

**MÜASİR QİYMƏTLƏNDİRMƏ** – *Ped.* Cari qiymətləndirilmənin aradan qaldırılması, şagirdin nailiyyətinin sistemli şəkildə izlənilməsi, müasir qiymətləndirmədə qiymətləndirmənin obyektivliyini təmin edilməsi prosesı. Müasir qiymətləndirilmədə qiymətləndirmə təhsilin keyfiyyətinin yüksəldilməsinə yönəldilir və onu idarə edən vacib amil kimi meydana çıxır. Müasir qiymətləndirmədə isə məzmun standartlarının mənimsənilməsi səviyyəsini ölçmək üçün qiymətləndirmə standartları müəyyənləşdirilmişdir.

**MÜƏLLİM NÜFUZUNUN İRRADİASİYASI** – *Ped.* Nüfuz təsiri hüququnun hələ tətbiq olunmadığı sahələrə keçirilməsi.

**MÜƏLLİM-DEFEKTOLOQ** – *Ped.* Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) üzrə qanunvericilik aktlarında, uşaq hüquqları ilə bağlı normativ-hüquqi aktlarda, habelə sağlamlıq imkanları məhdud uşaqlarla bağlı qəbul olunmuş qərarlarda nəzərdə tutulan aidiyyəti məsələlərlə məşğul olan adam.

**MÜƏLLİM-LOQOPED** – *Ped.* Məktəbəqədər və ümumtəhsil müəssisələri nəzdində şifahi və yazılı nitqi qüsurlu olan uşaqlara kömək məqsədilə xidmət göstərən vəzifə.

**MÜVƏQQƏTİ TİKİLİ** – *İnş.* Torpaq üzərində yerləşdirilən, qısa müddətdə, o cümlədən tikinti müddətində istifadə üçün nəzərdə tutulan, yüngül inşaat konstruksiyalarından inşa edilən və asanlıqla quraşdırılıb-sökülən tikili.

## -N-

**NAİLİYYƏT MOTİVASİYASI** – *Ped.* Mürəkkəb tapşırıqların seçilməsində və yerinə yetirilməsində özünü göstərən, fəaliyyətdə yüksək nəticələrə və ustalığa nail olmağa səy. Hər hansı fəaliyyətdə uğurlar nəinki qabiliyyət, bacarıq və vərdişlərdən, habelə nailiyyətlərin motivasiyasından asılıdır.

**NAİLİYYƏT TESTİ** – *Ped.* Final imtahanları və şagird təqdimatları, nümayişləri əsasında aparılması. Test tapşırıqlarının səmərəliliyi ona daxil edilmiş çalışmaların seçim prinsiplərindən asılıdır.

**NAİLİYYƏTİN QİYMƏTLƏNDİRİLMƏSİ** – *Ped.* Qiymətləndirmə fəaliyyətinin qanuniliyini təmin edən prinsiplərin müəyyənləşdirilməsi, bu fəaliyyətin aparıcı istiqamətlərinin təyin edilməsi, qiymətləndirmə tədbirlərini həyata

keçirən qurumların sosial statusunun gücləndirilməsi, qiymətləndirmədən təlim və tədrisin ehtiyaclarını ödəmək üçün istifadə edilməsi.

**NARINCI ZONA** – *Tib.* Ölkə və ya regionda koronovirus infeksiya xəstəliyinin yayılmasının orta səviyyədə (digərləri ilə müqayisədə) olması və s.

**NARRATOR** – *Ədəb.* Oxucu müəllifdir, yəni əlyazmanın qırılan yerlərində ön sözlərin müəllifindən bir qədər fərqli şəkildə çıxış edir, çox zaman qırılmanın səbəbini izah edir, mətnin itən hissəsi barədə mülahizə irəli sürür, bəzən aşkar şəkildə pretekstə işarə edir.

**NEFOSKOP** (*yun. nephos – bulud + yun. skopeo – müşahidə edirəm*) – *Tex.* Buludların hərəkət istiqamətini müəyyənləşdirmək və sürətini ölçmək üçün cihaz.

**NETTO BALANS** – *İqt.* Ticarət balansında ixrac olunan qiymətlilər idxal olunan qiymətlilərə bərabərdir.

**NETTO DİVİDEND –** *İqt.* Holdinqin, şirkətin əldə etdiklərindən vergi krediti çıxıldıqdan sonra, özünün səhmdarına şirkətin verdiyi divident.

**NETTO FAİZ** – *İqt.* Gəlir mənbələrindən tutulan vergilər çıxıldıqdan sonra faiz ödəmələri.

**NETTO XALİS AKTİVLƏR** – *İqt.* Onun cari öhdəlikləri çıxılmaqla, təşkilatın aktivləri. Alınan rəqəm kapitala bərabərdir, bunu təşkilat yerləşdirir.

**NETTO İCARƏ** – *İqt.* İcarə haqqında razılaşmaya görə icarədar həmin razılaşmaya xidmət üzrə bütün cari cərimələri ödəyir.

**NETTO MƏNFƏƏT** – *İqt.* Xalis mənfəət.

**NETTO MÜKAFAT** – *İqt.* Sığorta fondunun formalaşması üçün nəzərdə tutulan brutto mükafatın bir hissəsi, ondan sonralar sığorta ödənişləri edilir.

**NETTO STAVKA** – *İqt.* İllik stavkadan sığorta haqlarının ehtiyatı üçün ayrılan hissə.

**NETTO VERGI** – *İqt.* Maliyyə hesabatına nəyin isə ümumi təsiri müəyyən edilir, vergiyə (adətən mənfəət vergisinə) təsiri göstərmək, istifadə olunanlar uçota alınır.

**NEYTRAL İNFORMASİYA** *(lat.d.neutralis-heç birinə məxsus olmayan ; lat. informatio-məlumat vermə) – İqt.* Hadisələrin qiymətləndirilməsində, verilən faktlarda, yaxud informasiya zamanı heç kimin, heç bir tərəfin mövqeyinə üstünlük, qiymət verilmədən hazırlanmış məlumat.

**NƏBZ OKSİMETRİYASI** – *Tib.* Koronovirusda, yaxud müxtəlif xəstəliklərdə saturasiyanı dəqiq müəyyənləşdirmək üçün istifadə edilir. Çihazdan nəbz dalğası tutması halında hipoksemiyanı müəyyən etmək baxımdan effektiv bir metoddur. Nəbz oksimetriyası oksigen saturasiyasının monitorinqi üçün müntəzəm olaraq aparılır.

**NƏTİCƏ ƏSASLI KURİKULUM** – *Ped.* Təhsil təcrübəsinin yaradılması və planlaşdırılmasında təlim nəticələrini əsas amil hesab edən yanaşma.

**NİHİLİZM** *(lat.d.nihil-heçnə) – Pol.* Hər hansı bir şəxsin inkar etmə mövqeyi.

**NİVELİR** (*fr. niveler – tarazlaşdırmaq, niveau – səviyyə*) – *Tex.* Məhəllədə nisbi hündürlüyü ölçmək üçün istifadə olunan geodezik cihaz. Durbin, qaldırıcı vintləri olan dayaq və dəqiq tarazdan ibarətdir.

**NİVELİRLƏMƏ** (*fr. niveler – tarazlaşdırmaq, niveau – səviyyə) – Tex.* Yer səthinin iki və ya bir neçə nöqtəsi arasında şaquli xətt üzrə nisbi hündürlük fərqinin ölçülməsi.

**NİZAMLAMA KONVERGENSİYASI** – *İqt.* Müxtəlif bazarların birləşməsi dövləti məcbur edir ki, müxtəlif bazarlar üçün ümumi bir nizamlama tətbiq etsin.

**NORD** (alm. *nord* – şimal) – *Tex.* Üfüqün şimal cəhətinin beynəlxalq adı. N hərfi ilə işarə olunur.
**NORD-OST** (*alm. nord – şimal + alm. est – şərq*) – *Tex.* Üfüqün şimal-şərq cəhətinin beynəlxalq adı. NE kimi işarə olunur.
**NORD-VEST** (*alm. nord – şimal + alm. west – qərb*) – *Tex.* Üfüqün şimal-qərb cəhətinin beynəlxalq adı. NW kimi işarə olunur.
**NÖMRƏ FONDU**– *İnş.* Yerləşdirmə vasitəsində otaq nömrələrinin ümumi sayı.
**NONKOFMİZM** *(lat.d.non-yox, conformis-oxşar) – Dip.* Sosial həyatın mövcud normalarına qarşı etiraz forması.
**NUVORİŞ** *(lat.d.nouveau richl-varlı adam) – İqt.* Əliəyrilik sayəsində varlanmış adam.
**NYUSMEYKER**– *Jur.* Mediada fəaliyyəti mütəmadi işıqlandırılan şəxs.
**NYUSRUM** *(ing.d.newsroom-xəbər otağı) – Jur.* KİV üçün materiallar istehsal edən jurnalistlərin, redaktorların və başqa mütəxəssislərin işlədiyi məkandır. Materialın nəşr və ya nömrə üçün son qablaşdırılması ilə məşğul olan redaksiyalarda iş yerinin xüsusi təşkili prinsipinə uyğun olaraq informasiya xidmətinin yerləşdiyi, xəbərlərin hazırlandığı iri otaq, zal.

## -O-

**OBSİDİAN** (lat. *obsis* – tamaşa) – *Tex.* Vulkanik şüşədən ibarət maqmatik dağ süxuru. Qara, boz, qırmızı-qonur rəngdə olur, tərkibinə görə qranitə yaxındır. O.-ın üzərindəki zolaqlar lavanın axın istiqamətini göstərir.
**OBSKURANTİZM** *(lat.d.obuscurans-tündləşdirmə)* – *Pol.* Elmə və maarifə prinsipial mənfi münasibət.

**OBSTRUKSİYA** *(lat.d.obustructio-bağlamaq, əngəl) – Hüq.* Hər hansı bir qanunun və ya onun layihəsinin qəbul olunmasının qabağını almağa yönəlmiş hərəkət.

**OFLAYN** *(ing.d.off-line-xətdən kənar)* **–** *İnf.* Elektron avadanlığın avtonom, iş rejimi. Yəni, kompüter şəbəkəsi, telekommunikasiya sistemi, internetlə bağlantısı olmayan.

**OXLOKTARİYA** *(yun.d.ochlos-kütlə; cratos-hakimiyyət) – Pol.* Zorakılıq və qanunsuzluğa əsaslanan qaraguruhun hökmranlığı.

**OKKLÜZİYA** (*lat.occlusio-qapanmaq, gizlənmək*) – 1. *Coğ.* Sürətlə hərəkət edən soyuq atmosfer cəbhəsinin yavaş hərəkət edən isti atmosfer cəbhəsi ilə qovuşması.2. *Tib.* Xolestrinin coxluğundan qan damarlarının düyünlənməsi nəticəsində tpombun yaranması; 3. *Tib.* Üst və alt çənə dişlərinin hər cür kontaktı.4.*Psixo.* Psixoloji gərginlikdən bir refleksin digərinə təsiri ilə onun funksiyasını pozması; 4.*Kim.* Qazın udulması nəticəsində kimyəvi qatqının əmələ gəlməsi.

**OMİKRON** – *Tib.* Koronavirusun mutasiyaları nəticəsində son zamanlar meydana çıxan yeni "Omikron" stammı.

**ONKOGEN** *(onko+gen) – Tib.* Onkogen virusun geni olub, həmin virusun normal hüceyrəni bədxassəli hüceyrələrə çevirə bilmək bacarığını şərtləşdirir.

**ONKOGEN MADDƏLƏR** *(sin.: blastomogen maddələr, kanserpogen maddələr, kanserogenlər, karsinogen maddələr) – Tib.* Şiş əmələ gətirmək xassəsinə malik olan maddələr.

**ONKOGENETİKA** *(onko+genetika) – Tib.* Onkologiyanın bir bölməsi olub, şişlərin etiologiyası və patogenezində genetik amillərin rolunu öyrənir.

**ONKOGENEZ** *(lat.d. onkogenesis) – Tib.* Şişin əmələ gəlməsi və inkişafı prosesi.

**ONKOLOGİYA** *(onko+yun.d. logos təlim, elm) – Tib.* Tibbin və biologiyanın bir sahəsi olub, şişlərin əmələgəlmə səbəbləri, inkişaf mexanizmləri və klinik təzahürlərini öyrənməklə yanaşı onların diaqnostika, müalicə və profilaktika üsullarını da işləyib hazırlamaqla məşğul olan tibb sahəsi.
**ONKOLOQ** *(onko+yun.d.logos təlim, elm) – Tib.* Şişlərin diaqnostikası, müalicəsi və profilaktikası sahəsində hazırlıq keçmiş həkim-mütəxəssis.
**ONKOSİT** *(lat.d. oncocytus) – Tib.* Mitoxondrilərə zəngin, iri şəffaf eozinofil epitelial hüceyrə olub, müxtəlif orqanlarda vəz hüceyrələrinin arasında rast gəlinir.
**ONKOSİTOMA** *(lat.d. oncocytoma) – Tib.* Onkositlərdən inkişaf edən şiş.
**OPERAND** – *İnf.* Riyazi əməlin və ya kompüter deyiminin obyekti. *Operand* ya verilənlərdən ibarət ola bilər, ya da diskdə verilənlərin saxlandığı yaddaş sahəsi ola bilər.
**OOZİE** – *Tex.* Oozie Java texnologiyası əsasında açıq ilkin kodlu layihədir, tapşırıqların koordinasiyası və işlər axınının yaradılması prosesini sadələşdirir. Oozie ardıcıl yerinə yetirilən bir neçə tapşırığı prinsipcə bir məntiqi iş vahidində birləşdirməyə imkan verir. Bundan əlavə, sistemin məsələn, Java proqramlarının xüsusiyyətlərini nəzərə almaqla tapşırıqları planlaşdırmaq üçün istifadə edilə bilər.
**OPTASİYA** *(lat.d. optatio-arzu, seçmə) – İqt.* Dövlət mənsubiyyətini dəyişərkən əhaliyə verilən ərazi.
**ORTODOKS** *(yun.d.otrhodoxos -dindar) – Pol.* Hər hansı bir təlimə, cərəyana sadiq olan şəxs.
**ORDONANS** *(fr.d.ordonance-əmr etmək) – Pol.* Müəyyən səbəblər üzündən parlament öz fəaliyyətini dayandırarkən dövlət başçısı tərəfindən qəbul olunan qərar.

**ORUELLİZMİ** *(ing.d. orwellism) – Pol.* Təbliğat zamanı həqiqəti təhrif etmək üçün sözlərdən manipulyasiya məqsədi ilə istifadə edilməsi.

**OSTEOBLASTOKLASTOMA***(lat.d.osteoblastoclastoma) – Tib.* Külli miqdarda nəhəng çoxnüvəli sümükdağıdan hüceyrələrdən (osteoklastlardan) ibarət olan sümük şişi.

**OSTEOİD** –1. *Tib.* Sümüyəbənzər, 2. *Tib.* Osteoblastlar tərəfindən yaradılan minerallaşmamış matriksi. Sonradan bu osteoblastların lakunalara daxil olması ilə sərtləşir.

**OSTEOKALSİN** – *Tib.* Osteoblastlar tərəfindən sintez olunan və osteoklastların yaranmasında rol oynayan spesifik sümük proteini. Bu, sümük remodelləşməsi və ya minerallaşması üçün göstəricidir.

**OSTEON** – *Tib.* Havers kanalı və onun konsentrik qatlarından ibarət kompakt sümüyün əsas struktur vahidi. Bu qatların bir sistemdə (Havers) sayı 4-20, qalınlığı isə 3-7 um ola bilər.

**OSTEOMA** *(lat.d. osteoma) (osteo+oma) – Tib.* Sümük toxumasından inkişaf edən xoşxassəli şiş.

**OSTEOMİELOFİBROZ** *(lat.d. osteomyelofibrosis) – Tib.* Naməlum etiologiyalı xəstəlik olub, sümük iliyi boşluğunda birləşdirici və sümük toxumasının inkişaf edərək qanyaradıcı toxumanı əvəz etməsi və (və ya) dalağın mieloid metaplaziyası ilə səciyyələnir.

**OSTEONEKTİN** – *Tib.* Sümükdə və qan trombositlərində rast gəlinən fosfoptotein. O, kollagen və kalsiumu birləşdirərək minerallaşmanı nizamlayır.

**OSTEOSARKOMA** (lat.d.osteosarcoma) – *Tib.* Xırdahüceyrəli osteosarkoma sümüklərin Pecet xəstəliyi zamanı təsadüf olunan osteosarkoma, Teleangiektatik osteosarkoma, Fibroblastik osteosarkoma, Xondoroblasrik osteosarkoma, Yukstakortikal osteosarkoma.

**OSTEOSİT**– *Tib.* Sümük matriksi içərisində pərçimlənmiş lakunalarda (yastı oval şəkilli sümük çökəyi) yerləşən osteoblast.

**OSTEOTOM** – *Tib.* Cərrahi yolla sümüyün apikal və ya lateral genişləndirilməsi üçün istifadə olunan alət. Bu alət vasitəsilə donor nahiyədən sümük qraftı da götürülə bilər.

**OVERLEY** – *İnf.* Proqramın daimi yaddasaxlama qurğusunda onun üçün ayrılmış yerdə olan və gərəkli olduqca yaddaşa yüklənən bölməsi; onun yerinə isə, adətən, proqramın yaddaşda olan başqa overley hissələri yazılır. Overleydən istifadə olunması irihəcmli proqramlara məhdud tutumlu yaddaşa uyğunlaşmağa imkan verir, ancaq bu, işləmə sürəti hesabına olur.

**OVUCİÇİ KOMPÜTER** – *İnf.* Ovucun içinə sığışan portativ fərdi kompüter. Ovuciçi kompüterlərin dizüstü kompüterlərdən başlıca fərqi birincilərin, adətən, kiçik olmasıdır. Ovuciçi kompüterlər ölçülərinə görə planşet kompüterlərdən kiçik olur. Cibə yerləşdiyindən onlara cib kompüterləri də deyirlər. Planşetlərdə olduğu kimi, bu kompüterlərdə də öz qələmi ilə işləmək olur.

**OZONOMETR** (*lat. ozon – iyli + yun. metron – ölçü*) – *Ast.* Atmosferdə ozonun miqdarını ölçən cihaz.

**OZONOSFER** (*lat. ozon – iyli + yun. sphaira – şar*) – *Astr.* Yerdə həyatı yüksək enerjili ultrabənövşəyi günəş radiasiyasından qoruyan *ozon* molekullarının sıx olduqları atmosfer qatı.

## -Ö-

**ÖDƏMƏMƏ** – 1. *İqt.* Kreditorla hesablaşmanın aparılmasından, borclunun həmçinin akseptdən, vekselin ödənişin-

dən ödəyicinin imtina etməsi; dövlət büdcəsinə üzvlük haqqı və ayırmaların daxil olmaması; 2. *İqt.* Göndərilmiş məhsula, yetirilmiş iş göstərilmiş xidmətə (əsasən iqtisadiyyatın dövlət sektorunda) müəssisənin qarşılıqlı, ödənişi etməməsi, hansı ki, vəziyyət ümumi ödənilməmə “zəncirvari reaksiya” yaradır; qarşılıqlı zaçotlar, barter münasibətləri yaranır; 3. *İqt.* Əmək haqqı, təqaüd, dövlət müəssisələrinin işçilərinə verilmə, hərbi qulluqçular, maarif işçiləri, səhiyyə, tələblərin təhsil haqqı borcu; sosial təminat üzrə pensiya fondunun borcu. Ödənilməmə sabitliyi siyasi qeyri - sabitliyə, iqtisadiyyatın nəticəsinin pozulmasına gətirib çıxarır.

**ÖDƏNİŞSİZ LİSENZİYA** *(lat.d.lisentia-icazə)* – *İqt.* Heç bir haqq alınmadan dövlət tərəfindən ictimai yayım fəaliyyətinə verilən müddətsiz xüsusi razılıq.

**ÖLÜ SAYT** – (*ing.gravesite, ru. мертвый узел*) – *İnf.*1. Fəaliyyət göstərən, ancaq heç bir dəstəyi olmayan veb-sayt. 2. İstifadəçilər arasında qabaqcadan nəzərdə tutulmuş populyarlığı olmayan veb-sayt.

**ÖYRƏNMƏ BİRLİYİ** – *Ped.* Öyrənmə prosesini həyata keçirən müxtəlif struktur və bölmələr.

**ÖZƏL YAYIMÇI** – *Jur.* Müəyyən bir dövlətdə daimi yaşayan vətəndaşlar üçün hüquqi şəxslərin təsis etdikləri teleradio verilişləri.

**ÖZLÜLÜK –** *Tex.* Molekulların bir-birinə qarşılıqlı surətdə bağlanması nəticəsində mayenin axına qarşı müqaviməti.

**ÖZÜNÜDƏRK** – *Ped.* Özündə olan müsbət və mənfi cəhətləri aydın görə bilmək, özünün nəyə qabil olduğunu, bacarıq və qabiliyyətinin, biliyinin səviyyəsini düzgün qiymətləndirə bilmək və özünü təkmilləşdirmək istiqamətində fəaliyyət göstərmək.

**ÖZÜNÜQİYMƏTLƏNDİRMƏ** – *Ped.* İnsanın özünə necə münasibət bəslədiyini başa düşməklə, onunla ünsiyyətdən nələri gözləməyin mümkün olduğunu təyin etmək prosesi.

**ÖZÜNÜQİYMƏTLƏNDİRMƏ VƏRƏQİ** – *Ped.* Hər bir şəxsin müəyyən parametrlər üzrə özünü təhlil etməsi üçün nəzərdə tutulan anket.

**ÖZÜNÜMÜŞAHİDƏ** – *Ped.* İnsanın özünə kənardan, başqa adamın gözü ilə baxması, özündə olan keyfiyyətləri görə bilməsi.

**ÖZÜNÜSENZURA** – *Ədəb.* İctimai maraqları deyil, öz şəxsi maraqlarını əsas tutaraq müəllifin bu və ya digər səbəbdən ictimailəşdirməkdən çəkindiyi faktı, fikri şüurlu surətdə çıxış materialına daxil etməməsi, yaxud hər hansı hissəni əsərdən çıxarması.

**ÖZÜNÜTƏCRİD** – 1. *İqt.* Özlərini digər ölkələrin problemlərindən, ümumiyyətlə, dünya siyasətindən uzaq tutan dövlətlərin xarici siyasət kursu mənasını ifadə edir. 2. *Tib.* Son dövrdə *özünütəcrid* termini koronavirus pandemiyası dövründə ətraf aləmlə əlaqədən imtina mənasında işlənir.

**ÖZÜNÜTƏHLİL** – *Ped.* Özünütərbiyənin vasitələrindən biri.

**ÖZÜNÜTƏHSİL** – *Ped.* İnsanın və ya şəxsiyyətin məqsədyönlü şəkildə şəxsi təhsillə məşğul olması, özünün bilik, bacarıq və vərdişlərini artırmaq, genişləndirmək və dərinləşdirmək məqsədilə öz üzərində çalışması, təhsilalma prosesində həm obyekt, həm də subyekt kimi çıxış etməsidir.

**ÖZÜNÜTƏHSİL MƏDƏNİYYƏTİ** – *Ped.* Özünütəhsilin bütün komponentlərinin yüksək inkişaf və mükəmməllik səviyyəsi. Özünütəhsil tələbatı inkişaf etmiş şəxsin zəruri elementidir. Özünütəhsil nəticəsində insanın iradi keyfiy-

yətləri, yüksək şüurluluq səviyyəsi və təşkilatçılığı formalaşır.

**ÖZÜNÜTƏRBİYƏ** – *Ped.* İnsanın özünü təkmilləşdirmək üçün öz üzərində şüurlu, məqsədyönlü işləməsi prosesi. Özünütərbiyənin əsas vasitələrinə özünümüşahidə, özünütəhlil, özünütərbiyə planı və ya proqramının müəyyən edilməsi, özünüinandırma (özünətəlqin), özünənəzarət, özünəhesabat, özünütərif, özünütənqid, özünüqiymətləndirmə daxildir.

## -P-

**PADİOLİMFADENOQRAFİYA** – *Tib.* Limfa düyünlərinin radiozotop müayinəsi olub, radioaktiv maddələrin seçici olaraq limfa düyünlərinə toplanması prinsipinə əsaslanır.

**PAQAMENT** – *İqt.* Nağd pul ilə ödəniş.

**PAMBURS** – *İqt.* Beynəlxalq ticarətdə bu qayda üzrə bank vasitəsi ilə, satın alınan malın ödənişidir.

**PAMBURSLAMAQ** – *İqt.* Xərcləri, borcları qaytarmaq, ödəmək; veksel verənə ödəmək; üçüncü şəxs vasitəsi ilə borcu örtmək.

**PAPİLLOMA** *(lat.d.papilloma)* **–** *Tib.* Yastı və ya keçid epitelindən inkişaf edən və məməcik şəklində onun səthinə çıxan xoşxassəli şiş; məməcik formasında olan xoşxassəli şiş.

**PAPİLLOMATOZ** – *Tib.* Yumurtalıq səthində papiller böyüməsi olan nadir bir seroz şiş. Neoplazma çox vaxt ikitərəfli olur və integument epiteliyasından inkişaf edir. Səthi papilloma yumurtalıqlardan kənarda uzanmır və əsl papilyar böyümələrə malikdir. Papillomatoz üçün seçimlərdən

biri yumurtalıqda bir dəstə üzümə bənzər çoxluq şəklində şişdir.

**PARAQLİOMA** (lat.d.paraglioma) – *Tib.* Ependim, beyinin damar kələfinin epiteli və əzgiləbənzər cisim (epifiz) şişlərinin ümumi adı olub, yetişmiş qanqlioz hüceyrələrdən və ya neyroblastlardan ibarət olur.

**PARAMİELOBLAST** *(tar.) (lat.d.paramyeloblastus) (para+mieloblast)* – *Tib.* Kəskin leykoz üçün səciyyəvi olan monosit nüvəsini xatırladan polimorf nüvəyə malik olan və anaplaziyaya uğramış atipik mieloblast.

**PARDAXLAMA –** *İnşa.* Rəngləmə zamanı xov qalxır və şəffaf lak təbəqəsini deformasiyaya uğrayır.

**PAREL** – *İqt.* Malın dəsti, xırda yük dəsti.

**PARESTEZİYA** – *Tib.* Spontan və ya hər hansı təsir nəticəsində əmələ gələrək ağrı törətməyən, lakin çimdikləmə, yanma, iynəbatma, keyləşmə kimi xoşagəlməz anormal hissiyatlar. Bu, adətən cərrahi müdaxilələr zamanı və ya başqa təsirlərdən sinirin zədələnməsi nəticəsində baş verir.

**PAROTİDEKTOMİYA** *(lat.d.parotidectomia) (parodont+şiş) – Tib.* Parodontun şişi.

**PARTİKULYARİZM** *(lat.d.particularis-qismən, xüsusi istisna təşkil edən) – Pol.* Xüsusi məqsədlər və maraqların (şəxsi, yaxud qrup) üstünlüyünə əsaslanan sosial və siyasi fəaliyyət prinsipi.

**PARTOLOGİYA** (*lat. part-hissə, qrup; yun.d.logos-təlim)* – *Pol.* Politologiya elminin siyasi partiyaları öyrənən şöbəsi.

**PASİFİZM** *(lat.d.pacificus sakitləşdirən, barışdıran) – Dip.* Müharibəni pisləyən və sülhü tələb edən dünyagörüş.

**PASKVİL** *(alm.d.pasquill-XV əsrdə yüksək vəzifəli şəxslər haqqında böhtanlar yayan pinəçi Pasquinonun adından)– Dip.* Heç bir mənəvi sərhədlə hesablaşmadan hər hansı şəx-

si, ideyanı ləkələmək, gözdən salmaq məqsədilə təhqiramiz, böhtan xarakterli məqalə, ədəbi əsər.

**PATERNALİZM** (*lat.d. paternus-atalıq*) – *Dip.* Hakim elitalar və qeyri-elitar qrupları arasında qarşılıqlı əlaqələr. Bu əlaqələr prosesində sosial dəstəyi və müdafiəsi zamanı birincilərin göstərdiyi loyallığa qarşı ikincilər tərəfindən dəstək verilməsinə təminat verilir.

**PATOMORFOZ** (*lat.d. pathomorphosis*) – *Tib.* Ətraf mühitin hər hansı bir amilinin təsiri nəticəsində xəstəliyi klinik və morfoloji əlamətlərinin davamlı dəyişilməsi.

**PAUPER** *(lat.d.pauper yoxsul) – İqt.* Maddi cəhətdən əziyyət çəkən, yoxsul insan.

**PAUSAL ÖDƏNİŞ** *(alm. paucal- bütövlükdə götürülmüş)– İqt.* Əvvəlcədən razılaşdırılmış birdəfəlik ödəniş.

**PEDAQOJİ ANTROPOLOGİYA** – *Ped.* İnsanın bütün həyatı boyu təhsil, tərbiyə və inkişafı prosesi ilə bağlı yaranmış, insanın fasiləsiz təhsil alması problemlərini öyrənən elm.

**PEDAQOJİ DEONTOLOGİYA** – 1) *Ped.* Müəllimin professional fəaliyyəti barədə elm; 2) *Ped.* Fəaliyyət iştirakçıları arasında etibarlı münasibətləri təmin edən professional etika. Digər insanlara və onların ideyalarına münasibətdə pedaqoji kompetensiya təlim-tədris prosesində qəbul edilmiş mənəvi məsuliyyəti ifadə edir.

**PEDAQOJİ EKSPERİMENT** – *Ped.* Pedaqoji problemin daha effektiv həlli yollarını axtarmaq məqsədilə tədris və ya tərbiyə sahəsində elmi cəhətdən qoyulmuş təcrübə; pedaqoji hadisə zamanı səbəb-məqsəd əlaqəsinin tədqiqatı (tədqiqatçının pedaqoji hadisəyə aktiv təsirini bildirir), pedaqoji təsir və qarşılıqlı əlaqənin nəticələri barədə rəyin öyrənilməsi; pedaqoji hadisə və proseslərin fasiləsiz təkrarlanması.

**PEDAQOJİ İMPROVİZASİYA** – *Ped.* Müəllimin dərs və ya ünsiyyət zamanı pedaqoji həlli tapması və onu ani olaraq həyata keçirməsi.

**PEDAQOJİ İNVARİANTLAR** – *Ped.* Dəyişilməyən pedaqoji həqiqətlər. Termin pedaqogikaya S.Fren tərəfindən daxil edilmişdir. O, humanist pedaqogika əsasında 30 invariant prinsip hazırlamışdır.

**PEDAQOJİ PARADİQMA** [*yun. paradeigma – nümunə, model*] – *Ped.* Pedaqogikanın inkişafının hər bir mərhələsində elmi-pedaqoji cəmiyyətin qəbul etdiyi nəzəri, metodoloji və s. qaydaların toplusu. Bu qaydalara pedaqoji problemin həlli zamanı etalon, nümunə kimi əsaslanırlar. "Paradiqma" anlayışı pedaqogika elminə amerikan tarixçisi T.Kun tərəfindən gətirilmişdir. Pedaqoji prosesin strukturu – pedaqoji sistemin komponentlərinə uyğun olan və onu təşkil edən tərkib hissələrinin cəmi.

**PEDAQOJİ TAKSONOMİYA** – *Ped.* Pedaqoji məqsədlərin kateqoriyalarının və ardıcıl səviyyələrinin seçildiyi dəqiq sistemin qurulması.

**PEDAQOJİ TAKT** – *Ped.* Pedaqoji takt pedaqoji etikanın yerinə yetirilmə növlərindən biri olub müəllimin öz davranış və münasibətində humanizm, şagirdin şəxsiyyətinə hörmət, ədalətlilik, uşaqlarla davranış zamanı dözümlülük tələb edən hissdir.

**PEDAQOJİ TEST** – 1) *Ped.* Sınaq iştirakçılarının müəyyən bilik sahəsinin konkret bölmələri üzrə hazırlıq səviyyəsinin qəbul edilmiş meyarlarla obyektiv ölçülməsi üçün istifadə olunan test tapşırıqları və testlər toplusu; 2) *Ped.* Öyrənənlərin öyrədəndən asılı olmadan, obyektiv və funksional şəkildə təhsil nailiyyətləri üzrə səviyyələrinin ölçülməsinə, onların hər hansı təlim-tədris məzmunu sahəsində qa-

zandığı bilik, bacarıq, vərdişlərinin və elmi-praktiki təsəvvürlərinin layiqincə qiymətləndirilməsinə imkan verən spesifik formalı və müəyyən məzmuna malik tapşırıqlar sistemi.

**PEDOLOGİYA** (*yun. paidos – uşaq, logos – elm*) – *Ped.* Uşağın inkişafı üçün müxtəlif elmləri, yanaşmaları birləşdirməyi qarşısına məqsəd qoymuş elmi istiqamət.

**PELAGİAL** (*yun. pelagos – dəniz*) – *Coğ.* Plankton, nekton, pleyston kimi passiv üzən, yaxud sudan asılı vəziyyətdə yaşayan bitkilərin dünya okeanlarında məskunlaşdıqları sahə.

**PELOGEN QAT** (*yun. pelos – lil, çirk + yun. genos – mənşə*) – *Coğ.* Su hövzələrində lilin səthində yerləşən ölü orqanizmlərdən və üzvi hissəciklərdən ibarət nazik təbəqə.

**PELVİQRAFİYA** – *Tib.* Kontrast maddələr tətbiq edilmədən çanaq sümükləri və çanaq orqanlarının rentgenoqrafiyası.

**PELVİSKOPİYA** – *Tib.* Tibbi endoskopun (laparoskopun, kuldoskopun) köməyi ilə kiçik çanaq orqanlarına baxılması.

**PEMZA** (*lat. pumex – köpük*) – *Coğ.* Ağ və ya boz rəngli, yüksək məsaməli, yüngül vulkanik şüşə. Vulkan püskürmələri zamanı buxar və qazlarla zəngin lavanın şişməsi və tez soyuması nəticəsində əmələ gəlir.

**PENEPLEN** (*lat. paene – təxminən + ing. plain – düzənlik*) – *Coğ.* Uzun geoloji dövr ərzində süxurların aşınması və denudasiyası nəticəsində qədim dağların yerində əmələ gələn düzənlik sahə.

**PENYA** – *İqt.* Müqavilə və digər öhdəliklərin uzadılması hallarında tətbiq edilən dəbbələmənin növü. Penya ümumi qayda üzrə vaxtı keçmiş öhdəlik məbləğindən (qiymətlər)

faiz şəklində təyin edilir və hər vaxtı keçmiş günə görə hesablanır.

**PERES SİMPTOMU** – *Tib.* Xəstə qollarını yuxarı qaldırıb aşağı saldıqda döş sümüyünün yuxarı üçdə biri üzərində plevranın sürtünmə küyü eşidilir. Divar aralığının yerdəyişməsi əlaməti olub, onkoloji klinikada əsasən şiş təsirindən baş verir.

**PERFOKART** – *İnf.* Fərdi kompüterlər meydana çıxanadək geniş istifadə olunan informasiya daşıyıcısı. Nazik kartondan hazırlanan *perfokart* üzərindəki müəyyən yerlərdə deşiklərin olması, yaxud olmaması ilə informasiyanı təqdim edir.

**PERİTONARXASI** *(reteoperitoncal- pnevmoqrafiya) – Tib.* Peritonarxası sahədə yerləşən orqanların pnevmoqrafiyası (kontrast qaz yeritməklə rentgenoqrafiyası).

**PERİTONEOQRAFİYA** *(peritoneo+yun.d.grapho –yazmaq, təsvir etmək) – Tib.* Periton boşluğuna kontrast maddə yetirməklə onun rentgen şəklinin çəkilməsi.

**PERİTONEOSKOPİYA** *(peritoneo+yun.d.skoreo baxmaq, gözdən keçirmək) – Tib.* Qarın divarında açılmış deşikdən daxil edilməklə tibbi endoskopla qarın boşluğu orqanlarına baxaraq onların gözlə müayinə edilməsi.

**PERİSİTOMA** (*lat.d.pericetoma*) – *Tib.* Perisitlərdən (perivaskulyar hüceyrələrdən) inkişaf edən bədxassəli damar şişi olub, bərk düyün şəklində təzahür edir və əsasən dəridə yerləşir.

**PERSONİFİKASİYA** *(lat.d. persona-şəxs; lat.d. facio-edirəm) –* 1.*Coğ.* Təbiət hadisələrinin, heyvan və bitki adlarının, mücərrəd anlayışların insan cildində göstərilməsi. 2. *Pol.* Hər hansı kütləvi prosesin, sosial prosesin, hərəkatın, hadisənin, qələbənin, yaxud məğlubiyyətin bir şəxsin adı

ilə bağlanması. Yəni, abstrakt anlayışlara, təbiət hadisələrinə insani keyfiyyətlərin verilməsi, onların canlandırılması, şəxsləndirilməsi.

**PETİSİYA** *(lat.d.petitio-xahiş) – Hüq.* Bir qrup vətəndaşlar adından ali hakimiyyət orqanlarına verilən yazılı ərizə.

**PİLATES** – *Fiz.* Fiziki fitnes sistemi.

**PİNEALOMA** (*lat.d.pinealoma*) – *Tib.* Əzgiləbənzər cismin (pinealositlərin) parenximatoz hüceyrələrindən inkişaf edən şiş.

**PİNEKOSİTOMA** *(lat.d.pineocytoma) – Tib.* Pinkusun fibroepitelial şişi.

**PİPLMETR** *(ing.d.people-əhali, xalq; yun.d.metron-ölçü)* – *Tex.* Tamaşaçını ekranda baxdığı proqramları qeydə almaq üçün televizora qoşulan cihaz.

**PİROGEN DƏYİŞMƏLƏR** – *Coğ. Pirogen* təsir nəticəsində orqanizmdə, landşaftda, ətraf mühitdə baş verən dəyişmələr.

**PİROKLASTİK AXIN** – *Coğ.* Vulkan püskürməsi zamanı üzə çıxan yüksək temperaturlu vulkanik qaz, kül, daşların qatışığı.

**PİROKLASTİK SÜXUR** (*yun. pyr – od + yun. klaotos – dağıdılmış) – Coğ.* Vulkan püskürməsi zamanı kraterdən atılan qırıntılardan ibarət dağ süxuru.

**PİSA** – *Ped.* Beynəlxalq Şagird Qiymətləndirilməsi Proqramı (Programme for International Student Assessment). İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı tərəfindən 3 ildən bir təşkil olunaraq, 15 yaşlı şagirdlərin oxu, riyaziyyat və elm sahələri üzrə məktəbdə qazandıqları biliklərdən həyatda, məişətdə qarşılaşdıqları problemləri həll etmək üçün istifadə etmək bacarığının yoxlanması.

**PİTÇ** – *İnf.* Simvollarının eni dəyişməz olan şriftlər üçün istifadə olunan ölçü vahidi; *pitç* bir düymlük (25.4 mm)

parçaya yerləşən simvolların sayını göstərir. Məsələn, 10 *pitç* onu bildirir ki, verilmiş şriftin 10 simvolu üfüqi istiqamətdə 1 düymə yerləşəcək.

**PİTUİSTOMA** *(lat.d. pituicetoma) – Tib.* Hipofizin arxa payında neyroqliya elementlərindən inkişaf edən xoşxassəli şiş.

**PLANKTON** (*yun. plankton – gəzəyən*) – *Bio.* Suda yaşayan və su axınına müqavimət göstərə bilməyən kiçik orqanizmlər. P.-lara bakteriyalar, bəzi yosunlar (fitoplanktonlar), molyusklar, balıqların və bəzi onurğasız heyvanların süfrələri (zooplanktonlar) aiddir.

**PLANŞET PLOTTER –** *Tex.* Kağızın müstəvi platformada yerləşdirildiyi, görüntü çəkən qələmin isə hər iki ox boyunca kağız üzərində hərəkət etdiyi plotter.

**PLAZMATİZASİYA** – *Tib.* Qanda çoxlu miqdarda plazmatik hüceyrələrin zahir olması, məs., mieloma xəstəliyi zamanı.

**PLAZMOSİTOMA** *(lat.d. plasmocytoma) – Tib.* Mieloma xəstəliyinin şiş formasında yerli təzahürü.

**PLEBİSİT** *(lat.d.plebiscitum; plebs –sadə xalq, scitum qərar) – Pol.* Ümumxalq səsverməsi, referendum.

**PLEVROSENTEZ (***lat.d.pleurosentesis***) –** *Tib.* Döş qəfəsini punksiya etməklə iynə və ya troakarın plevra boşluğuna yeridilməsi; diaqnostik və ya müalicə məqsədi ilə aparılır.

**PLEYOXROMİYA** (*pleyo + yun. chroma rəng; sin. polixromiya*) – *Tib.* Ödün tərkibində öd piqmentlərinin miqdarının artıq olması.

**PLEYOTROPİYA** (*yun. tropos istiqamət*) – *Tib.* Bir genin bir neçə fenotipik əlamətə təsir etməsi.

**PLEZİOQRAFİYA** (*yun. plesios yaxın + grapho yazmaq*) – *Tib.* Kiçik obyektləri (barmaq falanqası, daban sümüyü,

aşıq sümükləri, dişlər və s.) müayinə etmək üçün yaxın məsafə fokusundan çəkilən rentgenoqrafiya.

**PLEZİOTERAPİYA** *(lat.d.plesiotherapia)* **–** *Tib.* Şüalanma mənşəyi ilə şüalanan şərh arasındakı məsafə 30-100 sm olmaqla aparılan qamma-terapiya.

**PLOTTER** – *Coğ.* Xətlər çəkməklə diaqram, yaxud başqa görüntüləri yaratmaq üçün qurğu.

**PLUTONİZM** – *Coğ.* Yer qabığını təşkil edən süxurların əmələ gəlməsində endogen proseslərin (vulkanizm, tektonik hərəkətlər) aparıcı roluna dair geoloji konsepsiya.

**PLUTOKRATİYA** *(yun.d. plutokratia; plutos –var-dövlət, kratos hakimiyyət) – Pol.* Cəmiyyətin özünün var-dövlətini qeyri-qanuni, yaxud qeyri-əxlaqi yolla toplanması ilə varlı təbəqələrinin hakimiyyəti.

**PLÜVİOQRAF** (*lat. pluvia – yağış + yun. grapho – yazıram*) – *Coğ.* Yağıntıların miqdarı, davamiyyəti və intensivliyini qeydə alan cihaz. P. – silindrik qabdan, su kamerasından, üzgəcdən, saat mexanizmindən və özüyazan kiçik qurğudan ibarətdir.

**PNEVMOAKSİLOQRAFİYA** *(“pnevmo” –mürəkkəb sözlərin tərkibində “havaya, qaza və tənəffüsə aid” mənalarında işlədilir+lat.d.axilla qoltuq+yun.grapho yazmaq, təsvir etmək)* **–** *Tib.* Böyümüş qoltuq limfa düyünlərini aşkar etmə üsulu olub, dərialtı piy toxumasına kontrast qaz yeritməklə onun rentgenoqrafiyası.

**PNEVMOKİSTOQRAFİYA** – *Tib.* Kistanın möhtəviyyatını aspirasiya yolu ilə çıxarıldıqdan sonra kista boşluğuna kontrast qaz yeridilməklə aparılan rentgenoqrafiya və ya kistoqrafiya.

**PNEVMOMAMMOQRAFİYA***(lat.d.pneumomammographia) (sin.: süd vəzisinin pnevmoqrafiyası) – Tib.* Punksiya

yolu ilə süd vəzisi toxumasına qaz yeritməklə onun rentgenoqrafiyası.

**PNEVMOPERİTONEOQRAFİYA** – *Tib.* Qarın boşluğuna qaz yeritməklə qarın boşluğu orqanlarının renigenboqrafiyası.

**PNEVMOSİSTOQRAFİYA** *(sin.: pnevmosistorentqenoqrafiya) – Tib.* Sidik kisəsinə kateter vasitəsi ilə qaz (hava) yeritməklə onun rentgen şəklinin çəkilməsi.

**POÇT BONLARI –** *İqt.* Birjaya müraciət olunan və qiyməti təyin edən, həmçinin kiçik poçt köçürmələrinin rəsmiləşdirilməsi üçün istifadə olan bonlardır. Təqdim edilmiş kiçik (cüzi) məbləği poçt orqanları ilə dəyişmək olar və həmin məbləğin bütün poçt şöbələrində tez alınmasına hüquq verir. Fransada, Böyük Britaniyada, Niderlandda, ABŞ, Hindistan və digər ölkələrdə tətbiq edilir.

**PODZOL** (rus. *pod* – alt + rus. *zola* – kül) – *Coğ.* Ağımtılboz rəngli qeyri-məhsuldar *turş torpaq* tipi. Podzol torpaqlar soyuq və rütubətli iqlim şəraitində formalaşır.

**POLDER** (*holl. polders – bəndlə əhatələnmiş quru*) – *Coğ.* Dəniz səviyyəsindən aşağıda yerləşən ovalığın qurudulmuş və istifadə olunan sahəsi. Onlar su hövzələrindən süni tirələr, bəndlər, dambalarla qorunur. P.-lərdə suyun səviyyəsi drenaj və kanallar vasitəsilə tənzimlənir. Bu torpaqlar yüksək məhsuldarlığı ilə seçilən ərazilərdir.

**POLİMASTİYA** *(lat.d.polymastia)* **–** *Tib.* İnkişaf anatomiyası olub, süd vəzilərinin sayının ikidən çox olması.

**POLİMORFIZM –** *İnf.* Obyektyönlü proqramlaşdırmada eyni bir adın müxtəlif prosedurlarda müxtəlif kontekstlərdə işlədilməsi.

**POLİOMA** *(lat.d.polyoma)* **–** *Tib.* Eksperimental şiş olub, müxtəlif histoloji quruluşlu çoxlu sayda şişlərin inkişafına səbəb ola bilən virus tərəfindən törədilir.

**POLİPOZ** *(lat.d.polyposis) – Tib.* Bir neçə və ya çoxlu miqdarda polipin olması.
**PONTİFİKAT** *(lat.d.pontificatus) – Pol.* Roma Papasının hakimiyyəti və idarəetmə dövrü.
**PORTATİV** – *İnf.* Portativ daşınan deməkdir. Stolüstü kompüterlərlə müqayisədə portativ kompüterlərin mobilliyini onların kiçik ölçüyə və tutumlu akkumulyatora malik olmaları təmin edir. Əgər ötən yüzilliklərdə kompüterlər analoqu və rəqəmli olurdusa, indi ancaq rəqəmli kompüterlər mövcuddur. Məsələn, noutbuk, netbuk, planşet və planşetli noutbuk, smartfon ödəmə terminalı, bankomat və s.
**POSTMODERNİST** – *Ədəb.* Bədii diskursda indiki xaosu bir-birinə qarışdırır, nəqletmənin zaman-məkan parametrlərini tez-tez və kəskin sürətlə dəyişir. Bu cür diskursun iştirakçısına çevrilən oxucu müəllifin qurduğu labirintdə çaşbaş qalır, xəyali labirintin bir yerində qərarlaşıb durmağa sanki imkan tapmır.
**POSTMODERNİZM** – *Ədəb.* Mövcud olmayan gerçəkliyin obrazı, həqiqətə oxşarlığın əksi, əsli olmayan surət, arxasında hansısa reallıq duran səthi hipperalist obyektdir. Bu özünün məxsusi reallığına əsaslanmış boş forma, artefaktdır.
**POSTREKVİZİT FƏNN** – *Ped.* Kompetensiya, bilik və vərdişlərə yiyələnmək üçün öyrənilməsi zəruri olan predmet.
**POSTİNDUSTRİALİZM** – *İqt.* Mütəmadi olaraq sənaye sivilizasiyasının yerinə gələn tarixi inkişaf dövrü. Gələcəyin postindustrial konturlarını müəyyənləşdirən versiyalar.
**POSTSKRİPTUM** *(lat.d.post-sonra; lat.d.scriptum-yazı) – Jur.* Məktubun, məqalənin sonuna edilən əlavə. Publisistik janrlarda televiziya verilişlərinin sonuna əlavə olunan qeyd. Epiloq kimi verilən.

**PRAYMERİZ** *(ing.d.primaries-primary ilk, ilkin) – Pol.* ABŞ-da namizədlərin seçdiyi vəzifələrə irəli sürülməsi üçün seçicilərin yığıncaqlarda səsvermə prosesi.

**PREDERENSİYA** *(lat.d.praeferre üstün tutmaq) – Dip.* Üstünlük, məziyyət.

**PREFEKT** *(lat.d.praefectus-rəis) – Dip.* Mərkəzi (Rumıniya) və ya regional (RF) hökumətin xüsusi nümayəndəli institutu.

**PRELİMİNARİYALAR** *(lat.d.prae ön, qabaqda-limen başlanğıc) – Dip.* İlkin danışıqlar, müqavilələr, müvəqqəti qərarlar.

**PREREKVİZİT FƏNN** – *Ped.* Öyrənilən fənnin mənimsənilməsi üçün tədrisi, ilk növbədə, zəruri olan fənlər nəzərdə tutulur.

**PREROQATİV** *(lat.praerogativa) – Hüq.* Hansısa dövlət orqanına, yaxud vəzifəli şəxsə mənsub olan müstəsna hüquq.

**PRESSA** *(lat.d.presso-sıxıram, təzyiq edirəm)* **–** *Jur.* Bütün media yəni, kütləvi informasiya vasitələri – qəzetlər, jurnallar, digər dövri nəşrlər və jurnalistlər nəzərdə tutulur.

**PRESS-RELİZ** *(lat.d.presso-sıxıram, təzyiq edirəm; ing.d. release-buraxılış)* **–** *Jur.* Beynəlxalq qurumların, cəmiyyətdə fəaliyyət göstərən müxtəlif orqanların, dövlət və onun təşkilatlarının kütləvi informasiya vasitələrinə, media nümayəndələrinə təcili yayımlanmaq üçün ünvanlandırdığı yazılı məlumat və təcili nəşr üçün material olan xüsusi bülletenlər.

**PRESS-TUR** *(lat.d.presso-sıxıram, təzyiq edirəm; lat.d. torno-ümumiləşdirirəm) – Jur.* Müəyyən bölgədə baş verən hadisələrə, qəbul edilmiş layihəyə diqqəti cəlb etmək, istehsal olunan müəssisənin məhsulunu tanıtmaq məqsədilə jurnalistlər üçün təşkil edilmiş tədbirlər sırası.

**PRETZEL –** *İnf.* Apple klaviaturalarında olan komanda klavişinin ayaması. Simvol öz adını populyar məzə olan quru, duzlu *pretzeldən* alıb.
**PREYSKURANT** – *İqt.* Məhsul, əmtəə, xidmət qiymətlərinin siyahısı, məlumat kitabı.
**PREZENTANT** – *İqt.* Vekseli təqdim edən.
**PRİMA –** *İqt.* Veksel tədavülündə köçürmə vekselinin ilk nüsxəsini belə adlandırırlar. Onun üzərində belə bir qeyd edilir: "Əgər ikinci və üçüncü nüsxə üzrə ödəniş olmayıbsa, əsl birinci üzrə ödəyir".
**PROKSİ –** *Hüq.* Başqasının adından fəaliyyət göstərməyə səlahiyyəti olan kimsə.
**PROLONQASİYA** – *İqt.* Müqavilədə nəzərdə tutulan müddətin uzadılması; borc müddətinin uzaldılması.
**PROMOUŞN** *(lat.d.pramotio-promavere-irəlilətmək)* – *İqt.* Yeni malların yayılması və tanıdılması, o cümlədən sənət nümunəsinin, yaradıcılıq məhsulunun tanıdılması üçün keçirilən müxtəlif növ marketinq tədbirləri kompleksi.
**PROSEDURAL BİLİK –** *Ped.* Hər hansı fənn üzrə mühüm vərdiş və proseslər. Bu zaman uşağın fəaliyyəti və yaradıcılığı öndə dayanır. Prosedural bilik hər hansı fənn və ya bilik sahəsində fəaliyyətin icrasına kömək edən prosedur qaydaları əhatə edən biliklərdir. Bunların sırasına tədqiqat, araşdırma, tətbiqetmə metod və texnikaları, alqoritmlər, xüsusi metodologiyalar daxildir.
**PROSESSİNQ –** *İqt.* Aparılan ödəniş sistemində, əməliyyatlar haqqında informasiyaların mübadiləsi və işlənilməsi. Mərkəzi və regional şirkətlərin ödəniş sistemləri həyata keçirilir.
**PROTEKSİONİZM** *(lat.d.protectio-müdafiə, hamilik)* – *Pol.* Cəmiyyətdə hər hansı şəxsin, qrupun, imtiyazlı şəxslə-

rin, səlahiyyət sahiblərinin, əsasən, hakimiyyət tərəfindən məqsədli müdafiəsi.

**PROVAYDER** (*ing.provayder-təchiz edən*) **–** ***İnf.*** Hər bir ölkənin vətəndaşlarını internetə girişlə təmin edən və onunla əlaqədar zəruri kompleks məsələlərlə bağlı xidmət göstərən təşkilat.

**PSAMMOMA** (lat.d.pseudomuxoma) – *Tib.* Daxildən epiteli toxuması ilə örtülü olan boşluğa məhdud şəkildə selik toplanması və epiteli toxumasının qismən birləşdirici toxuma ilə əvəz olunması, bu şiş və ya infiltrat kimi qəbul edilə bilər. Toxumasında psammoz cisimciklər aşkar edilən şişlərin ümumi adı.

**PSEVDOMİKSOMA** *(lat.d.pseudomyxoma) (sin.: yalan milksoma) – Tib.* Daxildən epiteli toxuması ilə örtülü olan boşluğa məhdud şəkildə selik toplanması və epiteli toxumasının qismən birləşdirici toxuma ilə əvəz olunması; bu şiş və ya infiltrat kimi qəbul edilə bilər.

**PSİXOAKUSTİKA** – *Psixo.* Səsin insan tərəfindən qavranılmasının psixoloji və fizioloji xüsusiyyətlərini öyrənən elm sahəsidir.

**PSİXOMETRİYA** (*yun. psyche – ruh, metreo – ölçmək*) – *Psixo.* Bacarıq, qabiliyyət, tutum və şəxsi keyfiyyətlərin ölçülməsi üzrə psixoloji nəzəriyyə. Psixomotor fəaliyyət – qeyri-iradi hərəki fəaliyyətlər.

**PUL BONLARI –** *İqt.* Kredit xarakterli pul surroqatlarıdır. Pul bədəlləri (istiqraz, bon və s. kimi qiymətli kağızlar).

**PUNKTAT** *(lat.d.punktatum)* **–** *Tib.* Əsasən diaqnostik, az hallarda isə müalicə məqsədi ilə, punksiya yolu ilə götürülmüş az miqdarda toxuma və ya maye.

**PULSOKSİMETR –** *Tib.* Bu sadə və kifayət qədər ucuz cihaz saturasiyanı-nəfəsalmanın çatışmazlığını vaxtında tə-

yin etməyə yardım edir. Bu simptom pnevmoniyanın gizli inkişafından xəbər verə bilər. Barmağa taxılan pulsoksimetr dəridən qanın rəngini "görür" və buna əsaslanaraq qanın oksigenlə təmin olunmasını (buna elmdə "saturasiya" deyilir) təyin edir.

**PUNKTİR** *(alm.d.punktieren; lat.d.punctum-nöqtə) – Tex.* Sənədin bir-biri ilə əlaqəli olan elementlərini göstərmək üçün istifadə olunan, bir-birinə yaxın nöqtələrdən, yaxud ştrixlərdən, onların növbəli düzümündən ibarət qırıq-qırıq xətt.

**PUTHON** – *İnf.* Puthon sürətli işləməyə və sistemləri daha səmərəli şəkildə inteqrasiya etməyə imkan verən proqramlaşdırma dilidir. Guido van Rossum tərəfindən yaradılmış və ilk dəfə Python-un dizayn fəlsəfəsi nəzərə çarpan boşluqlardan istifadə etməklə kodun oxunaqlı olmasını vurğulayır.

## -R-

**RABDOMİOMA** *(lat.d.rhabdomyoma) (radbomio+oma) – Tib.* Eninəzolaqlı əzələ toxumasından inkişaf edən xoşxassəli şiş.

**RADİOBİOLOGİYA** *(radio+biologiya) – Bio.* Biologiya elminin bir sahəsi olub, ionlaşdırıcı şüalanmanın canlı orqanizmlərə təsirini öyrənir.

**RADİOCƏRRAHLIQ –** *Tib.* Bədxassəli şişlərin şüa və cərrahi müalicəsindən ibarət olan kombinəedilmiş müalicə üsulu.

**RADİOEPİTELİT** – *Tib.* İonlaşdırıcı şüaların təsirindən selikli qişanın kəskin nəzərə çarpan hiperemiya, şişkinlik və eroziya əmələ gəlməsi kimi əlamətlərlə səciyyələnən zədələnməsi.

**RADİOQRAM** *radiologiyada (radio+yun.d.qramma yazma) – Tib.* Radiofarmasevtik preparat yeridildikdən sonra

tədqiq olunan orqan və ya toxumanın intensiv şüalanması zamanı şüanın paylanması, parçalanması və xaric olmasından asılı olaraq baş verən bütün dəyişiklikləri əks etdirən əyri.

**RADİOQRAFİYA** – *Tib.* Orqanizmə radioformasevtik preparat yeridildikdən sonra tədqiq olunan orqan və ya toxumaların intensiv şüalanması zamanı baş verən dəyişiklərin qrafik yazılmasına əsaslanan müayinə üsullarının ümumi adı.

**RADİOREZERİSTENTİK** *(radio+rezistentlik, davamlılıq) (sin.: radiodavamlılıq, radiasiya davamlılığı) – Tib.* Orqanizmin, onun orqanlarının, toxumalarının və hüceyrələrinin ionlaşdırıcı şüaların təsirinə qarşı davamlılığı.

**RADİOHƏSSASLIQ** – *Tib.* Orqanizmin, onun orqan toxuma və hüceyrələrinin ionlaşdırıcı şüaların təsirinə qarşı həssaslığı.

**RADİOLOQ** – *Tib.* Tibbi radiologiya və şüa müalicəsi sahəsində hazırlıq keçmiş həkim-mütəxəssis.

**RADİOPUNKTURA** – *Tib.* Toxumadaxili qammaterapiya üsulu olub, bu zaman içərisində radioaktiv maddə olan xüsusi iynələrdən istifadə edilir.

**RADİOTOKSİNLƏR** – *Tib.* Orqanizmdə ionlaşdırıcı şüaların təsiri nəticəsində əmələ gələn xırdamolekullu bioloji-fəal maddələr.

**RANDEVU** (fran. rendez-vous – bəlli bir yer) – *İqt.* Bəlli bir yerdə görüş təşkil etmə.

**RANÇO** (*isp. rancho – bir yerdə yemək yeyən dəstə*) – *İqt.* Malikanə, latifundiyanın bir forması. Rançolar Latın Amerikası ilə ABŞ-da geniş yayılıb. Onlar əhalinin, əsasən, heyvandarlıqla məşğul olduqları böyük fermalardır.

**REDİS** – *İnf.* Redis açıq kodlu (BSD lisenziyalı), verilənlər bazası, keş yaddaş və məlumat brokeri (vasitəçi) kimi

istifadə edilən, yaddaşda verilənlər strukturu saxlayan anbardır. O, sətir, siyahılar, çoxluqlar, diapazon sorğulu sıralanmış çoxluqlar, bit təsvirləri hiperloqlar, radius sorğuları və axınları ilə coğrafi indekslər kimi verilənlər strukturunu dəstəkləyir.

**REDUX** – *İnf.* Kompüterdə Redux tətbiqi proqramın vəziyyətini idarə etmək üçün açıq ilkin kodlu JavaScript kitabxanasıdır. Redux daha çox React və ya Angular kimi kitabxanalarda istifadəçi interfeysi yaratmaq üçün istifadə olunur.

**REFLEKSİV SÖHBƏT** – *Psixo.* Baş vermiş hadisələrlə bağlı xatırlatma məqsədi ilə təşkil edilən dialoq.

**REİNTEQRASİYA** *(lat.d. re təkrarlanan, yeniləşən hərəkətə işarə edən ön şəkilçi, inteqratio bərpa olunma, tamamlanma)* – 1.*Tib.* Vahid bütöv hissənin yeniləşməsi yenidən yaranması; 2. *Tib.* Əvvəllər parçalanmış (hissələrə dağılmış) nəyinsə təkrarən birləşməsi.

**REJEKT-KASSET** – *İqt.* Pulların tullanması üçün nəzərdə tutulmuş rejekt-kasset. Bura bu və ya digər səbəbdən dispenserin çıxdaş etdiyi banknotlar daxil olur. Bu cırılmış, pozulmuş, bir-birinə yapışmış və ya kənara qatlanmış banknotlardır. Pulun verilməsi zamanı işıq sönə və ya başqa bir pozuntu ola bilər – belə halda da pul məbləği rejekt-kassetə atılır.

**REKLAM YAYICISI –** *Jur.* Müxtəlif məhsulların, avadanlıqların reklamının müxtəlif üsul və vasitələrlə fiziki, yaxud hüquqi şəxs tərəfindən yayımlanması.

**REKLAMVERİCİ** – *Jur.* Müxtəlif istehsal məhsullarının reklamının yaradılması, yaxud da yayımını sifariş edən, maliyyələşdirən fiziki və ya hüquqi şəxs.

**REKVİZİT** *(lat.d.requisitum-tələb olunan)* – 1. *Jur.* Yazılı informasiya sorğusunda sənədin etibarlı sayılması üçün

hüququ baxımdan zəruri olan məlumatlar toplusu, mütləq göstərilməli olan məlumatlar. 2. *Jur.* Kino və səhnə çəkilişində səhnədə tələb olunan zəruri əşyalar.
**RENEQAT** *(lat.d.renegare dönmək, inkar etmək) – Pol.* Özünün əqidəsindən dönən insan, dönük, xəyanətkar.
**RENOME** *(fr.d. renommüe) – Dip.* Kiminsə haqqında müəyyən olunmuş müsbət rəy.
**REPARASİYA** *(lat.d.reparatio bərpa olunma) – Dip.* Beynəlxalq hüquq subyektinin, onun törətdiyi beynəlxalq hüququ pozuntuları nəticəsində maddi məsuliyyətin bir forması.
**REPATRİASİYA** (*lat. Repatriatio-vətənə qayıdış*) – *Dip.* Hərbi əməliyyatlar, digər məcburi şərtlər nəticəsində xarici dövlətin ərazisinə düşmüş şəxsin vətəndaşı olduğu, daimi yaşadığı, yaxud doğulduğu ölkəyə qayıtması.
**REPRODUKTİV METOD** – *Ped.* Bu metodda bilik dəfələrlə çalışmalar həlli vasitəsilə təkrar edilir və şagirdlərə bu formada mənimsədilir. Bu metodlar sayəsində şagirdlər klaviatura ilə işi öyrənir, kompüter vərdişlərinə yiyələnir.
**RETROSPEKTİV** *(lat.d.retrospicere –arxaya baxmaq) – Pol.* Keçmişə yönəldilmiş, keçmişə baxılmasına həsr olunmuş .
**RESEL** – *Tex.* Təsvirlərin analizində istifadə edilən anlayışdır, təsvir və ya həcmin faktiki fəza görüntüsünü təsvir edir. Təsvirdə olan resellərin sayı həmişə bu təsviri təşkil edən piksellərin və ya voksellərin sayından az və ya bərabər olacaq.
**RESURS MƏRKƏZİ** – *Ped.* Müəllim və şagirdlərdə müstəqil öyrənmək və informasiya mənbələri ilə işləmək bacarığını formalaşdırmaq məqsədilə yaradılmış informasiya sistemi.

**RETENSİYASİYA** *(lat.d.re-təkrar;lat.d.translatio-ötürmək, veriliş)* – *Jur.* Verilişlərə teleradio yayımçısının təhvil verdiyi proqramların dəyişdirilmədən qəbulu və eyni ilə yayımlanması.

**RETRANSLYATOR** *(lat.d.re-təkrar;lat.d.translatio-ötürmək, veriliş)* – *Jur.* Verilişlərin yayımlanmasını təmin edən avadanlıq.

**RETUŞ** *(fr.d.retouce-toxunmaq)* – *Jur.* Poliqrafiyada fotoşəkillərin orijinallarının bərpası üçün onların yenidən işlənməsi üsulu.

**REVERBERASİYA** – *Jur.* Dəfələrlə əks olunması zamanı səsin intensivliyinin tədricən azalması prosesi. Reverberasiya hadisəsi bir səs mənbəyindən olan müxtəlif exo-siqnalların superpozisiyasından ibarətdir. Bəzən *reverberatorların* köməyi ilə bu effektin imitasiyasına da reverberasiya deyirlər. Nitqin, musiqinin yazılması, müxtəlif küy effektlərinin yaradılması zamanı süni reverberasiyanın istifadə edilməsi audiosiqnalların ümumi emalının tərkib hissəsidir.

**RƏHBƏRLİK ÜSLUBU** – *Ped.* Rəhbərin (pedaqoqun) öz tabeçiliyində olanlara təsir sistemi, hər bir rəhbərə xas olan metodlar və fəndlər sistemi.

**RƏQƏMLİ DİSPLEY** – *Tex.* Yuma temperaturunu, sıxma zamanı barabanın dövlət sayını, yumağa başlamadan gecikmə müddətini və yumanın sonuna qalan vaxtı rəngli təsvirdə göstərir. Elektron idarəetməyə malik paltaryuyan maşınlar barabanın yüklənmə ölçüsünü müəyyənləşdirir.

**RƏQƏMSAL** – *Tex.* Hər hansı bir mikroprosessor sisteminin əsasında 0 və 1-dən ibarət yalnız ikili say sistemində ədədləri ayırd edə bilən bir mikroprosessor durur. İkili say sistemində ədədlər ikili saylı rəqəmlərlə yazılır. Bu rəqəmli

simvolların ardıcıllığından ibarət və tərkib hissələrinə bölünə bilən siqnallarla işləyən texnologiya.
**RƏQƏMSAL ÇAP –** *Tex.* Rəqəmsal texnologiyalar əsasında işləyən elektron avadanlıqla materialların tozlandırma və ya termik təsir üsulları ilə çap olunma prosesi.
**RƏQƏMSAL DİPLOMATİYA** (ing. *Digital diplomacy; Digiplomacy*) – *Dip.* İnternetin və yeni məlumat texnologiyalarının köməyi ilə diplomatik məqsədlərinə çatmaq.
**RƏQƏMSAL FİLTR** – 1) *Tex.* Təhrif olunmuş siqnalların bərpa edilməsi 2) *Tex.* Verilmiş siqnalda müəyyən tezlik diapazonuna aid komponentləri ayırmaq və bu diapazona aid olmayanları buraxmamaq üçün istifadə edilirlər. Bu problemləri analoq filtrlərin köməyi ilə də həll etmək olar, lakin onların effektivliyi xeyli dərəcədə aşağıdır. Onları aşağı tezlik filtrlərə, yuxarı tezlik filtrlərə, zolaq filtrlərə və zolaq-bağlayan filtrlərə (onları *rejektor* və ya *tıxac filtrləri* də adlandırırlar) ayırırlar.
**RƏQƏMSAL MƏLUMAT**– *Tex.* Mikroprosessor sistemi rəqəmsal kodları ardıcıllıqla təmsil edən rəqəmsal informasiya.
**RƏQƏMSAL SİQNAL** – *Tex.* Zamana görə diskret dəyişən ədədi qiymətlər alan siqnal. Rəqəmsal siqnal kvantlanmış diskret siqnaldır.
**RƏQƏMSAL ŞƏBƏKƏ –** *Tex.* Rəqəmsal texnologiya əsasında abonentlər arasında əlaqə yaradan, şəbəkədə olan bütün informasiyanın rəqəmsal formatda istifadəsinə imkan verən kommunikasiya vasitəsi.
**RƏQƏMSAL TEXNOLOGİYA –** *Jur.* İnformasiyanın təhrif olunmasının qarşısını almaq və zədələnmiş sənədləri yüksək keyfiyyətdə bərpasına imkan verən vəsaitlərin məcmusu.

**RƏQƏMSAL TELEVİZİYA –** *Tex.* Məlumatların ötürülməsində rəqəmli simvollardan istifadə edilməklə kodlar şəklində uzaq məsafəyə ötürülməsini təmin edən texnologiya sistemi.

**RƏQƏMSAL YAYIM** – *Jur.* Rəqəmli simvollardan ibarət səs siqnallarının və təsvirin müəyyən məsafəyə ötürülməsi prosesi.

**RƏQƏMSAL YAZI** – *Tex.* İnformasiyanın rəqəmsal simvollardan ibarət ardıcıl kodlar vasitəsilə qeydə alınması üsulu. Rəqəmsal yazı üçün sensor kağız hazırlanıb

**RƏSMİ KURİKULUM** – *Ped.* Rəsmi məktəb sistemində formalaşmış və biliklərin tədrisi ilə əlaqədar olan xüsusi kurikuluma rəsmi sənədlər, hər bir fənnə ayrılan vaxt, dərs planları, hər bir fənnin qiymətləndirilməsi. Rəsmi məktəb sistemində biliklərin tədrisi ilə əlaqədar olan xüsusi bir kurikulum növü.

**RİKSDAQ** *(isveç d. Riksdag) – Dip.* İsveçin birpalatalı parlamentinin adı.

**RİMLEND** (*ing.d.Rimland-rim nazik dairə, land torpaq, ərazi) – Pol.* İlk dəfə N.Spaykmen tərəfindən işlədilmiş geosiyasi termin. R.Qərbi və Mərkəzi Avropanı, Türkiyəni, İranı, Səudiyyə Ərəbistanını, İraqı, Pakistanı, Hindistanı, Uzaq Şərq ölkələrini və Çini əhatə edir.

**ROBDOMİO** – *Tib.* Mürəkkəb sözlərin tərkib hissəsi kimi "eninəzolaqlı əzələ toxumasına aid" mənasında işlədilir.

**ROLLU OYUNLAR** – *Ped.* Şagirdlər öz biliklərini nümayiş etdirməklə yanaşı, həm də vəkil, prokuror, siyasi partiya üzvü və digər rolları da ifa etməklə keçilən dərslər. Bu prosesdə dərslər uşaqlarda böyük maraq yaradır.

**ROTASİYA** *(lat.d. rotatio-dövrü hərəkət) – Pol.* Seçkili orqanın tərkibinin, yaxud da strukturun elementlərinin ardıcıl, mərhələli yeniləşməsi.

**ROTASİYALI ÜÇLÜKLƏR** – *Pol.* Hər hansı vəzifənin, qurumun tərkibinin növbə ilə əvəzlənməsi.
**ROYALTİ** – *İqt.* Hazır məhsulun buraxılışına başlama anından, lisenziya müqaviləsinin qüvvədə olduğu hər ilin sonunda ödənilən müəllif qonorarı.

## -S-

**SABVUFER** – *İnf.* Aşağı tezlikli səsləri çıxaran akustik sistem. Saxlanılmış informasiya fraqmenti.
**SALDO BALANSI** – *İqt.* Müəyyən tarixdə mühasibat uçotu hesablarının qalığı (saldo) olan mühasibat balansıdır.
**SALZA** (*ital. salsa – şor palçıq*) – *Coğ.* Neft-qaz yataqları sahəsindəki palçıq vulkanlarından fərqli olaraq və s. mənşəyinə görə maqmatizmlə əlaqədar olan, fəaliyyətdə və ya sönməkdə olan vulkanların yamaclarında, ətəklərində formalaşan *palçıq vulkanı*. Onların əsas xüsusiyyəti kraterindən palçıqla yanaşı, yüksək temperaturlu qaz və su buxarının da püskürməsi, qaz tərkibində metanın olmasıdır.
**SANİTAYZER** – *Tib.* Əllərin dezinfeksiyası üçün istifadə edilən dəri antiseptik vasitə.
**SAPROPEL** (*yun. sapros – çürük + yun. pelos – lil*) – *Coğ.* Göl və laqunların dibində qum, palçıq qarışıq çürük plankton və bentos qalıqlarından ibarət lil. Bu qalıqlar getdikcə bərkiyərək faydalı qazıntıya (sapropelit kömürü) çevrilir.
**SARI ZONA** – *Tib.* Ölkə və ya regionda koronavirus infeksiya xəstəliyinin yayılmasının orta səviyyədə (digərləri ilə müqayisədə) olması.
**SARI JURNALİSTİKA** – *Jur.* Sisirdilmiş iddiaları və ya şayiələri vurğulayan yazı.

**SATELLİT (***lat. d. satelles-yol yoldaşı***)** – 1.*İnf.* Əsas saytın təbliğinə yönəlmiş köməkçi sayt. 2. Televiziya, radio siqnallarının daha yüksək ötürülməsinə xidmət edən peyk.
**SATURASİYA** – *Tib.* Orqanizmin maye və toxumalarının qazla, əsas etibarilə azotla doyması .
**SAVADLANMA NORMASI** – *Ped.* Hər kəsin öz ana dilinə yaxşı bələd olması, yazılı və şifahi bacarıqlara sahib olması.
**SBİOPOTRİT** *(lat.bi-iki, yun.patris-vətən) – Pol.* Bir şəxsin eyni zamanda bir çox dövlətin vətəndaşlığını qəbul etməsi.
**SEANS** – *İnf.* Proqramın işlədiyi müddət. Kompüterlərin tipik interaktiv proqramları üçün seans proqramın giriş verilənlərini qəbul etməsi, informasiyanı emal etməsi və istifadəçinin komandalarına reaksiya verməsi üçün gərəkli olan zamandır.
**SEANS SƏVİYYƏSİ** – *İnf.* Kompüterlərarası rabitənin standartını müəyyənləşdirən ISO/OSI modelinin yeddi səviyyəsindən beşincisi.
**SEKTOR** – *İnf.* Diskdə verilənlərin saxlandığı sahənin bir hissəsi.
**SEKVESRT –** *İqt.* Dövlət büdcəsi və yerli büdcələrin gəlirləri yerinə yetirilmədikdə, müdafiə olunmuş xərc maddələri istisna olmaqla, büdcə ilinin qalan ayları üzrə xərclərin müəyyən olunmuş qaydada ixtisarı.
**SELLİNQ** – *İqt.* Şəxsin özünə məxsus əmlak hüququnu ixtisaslaşmış şirkətə - sellinq firmasına müəyyən məbləğə satması ilə bağlı maliyyə əməliyyatı.
**SEMAFOR** – *İnf.* Semafor mikroprosessorun vaxtı və giriş-çıxış portları kimi kritik resurslardan istifadəyə görə rəqabət aparan proseslərdə nizamı saxlamağa kömək edən

proqramlaşdırmada paylanmış sistem resurslarına erişimi idarə etmək üçün istifadə olunan siqnal. Onun proqramlaşdırmadakı mənası götürüldüyü hərbi-dəniz donanmasındakı mənasından önəmli dərəcədə fərqlənsə də, proqram semaforunun əsas vəzifəsi dolaşıqlıqların və yanlışlıqların qabağını alan siqnaldır.
**SENSOR EKRAN** – *İnf.* İstifadəçiyə barmağı, yaxud qələmlə monitorun ekranındakı simgələrə və ya qrafik obyektlərə toxunmaqla kompüterlə qarşılıqlı əlaqədə olmağa imkan verən giriş qurğusu.
**SENTİMENT ANALİZ** – *İnf.* İnternetdən, əsasən sosial şəbəkələrdən və ona bənzər mənbələrdən subyektiv informasiyaların təhlili və əldə edilməsi üçün təbii dilin emalı (NLP –Təbii dilin emalı), kompüter linqvistikası və mətnlərin analizi vasitəsilə insanların fikrini təyin edən verilənlərin intellektual analiz tipidir. Analiz edilən məlumatlar, müəyyən məhsullara, insanlara və ya ideyalara olan münasibətə görə geniş ictimaiyyətin əhval-ruhiyyəsini və reaksiyalarını kəmiyyətcə müəyyənləşdirir və məlumatın kontekst polyarlığını ziddiyyətini aşkar edir. Sentiment analiz rəylərin analizi kimi də məlumdur.
**SERVLET** – *İnf.* Java və ya Perl dilində yazılmış və veb-serverdə, yaxud tətbiqi proqramlar serverində yerinə yetirilən kiçik proqram. “Aplet” termininə analoji olaraq yaradılıb.
**SƏRBƏST (EKSTERNAT) TƏHSİL** – *Ped.* Yeni təhsil alma forması. Müxtəlif səbəblərdən ümumi təhsildən kənarda qalan şəxslərə təhsil almaq və ya təhsilalana ümumi təhsilin hər hansı bir pilləsini vaxtından əvvəl bitirmək hüququ verən təhsilalma forması.
**SƏS DETEKTORU** – *İnf.* Nitq aktivliyi detektorudur, bu blok giriş nitq siqnalında nitqi pauzalardan ayırır və pauzalar növbəti analiz blokuna verilmir.

**SƏSLƏNDİRMƏ** – *Jur.* Televiziyada əvvəlcədən yazılmış səsin texniki vasitələr hesabına canlandırılması.
**SƏSYAZMA** – 1.*Hüq.* Müəyyən şəxsləri təhdid etmək üçün onun səsinin gizli yazılması. 2. *Jur.* Müxtəlif üsullarla səsin kasetlərə, disklərə köçürülərək sonradan onun səsləndirilməsi.
**SƏTHİ ETİBARLILIQ** – *Ped.* Əsaslandırılmamış səviyyədə olan etibarlılıq dərəcəsi.
**SƏVİYYƏ TANIDICILARI** – *Ped.* Təhsil proqramı daxilində təyin edilmiş səviyyələrin hər birində tələbələrə qarşı irəli sürülən tələblər, yaxud onunla bağlı bir bələdçidir. Hər hansı təhsil proqramının konkret mərhələsində nəzərdə tutulan öyrənmənin səviyyəsini əks etdirən və həcminin göstərilməsini təmin edən açıqlama.
**SİÇAN ALTLIĞI** – *İnf.* Siçanın sürüşmədən hərəkətini təmin edən "döşəkçə".
**SİÇAN TƏLƏSİ** – *İnf.* Javaskript, yaxud başqa skriptli dildə proqramlaşdırılmış, ancaq brauzerin "geri" düyməsinin nəzərdə tutulduğu kimi işləmədiyi veb-səhifə.
**SİÇANIN GÖSTƏRİCİSİ** – *İnf.* Siçan hərəkət etdikcə öz mövqeyini dəyişən ekran interfeysi elementi.
**SİÇANIN HƏSSASLIĞI** – *İnf.* Siçanın hərəkəti ilə kursorun ekranda hərəkəti arasındakı əlaqənin xarakteristikası; həssaslıq böyük olduqda siçanın səthdə yerdəyişmə vahidinə göstəricinin ekranda daha böyük yerdəyişməsi uyğun olur.
**SİMGƏ** – *Tex.* Qrafik mühitdə ekranda sistemin obyektini təmsil edən və həmin obyektin idarə edilməsinə imkan verən kiçik qrafik görüntü.
**SİMULYASİYA** – *Dip.* Bir şeyi yalandan etmək, göstərmək, oxşatmaq. Aldatmaq məqsədi ilə bir şey haqqında yanlış təsəvvür yaratmaq.

**SİMULYAKR** (*lat. simulacrum – bənzəmə, oxşama) – Jur.* Reallıqda orijinalı olmayan “surət” mənasındadır. Göstərilən obyektin reallıqda olmayan nişanəsidir, reallığın yoxluğunu maskalamaq bacarığı, reallıqda mümkün olmayanın təsviri. Kütləvi informasiya vasitələri simulyakrların ən zəngin mənbərəlindən biri olmaqla, davranış stereotiplərinin yaradıcıları və şöhrətləndiriciləri, kütləvi mədəniyyət rəmzlərinin aktualizatoru rolunda çıxış edir.
**SİNEKLİZ** (*yun. syn – birlikdə + yun. enklisis – əyilmə*) – *Coğ.* Əsasən, qədim *platforma* sahələrində əyilmiş ərazilər. S. daha çox ovalıqlara uyğun gəlir, anteklizdən fərqli olaraq qalın çökmə süxurlar qatının olması (3-4 km-ə qədər) ilə səciyyələnir.
**SİNEKOLOGİYA** *(yun. syn – birlikdə + yun. oikos – məkan, ev + yun. logos – elm, təlim) – Bio.* Heyvanların, bitkilərin, mikroorqanizmlərin çoxnövlü vəhdətinin həyat və fəaliyyətini öyrənən elm sahəsi, ekologiyanın bir bölməsi.
**SİNERGİYA** *(yun.sinerji-bir məna verən) – İqt.* Eyni vaxtda bir neçə məhsulun fərqli formatlarda üzə çıxarılması, həmin məhsulların satışına xidmət edilməsi üçün əsas şərt. Sinergiya zamanı bir neçə sənaye birləşib ümumi gəliri artırmaq üçün səy göstərir. Məsələn, kütləvi alış-veriş üçün endirim təklif edən saytlar müştərilərini cəlb etmək üçün üçüncü tərəf məhsullarına və xidmətlərinə etibar edir və bu şirkətlərin satışları ənənəvi pərakəndə istehlak hesabına əldə edə bilmədikləri bir sürətlə artır.
**SİNİF EKVİVALENTİ** – *Ped.* Siniflə eyniqiymətli və bərabərqüvvəli olan təlim məkanı.
**SİNKLİNAL** (*yun. synklino – əyilirəm*) – *Coğ.* Dağ süxurlarında qatların aşağı əyilərək çökəklik yaradan qırışıqlıq. S.-lar, əsasən, geosinklinal sahələr üzərində yerləşir, sinek-

lizlərdən fərqli olaraq seysmik cəhətdən aktiv olur. Onlar daha çox ovalıqlara uyğun gəlir.

**SİNKLİNORİUM** (yun. *synklino* – əyilirəm + *oros* – dağ) – *Coğ.* Daha kiçik *sinklinal* və *antiklinal* qırışıqlıqlarla mürəkkəbləşmiş, bütövlükdə isə sinklinal xarakter daşıyan ərazi. S.-lar, adətən, geosinklinallarda çökəkləri dolduran süxurların deformasiyası nəticəsində əmələ gəlir, mərkəzi hissədə səthin ümumi enməsi ilə səciyyələnir.

**SİNOVAK** – *Tib.* Çində hazırlanmış dərman. Yeni koronavirusun qarşısını almaq üçün, yəni epidemiyaya qarşı dərman preparatlarından biri.

**SİNTOİZM** (*yap. sinto – ilahələrin yolu*) – *İlh.* Yaponiyada milli din. S.-in əsasını təbiət qüvvələrinə və əcdadların ruhlarına pərəstiş təşkil edir.

**SİROKKO** (*ital. scirocco < ər. şərq sözündən*) – *Coğ.* Aralıq dənizi hövzəsində, əsasən, Cənubi Avropada və Şimali Afrika sahillərində müşahidə edilən isti, quru və tozlu cənub-şərq küləyi. Adətən, iki-üç gün əsir, günortadan sonra güclənir, gecə zəifləyir. S. özü ilə tropik hava gətirir.

**SİTUATİV MODELLƏŞDİRMƏ** – *Dilç.* İnsanın nitq fəaliyyətinin elə modelidir ki, o, müxtəlif semantik komponentlər yığımının köməyi ilə predmetin eyni işarəli təsvirlərini aparma üsuludur.

**SİTUATİV TƏQDİMAT** – *Pol.* Bilavasitə hər hansı situasiyanı əks etdirən təqdimat.

**SİYASİ İMİC** *(ing.d. image obraz) – Pol.* Siyasi liderin və ya partiya xadiminin ictimai rəydə formalaşmış obrazı. Siyasi imic öz-özünə, hər-hansı bir insanın və ya qrupun köməyi olmadan, eləcə də imicin yaradılması üzrə mütəxəssislərin köməyi ilə yaradıla bilər.

**SKREB** (*ing. scrub – kol*) – *Coğ.* Avstraliyanın quraqlıq rayonlarında həmişəyaşıl kol bitkilərindən, xırda evkalipt və akasiya ağaclarından ibarət meşə.
**SKREMBLER** – *Tex.* Skremblerləməni yerinə yetirən qurğu. *"Skremblerləmə"* ötürülmə sürətini dəyişmədən təsadüfi ardıcıllıq almaq məqsədilə siqnallar ardıcıllığının dəyişdirilməsidir.
**SKREPA** – *Dip.* Sənədə bənd edilmiş imza.
**SKRİNİNQ** – *İqt.* Gələcək əməkdaş şirkətin, şəxsin kredit qabiliyyətinin etibarlılıq səviyyəsinin müəyyən edilməsi, yoxlanılması.
**SMOQ** (*ing. smog, smoke – tüstü + ing. fog – duman)* – *Geo.* Böyük şəhərlərdə və sənaye şəhərlərində çox çirklənmiş dumanlı hava. S. görmə dərəcəsini azaldır, metalların və qurğuların korroziyasını gücləndirir, insanın sağlamlığına mənfi təsir göstərir.
**SOLİFLÜKSİYA** (*lat. solum – torpaq + lat. fluctio – axın) – Coğ.* Su ilə ifrat rütubətlənmiş torpağın və nazik qruntun qatı plastik kütlə halında ağırlıq qüvvəsinin təsiri altında yamac boyunca axması. S. yamacın mailliyi 3°-dən artıq olduqda nəzərəçarpacaq dərəcədə müşahidə edilir. S., əsasən, qütb ölkələrində, çoxillik və ya fəsli donuşluq sahələrində, habelə yüksək dağlıq qurşaqda müşahidə edilərək S. terrasları formalarının yaranmasına səbəb olur.
**SOLYAR İQLİM** (*lat. solaris – günəşli*) – *Coğ.* Günəş radiasiyasının Yer səthi yaxınlığında həqiqi paylanması S.İ.-dən kəskin surətdə fərqlənən, günəşin meyillilik dərəcəsindən və yerləşdiyi enlikdən asılı olaraq günəş radiasiyasının Yerə çatan və paylanan miqdarının nəzəri cəhətdən hesablanması əsasında müəyyənləşdirilən iqlim; günəşli iqlim.
**SOLYAR TEMPERATUR** (*lat. solaris – günəşli + lat. temperatura – normal hal*) – *Coğ.* Coğrafi təbəqədə enlik-

lər üzrə S.T.-la faktik temperatur arasında fərqlərin müəyyənləşdirilməsi üçün, ancaq günəş radiasiyasının yekcins səth tərəfindən udulması və şüalandırılması ilə müəyyən edilən hava temperaturunun enliklər üzrə nəzəri paylanması.

**SOSİAL AYRI-SEÇKİLİK** – *Pol.* Əhalinin milli və irqi qruplarına, məktəb daxilində müəllim və şagirdlərə münasibətdə ayrı-seçkilik siyasəti.

**SOSİAL BACARIQLAR** – *Pol.* Həyat fəaliyyəti nəticəsində qazanılmış işin icrası üçün vacib olan bacarıqlar.

**SOSİAL DƏYƏRLƏR** – *Pol.* Cəmiyyətin sınaqdan çıxmış və təcrübədə istifadə olunan, insanlar tərəfindən həyat fəaliyyətində müraciət olunan qaydalar məcmusu.

**SOSİAL ƏDALƏTLİLİK** – *Pol.* Cəmiyyətdə hüquq bərabərliyinin təmin edilməsi.

**SOSİAL MƏSAFƏ** – *Tib.* Koronavirus infeksiyasının yayılmasının qarşısını almaq üçün rəsmən ÜST tərəfindən insanlar arasında məsafənin (adətən 1,5-2 metr) artırılmasını tövsiyə edən epidemiya əleyhinə tədbir.

**SOSİAL MEDİA** – *Jur.* İnsanlar arasında sosial ünsiyyət və paylaşma üçündür. Veb əsaslı texnologiyalardan istifadə etməklə ünsiyyəti interaktiv dialoqa çevirir. Virtual internet alətləri vasitəsilə sosial ünsiyyət yaratmaq və məlumatları paylaşma deməkdir. O, daha əlçatan və veb əsaslı texnologiyaladan istifadə etməklə ünsiyyəti interaktiv dialoqa çevirir. Sosial media vasitələrinə internet üzərindən yayımlanan informasiya saytları, sosial şəbəkələr, bloqlar, mikro bloqlar, ani ünsiyyət proqramları, forumlar daxildir.

**SOSİAL PATOLOGİYA** – *Tib.* İnsan orqanizminin normal fəaliyyətinə və inkişafına əngəl törədir, şəxsiyyətin düşkünləşməsinə gətirib çıxarır, fərdin və ya sosial qrupun daha geniş sosial birliklərlə və bütövlükdə cəmiyyətlə zid-

diyyətə girməsinə səbəb olur. Bu mənada buna qeyri-sağlam tələbat, iddia demək olar.

**SOSİAL ŞƏBƏKƏ** – *Jur.* Şəxslərin özləri tərəfindən sosial əlaqələrin qurulmasına xidmət edən onlayn mediaplatforma.

**SOSİAL TƏRBİYƏ** – *Pol.* İnsanın yaxın ictimai mühitlə münasibətdə məqsədyönlü tərbiyəsi (ailə, ədəbi-mənəvi, vətəndaş, hüquqi, dini və s.) ilə qarşılıqlı fəaliyyətidir. İnsanın müəyyən rollara, normativ qaydalara və sosial hadisələrə aktiv uyğunlaşması insanın sosiallaşmasında inkişaf prosesidir.

**SOSİAL YAYIM** – *Jur.* Dövlət orqanları tərəfindən icazə verilən əhali üçün pulsuz yayım.

**SOSİALLAŞMA** – *Ped.* Uşaqların cəmiyyətə uyğunlaşdırılmış şəkildə elə tərbiyə olunmasıdır ki, onlar böyüdükdə cəmiyyətə fayda gətirəcək şəxsiyyət ola bilsinlər və işdə, evdə, həmkarları, ailələri və dostları ilə qarşılıqlı hörmətə əsaslanan ünsiyyət qura bilsinlər.

**SOSİOMETRİK STATUS** – *Ped.* Fərdin qrupda tutduğu statusu və ona uyğun mövqeyi.

**SOSİOMETRİK TEST** – *Ped.* Müəyyən sahə üzrə bilik və bacarıqların, hər hansı işi icra etmək və ya peşəyə yararlılığın yoxlanılması.

**SOSİOMETRİYA** (*lat. sosietas – cəmiyyət və yun. metreo – ölçmək*) – *Psixo.* Hər hansı kollektiv və ya qrupdaxili şəxsiyyətlərarası münasibətlərin öyrənilməsi məqsədilə aparılan psixodiaqnostik metodlardan biri. Kiçik qrup üzrləri arasında şəxsi qarşılıqlı münasibətləri öyrənən üsullar məcmusu sosiometriya adlanır.

**SÖZ QƏFƏSİ** – *İnf.* Kompüterdə söz nişanları qrafın tillərinə və ya təpələrinə mənimsədilir. Akustik və linqvistik

modellərdə hər bir til ilə müəyyən nişan, hər bir təpə ilə zaman vəziyyəti əlaqələndirilir.

**SPAM** – *İqt.* Kommersiya və başqa məzmunlu reklamların, eləcə də digər növ məlumatların onları almaq arzusunda olmayan şəxslərə kütləvi göndərilməsi.

**SPAMÇI** – *İqt.* SPAM göndərən kimsə. Bütün internet cəmiyyəti *spamçılara* böyük nifrətlə yanaşır.

**SPİÇ** *(ing.d. speceh təntənəli siyasi nitq)* – *Dip.* Siyasi görüşlər zamanı təşkil edilən qonaqlıqda qısa təbrik nitqi.

**SPİÇRAYTER** – Dövlətin birinci şəxsinə nitq hazırlayan məmur.

**SPLAYN** – *İnf.* Kompüter qrafikasında ayrı-ayrı nöqtələrini yüksək hamarlılıq dərəcəsiylə bağlayan riyazi asılılıq əsasında hesablanmış əyri, yaxud səth.

**SPLİT** *(ing. split-bölmə)* – *İqt.* Büdcənin müəyyən parametrlər əsasında bölüşdürülməsi.

**SPLİT-TEST**– *İqt.* Müəyyən məhsulun reklamı üçün onun ən cəlbedici funksiyasını reklam edilməsi.

**SPLİT SİSTEM** – *Tex.* Freonun hərəkət etdiyi, istiliyi otaqdan küçəyə ötürən borularla birləşdirilən açıq və qapalı bölməyə malik kondisionerdir, split sistemlər bütün növ kondisionerlərin ən səmərəlisi hesab olunur.

**SPLİTTER** – *Tex.* Yüksək tezlikli kanalları bir-birindən ayırmaq və onların eyni anda bir xətdə işləməsini təmin etmək üçün nəzərdə tutulmuş qurğu.

**SPUTNİK** – *Tib.* Koronavirusa qarşı Rusiyada hazırlanmış dərman. Yeni koronoavirusun qarşısını almaq üçün, yəni epidemiyaya qarşı yeni dərman preparatlarından biri.

**STANDARTLAŞDIRILMIŞ TEST** – *Ped.* Şagirdlərin oxuma, yazma və riyazi biliklərini yoxlayan imtahan.

**STEK –** *Tex.* Operativ yaddaşda, adətən, prosedur və ya funksiyanın çağırılması zamanı dönüş ünvanının, eləcə də ona ötürülən parametrlərin, yaxud onlara istinadların yazıldığı hissə.
**STİLUİS –** *İnf.* Qrafik planşetin qələmə bənzəyən hissəsi.
**STORNO –** 1. *İqt.* Mənfi rəqəmlə mühasibat köçürməsinin tərtib edilməsi yolu ilə uçot registrlərində səhvlərin düzəldilməsi üçün qırmızı yazan qələmlə edilən mühasibat yazılışı. Uçot registrlərində yekun hesablanan zaman, qırmızı qələmlə yazılan rəqəm çıxılır; 2. *İqt.* Müəyyən hesabat tarixinə uzunmüddətli sığortanın qüvvədə olan müqaviləsinin sığorta portfelinin azalmasını xarakterizə göstərici.
**STORTİNQ** *(norv.d. Stortinq böyük şura) – Pol.* Norveçin ikipalatalı parlamenti.
**STRATOPAUZA** (*lat. stratum – lay, döşəmə + lat. pausa – dayanacaq, son) – Coğ.* Atmosferin təxminən 50-55 km hündürlüklərində yerləşən və stratosferi mezosferdən ayıran, qalınlığı 3-5 km olan qat. Stratosferdə temperatur yuxarı qalxdıqca yüksəlir və s.-da isə maksimuma çatır. S.-nın temperaturu 0°C-yə yaxındır.
**STRATOSFER** (*lat. stratum – lay, döşəmə + yun. sphaira – kürə) – Coğ.* Atmosferin troposferlə mezosfer qatları arasındakı təbəqəsi.
**STUDİYA** – 1. *İnş.* Hoteldə mətbəx güşəsi olan birotaqlı nömrə. 2. *İnc.* Rəssam və ya heykəltəraş emalatxanası. 3.*İnc.* Artist, rəssam, heykəltəraş hazırlayan məktəb .
**SUBBAKALAVR** – *Ped.* Orta ixtisas təhsili pilləsində məzunlara verilən peşə-ixtisas dərəcəsidir.
**SUBHESAB** – 1. *İqt.* Digər hesabın tərkibinə daxil olan hesab; 2. *İqt.* Bankların həmkarlar təşkilatları, idarələri və digər təşkilatarında, həmçinin əsas hesabları açılan yerdə bank idarələrinin rayon fəaliyyətinə daxilolmayan, yaşayış

məntəqələrində təsərrüfatdaxili hesabı olmayan müəssisələr, təsərrüfat təşkilatları və müəssisələrin, birliklərin banklarında açılan yardımçı hesab.

**SUBTENTORİAL** *(çadıraltı) şiş (lat.d. tumor subtentorialis) – Tib.* Beyincik çadırı altında yerləşən şiş.

**SUBYEKTİV TAPŞIRIQ** – *Ped.* Konkret şəxsin tərəfindən ünvanlanan tapşırıq.

**SUFFOZİYA** (*lat. suffosio – altını oyma*) – *Coğ.* Yeraltı suların süxurları arasındakı yumşaq xırda hissəcikləri yuyub aparması nəticəsində üstdə yerləşən qatın çökməsi və Yer səthində çökəklərin əmələ gəlməsi prosesi.

**SUFRAGİZM** *(ing.d. suffrage səsvermə hüququ) – Dip.* Seçkilərdə kişilərlə bərabər seçki hüququ qazanmaq uğrunda beynəlxalq qadın hərəkatı.

**SUKSESSİYA** (*lat. succesio – irsilik*) – *Coğ.* Müəyyən ərazinin öz bitki örtüyünü dəyişməsi, bir bitki qrupunun qanunauyğun surətdə digəri ilə əvəzlənməsi prosesi. S. təbii amillərin təsiri altında, yaxud antropogen təsir nəticəsində baş verə bilər; məsələn, karst gölünün formalaşmasından sonra ətraf ərazinin yaşıllaşması təbii, qurudulmuş bataqlığın yerində çəmən əmələ gəlməsi antropogen mənşəli S. hadisəsidir.

**SUMMATİV QIYMƏTLƏNDİRMƏ** – *Ped.* Təlim prosesində müəyyən mərhələlərə (tədris vahidinin, yarımilin sonunda) yekun vurmaqla, müvafiq məzmun standartlarına uyğun qiymətləndirmə standartları əsasında hazırlanmış vasitələrlə şagirdin nailiyyətini qiymətləndirmək məqsədilə aparılır. Rəsmi qiymətləndirmədir və nəticələri keçirildiyi tarixdə sinif jurnalında qeyd olunur.

**SUVAND** – *Tex.* Xırda çərtmələri olan tavlandırılmış metal tircikdir. Suvandlardan əyrixətli emalında və məmulatın təmizlənməsində istifadə olunur.

**SÜİT-OTEL** – *İnş.* Bütün otaqları yüksək kateqoriyalı nömrələr fonduna aid olan mehmanxana.

**SÜLB AXIM** – *Coğ.* Səthi axın sularının özü ilə yuyub apardığı torpaq, qum, digər mineral və üzvi hissəciklərdən ibarət asılı materiallar. S.A. miqdarı q, kq və tonla ölçülür. Səthi axın sularının tərkibindəki S.A.-ın miqdarı ərazidən yuyulan torpağın miqdarının göstəricisidir.

**SÜRƏT TESTİ** – *Ped.* Operativliyi qoyulmuş tezliyə uyğun cavablandırılan suallar.

**SÜRGÜ –** *Tex.* Qrafik istifadəçi interfeysinin obyekti. Adətən, üfüqi yerləşdirilən *sürgünün* göstəricisini hərəkət etdirməklə istifadəçi lazım olan qiyməti təyin edir.

**SÜZGƏC –** *İnf.* Standart və ya başqa giriş verilənlər selini oxuyan, onu müəyyən qaydada çevirən, sonra isə nəticələri standart çıxış selinə və ya göstərilmiş təyinat yerinə yazan proqram.

**SVOP (SWAP) SAZİŞİ –** *İqt.* Bir gündə bağlanmış eyni məbləğə iki müqabil konversiya əməliyyatlarından ibarət bank sazişi. Göstərilən sazişlərə görə əməliyyat təcili göndərilməlidir.

**SVOPİNQ –** 1.*İnf.* Kompüterdə bir elementin başqasıyla əvəzlənməsi prosesi. Kompüterdə *svopinq* o zaman baş verir ki, proqramın, yaxud verilənlərin ayrı-ayrı seqmentlərinin disklər arasında yeri dəyişir. 2.*İqt.* İqtisadiyyatda qiymətli kağızların uzunmüddətli sahibi olduqda ödənilməli olan vergilərdən yayınmaqdan ötrü qiymətli kağızların satqısı.

**SVOT TƏHLİLİ** – 1. *İqt.* Hər hansı bir məhsul, məkan, sənaye sahəsi və ya şəxs üzərində aparılan, bir layihənin və biznes təşəbbüsünün qiymətləndirilməsi üçün istifadə edilən təhlil. SVOT təhlildən marketoloqlar konkret olaraq şir-

kət vahidinin (brendin, məhsulun və ya məhsul kateqoriyasının) güclü, zəif tərəflərini, imkan və fürsətlərini çox sadə vizuallıqla rəhbərliyə təqdim etmək, yaxın və uzunmüddətli perspektivdə əsas inkişaf istiqamətlərini göstərə bilmək üçün istifadə edirlər. 2. Planlaşdırmada təhlil metodu.

## -Ş-

**ŞAGİRD QRUPLAŞMASI** – *Ped.* Sinif daxilində müəyyən məqsədləri əldə rəhbər tutmaqla müxtəlif qruplarda şagirdlərin birlik təşkil etməsi.

**ŞAGİRDYÖNÜMLÜ MƏKTƏB** – *Ped.* Şagirdlərin hərtərəfli inkişafına istiqamətlənmiş təhsil müəssisəsi.

**ŞAGİRDYÖNÜMLÜLÜK** – *Ped.* Uşaqların hüquqlarının qorunmasına, onların gələcəkdəki nailiyyətlərinə yönəlmiş təhsil.

**ŞARDİNQ** – *İnf.* Şardinq verilənlər bazasının bölünməsi növlərindən biridir, böyük verilənlər bazası "şard" adlanan daha kiçik, daha sürətli, daha asan idarə edilən hissələrə bölünür. Şard sözü bir tamın kiçik hissəsi deməkdir. Hər bir şard artıq yüklənməsini paylamaq üçün verilənlər bazası serverlərin ayrı-ayrı nüsxələrində saxlanılır.

**ŞELF** (*ing. shelf – taxça, dayazlıq*) – *Geo.* Geoloji cəhətdən materikin dənizə doğru davam edən, zəif meyilli düzənlik hissəsi.

**ŞELF BUZLAĞI** – *Geo.* Geniş, qalınlığı 300-350 m olan, materik buzundan ayrılan və həmin materik şelfində (materik dayazlığında) yerləşən nəhəng buz kütləsi. Ən böyük self buzlağı Antarktidada Ross adasında yerləşir. Ş.B. parçalandıqda ondan stolvarı aysberqlər əmələ gəlir.

**ŞELF DƏNİZİ** *(ing. shelf – dayazlıq*) – *Geo.* Self sahəsində materik dayazlığında yerləşən, dərinliyi 200 m-dən çox olmayan (nadir halda 400 m-ə qədər) dənizlər.

**ŞEYDER** – *İnf.* Şeyder (kölgə proqramı) videokartın emalı üçün nəzərdə tutulmuş kompüter proqramıdır. Şhader xüsusi proqramlaşdırma dillərindən birində tərtib edilir və təlimata görə GPU üçün kompilyasiya olunur. Shader çox geniş spektrdə effektləri yaratmaq üçün filmlərin son emalında, kompüter şəkillərində və video oyunlarda geniş istifadə olunur.

**ŞƏBƏKƏLƏRİN KONVERGENSİYASI** – *İnf.* Mütləq qaydada istənilən informasiyanı ötürmək imkanı yaradan analoq siqnalın rəqəmsal siqnala transformasiyası.

**ŞƏXSİYYƏTİN DEFORMASİYASI** – *Ped.* Daxili və xarici təsirlər nəticəsində hər hansı bir fərdin şəxsi mənəvi keyfiyyətlərinin sıradan çıxması. Pedaqoji prosesin tamlığı şəxsiyyətin ahəngdar inkişafının mühüm amilidir.

**ŞƏXSİYYƏTYÖNÜMLÜLÜK** – *Ped.* Uşaqlara bütöv bir şəxsiyyət kimi yanaşmağı tələb edən təlim sistemi. Həyatda ona lazım olan ən zəruri dəyərlərin formalaşdırılmasını bir vəzifə olaraq qarşıya qoyur. Bu iş məktəbəqədər təhsil mərhələsindən başlayır. Ona görə də təlimin məzmununda və həyata keçirilməsində bu cəhətin nəzərə alınması vacib sayılır.

**ŞİHAN** – *Coğ.* Relyefdə yaxşı seçilən tənha təpə. Şihanlar qədim yerüstü və sualtı yüksəkliklərin geoloji qalıqlarıdır.

**ŞİNALAMA** – *Tib.* Çıxan-çıxmayan protezlər və müəyyən qurğular vasitəsilə iki və daha çox dişin və ya implantın hərəkətsiz və ya hərəkətli vahidlər şəklində birləşdirilməsi.

**ŞLAMLAŞMAMA XƏTTİ** – *Tex.* Bərk hissəcikləri (şlam) daxil etməklə yeraltı əşyaların sudan çıxarılmasını təmin edən kompleks avadanlıqlar.

**ŞLÜZ –** *Tex.* Ayrı-ayrı rabitə protokolları ilə işləyən müxtəlif tipli şəbəkələr arasında informasiya mübadiləsini gerçəkləşdirmək üçün birləşdirici qurğu.
**ŞPİGEL** *(alm.d. spiegel-ayna,güzgü)* **–** *Jur.* Aparıcı hadisələrin, məlumatların xəbər buraxılışlarını əvvəlində anonsu.
**ŞPON** *(alm.d. spon-yonqar) – Jur.* Mətbəədə sətirlərarası məsafəni artırmaq üçün istifadə edilən yumşaq metaldan hazırlanmış nazik, elastik lövhə şəklində material.

**- T-**

**TABLEAU** – *Tex.* Tableau, biznes-analitika sənayesində istifadə olunan verilənlərin vizuallaşdırılması üçün güclü və sürətlə inkişaf edən alətdir. Bu emal olunmamış verilənləri çox asan anlaşılan formatda sadələşdirməyə kömək edir. Tableaudan istifadə etməklə verilənlərin analizi çox sürətlə yerinə yetirilir və yaradılan vizual görüntülər məlumat panelləri və iş cədvəlləri şəklində təqvim olunur.
**TABLEBUİLDER** – *İnf.* Tablebuilder böyük konfidensial verilənlər bazarı üçün yüksəksürətli cədvəl konstruktorudur. Tablebuilder, istifadəçilərə siyahıyaalmada verilənlərin mürəkkəb cədvəllərini, qrafiklərini və xəritələrini asanlıqla yaratmağa imkan verən interaktiv vasitədir.
**TABLOİD** *(ing.d.tabloid-kiçikölçülü, sıxılmış) – Jur.* Ənənəvi qəzetlərdən fərqli olaraq daha kiçik ölçüləri olan, əyləncəli materiallara yer verən, illüstrasiyalara, fotoşəkillərə, sensasiya xarakterli yazılara və digər qrafik məzmunu ehtiva edən, həcmcə yığcamlığı, sərlövhələrin iriliyi və cazibədarlığı ilə seçilən bir formatda çap olunmuş qəzet növüdür.
**TABLOİD JURNALİSTİKA** *(ing.d.tabloid-kiçikölçülü, sıxılmış)* **–** *Jur.* Bu jurnalistika kiçik ölçülü bir qəzetlə bö-

yük ölçüdə populyar bir üslubdur. Kriminal cinayət xəbərlərinin, mübahisəli və əyləncəli mövzuların, sensasiya xarakterli məlumatların verilməsinə üstünlük verən jurnalistika sahəsidir.

**TABLOİD TELEVİZİYA** *(ing.d.tabloid-kiçikölçülü, sıxılmış)* **–** *Jur.* Kriminal cinayət xəbərlərinin, mübahisəli və əyləncəli mövzuların, sensasiya xarakterli məlumatların verilməsinə üstünlük verən televiziya kanalı.

**TALVEQ** (*alm. tal – dərə + alm. weg – yol) – Coğ.* Dərənin, yarğanın, çay yatağının, relyefin digər eroziya formalarının dibində ən dərin nöqtələri birləşdirən xətt. Bəzən ölkələr arasında sərhədləri T. xətti üzrə müəyyənləşdirirlər.

**TAPŞIRILAN BONLAR** – *İqt.* Məbləğ hesabına onu podrata götürən idarənin hansı ki, podratın sonunda ona çatacaqdır, yaxud podratçı şəxsə verilən öhdəlikdir.

**TARİF SAZİŞİ –** *İqt.* Razılaşma zamanı hansı ki, muzdla tutulmuş işçi tərəfdən yalnız həmkarlar ittifaqı, işəgötürən tərəfdən isə ayrılıqda işəgötürən yaxud sahibkarlıq birliyi çıxış edə bilər. Üç "tarif sazişi fenksiyalar" fərqləndirilir: maraqlanan tərəflərin mühafizəsi; sahmana salınma münasibətləri (əmək müqavilələrinin tiplərə ayrılması); razılaşma fəaliyyəti dövründə əmək razılığının saxlanması. Tarif sazişində təxminən şəxsi işçi ilə, şagird ilə, evdə işləyən işçi ilə və digər kateqoriyalı muzdla tutulmuş əməkçi şəxslə müqavilə bağlanıla bilər.

**TARTİNLƏR** – *İqt.* Tartinlər də qızardılmış çörəkdən hazırlanır. Çörəyin üzərinə ət, balıq və başqa ərzaqlar isti halda qoyulur. Tartinlər kotlet, yumurta qayğanağı, pendir, omlet və s. ilə hazırlanır. Buterbrod hazırlayanda ərzaqları elə səliqə ilə yığmaq lazımdır ki, onlar çörək dilimlərinin kənarından sallanmasın.

**TAYMER** *(ing.d.timer-time,vaxtı qeyd etmək) – İnf.* Maşının verilmiş konkret proqramla, müəyyənləşdirilmiş vaxt nəzərə alınmaqla, avtomatik rejimdə, fasiləsiz işləməsinə cavabdeh olan xüsusi elektron qurğu ilə informasiyanı idarəedici proqrama ötürən qurğu. Taymer maşının ayrılmaz elementidir, elektron avadanlıqlarda zaman intervalları barədə onsuz avtomatik yuma prosesi qeyri-mümkündür.

**TEKTONİK DEPRESSİYA** – 1) *Coğ.* Yer qabığının tektonik proseslər nəticəsində əyilməsi, enməsi; 2) *Coğ.* Yer qabığında tektonik proseslər nəticəsində əyilmiş, enmiş sahə.

**TEQ** – *İnf.* HTML dilində: sənədin bölümünü, mətnin formatlanması üsulunu, yaxud başqa hərəkətləri müəyyən edən xüsusi simvol.

**TELEKÖRPÜ** – *Jur.* İki və daha artıq uzaq məsafədə yerləşən rabitə vasitələri ilə bağlantı yaratmaqla həyata keçirilən televiziya verilişi formatı.

**TELEMARAFON** – *Jur.* Tanınmış ziyalıların iştirakı ilə keçirilən veriliş formatı.

**TELETAYP***(lat.tele-uzaq, tupe-çap etmək) – Jur.* İnformasiyanı birbaşa qəbul edən və çap mexanizminə malik teleqraf aparatı.

**TELETİCARƏT**– *Jur.* Müəyyən məhsulların televiziya vasitəsi ilə reklamı.

**TELEKS** – *Jur.* Abonentlər arasında birbaşa teleqraf rabitəsi ilə əlaqə yaradan qurğu.

**TELEQƏZET**– *Jur.* Telekanallarda qəzet əsasında qurulmuş qacan sətirlə ekrana çıxarılan reklam.

**TELLURİ** (*lat. telluris – Yer*) – *Astr.* Yerin Günəş və öz oxu ətrafında, Ayın isə Yer ətrafında hərəkətini əyani təsvir etmək üçün cihaz.

**TEMPUS PROQRAMI** – *Ped.* Ali təhsilin müasirləşdirilməsini dəstəkləyir və Avropa Ittifaqını əhatə edən ölkələrdə əməkdaşlıq sahəsi yaradır. Bu proqram hazırda Qərbi Balkanlarda, Şərqi Avropa və Mərkəzi Asiyada, Şimali Afrika və Yaxın Şərqdə 27 ölkəni əhatə edir.
**TEODOLİT** (*yun. theaomai – baxıram + yun. dolichos – uzun*) – *Tex.* Üfüqi və şaquli bucaqları ölçmək üçün geodezik alət. Müasir T.-lər optik sistemə və yüksək dəqiqliyə malik daşınan mürəkkəb cihazlardır. Onlardan tikinti, dağmədən işlərində, topoqrafik çəkilişlərdə və s.-də istifadə olunur.
**TERMİNALLARIN KONVERGENSİYASI** – *Jur.* Jurnalistikada informasiyanın qəbulu və istehlakı üçün təyin edilən bir neçə qurğunun bir multimedia qurğusunda birləşməsi (məsələn, mobil telefonlar).
**TERMOKARST** (*yun. therme – isti + alm. karst – Sloveniyada yerləşən Kras platosunun adından*) – *Coğ.* Çoxillik donuşluq sahələrdə yeraltı buzun və ya donmuş qruntun əriməsi nəticəsində Yer səthinin çökmüş hissəsi. T.-lar iqlimin istiləşməsi, Yer qabığında istilik rejiminin dəyişməsi və s. səbəblərdən yaranır.
**TERMOKLİN** (*yun. therme – istilik + yun. klino – əyilirəm) – Coğ.* Dünya okeanında şaquli termik qradiyenti üst və alt su laylarının termik qradiyentindən kəskin fərqlənən su layı.
**TEST NÖVLƏRİ** – *Ped.* İstifadə edilən testlərin çoxsaylı təsnifatları arasında daha populyar olan təsnifata əsasən, test tapşırıqları. Testlər iki qrupa ayrılır: - Qapalı tipli test tapşırıqları. Bu tapşırıqlarda hər bir şərtdən sonra hazır cavab variantları olur ki, onlardan biri, yaxud bir neçəsi düzgün cavab variantı olur. - Acıq tipli test tapşırıqları. Təhsi-

lalan bu tapşırıqlarda hər bir suala söz, ifadə, cümlə, işarə, formula və s. yazmaqla özü cavab verir. Açıq tipli test tapşırıqları iki cür olur: sərbəst şərh – imtahan verən cavabı sərbəst şəkildə şərh edir, bu zaman ona heç bir məhdudiyyət qoyulmur; tamamlama – imtahan verən tapşırığın şərtindəki məhdudiyyətləri nəzərə almaqla cavab verir (məsələn, cümləni tamamlama).

**TEST-TƏQDİMAT** – *Ped.* Test tapşırıqlarının hazırlanması və ekspertizası, yeni tipli test tapşırıqlarının tərtibi metodikası, müasir testologiyada istifadə edilən test tipləri və formaları.

**TEST VƏSAİTİ** – *Ped.* Müəyyən fənn üzrə bilik və bacarıqların yoxlanılması üçün tərtib olunmuş suallar toplusu.

**TESTLƏŞDİRMƏ METODU** – *Ped.* Şəxsiyyətin diaqnostikası (psixoproqnostikası) yolu ilə onun psixi vəziyyətinin, hər hansı standart tapşırığın yerinə yetirilməsi zamanı funksiyalarının tədqiqi.

**TƏDRİS ALQORİTMİ** – *Ped.* Ən qısa üsulla istənilən nəticəyə çatmağa kömək edən, real şərtləri nəzərə alaraq fəaliyyətin daha məqsədəuyğun həyata keçirilməsinin yazılı təlimat sənədi. Səmərəli tədrisdə iki əsas tədris alqoritmi tipi tətbiq olunur: fəaliyyət alqoritmi və axtarış alqoritmi.

**TƏDRIS BAZASI** – *Ped.* Tələbələrin öyrəndikləri ixtisası dərindən mənimsəmələri üçün ən çox təcrübəyə üstünlük verilməsi məqsədilə lazım olan bütün əyani vəsaitlər və tədris ləvazimatları ilə təchiz edilmiş laboratoriya.

**TƏDRİS DİLİ** – *Ped.* Ümumtəhsil müəssisəsində aparılan tədrisin nəzərdə tutulduğu dil. Yüksəlməsinə, təhsilin keyfiyyətinin audiovizual vasitələrin hesabına artmasına səbəb olan cihaz və qurğular.

**TƏDRİS KONSEPSİYASI** (*lat.d. conceptio – anlama, qavrama, sistem) – Ped.* Müxtəlif təhsil müəssisələrində əsas tədris fənlərinə baxış sistemi, məqsədlərin, vəzifələrin, tədris proqramlarının təşkili sistemi. Tədris plakatları – təhsil fəaliyyətinin müəyyən mərhələlərinə aid olan, təbliğat, məlumat və ya reklam məqsədi ilə asılan qısa mətnli iri şəkil, böyük elan.

**TƏDRİSİN VALİDLİYİ** – *Ped.* Tədrisin müvafiqliyinin və etibarlılığının təmin edilməsi.

**TƏHSİL FƏLSƏFƏSİ** – *Ped.* Təhsilin məqsədi, təhsilin xüsusiyyəti, şagirdin iştirakı baxımından müstəqil öyrənənlər yetişdirmək. Təhsil fəlsəfəsi dedikdə, məqsədli (bilikləri çatdırmaq), intellekt baxımından müstəqil öyrənənlər yetişdirmək, mənəvi və siyasi dəyərlər aşılamaq, konsepsiyaların xüsusiyyəti, təhsilin idarə edilməsinin qanunauyğunluqları kimi mühüm amillərin məcmusu başa düşülür.

**TƏHSİL FRANÇAYZİNQİ** – *Ped.* Təhsil məhsullarının müvafiq şərtlərlə (təhsil müəssisəsinin rəsmi adı və fərqlənmə nişanlarının saxlanılması, müəlliflik hüququnun qorunması və s.) daxili, yaxud beynəlxalq təhsil bazarında reallaşdırılması üzrə kompleks xidmətlər sistemi. Fərdə yönəlmiş məzmunu – peşə-ixtisas təhsilinin məzmununun layihələndirilməsində ənənəvi yanaşma şəxsiyyətin tam inkişafına təminat verir. Burada şagirdə tədrisi, tədris materialını, təhsilin məzmununu tam seçmək hüququ verilir.

**TƏHSİL İNVESTİSİYASI** – *Ped.* Təhsilin inkişafına müxtəlif istiqamətli sərmayə qoyuluşu.

**TƏHSİL KREDİTİ** – *Ped.* Fənnin məzmununa və həcminə uyğun olaraq, onun mənimsənilməsinə ayrılan vaxtın ölçü vahidi.

**TƏHSİL QANUNVERİCİLİYİ** – *Ped.* "Təhsil haqqında" Azərbaycan Respublikasının 2009-cu il 19 iyun tarixli 833-IIIQ nömrəli Qanunu.

**TƏHSİL PSİXOLOGİYASI** – Təhsil sistemində iştirak edən tərəflərin və mövqelərin psixoloji xüsusiyyətləri və əhəmiyyətliliyi.

**TƏHSİL STANDARTLARI** – 1) *Ped.* Hər bir təhsil pilləsi üzrə tərtib edilən, tədris fənni üzrə son nəticələrin göstərildiyi əsas sənəd. Standartın strukturuna təhsilin məqsəd və vəzifələri, termin və qanunauyğunluqları, bilik, bacarıq və düşüncələri, təhsilin nəticələrinin yoxlanması texnologiyası daxildir. 2) *Ped.* Tədrisin, demək olar ki, nüvəsi. Orta məktəb təhsilində nəticə əldə etmək üçün olur. Təhsilin məzmununun optimal minimumunu göstərir.

**TƏHSİLDƏ DİFERENSİASİYA** – *Ped.* Təhsil alanın şəxsiyyətinə yönəlmiş, təbəqələşməyə, fərdiləşdirməyə imkan verən pedaqoji yanaşma.

**TƏHSİLDƏ QİYMƏTLƏNDİRMƏ** – *Ped.* Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 13 yanvar 2009-cu ildə təsdiq etdiyi "Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası" əsasında aparılan fasiləsiz mexanizm.

**TƏHSİLİN HUMANİSTLƏŞMƏSİ** – *Ped.* Tədrisin məzmun, forma və təlim metodlarında humanizm ideyalarının yayılması, şəxsiyyətin azad və hərtərəfli inkişafının, onun cəmiyyətin ictimai həyatında iştirakının təmin olunması.

**TƏHSİLİN PİLLƏLƏRİ** – *Ped.* Azərbaycan Respublikasında aşağıdakı təhsil pillələri və səviyyələri müəyyən olunur: 1) məktəbəqədər təhsil; 2) ümumi təhsil: ibtidai təhsil; ümumi orta təhsil; tam orta təhsil; 3) ilk peşə-ixtisas təhsili; 4) orta ixtisas təhsili; 5) ali təhsil: bakalavriat; magistratura; doktorantura.

**TƏKRARSIĞORTA**– *İqt.* Sığortaçının sığorta müqaviləsi üzrə sığortaladığı risklərin bütövlükdə, yaxud bir hissəsinin təkrarsığortaçı ilə bağlanmış müqaviləyə müvafiq olaraq ötürülməsi və ya bölüşdürülməsinə əsaslanan münasibətlər sistemi.

**TƏKRARSIĞORTAÇI**– *İqt.* Təkrarsığorta fəaliyyətinə lisenziyası olan, ilkin sığortaçı və ya ilkin təkrarsığortaçı tərəfindən bağlanmış sığorta və ya təkrarsığorta müqavilələri əsasında sığortalanmış tərəf.

**TƏLƏ** – *İqt.* İqtisadiyyatda əməliyyat sistemində müəyyən tip kəsilmələri və ya müstəsna vəziyyətləri tutmağa imkan verən mexanizm; Burada məqsəd onları emal edilmək üçün xüsusi prosedurlara ötürməkdir.

**TƏLƏBYÖNÜMLÜLÜK** – *Ped.* Fərdin, cəmiyyətin və dövlətin dəyişən ehtiyac və tələbatlarının nəzərə alınması.

**TƏLİM** – 1) Öyrətmə, dərs vermə, oxutma, tədris; 2) Hər hansı bir sahə haqqında nəzəriyyə, nəzəri sistem, nəzəri müddəaların məcmusu.

**TƏLİM MƏRKƏZİ** – *Ped.* Müxtəlif istiqamətlər üzrə müəyyən olunmuş tədris proqramlarının mənimsədilməsi məqsədilə həyata keçirilən mərkəzləşdirilmiş fəaliyyətlər.

**TƏLİM MÜHİTİ** – *Ped.* Məktəbin təhsil fəaliyyətində müəllim və şagirdlər üçün yaradılmış əlverişli şərait.

**TƏLİM STRATEGİYASI** – *Ped.* Müəllimin təlim prosesində istifadə etdiyi metod, forma və vasitələr.

**TƏLİM TEXNOLOGİYALARI** – *Ped.* Bilik, bacarıq və vərdişləri formalaşdırmaq üçün əməliyyatlar komplekti.

**TƏLİM TƏCRÜBƏSİ** – *Ped.* Təlimdə qazanılmış, əldə olunmuş bilik, bacarıq və vərdişlərdən səmərəli istifadə mexanizmi.

**TƏLİM ÜSULLARI** – *Ped.* Şagirdlərdə kurikulumda müəyyənləşdirilmiş standartlara uyğun bilik və bacarıqların formalaşdırılması üçün tətbiq olunan interaktiv metodlar.
**TİFLOPEDAQOGİKA** – *Ped.* Defektoloji bölmələrdən biri olaraq, ümumi pedaqogikanın hissəsi olub, təlim və tərbiyə haqqında elmdir.
**TNORM** – *Ped.* Uyğunluq qiymətlərində sessiyalararası dəyişməni kompensasiya edir. Hər bir diktor üçün yalançı və doğru uyğunluq qiymətləri arasındakı üst-üstə düşməni azaltmağa cəhd edir.
**TOKEN** – *İnf.* Mətnin linqvistik əhəmiyyətli minimal elementi sözlər, durğu işarələri, yaxud pul vahidlərinin işarələri, ədədlər, hərf-rəqəm birləşmələri, tarixlər, telefon nömrələri, IP-ünvan, fayl adı və s.
**TOKENİZASİYA** – *İnf.* Giriş mətninin sözlərə, rəqəm birləşmələrinə, düsturlara və s. bölünməsi.
**TOK-ŞOU** – *Jur.* Tanınmış şəxslərin iştirakı ilə televiziya və radioda müxtəlif problemlərə həsr olunmuş ictimai müzakirə proqramları.
**TOLLİNQ** – *İqt.* İxrac məqsədilə yenidən istehsal olunan müəyyən əmtəəlik məhsul.
**TONER –** *Tex.* Üzçıxarma aparatlarında, lazerli printerlərdə, istifadə olan toz boyayıcı. *Toner* çap edilən görüntüyə uyğun olaraq elektrostatik yüklənmiş barabanın üzərinə vurulur, sonra kağıza köçürülür və əriyənədək qızdırılaraq kağızda möhkəmlənir.
**TOROS** – *Coğ.* Dəniz, göl və böyük çaylarda buzların sıxılması nəticəsində yaranan buz parçaları yığını. Buzların bir-birinə təzyiq etməsi onların kənarlarının qırılması və üst-üstə qalanmasına səbəb olur.

**TORPAĞIN KAPİLYARLIĞI** (lat. *capillaris* – tüklü) – *Coğ.* Torpağın tərkibindəki çox nazik kanallar vasitəsilə suyun süzülməsi prosesi.

**TORUS** – *Tib.* Sərt damğanın orta xəttində və ya çənənin linqval tərəfində kövrək – premolyar nahiyəsində ekzotik sümük çıxıntısı. Bu, autogen sümük üçün mənbə ola bilər.

**TÖRPÜ** – 1.*Tib.* İmplant zamanı istifadə olunan iri çərtmələri olan tavlandırılmış metal tircikdir. Müxtəlif əyrixətli səthləri, çıxıntıları emal payını çıxarmaq lazım olanda törpü ilə kobud təmizləmə iş yerinə yetirilir. 2.*Tex.* Müxtəlif formalarda olan iridişli yeyə növü. Törpü ilə dəmiri yonmaq.

**TÖRPÜLƏMƏK** – *Tex.* Törpüyü sürtərək aşındırmak ya da düzəltmək.

**TRADİSİONALİZM** *(lat.d.traditio ötürmə, nəqletmə)* – *Pol.* Ölkədə qanunçuluğu və nizam-intizamı təmin edə bilən, tarixi ənənəni və milli ilkinliyi qoruyub saxlayan güclü dövləti və hakimiyyəti müdafiə edən konservativ siyasi şüur forması.

**TRAFARET** *(it.d.traforetto-dəlmə-deşik edilmiş)* **–** 1.*Ped.* Şablon ifadə, öz fikri olmayan forma, davranış tərzi; 2. *İnf.* Təsviri, mətn hər hansı səthə köçürmək üçün istifadə olunan qəlib.

**TRANSFERT SAZİŞİ –** *İqt.* Müqavilə şərtnaməsində (qiymət üzrə, valyuta kursu üzrə) xarici ticarət əməliyyatları iştirakçılarının valyuta yaxud mal mübadiləsini göstərən müxtəlif növlü saziş. Valyuta və mal transferti fərqləndirilir. Valyuta transferti zamanı, məsələn, kommersiya bankları məzənnə üzrə valyuta və manata məbləğin mübadiləsi haqqında razılaşırlar. Mal transferti zamanı müqavilə qiyməti üzrə kontragentlər arasında birbaşa barter mal mübadiləsi həyata keçirilir.

**TRANSFORMASİYA** (*lat. transformatio*) – 1. *Jur.* Yurnalistikanın yeni mediuma keçməsi üçün yollar və metodologiyaları özündə əks etdirir. Bu sadəcə, çap mediasının planşetə inteqrasiyası deyil, bu həm də ən yeni media formaları sayılan bloqçuluq, viki, axtarış saytları, mobil tətbiqlər, sosial media platformaları və hələ bilmədiyimiz, üzə çıxmayan bir çox platformaların bir-birinə inteqrasiyası deməkdir. 2.*Fiz.*Elektrik cərəyanının transformator vasitəsilə dəyişməsi. 3.*İnc.* Aktyorun öz zahiri görkəmini (kostyumunu, qrimini, parikini və s.) cəld dəyişməsi əsasında qurulan teatr və ya sirk nömrəsi. 4. *Coğ.* Bir şeyin öz şəklini dəyişməsi, başqa şəklə düşməsi, bir haldan başqa hala keçməsi; dəyişmə, dəyişilmə. Hava kütləsinin transformasiyası. İşığın transformasiyası.
**TRANSİVER** – *İnf.* Siqnalları həm ötürə, həm də qəbul edə bilən qurğu. *Transiverlərdən* telefon rabitəsində, "gəmi-sahil", yaxud "hava-yer" tipli radiorabitədə istifadə olunur.
**TRANSKODER** *(lat.d.trans-içərisindən, üzərindən, arası; code-işarə) – Jur.* Televiziyada bir veriliş sistemindən, yaxud formatından digərinə keçid təmin edən xüsusi qurğu.
**TRANSKRİPT** – *Ped.* Təhsil alanın təhsil müddətində keçdiyi və keçməkdə olduğu fənlərin kredit miqdarını, həftədə neçə saat olmasını, dərslərdə onunla bağlı müəllimin qeydlərini özündə əks etdirən sənəd.
**TRANSMİTTER** – *İnf.* Verilənləri ötürmək üçün mikrosxem, yaxud qurğu.
**TRANSPİRASİYA** (*lat. trans – içindən + yun. spizo – nəfəs alıram*) – *Bio.* Bitkinin yarpaqları vasitəsilə suyu buxarlandırması. T. fizioloji prosesdir, onun intensivliyi işıqdan, temperaturdan asılı olaraq həm gün ərzində, həm də *vegeta-*

*siya* dövründə dəyişir. Bu zaman çox böyük su sərfinə yol verilir.
**TRANSPONDER** – *İnf.* Qəbul etdiyi siqnala cavab olaraq siqnal göndərən qəbuledici-ötürücü qurğu; məsələn, rabitə peyklərində quraşdırılmış transponder yerüstü stansiyadan qəbul etdiyi siqnalı başqa tezlikdə Yerdəki başqa stansiyaya ötürür.
**TRANZİSTOR** – *Tex.* Üç çıxışı olan və çoxlu funksiyaları – elektrik siqnalını gücləndirməyi, dəyişdirməyi və generasiya etməyi yerinə yetirən bərk gövdəli elektron qurğu.
**TRANZİTOLOGİYA** *(lat.d. transitus keçid, keçmə) – Pol.* Politologiyanın avtoritarizmdən demokratiyaya keçidi öyrənən bölməsi.
**TRASSASİYA (TRASLAMA)** – *İqt.* Köçürmə vekselin (trattanın) təqdim edilməsi; xarici valyuta şəklində borcun ödənilməsi üsulu. Veksel dövriyyəsinin, valyuta əməliyyatlarının, beynəlxalq hesablaşmaların müasir formalarının tərkib hissəsidir.
**TRASSAT** – Vekseli akseptləşdirən və bununla da həmin veksel üzrə tədiyyə müddəti çatdıqda ödəniş etmək öhdəliyini öz üzərinə götürən şəxsdir.
**TRATTA** – *İqt.* Köçürmə vekseli, bir şəxsin (kreditorun) digərinə müəyyən məbləğin üçüncü şəxsə verməsi haqqında yazılı tapşırığını özündə əks etdirir.
**TRED** – **1.** *İnf.* Kompüter proqramında çoxtapşırıqlılıqdan istifadə edən tapşırıq və ya proses; məsələn, mətn redaktoru klaviaturada klavişin basılmasını qəbul etmək üçün bir *axına*, ekranın yenilənməsini yadda saxlamaq üçünsə birinci ilə eyni zamanda işləyən başqa bir *axına* malik ola bilər. Java proqramlaşdırma dili birdən çox *axına* malik proqramlar yaratmaq işini asanlaşdırmaq üçün nəzərdə tutulub. **2.**

*İnf.* Proqramlaşdırmada daha böyük əməliyyatın, yaxud proqramın hissəsi olan prosedur və ya məsələ. **3.** *İnf.* Ağac-şəkilli verilənlər strukturunda: ana bəndi tanıdan və "ağac-da keçid" üçün istifadə olunan göstərici.

**TREKBOL** – *İnf.* Kürəciyi və iki düyməsi olan və siçanın funksiyalarını yerinə yetirən populyar koordinat-göstərici qurğu.

**TREKİNQ** – *Jur.* Sözdə hərflərarası məsafənin qoyulması.

**TRENİNQ** – *Ped.* Təhsildə qısamüddətli təlim, müəyyən sahədə bilik və bacarıqların artırılması məqsədi ilə təşkil olunan seminar.

**TRETMAN** *(ing. treatment- bacarmaq) – 1. Jur.* İşin yerinə yetirilmə qaydaları. 2. Müəyyən məsələnin müzakirəyə çıxarılması.

**TREPPİNQ –** *Tex.* Poliqrafiya prosesinin çapaqədərki mərhələsində tuşlaşdırma xətalarının "ört-basdır" edilməsi üçün tətbiq olunan üsul.

**TREVELLİNQ** *( ing. travellinq-səyahət)* **–** *Tex.* Krandan asılaraq müxtəlif yerlərdə hərəkət edən kamera ilə çəkiliş aparmaq.

**TRİANQULYASİYA** (*lat. triangulum – üçbucaq*) *– Coğ.* Yer üzərində istinad nöqtələrinin vəziyyətini, meridian və paralel qövslərinin uzunluğunu və eləcə də Yerin formasını və ölçülərini təyin etmək üçün istifadə olunan üsul.

**TRİGGER** – *İnf.* Verilənlər bazasının obyektləri ilə birlikdə saxlanılan və müəyyən SQL komandalar istifadə edildikdə avtomatik yerinə yetirilən, yəni hadisələrlə idarəolunan və istifadəçiyə görünməyən prosedur tipi.

**TROLLİNQ** – *İnf.* Sosial şəbəkədə qızışdırıcı, yalan məlumatlar verən təxribat forması.

**TROPOPAUZA** (*yun. tropos – dönmə + yun. pausis – dayanma, kəsilmə*) *– Coğ.* Troposferlə stratosfer arasında ke-

çid təbəqə. T.-nı səciyyələndirən başlıca xüsusiyyət burada termik qradiyentin *troposferə* nisbətən kəskin dəyişməsidir. Troposferdə temperatur yuxarı qalxdıqca aşağı düşür.
**TROPOSFER** (*yun. tropos – dönmə + yun. sphaira – kürə*) – *Coğ.* Atmosferin Yer səthinə qovuşan və onun təsiri altında olan ən alt qatı.
**TUNA** – *Ped.* Alman mühasibat uçotu məktəbinin metodoloji yanaşmaları. Onun fərqli xüsusiyyətləri tam struktura kimi öyrənilən hadisənin nəzərdən keçirilməsi. Əgər İtaliya və Fransa məktəbləri induksiya yolu ilə yəni xüsusidən ümumiliyə inkişaf edirsə, Alman məktəbində hesabdan balansa yox, balansdan hesaba olanları, deduksiya yolu ilə, ümumidən xüsusiyə doğru hərəkət edərək, təsərrüfat həyatı faktları öyrənilir.
**TUTMA –** *İnf.* İnformatikada rabitə sistemlərində qəbul edilən informasiyanın sonradan istifadə və ya arxivləşdirmə məqsədilə faylda toplanması.
**TVİNİNQ** – *İnf.* Qrafik proqramda tədricən transformasiya olunan aralıq formalar ardıcıllığı vasitəsilə bir obyektin başqa obyektə çevrilməsi üsulu.
**TVİTTER** *(ing. tvitter-quş cviltisi) – İnf.* Fikir mübadiləsi aparmağa imkan verən sosial şəbəkə.

## - U -

**UNİVERSAL JURNALİST** – 1. *Jur*. Keyfiyyətli məzmuna malik hazır kontent verə bilən universal jurnalist. 2. *Jur*. Televiziyada mətnin yaradılması ilə yanaşı müxtəlif səlahiyyətləri- video, səs yazılması və foto çəkilməsini də yerinə yetirən.

**USERBAR** – *İnf.* Userbar, veb formulada internet konfranslarında və digər internet kommunikasiya vasitələrində imzalarda yerləşdirmək üçün nəzərdə tutulmuş qrafik bir təsvirdir.
**UŞAQ MÜƏSSİSƏLƏRİ** – *Ped.* Tabeliyindən asılı olmayaraq, uşaqların ictimai tərbiyəyə cəlb edilməsində ailə və cəmiyyətin tələbatını ödəyir, milli və ərazi xüsusiyyətlərinə uyğun olaraq uşaqların harmonik inkişafını və tərbiyəsini təmin edir.
**UŞAQ PARLAMENTİ** – *Ped.* İlk dəfə İsveçrədə yaradılmış uşaq parlamentinin əsas məqsədi uşaqları gələcək həyata hazırlamaq və onların problemlərinin həllinə diqqəti artırmaqdır.
**UZAQ TERMİNAL** – *İnf.* Kompüterlə modem və telefon xətti vasitəsilə bağlı olan, ancaq ondan nisbətən uzaqda yerləşdirilmiş terminal.

## -Ü-

**ÜMUMİ ETİBARLILIQ** – *Ped.* Şagird nailiyyətlərinin qiymətləndirilməsində məqsədəuyğunluq, qarşılıqlı dəyərləndirmə, müvafiqlik və etibarlılıq, inkişafyönümlülük, şəffaflıq və qarşılıqlı əməkdaşlıq prinsiplərinə əsaslanma.
**ÜMUMİ QİYMƏTLƏNDİRMƏ** – *Ped.* Şagirdin nailiyyətinin (və ya geriləmələrinin) izlənilməsi (monitorinqi); təlim prosesində qərarların qəbulu; şagirdin təlim nəticələrinin qiymətləndirilməsi; kurikulumun qiymətləndirilməsi.
**ÜMUMİLƏŞDİRİLMİŞ QİYMƏT** – *Ped.* Hər hansı problem, hadisə və ya şəxsə müəyyən parametrlər üzrə verilən qiymətlərin ümumiləşdirilmiş balansı.
**ÜNSİYYƏT BACARIQLARI** – *Ped.* Ayrı-ayrı şəxslər və ya insan qrupları arasında informasiya mübadiləsinin hə-

yata keçirildiyi bir prosesdə düşüncə və məqsədləri mümkün qədər aydın və düzgün şəkildə ifadə etmək bacarıqları.

**ÜNSİYYƏT ETİKETİ** – *Ped.* Bu və ya digər dildə ünsiyyətdə olanların qarşılıqlı münasibəti ilə müəyyənləşən danışıq davranışı qaydaları. Danışıq etiketi nitq fəaliyyətinin müxtəlif sahələrini – salamlaşma, müraciət, tanışlıq, dəvət, razılıq və rədd, üzrxahlıq, təşəkkür, xudahafizləşməni əhatə edir.

**ÜNSİYYƏT FƏALİYYƏTİ** – *Ped.* İnsanlar arasında birgə fəaliyyət tələbatından doğan təmasın çoxplanlı inkişaf prosesi.

## -V-

**VAKSİN PASPORTU** – *Tib.* İnsanda peyvənd olunma nəticəsində koronavirus infeksiyasına qarşı immunitet və ya antitelin olmasını təsdiqləyən, vaksin vurulmuş şəxslərə verilən rəsmi vəsiqə.

**VALİDASİYA** – *Pol.* Təsdiq etmə, ratifikasiya; qanuni gücün əlavə edilməsi, leqallaşdırma.

**VALİDLİK** – *Pol.* Etibarlılıq, dayanıqlılıq, dəyişməzlik.

**VALORİTASİYA** – **1.** *İqt.* Dövlət tədbirlərinin köməyi ilə malın qiymətinin, qiymətli kağızların kursunun artırılması; 2. Eyni ilə revalvasiyadır.

**VARİATİV DƏRSLİKLƏR** – *Ped.* Ayrı-ayrı müəlliflərin və ya müəllif qrupunun vahid tədris proqramı əsasında eyni fənn üzrə hazırladıqları müxtəlif dərsliklər.

**VEBKAMERA** *(ing.d.webkamera-ing.d.web-tor,şəbəkə)* **–** *İnf.* Kompüter proqramları vasitəsilə məlumatların real zaman rejimində birbaşa ötürməyə imkan verən kiçik ölçülü video və ya fotokamera.

**VEB-SƏNƏD –** Əksər hallarda rəqəmsal formatda mövcud olan istənilən sənəd. Lakin onun daha geniş mənalı

termin olduğunu nəzərə alaraq Ümumdünya Hörümçək Toru Konsorsiumu (W3C) öz saytında ona ümumişlək tərif verib. İnternetdə müraciət etmək mümkün olan, vahid mövzulu veb-səhifələrin sistemidir. Veb-saytların ümumi yığımı Ümumdünya hörümçək torunu yaradır. Dövlət qurumları, müxtəlif idarə, təşkilat, müəssisə və şirkətlər öz xidmətləri və imkanları haqqında məlumatları yaymaq üçün veb-saytlardan istifadə edirlər.

**VEKA** – *İnf.* Veka verilənlərin intellektual analizi məsələləri üçün maşın təlimi alqoritmlərinin toplusudur. Alqoritmlər birbaşa verilənlər bazasına tədqiq edilə və ya Java kodundan çağırıla bilər. Vekada verilənlərin ilkin emalı, təsnifatı, reqressiyası, klasterləşdirilməsi, assosiasiya qaydaları və vizuallaşdırılması üçün istifadə olunan alətlər vardır.

**VERDİKT** *(ing.d. vere dictum hərfən "düzgün deyilmiş" deməkdir)* – *Hüq.* Müttəhimin günahkar olması, yaxud günahkar olmamasına aid məsələyə dair məhkəmə prosesində iclasçıların qərarı.

**VERGİTUTMA** – *İqt.* Qanunauyğun müəyyən edilmiş qaydada vergi və yığımların öhdəliklərin müəyyənləşdirilməsi, yığılması və müvafiq büdcəyə ödənilməsinin məcmusudur.

**VERİFİKASİYA** *(lat.d.verus-əsl; lat.d.facere-etmək, düzəltmək)* – *Jur.* İnformasiyanın konkret texnologiyalar əsasında təhlil etməklə onun həqiqiliyinin, etibarlılığının yoxlanılması.

**VERİLƏNLƏR ANALİTİKASI** – *İnf.* Verilənlər analitikası (VA) xüsusi sistemlərin və proqram təminatının köməyi ilə verilənlər toplusundakı informasiya haqqında daha tez nəticə çıxarmaq məqsədilə verilənlər toplusunun tədqiqi prosesidir. Kommersiya sektorlarında təşkilatlara daha əsaslandırılmış biznes qərarlar qəbul etməyə imkan vermək, alimlər və tədqiqatçılar tərəfindən elmi modelləri, nəzəriyyələri və hipo-

tezləri yoxlamaq və ya təkzib etmək üçün verilənlərin analizi texnologiyaları və metodlarından geniş istifadə olunur.

**VERİLƏNLƏR BAZASI** – *İnf.* Sözün geniş anlamında verilənlərin istənilən yığını. Müəyyən sayda yazılardan, yaxud müəyyən tip sahələrdən və ya sütunlardan təşkil olunmuş cədvəllərdən və axtarış, çeşidləmə, rekombinasiya və başqa əməliyyatların toplusundan ibarət olan fayl.

**VERİLƏNLƏR TORU** – *İnf.* Verilənlər toru tədqiqat məqsədləri üçün ayrıca şəxslərə və ya istifadəçilər qrupuna çox böyük həcmdə coğrafi paylanmış verilənləri geniş əldə etməyə, dəyişməyə və ötürməyə imkan verən arxitektura və ya xidmətlərdir.

**VERİLMƏ XƏTTİ** – *İnf.* Rezervuardan yanacaqpaylayıcı kolonkaya yanacağın verilməsinin təmin edən kompleks avadanlıqlar.

**VERSTAK** – *Tex.* Emal edən əşyalar üçün tərtibatları olan, çox vaxt mexanikləşdirilmiş alətlərlə təchiz edilmiş iş masasıdır. Verstak mizin üst taxtasından (qapaqdan) və verstakaltıdan ibarətdir. Bunlara altlıq taxta, dayaq və mişarlama qutusu aiddir.

**VESTERNİZASİYA** *(ing.d. West Qərb) – Pol.* Həyatın bütün sahələrində Qərb dəyərlərinin təkrarı.

**VEZİKULYAR FİLM** – *İnf.* Verilənləri yazmaq üçün səthində yuvalar deyil, xırda qabarcıqlar olan optik disk örtüyü. Yuvalardan fərqli olaraq, qabarcıqları sonradan hamarlamaq olar ki, bu da optik diskləri silinib-yazılan edir.

**VİCET** – *İnf.* Qrafik istifadəçi interfeysində düymə, fırlatma zolağı, sürgü, mətn boksu və başqa standart idarəetmə elementləri.

**VİRTUAL ALƏM** – *İnf.* İnternet vasitəsi ilə real hadisələrin kompüterdə yaradılmış modeli.

**VİRTUAL CƏMİYYƏT** – *İnf.* Sosial media vasitəsi ilə ünsiyyət yaratmaq üçün öz aralarında əlaqə yaratmağa imkan verən şəbəkə.
**VİRTUAL MƏKTƏB** – *Ped.* Koronavirus dövründə təhsil Nazirliyi tərəfindən yayımlanan teledərslərin interaktivliyini təmin etmək və ümumilikdə məsafədən tədris imkanlarını genişləndirmə.
**VİRTUAL REALLIQ** – *İnf.* Müxtəlif texniki vasitələrlə insanları ekran arxasındakı xəyali dünyaya aparmaq məqsədilə vizual və səs effektlərini təmin edən kompüter sistemləri.
**VİZİT KARTLARI** – *İnf.* İnformasiya funksiyasından başqa, onlar özünəməxsus alət rolunu oynayır və onun sahibinin qiyabi olaraq təqdim edilməsi, milli, yaxud digər bayramlar, ad günü, vəzifədə yüksəlmə, ailəvi xoş hadisə və s. ilə bağlı təbrik etmək, başsağlığı, təşəkkür bildirmək, tanışlığın qurulması üçün istifadə olunur.
**VİZUAL** *(lat. visualis -görülən)* – *İnf.* Görməklə qavranılan.
**VİZUAL SƏNƏD** – *İnf.* Xüsusi texniki qurğular vasitəsi ilə oxunması mümkün olan sənəd.
**VOKSEL** – *İnf.* Həcmli görüntü elementi üçölçülü fəzada rastr elementinin qiymətini özündə saxlayır. "Volumetric pixel" sözlərindən yaranıb. *Voksellər* üçölçülü fəzada piksellərin analoqudur. *Voksel* modellərdən çox zaman tibbi və elmi informasiyaları vizuallaşdırmaq üçün istifadə olunur.

## -Y-

**YAXMA** – *Tib.* Koronavirus diaqnozunun qoyulması üçün mikroskopiya üçün əşya şüşəsinin üzərində hazırlanmış müayinə materialı. Bu, burun-udlaqdan götürülən yaxmanın təhlili ilə mümkün olur.

**YAŞIL ZONA** – *Tib.* Ölkə və ya regionda koronavirus infeksiya xəstəliyinin yayılmasının aşağı səviyyədə (digərləri ilə müqayisədə minimal) olmasının göstəricisi.

**YAYICI** – *Jur.* Kütləvi informasiya vasitəsi məhsullarının, qəzet, jurnalın redaksiya ilə razılışdırılmış müqavilə əsasında yayımını həyata keçirən fiziki və ya hüquqi şəxs.

**YAYIM** – *Jur.* Səsli və görüntülü verilişlərin kodlaşdırılmış şəkildə müəyyən məsafəyə ötürülməsi prosesi.

**YAYIMÇI** – *Jur.* Teleradio proqramlarını tərtib etməyə cavabdeh olan, onu hazırlayan və yayımını həyata keçirən hüquqi, yaxud fiziki şəxs.

**YAZILI DİSKUSSİYA** – *Jur.* Sosial şəbəkələrdə fikirlərin paylaşılması, həm də fikirlərə başqalarının münasibət bildirməsi, mülahizələrin bölüşdürülməsi.

**YENİ MEDİA** – *Jur.* İnkişaf edən kompüter, internet və mobil texnologiyası ilə ortaya çıxan, istifadəçilərin zamandan və məkandan asılı olmayaraq azad bir şəkildə interaktiv olaraq ünsiyyətdə olduqları və rəqəmsal texnologiyalar əsasında həyata keçirilən media nəzərdə tutulur.

**YERLİ STANDARTLAR** – *Tex.* Standartlaşma sistemi üçün dövlət standartları ilə müəyyənləşdirilən tələblər.

**YODQRYUN** – *Tib.* Preparatda amiloidi aşkar etmək üçün istifadə olunan histoloji boya .

**YODODERMA** (*ododerma; yod + yun. derma dəri)* – *Tib.* Yod preparatlarına qarşı həssaslığın yüksək olması nəticəsində meydana çıxan toksodermiya.

**YÖNƏLTMƏ XƏTTİ** – *Jur.* Masaüstü nəşriyyat sistemlərində və kompüter qrafikasında üfüqi və ya şaquli yönəldici ekranda səhifəkənarı boşluqların, sütunlar arasındakı aralıq-

ların və səhifələmə şablonunun başqa elementlərinin yerini göstərən və çap olunmayan nöqtəli xətt.

**YUMAQ ŞİŞİ** *(lat.d.tumor glomicus) – Tib.* Yumaq tipli arteriovenoz anastomozlardan inkişaf edən xoşxassəli şiş.

**YUTUB** – *İnf.* Vidiovaylların saxlanılması və nümayiş etdirilməsini həyata keçirən dünyanın ən böyük video paylaşma sistemlərindən biri.

**YUVA** – *İnf.* Ana lövhədə mərkəzi prosessoru quraşdırmaq üçün nəzərdə tutulmuş yuva. Prosessoru bilavasitə ana lövhəyə lehimləmək əvəzinə *yuvadan* istifadə olunması kompüterin yeniləşdirilməsi və ya təmiri üçün prosessorun dəyişdirilməsini asanlaşdırır, o cümlədən ana lövhənin qiymətini əhəmiyyətli dərəcədə aşağı salır.

## -Z-

**ZAMAN SERİYASI** – *İnf.* Kompüterdə zaman seriyası məlumat autokorrelasiyalar, ümumi amillər, otoreqresiv şərtli heteroskedastisitə, vahid köklər, kointeqrasiya və daha çox xas olan statistik problemləri idarə edir.

**ZOOPSİYA –** *Tib.* Xəstənin gözü önündə həşəratların, böcəklərin və ya heyvaların görünməsindən ibarət hallüsinasiya.

**ZİK ANGİİT** – *Tib.* Həddən artıq həssas angiit.

**ZİQOMATİSİT** (*zygomatisitis*) – *Tib.* Orta qulağın kəskin iltihabının fəsadı kimi meydana çıxan, gicgah sümüyünün almacıq çıxıntısının irinli iltihabı.

**ZUM** – *İnf.* Audio və videokonfransların keçirilməsi üçün kompüter servisi.

# İSTIFADƏ EDILMIŞ LÜĞƏTLƏR

1. Abbasov A., Mirzəyeva A., Paşayeva P. və s. Azərbaycanca-rusca-ingiliscə hüquq terminləri lüğəti , Bakı-2017, 498 səh.

2. Bağırov Akif. Türkcə-azərbaycanca izahlı tibb terminləri lüğəti, Bakı-2019, 576 səh.

3. Calallı İsmayıl. İnformatika terminlərinin izahlı lüğəti, Bakı, 2017, 995 səh.

4. Əliyev Q., Rüstəmova A. "İzahlı diplomatiya terminləri lüğəti", Bakı, Nurlan, 2004.

5. Əliyeva N., Şərifov R., Əhmədov C. İnformatika terminlərinin izahlı lüğəti. Bakı, Elm, 2008.

6. Əmiraslanov Ə.T., Abdullayev Ş.Q. Onkologiya terminləri lüğəti, Bakı-2019, 528 səh.

7. Həsənov C., Həsənova N. İmplantoloji terminologiya , Bakı-2014, 264 səh.

8. Quliyev A.M. Neftqazçıxarma terminlərinin izahlı lüğəti, Bakı-2017, 995 səh.

9. Məhərrəmli Q., E.Şıxlı. Jurnalistika terminləri lüğəti. Bakı, "Altun Kitab", 2016.

10. Məmmədli R. İngiliscə-azərbaycanca izahlı kompüter terminləri lüğəti, Bakı, Kitab klubu,2014.

11. Muxtarova P., Əhmədova Y. və s. İzahlı mühasibatlıq terminləri lüğəti, I-cild, Bakı, 2020, 372 səh.

12. Muxtarova P., Əhmədova Y. və s. İzahlı mühasibatlıq terminləri lüğəti, II-cild, Bakı-2020, 428 səh.

13. Muxtarova P., Əhmədova Y. İzahlı mühasibatlıq terminləri lüğəti, III-cild, Bakı, 2021, 420 səh.

14. Nəcəfov Elman, Ənvər Həzərxanov və s. Logistika terminlərinin izahlı lüğət"i Bakı, "Çaşıoğlu", 2015.

15. Nuriyev E., Qarayev A. Rusca-azərbaycanca inşaat terminləri lüğəti (Bakı-2021, 210 səh.)

16. Paşayev Arif. Logistika terminlərinin izahlı lüğəti, Bakı-2015, 492 səh.

17. Sədirxanov R., Həsənov R. "Bank-maliyyə terminlərinin izahlı lüğəti", :Bakı, Şərq-Qərb, 2011.

18. Yusif-zadə Kənan. Hərbi-Tibbi terminlərin izahlı lüğəti , Bakı-2018, 1094 səh.

# MÜNDƏRİCAT

Ön söz ........................................................................3
Lüğətin quruluşu ........................................................................9
Lüğətdə verilmiş ixtisarlar ........................................................................10

## Azərbaycan əlifbası

A a ........................................................................11
B b ........................................................................26
C c ........................................................................40
Ç ç ........................................................................41
D d ........................................................................42
E e ........................................................................62
Ə ə ........................................................................70
F f ........................................................................71
G g ........................................................................79
H h ........................................................................81
X x ........................................................................85
İ i ........................................................................87
K k ........................................................................106
Q q ........................................................................126
L l ........................................................................132
M m ........................................................................140
N n ........................................................................151
O o ........................................................................154
Ö ö ........................................................................158
P p ........................................................................161
R r ........................................................................175
S s ........................................................................182
Ş ş ........................................................................195
T t ........................................................................197

U u ........................................................................ 210
Ü ü ........................................................................ 211
V v ........................................................................ 212
Y y ........................................................................ 215
Z z ........................................................................ 217

İstifadə edilmiş lüğətlər ........................................ 218

**Sayalı Sadıqova**

# İZAHLI
# YENİ TERMİNLƏR
# LÜĞƏTİ

***III cild***

Kompüter tərtibçisi: *N.Alışanlı*
Bədii tərtibat: *Ş.Məmməd*

Formatı 60x84 $^{1}/_{16}$.
Həcmi 14 ç.v.
Tirajı 300. .